**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ BAKI DÖVLƏT UNİVERSİTETİ SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ**

***Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunur***

# DÖVLƏT SUVERENLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ YOLUNDA SOSİAL VƏ HUMANİTAR PROBLEMLƏRİN HƏLLİ XÜSUSİYYƏTLƏRİ

**Gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları (20 oktyabr 2021-ci il)**

Bakı – 2021

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Hikmət Əlizadə | - Pedaqogika kafedrasının professoru |
| Sədr müavini: | |
| Qızılgül Abbasova | - elmi işlər üzrə dekan müavini, məsul katib |
| **Üzvlər:** | |
| Kamilə Əliyeva | - Sosial və pedaqoji psixologiya kafedrasının müdiri |
| Rəbiyyət Aslanova | - Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının müdiri |
| Rafail Həsənov | - Sosiologiya kafedrasının müdiri |
| Rəna İbrahimbəyova | - Gender və tətbiqi psixologiya kafedrasının müdiri |
| Ləzifə Qasımova | - Pedaqogika kafedrasının müdiri |
| Rəna Qədirova | - Psixologiya kafedrasının professoru |
| Kəmalə Pənahova | - Fəlsəfə kafedrasının müdiri |
| Üzeyir Şəfiyev | - Sosial iş kafedrasının müdiri |
| İranə Məmmədli | - Dekan müavini |
| Daxil Vəliyev | - Dekan müavini |

## PROQRAM KOMİTƏSİ:

**Sədr:**

| | |
|---|---|
| Əziz Məmmədov | - Fəlsəfə kafedrasnını professoru |
| Sədr müavini: | |
| Tahir Ağayev | - Sosiologiya kafedrasının dosenti |
| **Üzvlər:** | |
| Mirələm Vəliyev | - Psixologiya kafedrasının dosenti |
| Elza Mollayeva | - Pedaqogika kafedrasının professor |
| Qəmər Mürşüdlü | - Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının dosenti |
| Eliza İsmayılova | - Sosial iş kafedrasının dosenti |
| Nəzakət Kərimova | - Fəlsəfə kafedrasının dosenti |

# POLİTOLOGİYA VƏ SOSİOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri - dos. Fazil Vahidov***

## ENERJİ AMİLİ AZƏRBAYCAN DİPLOMATİYASININ İNFORMASİYA SİYASƏTİNDƏ

***Abdullayeva Fatimə Namiq qızı***
*BDU-nun Beynəlxalq münasibətlər ixtisasi, dissertant*
*abdullayeva.fatima.n@bsu.edu.az*

Azərbaycan Respublikasının enerji strategiyası uzun müddətdir ki, dünya mətbuatının diqqət mərkəzində olmaqla regionda gedən informasiya müharibəsinin mühüm amilinə çevrilmişdir. Bu mənada Böyük İpək yolunun üzərində yerləşən Cənubi Qafqaz regionunun, eyni zamanda Azərbaycanın kütləvi informasiya vasitələrinin əsas hədəflərindən birinə çevrilməsi təsadüfi deyildir. Azərbaycanın enerji siyasətinin aşkar və gizli düşmənləri içərisində Rusiya, İran, Ermənistan, habelə müxtəlif lobbi qrupları və diaspora təşkilatları xüsusi rol oynayırlar. Müxtəlif ölkələrin KİV-lərindən götürülmüş materiallara əsasən bu mübarizənin konturlarını, mahiyyətini, həyata keçirilməsi yollarını və bunları pərdələmək üçün istifadə etdiyi vasitələri müəyyənləşdirmək çətin deyildir. Belə ki, Qərb müəlliflərindən M.P.Krossiantın aşağıdakı fikri bu baxımdan maraq doğururdu: "Cənubi Qafqazda Rusiyanın əsas tarixi müttəfiqi olan erməni elementi siyasi və hərbi cəhətdən gücləndirildi, Ermənistana 1 mlrd ABŞ dolları miqdarında hərbi texnika verildi, Dağlıq Qarabağ separatçıları hər cəhətdən dəstəkləndi, Minsk sülh prosesinin yerində sayması üçün Moskva müxtəlif üsul və vasitələrdən istifadə olunmasına əl atdı" (1, 31).

Toplanmış materialların öyrənilməsi və analizi prosesinin nəticələri göstərir ki, Ermənistanın, erməni lobbisi və diasporu-

nun, habelə onları dəstəkləyən digər qüvvələrin Azərbaycanın enerji siyasətinə qarşı mübarizəsində müxtəlif üsul və vasitələrdən istifadə olunmuşdur ki, bunların içərisində siyasi kompaniyalar, Azərbaycan nefti haqqında informasiya-ların təhrif edilməsi və əhəmiyyətsiz olduğunun göstərilməsi, "Ermənistanın Azərbaycan və Türkiyə tərəfindən blokadada saxlanması", neft ixrac marşrutlarının ekoloji baxımdan təhlükəliliyi, o cümlədən də Bakı-Tbilisi-Ceyhan ixrac kəmərinə qarşı ekoloji kompaniya mühüm yer tuturdu. Ümumiyyətlə, Ermənistanın anti-Azərbaycan siyasəti həmişə kompaniya şəklində aparılmış və bu zaman Rusiya, İran, ABŞ, Fransa kimi dövlətlərin dəstəyindən kifayət qədər geniş şəkildə istifadə olunmuşdur.

Statistika göstərir ki, müasir beynəlxalq münasibətlərdə iqtisadi amildən çox siyasət olan neftin qiymətinin qalxması ilə bərabər ona olan tələbat da ilbəil artmaqdadır. Bu baxımdan XX yüzilliyin qlobal layihələrindən olan "Əsrin müqaviləsinə" və BTC layihəsinə qarşı ekoloji kampaniyanın aparılması dövlətçiliyimizə düşmən qüvvələrin informasiya müharibəsinin başlıca hədəfləri sırasındadırlar. Təsadüfi deyildir ki, Xəzər və Qara dənizlərin çirklənməsi, flora və faunanın məhv olması, sualtı kəmərlərin naviqasiyaya yaratdığı təhlükə, neft kəmərin keçdiyi ölkələrdə ekologiyanın korlanması, radiasiyanın səviyyəsinin yüksəlməsi və s. amillərin əhəmiyyəti həddindən artıq şişirdilirdi ki, bunların arxasında konkret qüvvələrin və maraqların dayandığı aydın idi. BTC-yə qarşı ekoloji kompaniya ilk növbədə Gürcüstanda nəzərəçarpacaq dərəcədə geniş aparılırdı. Belə ki, neft kəmərinin Gürcüstanda Borjomi vadisindən və 20-ə yaxın çayın üzərindən keçməsi nəticəsində "ekoloji faciənin" baş verməsinə yol verməmək ətrafında başlanmış səs-küylü kompaniyanın mahiyyəti çox tezliklə aydınlaşdı. Anti-Azərbaycan qüvvələrin bu kompaniya ətrafında birləşməsinə baxmayaraq 2003-cü ilin fevralında Tbilisidə keçirilən seminarda iştirak edən alimlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri BTC neft kəmərinin çəkilməsinə dəstək verdilər, belə ki,

kəmərin Borjomi vadisindən keçməsi məqbul hesab edilməsə də, neft kəmərinin Axalkalaki-Samsxe-Cavaxetiya rayonundan keçməsi səmərəli çıxış yolu kimi təklif olunurdu ki, bu informasiya müharibə-sində milli diplomatiyamızın çox böyük qələbəsi idi (2).

Coğrafi yerləşmə baxımından Axalkalaki rayonu ermənilər tərəfindən məskunlaşdırılmışdı ki, bu neft kəmərinin son nəticədə Ermənistanın nəzarətinə keçəcəyi təhlükəsini yaradırdı. Bununla belə, kəmərin təhlükəsizliyinin təminatı, terrorçu hücumların mümkünlüyü və ətraf mühitin qorunması məsələlərinə münasibətdə Gürcüstanın bu rayonunda olan risk ehtimalı və potensial təhlükələr digər rayonlardan çox deyildi. 1996-2003-cü illərin KİV-nin səhifələrində gedən materialların təhlili birmənalı şəkildə göstərir ki, BTC-yə qarşı aparılan kompaniyanın başlıca məqsədi kəmərin keçəcəyi Gürcüstan ərazilərində gərginlik yaratmaqla marşrutun Ermənistana dəyişdirilməsinə nail olmaq idi. Bununla belə, Ermənistan rəhbərliyi inadla "neft əvəzinə torpaq" variantını rədd edirdi ki, zamanında bu mövzu demək olar ki, uzun müddət KİV-lərin diqqətində olmuşdu (3). Digər tərəfdən, problemlə bağlı başlanmış qalmaqal nəticəsində layihənin reallaşmasının uzadılmasına hesablanmışdı ki, bununla da Azərbaycan və layihədə iştirak edən şirkətlər maliyyə itkilərinə məruz qalacaqdılar. Qeyd edək ki, hadisələrin belə inkişafında Gürcüstanın maraqları da özünü göstərirdi, belə ki, Gürcüstan hakimiyyəti ərazisindən neftin nəqlinə görə tariflərin qaldırılmasını israrla tələb edirdi. Belə vəziyyət Rusiyanın da maraqlarına cavab verirdi, Rusiya məhz bu zəmində alternativ kəmər layihəsi kimi Cənub axini layihəsini reallaşdırmaq üçün diplomatik səylərini genişləndirməkdə idi (4).

Cənubi Qafqazda gedən geosiyasi rəqabətin işıqlandırıl-masında və informasiya müharibəsində milli mətbuat aparıcı rol oynayırdı. "Azərbaycan" qəzetinin yazdı-ğına görə, ABŞ-dakı erməni lobbisi və onlara havadarlıq edən qüvvələr BTC neft

kəməri layihəsinə qarşı beynəlxalq səviyyədə mübarizəni kifayət qədər geniş miqyaslı hazırlamış, erməni təbliğat maşınına kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları, nüfuzlu siyasətçilər və iqtisadçılar cəlb olunmuş, hərtərəfli hazırlıq işləri görülmüşdü ki, bu işin pozul-ması H.Əliyevin neft diplomatiyasının böyük uğuru idi (5).

Müxtəlif mətbuat orqanlarında gedən yazıların təhlili göstərir ki, BTC-yə qarşı beynəlxalq səviyyədə erməni lobbisinin mübarizəsi hələ keçən əsrin 90-cı illərinin ortalarında başlanmış, erməni lobbisinin təşviqi ilə 60-a yaxın qeyri-hökumət təşkilatı və ətraf mühitin qorunması məsələləri ilə məşğul olan qruplar "Bakı-Ceyhan Kompaniyası" adı altında birləşərək əks-təbliğata başlamışdılar. Kompaniya Azərbaycan, Gürcüstan və Türkiyə də daxil olmaqla 12 ölkədə özünün işçi qruplarını yaratmışdı (6).

Azərbaycanın əsas neft-ixrac kəmərinin çəkilməsinə qarşı informasiya müharibəsinə başlayan qüvvələr ekoloji təhlükə mövzusunu qabardaraq kəmərin çəkilməsini regionda ətraf mühitə kəskin ziyan vuracaq və iqlim dəyişikliklərini şərtləndirəcək az qala "ekoloji fəlakət" kimi təqdim edirdilər. "Kəmər vasitəsilə hər il 365 milyon barrel neftin ötürülməsi 160 milyon ton karbon dioksidin atmosferə buraxılması deməkdir ki, bunun nəticəsində hava sistemləri pozulacaq, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı azalacaq və bir sıra xəstəliklər yayılacaqdır. Türkiyənin seysmik baxımdan aktiv olan ərazilərindən keçən kəmər olduqca riskli kimi dəyərləndirilirdi" (7).

Dünya mətbuatında gedən materialların təhlili göstərirdi ki, BTC-yə qarşı yaradılmış koalisiyada iştirak edən lobbi qrupları layihənin əhatə etdiyi ölkələrin hökumətlərinə və siyasi təşkilatlara çoxsaylı müraciətlər göndərərək onları layihəni maliyyələşdirməkdən imtina etməyə çağırırdılar və bu istiqamətdə müəyyən irəliləyişə də nail olmuşdular. Müraciətlərdə iddia edilirdi ki, layihə regionda yoxsulluğun səviyyəsini yüksəldəcək, ölkələrin daxili və xarici borclarmı artıracaq, münaqişələrin yeni-

dən baş qaldırmasına rəvac verəcək, bunun nəticəsində insan hüquqları pozulacaq və iqlim dəyişkənlikləri qaçılmaz olacaqdır (8).

Azərbaycanın mövqeyinin xüsusilə ciddi şəkildə müdafiə edən prezident H.Əliyev 2003-cü ilin fevralında ABŞ-a rəsmi səfər zamanı Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinə həsr olunmuş "Şərq - Qərb enerji dəhlizi: reallıq" adı altında keçirilən konfransda iştirak etmiş və ermənilərin planlaşdırdığı tədbiri pozmuşdu ki, bu işdə "neft lobbisi"nin də rolu böyük olmuşdu (9). ABŞ-dakı erməni lobbisi Azərbaycanı öz siyasi məqsədlərinə nail olmaq üçün qazandığı neft pullarından Ermənistana qarşı istifadə etməkdə ittiham edirdi. Belə ittihamları kəskin şəkildə cavablandıran H.Əliyev demişdi: "Mən Konqresdən soruşanda ki, onların Ermənistanla niyə belə sıx əlaqələri var, cavab verdilər ki, erməni diasporası onlara çoxlu pul verir. Bu korrupsiyadır, ya korrupsiya deyil"? (10, 158). Ermənistana qarşı informasiya müharibəsində tədricən üstünlüyü ələ almaq üçün XX əsrin 90-cı illərin sonlarından etibarən Azərbaycanın "neft lobbisi"nin formalaşdırılmasina başlandı. Tezliklə onun sıralarına ABŞ-ın nüfuzlu dövlət və siyasi xadimlərindən Z.Bjezinski, Dik Çeyni, B.Klinton adminstrasiyasının maliyyə naziri L.Bentsen, C.Buşun milli təhlükəsizlik məsələləri üzrə müşaviri B. Skoukroft, ABŞ-ın keçmiş dövlət katibi C.Beyker, ata Buş administrasiyasının nüfuzlu siyasətçilərindən olan Con Sununu, "Armitac Assoşieyted" şirkətinin rəhbəri Riçard Armitac və başqaları daxil olmuşdular ki, bu siyasət hazırda da davam etdirilməkdədir. ABŞ Mərkəzi Asiya və Qafqaz İnstitutunun direktoru F.Starın rəhbərliyi altında Harvard İnstitutunun nəzdində neft şirkətlərinin maliyyələşdirdiyi həm Cənubi Qafqaz regionunda, həm də Azərbaycanda vəziyyətin öyrənilməsinə həsr olımmuş araşdırmalar meydana gəldi. Bu baxımdan ingilis müəllifi Xeyko Kryuqerin Dağlıq Qarabağ münaqişəsinin hüquqi təbiətinin təhlilinə həsr olunmuş əsəri sensasiya xarakteri daşıyırdı (11).

Azərbaycanın yaratdığı “neft” lobbisinin gücü ilə ilk olaraq respublikamıza qarşı qəbul olunmuş 907-ci düzəlişin fəaliyyəti ABŞ prezidentinin qərarı ilə 2001-ci ilin yanvarında bir illiyə dayandırıldı və sonrakı illərdə də onun bərpasına imkan verilmədi. Azərbaycan diplomatiyasının məqsədyönlü fəaliyyəti nəticəsində ABŞ Konqresindəki erməni lobbisinin üstunlüyünə tədricən son verildi ki, bu özünü 2001-ci ildə “Porter düzəlişi” adlı sənədin müzakirəsi zamanı göstərdi (12). Əlavənin olduğu kimi qəbul olunmamasında “neft lobbisinin” rolu böyük olmuşdu. Məhz bununla əlaqədar Ermənistan Respublikası və ABŞ-dakı erməni lobbisi neft şirkətlərini öz korporativ maraqları naminə Azərbaycana kömək etməkdə, onlarla əlaqəli konqresmenləri və tanınmış şəxsləri Xəzər neftinin pullarına satılmaqda və s. ittiham edirdilər. Bütün bunlar informasiya müharibəsi şəraitində həyata keçirilən uğurlu enerji diplomatiyasının reallaşması nəticəsində mümkün olmuşdu ki, nəticə Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənmə-sində özünü göstərdi.

**Ədəbiyyat**

1. Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Məqələlər toplusu. B., Xəzər universiteti nəşriyyatı, 2000, 189 s.

2. Səfərli E. QHT-lərin “Bakı-Ceyhan” ətrafında növbəti avantürası //Yeni Azərbaycan, 2004, 8 iyun

3. Ermənistan rəhbərliyi "neft əvəzinə torpaq" variantını inadla rədd etməkdədir. Ayna qəz., 1997, 26 fevral

4. Интересы России в экспорте Каспийских энергоресурсов является приоритетным. Газ. Коммерсант, 2000, 17 октября

5. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi dünya mətbuatının diqqət mərkəzindədir //Azərbaycan, 2005, 28 may

**6.** Hüseynov A. Dünya neft bazarında qorxulu oyunlar gedir: [Bakı-Ceyhan neft kəməri haqqinda] //Panorama, 1999, 11 fevral

7. Səfərli E. Göst. əsəri

8. Борьба за Каспийскую нефть только начинается: Мировая печать о перспективах нефтепровода Баку – Джейхан // Зеркало,

2000, 13 января
9. İbadoğlu Q. "Əsrin müqaviləsi" -10 //Ekspert qəzeti, 2004, 21 sentyabr
10.Bəşirli A.Ə. Azad mətbuatın çərçivəsində.The New York Times Azərbaycandan. Nə? Nə zaman? Necə? Monoqrafiya. B., Şərq-Qərb, 2007, 224 s.
11.Хейко Крюгер. Нагорно-Карабахский конфликт. Правовой анализ. Перевод с англ. издания. Баку: Изд. "Бакы Университети", 2012, 228 с.
12.Səfərli E. Göst. əsəri

## AZƏRBAYCAN SOSİAL DÖVLƏT MODELİNİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ

***İsgəndərov Yadigar Xanlar oğlu***
*BDU-nun II kurs magistrantı*
*yadigarisgenderov99@gmail.com*

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünü təmin etmək, daxili siyasətin sosial yönümlülüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir. İnkişaf etmiş, yaxud inkişaf etməkdə olan dövlətlərin bir çoxu sosial təminatın yüksək pilləsi olan sosial rifah dövləti qurmağı hədəf kimi qarşısına məqsəd qoymuş, öz konstitusiyalarında, qanunlarında təsbit etmişlər (1).

XXI yüzildə Azərbaycan hökuməti sosial dövlət quruculuğunu dövlətin sosial siyasətinin əsası kimi müəyyənləşdirmişdir. 1994-cü ilin 15 iyun tarixində Ümummilli lider Heydər Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkəmizdə sosial dövlətin hüququ əsasları qurulmağa başlanmışdır (2).

1999-cu ilin fevralında gənclərin ikinci formunda Ümummilli lider milli inkişaf siyasətinin mahiyyəti ilə bağlı belə çıxış

etmişdir: "Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, himni – bütün bunlar mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır" (3).

Heydər Əliyevin müəyyənləşdirdiyi sosial siyasətin istiqamət və prioritetlər Azərbaycanda sosial dövlət quruculuğunun əsası oldu.

Azərbaycan dövlətinin əsas məqsədlərindən birinin sosial dövlət olması barədə 1995-ci ildə qəbul edilən Konstitusiyamızda birbaşa müddəa olmasa da, Konstitusiyaya 2002-ci ildə edilən əlavə və dəyişikliklərdə sosial rifah dövlətinin qurulması ilə bağlı müddəa öz əksini tapmışdır.

İstənilən dövlət sosial dövlət modelinin formalaşması və uğurla fəaliyyət göstərməsi üçün aşağıdakı vəzifələri prioritet kimi qəbul etməlidir:

- sosial müdafiəsi olmayan əhalinin (işsizlər, pensionerlər, əlillər) dəstəklənməsi;
- insanların əməyinin və səhhətinin mühafizə edilməsi;
- ana olmağın, ata olmağın, uşağın dəstəklənməsi;
- gəlirlərin bölüşdürülməsi zamanı sosial bərabərsizliyin tənzimlənməsi;
- xeyriyyəçilik fəaliyyətinin təbliğ və təşviq edilməsi;
- təhsilin və mədəni proqramların maliyyə dəstəyi;
- işsizliklə mübarizə;
- səhiyyə və təhsilin əlçatan olması;
- işlə təmin olunma;

- sosial xidmətlərin təşkili (4).

  Azərbaycanın sosial dövlət quruculuğu modellərinin ən əlamətdar xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:
- Sürətli sosial - iqtisadi inkişaf tempi
- Regionların harmonik inkişafı
- Qeyri-neft sektorunun inkişafı
- Sosial infrastruktur layihələrinə önəm verilməsi
- Neft kapitalının insan kapitalına çevrilməsi.

Azərbaycan Respublikasının Konstitusiyasının maddələrinə və müddəalarına fikir versək, bu vəzifələrin hamısının dövlətin sosial siyasətinin əsasını təşkil etdiyni görərik.

Müstəqilliyin bərpasından sonra ölkəmizdə sosail dövlətin iki inkişaf mərhələsini fərqləndirmək olar: 1. Sosial dövlətçiliyə keçid dövrü – 1993-2003-cü illər; 2. Sosial dövlətin inkişafı və möhkəmləndirilməsi dövrü – 2003-cü ildən sonra davam edən mərhələ.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf strategiyasını reallaşdıran İlham Əliyev innovasion islahatlara meyllidir. Azərbaycan Respublikasının milli inkişaf perspektivlərinin istiqamətləndirilməsi, "ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin" yaradılması məqsədilə "Azərbaycan 2020-gələcəyə baxış" inkişaf konsepsiyası (5) və "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" qəbul edilmişdir(6).

"Azərbaycan 2020-gələcəyə baxış" inkişaf konsepsiyasının başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi

üzrə Strateji Yol Xəritəsi"ndə Azərbaycan dövlətinin inkişafının əsasları kimi yüksək rəqabətqabiliyyətli iqtisa-diyyatının yaradılması, səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması, qeyri-neft sektorunun inkişafı, elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı, informasiya-kommunikasiya texnologiyalarının inki-şafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, əhalinin sağlamlığı və səhiyyənin tərəqqisi, müasir təhsil sisteminin formalaşdırılması, gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişafı, qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, mədəni irsin qorunması və səmərəli idarə edilməsi, ətraf mühitin qorunması və ekologiya məsələləri müəyyənləş-dirilmişdir.

Müasir dövrdə Azərbaycanda modernləşmə prosesinin növbəti mərhələsi müşahidə olunur və bu mərhələdə mənəvi-əxlaqi dəyərlərin transformasiyası nəzərə çarpır. Bu transfor-masiya azərbaycançılıq ideologiyasının və bu ideologiyanın multikulturalizm istiqaməti ilə bağlıdır. Məhz neokonserva-tivizmə əsaslanan azərbaycançılıq ideologiyası Azərbaycanda fərqli sosial dövlət modelinin yaranmasına şərait yaradır.

## Ədəbiyyat

1. Heydər Əliyev. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında. 1994-cü il 15 iyun tarixli Fərman. Azərbaycan Respublikası - Ali Sovetinin Məlumatı, 1994-cü il, 11, maddə 1. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/8921

2. Heydər Əliyevin 1999-cu ilin fevralında gənclərin ikinci forumundakı çıxışı. "Azərbaycan" qəz., № 51(2163), 1999

3. Кулагина Е.А. Доминантные функции социального

государства//Вестник Волгоградского государственного университета. Сер. 4, История. – 2011. № 2 (20). – С. 151-158.
4. http://anl.az/down/meqale/ses/2014/aprel/364113.htm
5. “Azərbaycan - 2020: gələcəyə baxiş” inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir., s.36-37, http://www.president.az/files/future_az.pdf
6. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. //https://static.president.az/pdf/38542.pdf

# MÜASİR BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Qasımova Könül Arif qızı***
*Azərbaycan Respublikasının Prezidenti Yanında*
*Dövlət İdarəçilik Akademiyasının doktorantı*
*gasimovakonulz@gmail.com*

Dünya iqtisadi münasibətlərinin inkişaf xüsusiyyətləri əsaslı şəkildə qloballaşma və yeni texnologiyaların meydana gəlməsi və inkişafı ilə təyin edilir. Bu proses öz növbəsində müxtəlif profilli transmilli korporasiyalar, banklar və fondların formalaşması və fəaliyyəti, daha sonra müxtəlif regional və digər struktur-ərazi birləşmələrin əmələ gəlməsi ilə nəticələnir. Nəticədə aydın məsələdir ki, beynəlxalq iqtisadi münasibətlərdə milli təsərrüfatların qarşılıqlı asılılığı günü-gündən artır və bu artım dərəcəsinə uyğun olaraq iqtisadi beynəlxalq munasibətlərin inkişaf istiqaməti də dəyişir və inkişaf edir. Aydındır ki, transmilli təsərrüfat subyektlərinin fəaliyyəti əsaslı şəkildə dünya iqtisadiyyatında mallar və xidmətlər, işçi qüvvəsi, biliklər və kapital bazarının qlobal miqyas almasına gətirib çıxardır [1].

Məlumdur ki, qloballaşmanın öndə gedən sahələrindən biri maliyyə iqtisadiyyatıdır. Buradan valyuta kursları, bank faizi

və aksiyaların kotirovkaları arasında əlaqələr daha sıx xarakter alaraq öz daxilində innovativ İKT fəaliyyətini genişləndirməyə və dünya iqtisadi sisteminə inteqrasiyanın səmərəsini təmin etməyə çalışır [1]. Dünya miqyasında iqtisadi fəaliyyətini daha səmərəli olmasını istəyən milli iqtisadiyyatlar nəzərə alırlar ki, dünya iqtisadi münasibətlərində ilk növbədə malların və xidmətlərin, bir də kapitalın sərbəst liberal hərəkəti təmin olunur.

Bunu ilk növbədə biz maliyyə əməliyyatlarında görürük. Mütəxəssislərin qeyd etdiyi kimi, əslində artmaqda olan qloballaşma kaptallaşma istiqamətində səylərin artması ilə səciyyələnir.

Cəmiyyətinin hər bir sahəsində olduğu kimi, beynəlxalq iqtisadiyyatda əldə edilən sərvətlər qeyribərabər bölünür. Bu günkü günündə maliyyə kapitalı sənaye kapitalı üzərində xeyli üstünlüklərə malikdir. Maliyyə kapitalın üstünlüyü ondan ibarətdir ki, maliyyənin banklar vasitəsilə bir ölkədən digərinə asanlıqla köçürmək olur. Bütövlükdə beynəlxalq maliyyə orqanları seçim azadlığına malikdirlər. Onlar asanlıqla istənilən ölkəyə maliyyəni keçirir, burada istehsalı qura bilirlər. Nəticədə maliyyə dünya iqtisadiyyatının mərkəzinə gəlib çıxır. Azərbaycan Respublikası də beynəlxalq bankların maliyyə imkanlarından vaxtaşırı istifadə edir. Azərbaycan Neft Fondunun da kapitalları beynəlxalq biznesdə geniş istifadə olunur ki, fayda alınsın. Həm də iş orasındadır ki, müxtəlif ölkələrdə işçi qüvvəsi, təbii ehtiyatlar, onların istismarı daha ucuz başa gəlir, bu da istehsalın qurulması və faydanın alınması üçün əsas şərtlərindən biridir. Buraya həm də digər amillər əlavə edilməlidir: faiz tələblərində fərq, itkilər səviyyəsinin minimuma endirilməsi imkanı, vergi qoyulma siyasətinin fərqli olması, işgüzar dövrlər, tranzaksion xərclərin azlığı, nəqliyyat xərclərinin də az olması və digər amillər və s. [2].

Eyni zamanda unutmaq olmaz ki, qlobal maliyyə bazarları qeyri-sabitdir. Məlumdur ki, iqtisadi sahədə müxtəlif dövrlər bir-birini əvəz edir, depressiya və mutərəqqi inkişaf dövrləri. Mütərəqqi inkişaf zamanı kapital mərkəzdən əyalətlərə hərəkət

edir. Etibarlılıq qayıdanda isa maliyyə axını, əksinə, mərkəzə doğru hərəkət etməyə başlayır. Hazırda müxtəlif nəzəriyyələr var ki, onlar maliyyə sistemində transmilli spekulyativ kapitalı, məlumatın ötürülməsinin geniş miqyaslı böyük təsiredici qabiliyyətinə malik layihələrin və üsulların olmasını vurğulayırlar.

Maliyyə sistemlərin qüdrətinə baxmayaraq indiki iqtisadi münasibətlər ümumi qeyri-sabitlik baxımından qiymətləndiril-məlidir. Aparıcı mütəxəssislər Beynəlxalq valyuta fondunun fəaliyyətinin kifayət qədər səmərəli olmamasını qeyd edirlər [1].

Müasir beynəlxalq iqtisadi münasibətlərin inkişaf xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, 8 trillion dollar həcmində transmilli kapital faktiki olaraq dövlətlərin nəzarətin-dən çıxıb. Bu kapital sərbəst şəkildə dünyanı gəzərək ən gəlirli bazarların axtarışındadır. Nəticədə burada dövriyyədə olan hər bir dollar 50 dollar gəlir gətirir. Bu zaman aparıcı dövlətlər birləşərək belə şəkildə qazancın əldə edilməsinə qarşı çıxış edə bilərlər.

Bununla belə real quvvə yoxdur ki, bu kapitalın qarşısına çıxış edə bilsin. Aydındır ki, ciddi maliyyə nəzarət şəraitində dövlət daxili maliyyə sistemini tənzimləyə bilir, lakin liberallaşma dövründə transmilli kapital böyük bir imkan qazanır, bu da ondan ibarət olur ki, o, istənilən dövlətin maliyyə bazarlarını məhv edə bilər [2].

Burada maraqlı bir misal gətirmək olar ki, Cənubi-Serqi Asiyadan Qərbə 1967-1997-ci illərdə bir neçə milyard dolların qısa bir müddətdə ötürülməsi nəticəsində dərin maliyyə böhranı əmələ gəldi. Sonra isə maliyyə-iqtisadi böhran bütün ölkələrdə öz əksini tapmışdır. Bu böhranı Azərbaycan da yaşamışdır. Böhranlı hallardan biri də müxtəlif valyutaların rəqabətə çıxmasıdır. Aparıcı dövlətlərinin valyutaları beynəlxalq maliyyə hesablamaların əldə edilməsi uğrunda daima mübarizə aparırlar. Mütəxəssislər burada beynəlxalq valyuta fondunun günahını göstərirlər [3]. Bu fond maliyyə üzərində nəzarətini öz gözündən qaçırır.

Beynəlxalq miqyasda maliyyə sisteminin sabitliyini artır-

maq üçün ilk növbədə iri milli və beynəlxalq banklararası birliklərin yaradılması zərurəti meydana gəlmişdir. Belə birləşmələr artıq almaniyada, fransada ve yaponiyada mövcuddur.

Məlumdur ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra onun xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Ötən dövr ərzində bu sahədə kifayət qədər iş görülmüşdür. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur [4].

Beynəlxalq əməkdaşlıq zərurəti milli təsərrüfatların dünya iqtisadiyyatı ilə genişmiqtaslı münasibətlərin qurulmasına sövq edir. Bu çox mürəkkəb bir vəzifədir, bunun öhdəsindən gəlmək üçün dövlət fəal sekildə öz milli maliyyə yatırımlarını xaricə yönəltməyə çalışır, öz maliyyə və xarici ticarət siyasətini mümkün qədər genişləndirir. Dövlətin xarici iqtisadi siyasəti xarici iqtisadi əlaqələrin tənzimlənməsində mühüm rol oynayır, nəticədə real beynəlxalq xalq əmək bölgüsündə bu dövlətin yeri və əhəmiyyəti müəyyənləşir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren liderinə çevrilib. Eyni zamanda, Azərbaycanın xarici siyasət strategiyası bir neçə istiqamətdə ölkəmizi nəzərə alınan lokomotiv aktorlardan birinə çevirib [5].

Prezident İlham Əliyev öz nitqindən birində qeyd etmişdir ki, “Azərbaycan beynəlxalq əlaqələr istiqamətində çox düşünülmüş və balanslaşdırılmış siyasət aparır. Bu siyasət xalq tərəfindən dəstəklənir. Bu siyasət imkan verir ki, bütün ölkələrlə qarşılıqlı maraq əsasında bərabərhüquqlu əlaqələr yaradaq, onları möhkəmləndirək. Biz bu yanaşmanın tərəfdarıyıq. Biz

bu bölgədə yaşayırıq və qonşularla münasibətlərimizin inkişafı bizim üçün prioritet məsələdir” [5, s.147].

Beynəlxalq iqtisadi münasibətlər sistemində Azərbaycanın milli təsərrüfatçılıq sistemi özünəməxsusluğu ilə seçilir. Eyni zamanda müasir dövrün inkişaf tələbləri belədir ki, burada ilk növbədə innovativ fəaliyyət və inkişaf mexanizmləri öndə olmalıdır. Bu mexanizmdə həm milli özünəməxsusluq, həm də dünya iqtisadi sistemin inkişafının xüsusiyyətləri nəzərə almalıdır. Söhbət ilk növbədə ölkənin dünya iqtisadi sistemində tutduğu geosiyasi mövqedən, Azərbaycanın təbii imkanları və ehtiyyatlarından, insan kapitalından gedir. Hər bir fərd bu sistemdə yüksək dərəcədə iqtisadi sarsıntılardan qorunmalıdır. Bunun üçün dövlətdaxili sosial siyasət olduqca düşünülmüş və uzunmüddətli olmalıdır. Kiçik və orta biznes dəstəklənməli, elmi-texniki tərəqqinin imkanlarından geniş istifadə edilməlidir. Ölkədə qüdrətli mövqedə olan, iqtisadi nəzarəti həyata keçirən hakimiyyət öz işinin reallaşdırmaq üçün idarəçilik sistemiini daima təkmilləşdirməlidir. Xüsusi dövlət orqanları olmalıdır ki, onlar iqtisadiyyatı proqnozlaşdırmalı və modelləşdirsin. Burada qudrətli alətlərindən biri vergi siyasətidir.

Beynəlxalq iqtisadi münasibətlər sistemində səmərəli iştirak etmək üçün dövlətimiz ilk növbədə ehtiyatları köhnəlmiş istehsalat sahələrindən yeni texnologiyalar üzərində qurulan sahələrə yönəlməlidir. İqtisadiyyat daima təkmilləşmə-lidir, milli elm və təhsil isə yüksək büynəlxalq reytinqə malik olmalıdır.

Nəticə olaraq qeyd edilməlidir ki, beynəlxalq əmək bölgüsü nəticəsində dünyanın iqtisadi və texnoloji inkişaf qütbləri (Şimali Amerika, Qərbi Avropa və Asiya-Sakit Okean) formalaşmışdır. Beynəlxalq iqtisadi əlaqələrin aktual problemləri sırasında sərbəst iqtisadi zonaların, beynəlxalq nəqliyyat dəhlizlərinin və İnternet iqtisadiyyatının yaradılması problemləri öndədir.

## Ədəbiyyat

1. Миришли Ф.Р. Капитализация системы мировой экономики: недостатки и пути их устранения на инновационной основе. Сборник научных статей ИМЭ. – М.: ИМЭ, 2013. – Выпуск 3.
2. Пороховский А. Эпоха смешанной экономики. // НГ Политэкономия, 26.06.2002, № 11 – с15
3. Федоренко Н. Рыночный механизм // Независимая газета, 05.06.2001
4. Beynəlxalq iqtisadi münasibətlər // https://www.azerbaijans.com/content_730_az.html
5. Azərbaycan beynəlxalq münasibətlər sistemində: regional liderdən qlobal aktora doğru // https://sesqazeti.az/news/analytics/359765.html
6. 2003-2013 Prezident İlham Əliyevin seçilmiş nitqləri. Bakı: SAM center for strategic studies, 2013. – 191 s.
7. Миришли Ф.М. Уроки мировой экономики (эмпирические)

# DÜNYANIN SOSİAL-SİYASİ PROSESLƏRİNDƏ GƏNCLƏRİN İŞTİRAKÇILIĞI VƏ ONUN ƏHƏMİYYƏTİ

***Ömərzadə Nəzrin Fəzail qızı***
*BDU-nun II kurs magistrantı*
*nezrinomerzade@gmail.com*

Son illərin akademik tədqiqatlarında gənclərin iştirakçılığı mövzusunun təhlili və dövlət proqramlarının, siyasətlərin, qərarların qəbul edilməsində gənclərə yönəlik yanaşmanın, onların mənafelərinin əsas götürülməsi böyük aktuallıq qazanmışdır. Təəssüflər olsun ki, müasir dövrdə dünyanın müxtəlif bölgələrində gənclər təhsilə əlçatanlıq, savadsızlıq, yoxsulluq, iş yerlərində artan işsizlik və etibarsızlıq, maddə asılılığı, HİV/AİDS, sosial rifah proqramlarında azalma və silahlı münaqişəyə məcburi cəlb edilmə kimi milli və beynəlxalq səviy-

yədə geniş yayılmış çətinliklərlə qarşılaşır və bu hallarla mübarizə aparmaq məcburiyyətində qalırlar. Bu çətinliklərin üstəsindən gəlmək üçün məhdud imkanlara, resurslara və fürsətlərə sahib olan gənclər özlərini fəaliyyətsiz və dəyərsiz hiss edir və bununla da əlaqəli olaraq daha çox xəyal qırıqlığına məruz qalırlar. Halbuki onlara effektiv iştirakçılıq üçün lazımı məlumat, təhsil və onların vətəndaşlıq hüquqlarına əlçatanlıq kimi lazımı vasitələr, fikirlərini ifadə etmək üçün söz hüququ verildikdə və onların fəaliyyət göstərməsi üçün təhlükəsiz məkanlar yaradıldıqda onlar siyasi dünyanı daha yaxşıya doğru hərəkət etdirə və daha irəliyə apara bilərlər. Gənclərə təsir edə biləcək yeni siyasi qərarların formalaşmasında gənclərin müasir dövrdə qarşılaşdıqları problemləri çox ehtimalla hiss etməyən yaşlı siyasətçilərlə müqayisədə, bu problemləri yaşayan və hiss edən gənclər daha mühüm rol oynayırlar.

Gənclərin iştirakı gənclərin öz icmalarında fəal şəkildə iştirakıdır, gənclərin qərar qəbul edilməsində və həyat şəraitinin formalaşmasında iştirakının və onun geniş konsepsiyasının bir hissəsidir. Daha konkret olaraq, gənclərin iştirakı gənclərin planlaşdırma, qərarlar və onlara təsir edən qaynaqlar üzərində nəzarətə təsir edə biləcəyi bir prosesdir. Gənclərin iştirakı daha yaxşı qərar və nəticələrə gətirib çıxarır və gənclərin rifahı və inkişafını təbliğ edir. Gənclərin iştirakı onları dəstəkləyən və onlara təsir göstərən qərarlar və hərəkətlərdə gənclər üçün aktiv rol oynamağa imkan verir və onlara kömək edir, gəncləri müstəqil hərəkət etməyə və öz həyatlarına və ətraf mühitə görə məsuliyyətə cəlb etməyə təşviq edir, yerli icmaların, bölgələrin və ölkələrin inkişafına yardım edir. Gənclərin iştirakı cəmiyyətin imkanlarını gücləndirir, fəal vətəndaşlığın inkişafında vacibdir, çünki gənclərin sosial hüquqlarını onların öhdəlikləri ilə balanslaşdırır. Gənclərin iştirakçılığı vətəndaşlıq ideyaları, fərdi inkişaf və cəmiyyətdə baş verən proseslərdə fəal iştirakla bağlıdır. Gənclər öz cəmiyyətlərində əvəzsiz xidmətlər göstərir və onlar bu iştirak vasitəsi ilə özlərini inkişaf etdirir və gücləndi-

rirlər.

Gənclərin siyasətə qatılmalarının müxtəlif səbəbləri mövcuddur və onların cəlb olunmasının bir çox faydaları vardır:

1. Gənclərin siyasətə cəlb olunması siyasi iştirakdan daha geniş olan vətəndaş cəmiyyəti fəaliyyətinə gətirib çıxarır, çünki o, səhiyyə, təhsil və xeyriyyə işlərinə cəlb olunmaqla cəmiyyətə xidmət göstərə bilər. Siyasi inteqrasiya vətəndaş cəlbinin daha çox hədəflənməsidir və səsvermə, siyasi nümayişlərdə iştirak etmək və xüsusi məsələlərə dair ərizələrin imzalanması ilə ifadə edilə bilər.

2. Cəmiyyətdə erkən dövrdə siyasi iştirak edən gənclərin vətəndaşlar və seçicilərlə məşğul olma ehtimalı daha çoxdur. Beləliklə, daha yaxşı gənc vətəndaşlığı təmin etmək üçün siyasət ən yaxşı vasitədir.

3. Diktatura ölkələrində gənc nəslin yeni fikirləri və yeni rəhbərliyi avtoritar praktikaları aradan qaldırmaq üçün kömək edə bilər. Gənc liderlər tərəfindən baş verən etirazlar otokratik liderləri hakimiyyətdən imtina etməyə məcbur edə bilər və bu gənclərin rəsmi qərar qəbul etməsinin bir hissəsi olmasına imkan verir.

4. Gənclər dünyadakı bir çox problemlərlə üzləşirlər. Gənclər digər gəncləri daha yaxşı başa düşdükdən sonra bu yeni nəslin inkişaf etdirilməsinin ən yaxşı yolu inkişaf üçün hərəkətə keçmək üçün istifadə olunan siyasətdir.

Təhlillərin nəticəsi olaraq qeyd etmək lazımdır ki, əgər yaşlı nəsil gənclərə sosial və siyasi həyatda iştirakçılıq üçün daha çox imkan verərsə və gənclik iştirakçılıqlarının uğurlu olmasını təmin etmək üçün əllərindən gələnin ən yaxşısını edərsə, bu bizə gənclər problemini həll edilə bilməsinə, nəsillərarası ədalətin qurulmasına və buna görə də siyasi sistemimizi demokratiya ideallarına yaxınlaşdırmağa doğru böyük ümid gətirir. Əgər yaşlı nəsil demokratiyanın faydalarını və nəsillərarası ədalətin dəyərini başa düşürsə, gənclər uğurlu iştirakçılıq fəaliyyətlərinin təmin edilməsi və davam etdirilməsinə təşviq etmək onların

məsuliyyətidir.

Hazırkı siyasətdə bacarıqlı və potensiallı gənclərin azlığı var. Gənclərə siyasətin əlçatan olmasını təmin etməklə onlara özlərini sübut etmək imkanı verilməlidir. Gənc istedadın və təcrübəli siyasətçilərin düzgün balansı siyasətin təmizlənməsinə gətirib çıxara və cəmiyyətin siyasi sistemə inancını qaytara bilər.

**Ədəbiyyat**

1. Hart, R. (1992). Children's Participation: From Tokenism to Citizenship, Florence: Unicef Innocenti;

2. UNICEF/Commonwealth Youth Programme Participation Toolkits (2006) Book One, page 7;

3. Rys Farthing. (2012). Why youth participation? Some justifications and critiques of youth participation using new labour's youth policies as a case study, page 3;

4. De Backer, Kurt and Jans, Marc (2002) Youth (-work) and Social Participation: Elements for a Practical Theory. Brussels: Flemish Youth Council.

## KONFORMİST DAVRANIŞIN MAHİYYƏTİ

***Muradlı Əfsanə Zakir qızı***
*BDU-nun II kurs magistrantı*
*muradliafsana@gmail.com*

Cəmiyyətdə müəyyən sosial, siyasi dəyişikliklər insanların gözündə sosial dəyərlərin rolunu dəyişir. Bu vəziyyət cəmiyyəti öyrənərkən fərdin və cəmiyyətin qarşılıqlı təsirinin araşdırılmasına gətirib çıxarır. Konformizm, aqressiya, altruizm, tolerantlıq, atraksiya, suisid, tənhalıq, şəxsiyyətlərarası münasibətlər müasir sosial psixologiyada diqqəti daha çox cəlb edir.

XX əsrin 50-ci illərindən müəyyən tədqiqatlar aparıldı və nəticədə konformist davranışın mahiyyəti açıqlanmağa başlandı. Konformizm latın dilində konformis sözündən götürülmüş

tərcüməsi oxşar, ardıcıl olmaqla , bir şəxs tərəfindən mövcud şeylərin tənqidi olmadan qəbul edilməsi, öz mövqeyini inkişaf etdirməkdən imtina etmək, hakim düşüncə tərzinə, davranış növünə, ümumi sosial və ya qrup standartlarına və stereotiplərə passiv bağlılıqdır.

Türk ədədbiyyatlarında isə bu cür qeyd olunur. Konformist sözü "ümumi qaydaya riayət etməyə meylli" deməkdir. Bu "ümumi qaydaya uyğun olma" mənasını verən Fransızca sözdən yaranmışdır. Fransız sözü olan "eyni formada olmaq" mənasını verən se conformer felindən əmələ gəlmişdir.

Konformist davranış sosial və əxlaqi problemlərin müstəqil qərarları nəticəsində deyil, şeylərin hazır nizamının passiv, adaptiv qəbulu nəticəsində formalaşan sosial-psixoloji yönümdür. Bir konformist davranış nümayiş etdirən şəxs obyektiv olaraq təyin olunmuş vəzifələri həll edərkən öz əxlaqi mövqeyini inkişaf etdirmir, əksinə ona ən böyük təzyiq gücünə sahib olan, yəni açıq şəkildə məcburetmə yolu ilə və ya dolayısı ilə təkliflə, ənənə ilə tətbiq olunan standartlara , davranışlara uyğunlaşır. Bu, insanların başqalarından qorxusu və ya fayda əldə etmək, ziddiyyətdən qaçmaq istəkləri ilə bağlı yaranır.

Konformizm insanın real və yaxud xəyali qrupun təzyiqinə məruz qalması, davranışlarını və mövqeyini böyük əksəriyyətin xeyrinə olaraq dəyişməsidir. Konformizm mənfi nəticələrə malik olmaqla yanaşı, özündə bir çox müsbət cəhətləri də əks etdirir. Məsələn kollektiv ənənəsinin qorunması, qarşılıqlı münasibətlərin qaydaya salınması və s.

Bəzi ədəbiyyatlarda qeyd olunana görə  konformizm sözü 19-cu əsrə aid olub ingilis kilsəsində dinin əmr və fikirlərinə uyğun yaşayan insanlar üçün istifadə olunan bir söz idi, lakin günümüzdə qəbul edilən standartlara uyğun düşünən və hərəkət edən insanlar üçün istifadə olunur.

Qrupun qaydalarına uymaq gizli və aşkar şəkildə ola bilər. Konformizm müstəqil qərarlar verməkdən qaçdıqda hazır qərarların dərk edilməsi və onlara orientasiya olmaqda passivlik

göstərdikdə davranış standartları və qiymətləndirmədən yayındıqda özünü biruzə verir. Konformizm öz iddialarını açıq şəkildə biruzə verən qrup qaydalarını nəzərə almadan davranan individualizmdən , həmçinin öz baxış bucağını irəli sürmək bacarığı olmadıqda qrup qaydalarını inkar edən neqativzmdən fərqlənir. Bununla belə konformizm fərdi və qrup maraqları əsasında idrak, əmək , ictimai və digər problemlərin həllində yaradıcı iştiraka malik deyil. Çünki konformizm (və ya konformluq) fərdin qrupla zahirən razılaşması, ixtilafı daxilən dərk etdiyi halda onun hər bir təsirinə tabe olması, hər bir şəraitdə uyğunlaşmasından ibarətdir [3; səh. 210].

Konformizm fərdin ümumilikdə qəbul edilmiş hədəfləri və onlara çatma vasitələri ilə razılaşmasıdır. Psixoloqlar, "konformizm" terminini başqaları ilə ünsiyyətdə lazımsız çətinliklər yaratmamaq, tapşırılan vəzifələrə çatmaq üçün bir insanın başqasının fikrini kor olaraq təqib etməsi kimi təyin edirlər. Psixologiyadakı konformizm həm də insanın öz hissləri və fikirləri, qəbul olunmuş normalar, əxlaqi və etik qaydalar və məntiqlə nə qədər uyğun gəldiyindən asılı olmayaraq, ətrafdakı insanların mövqeyinə qeyd-şərtsiz razılığıdır.

Müasir dövrdə bu fenomen mənfi anlamda işlədilir ki, bu da araşdırmalara maneçilik törədir. Anlayışın siyasətdə "vəziyyəti ilə barışmaq", "statusca böyük olanlara tabe olmaq" mənalarında istifadə olunması problemi bir qədər də çətinləşdirir. Belə anlaşılmazlığı aradan qaldırmaq üçün sosial psixologiyada "konformizm" anlayışından deyil, "konformluq" və "konformist davranış" anlayışından istifadə olunmaqdadır. Son dövrlərdə bu istiqamətdə yeni bir anlayışdan – "sosial təsir" anlayışından tez-tez istifadə olunur [1; səh. 67].

Sosial-psixologiyada konformluq dedikdə başqa adamların davranış və tələblərinə uyğun olmaqdan ötrü insanların öz davranışlarını dəyişmək meyli başa düşülür [2; səh. 170] .

Sosiologiyadakı konformizm onsuz da mövcud olan sosial düzənin, cəmiyyətdə hökm sürən fikirlərin və s.-nin passiv qə-

bul edilməsidir, fərdin ictimailəşməsi, habelə dəyişiklik prosesində formalaşa biləcək fikir, baxış, mühakimə vahidliyinin digər təzahürlərdən seçilməsidir. Sosiologiyada konformizm bir insanın müəyyən bir fikri təzyiq altında, bir qrup və ya bütöv bir cəmiyyət tərəfindən "təzyiq altında" qəbul etməsidir. Hər hansı bir sanksiya qorxusu və ya tək qalmaq istəməməsi ilə izah olunur. Bir qrupda konformist davranışı öyrənərkən məlum oldu ki, bütün insanların təxminən üçdə biri bu cür davranış nümayiş etdirməyə meyllidir, yəni davranışlarını bütün qrupun rəyinə tabe etdirirlər.

Fəlsəfədəki konformizm müasir cəmiyyətdə geniş yayılmış davranış forması olmaqla, fərdin müdafiə formasıdır. Fərdi şəxsin qrup qərarlarının hazırlanmasında iştirakı, kollektiv dəyərlərinin şüurlu mənimsənilməsi, davranışlarının bütün cəmiyyətin, kollektivin mənafeləri ilə əlaqəsi və lazım olduqda sonuncuya tabe olmağı özündə ehtiva edən kollektivizmdən fərqli olaraq, konformizm öz mövqeyinin olmaması, hər hansı bir modelə tənqidi və prinsipial olmadan əməl etməsidir. Siyasətdəki konformizm, mövcud nizamın passiv qəbulu, öz mövqelərinin olmaması kimi cəmiyyətdə hökm sürən siyasi davranış stereotiplərinin kor-koranə təqlidi kimi siyasi fürsətçilik yoludur.

Beləliklə, cəmiyyətdə konformist davranışın geniş vüsət alması yalnız insanlar fərdiliyini göstərməkdən və düşüncələrini sosial standartlara uyğun dəyişdirməkdən çəkindiyi zaman müəyyən bir qrup daxilində deyil, cəmiyyətin təzyiqinin yüksək səviyyəyə çatdığında özünü büruzə verə bilər.

## Ədəbiyyat

1. Əhmədova N. N. İnsan resurslarının idarə olunmasında qrup dinamikası və konformizm anlayışı. “Psixologiya Jurnalı”, №4, 2019, səh. 67

2. Əlizadə Ə.Ə., Bayramov Ə.S. Sosial Psixologiya. Bakı: 2003, səh. 170

3. Seyidov S.İ., M.Ə.Həmzəyev. Psixologiya. Dərslik: 2007,

səh. 210

# AZƏRBAYCAN MULTİKURALİZMİ YENİ DÖVRDƏ

***Cəlilova Könül Rasim qızı***
*BDU-nun II kurs magistrantı*
*konulclilova@gmail.com*

Azərbaycançılıq müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Onun əsasında Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır. Azərbaycançılıq milli dövlət ideologiyası kimi, Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir.

Azərbaycanın milli-mənəvi dəyərləri təkcə ümumdünya, ümumbəşəri mədəniyyətinin deyil, türk-müsəlman mədəniyyətinin də tərkib hissəsidir. Ümumbəşərilik problemi tarixilik və müasirlik kontekstində bütün xalqlara və mədəniyyətlərə xas olsa da, burada daha çox Azərbaycanın mədəni-mənəvi reallıqlarında milliliyin inikasından söhbət gedə bilər. "Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Türk xalqlarının mədəniyyətləri, o cümlədən Azərbaycanı milli mədəniyyəti nəsillərdən-nəsillərə xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir"

Azərbaycan multikulturalizmi XIX əsrdən başlayaraq özünün yeni mərhələsinə daxil olmuş, XIX əsrin birinci otuzilliyində Azərbaycanın şimal xanlıqlarını işğal edən Rusiya imperiyası XIX - XX əsrin əvvəllərində ölkədə köçürmə siyasəti aparmışdır. Məqsəd ölkənin köklü əhalisini – azərbaycanlıları

assimilyasiyaya uğratmaq, bu müsəlman torpaqları imperiya daxilində "əritmək" idi. Bu məqsədlə Rusiya imperiyası, qeyri-köklü xristian etnosları ölkəyə köçürməyə başlamış və ölkə əhalisinin tərkibinə yeni etnosları - almanları və rusları daxil etmiş, ermənilərin sayı kütləvi köçürmə nəticəsində kəskin şəkildə artmış, nəticədə ölkə əhalisinin tərkibindədemoqrafik dəyişikliklər baş vermişdi.

XIX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan multikulturalizmi tarixində almanlar yer tutmuşlar. Almanları Cənubi Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürərkən Rusiya imperiyasının əsas məqsədi xristian elementin müsəlman ölkəsinə daxil etmək olmuşdu.

Şimali Azərbaycanda məskunlaşan almanlar Rusiya imperiyasının apardığı müstəmləkə siyasətinin tələblərinə cavab verməsələr də ölkənin sosial-iqtisadi sahəsinə Qərb elementlərini daxil edə bilmiş, kənd təsərrüfatında üzümçülük, şərabçılıq, tütünçülük kimi sahələr, süni mineral suların hazırlanması onların adı ilə bağlı olmuşdur.

XX əsrin sonlarında Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası azsaylı xalqların hüquq və azadlıqlarının qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu götürmüş, ölkədə yaşayan alman icması bu siyasətdən bəhrələnmişdir. Bu dövrdən başlayaraq, almanların maddi-mədəni abidələri bərpa edilmiş və Azərbaycan irsinin tərkib hissəsi olaraq qorunur.

Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir. Heydər Əliyev hələ sovet dövründə Azərbaycan Respublikasına rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışırdı. O dövrdə Azərbaycan ədəbiyyatında, musiqidə, kinoda, təsviri sənətdə və digər sahələrdə xalqın ruhunu, tarixini, milli-mənəvi dəyərlərini təb-

liğ və tərənnüm edən çoxsaylı əsərlər meydana gəlmişdir.

Həmin dövrdə Heydər Əliyev respublikamızdan kənarda yaşayan azərbaycanlıların təşkilatlanmasını, azərbaycanlı diasporunun təşəkkül tapmasını da vacib sayırdı. 1990-cı illərdə hakimiyyətə qayıtdıqdan sonra o, xaricdəki soydaşlarımızın mütəşəkkil qüvvəyə çevrilməsinə, onların doğma vətənlə əlaqələrinin möhkəmlənməsini prioritet məsələ kimi hər zaman diqqətdə saxlamışdır. Çünki güclü azərbaycanlı diasporu müstəqil Azərbaycanın dayağıdır. İdeologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır.

Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir.

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olmuşdur. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilmişdir. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşmişdir. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsi özünəməxsus dinamizmi ilə bu ideologiyanı zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir. Azərbaycançılıq konsepsiyası bu gün cəmiyyətin inkişafının ideya təməlini təşkil edir. Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək demişdir: - Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu

gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır. Azərbaycançılıq ideologiyasının çağdaş təkamül mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyin-dəki mövqelərini inamla yüksəltməkdədir.

**Ədəbiyyat**


1. Azərbaycan Multikulturalizmi: Ali məktəblər üçün dərslik. – Bakı: BBMM, 2017 ,səh . 79
2. Azərbaycan multikultural tolerantlığının İnternet və sosial şəbəkələrdə təbliği. 2015, səh. 77
3. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Bakı, Multikulturalizm və Azərbaycançılıq ideologiyasi, 2019, səh.84


## BEYNƏLXALQ PROBLEM OLARAQ KİBERCİNAYƏT


***Əzizov Bəşir Cavid oğlu***
*BDU-nun II kurs magistrantı*
*bashir.azizov@code.edu.az*


Sərhədsiz kiberməkanda baş verən kiber cinayətlərin mürəkkəb mahiyyəti mütəşəkkil cinayətkar qrupların artan iştirakı ilə daha da çətinləşir.

Kibercinayətkarlıq edənlər və qurbanları tez - tez fərqli bölgələrdə yerləşir və bunun təsirləri dünyanın hər yerində cəmiyyətləri əhatə edir. Bu, təcili, dinamik və beynəlxalq reaksiya verilməsinin zəruriliyini göstərir.

Kibercinayətkarlığın və kiberhücumların beynəlxalq tərifi yoxdur. Cinayətlər adətən aşağıdakı kateqoriyalara bölünür:

**Sxem 1. Kibercinayət kateqoriyaları.**




**Mənbə:** https://www.pandasecurity.com/en/mediacenter/panda-security/types-of-cybercrime/ – Cybercrime 2021.

Ümumiyyətlə, kibercinayətkarlıq kiber asılı cinayətlər, kiber aktiv cinayətlər və xüsusi bir cinayət növü olaraq onlayn uşaq cinsi istismarı kimi təsvir edilə bilər [1, s. 66].

Kiber asılı cinayət İKT infrastrukturu tələb edir və tez - tez zərərli proqramların, fidyə proqramlarının yaradılması, yayılması və kritik milli infrastruktura hücumları (məsələn, mütəşəkkil cinayətkar qrup tərəfindən elektrik stansiyasının kiber ələ keçirilməsi) və veb saytın alınması kimi xarakterizə olunur [4].

Kiber aktiv cinayət offline dünyada baş verə biləcək, lakin İKT ilə də asanlaşdırıla bilən cinayətdir. Bu, adətən onlayn saxtakarlıqlar, onlayn narkotik alqı - satqısıdır.

Uşaq Cinsi İstismarı, internetdəki sui - istifadə, qaranlıq şəbəkə forumları və getdikcə "sextortion" kimi tanınan qəsb yolu ilə öz - özünə yaradılan görüntülərin istismarını əhatə edir.

Bütün bunlar əksər insanların internetdə gördükləri, "ağ şəbəkəsində" olan məlumatların yalnız kiçik bir hissəsidir. Əksər ax-

tarış motorları, məsələn, internetin yalnız 4% - ni indeksləyir [1, s.59]. Axtarış motorları tərəfindən aşkar edilməyən World Wide Web - in bir hissəsi olaraq təyin olunan Dərin Veb, sosial şəbəkələrdən tutmuş e - poçt serverlərinə qədər parolla qorunan məlumatları ehtiva edir.

Darknet, trafikini şifrələmək və IP ünvanlarını gizlətmək üçün TOR kimi anonimlik vasitələrindən istifadə edən minlərlə veb saytın toplusudur. Rəqəmsal məkanda yüksək anonimlik cinayətkarların asanlıqla aşkar edilmədən hərəkət etməsinə imkan verir.

Darknet ən çox qara bazar silah satışı, narkotik satışı və uşaq istismarı axını ilə tanınır. Qaranlıq şəbəkə, eyni zamanda, insan haqları müdafiəçiləri və jurnalistlərin söz azadlığını təmin etmək də daxil olmaqla yaxşı məqsədlər üçün istifadə olunur [2].

Kibercinayətkarlıq bu gün texnoloji aləmdə çox genişlənir. World Wide Web - in cinayətkarları internet istifadəçilərinin şəxsi məlumatlarını öz mənfəətləri üçün istifadə edirlər [3]. Qeyri - qanuni məhsul və xidmətləri almaq və satmaq üçün icazə olmayan saytlara girirlər. Onlar hətta məxfi hökumət məlumatlarına giriş əldə edirlər.

Kiber cinayətlər hər zaman ən yüksək səviyyədədir və şirkətlərə və şəxslərə hər il milyardlarla dollar ziyan vurur. Daha qorxulu olanı, bu rəqəmin sonu görünməyən yalnız son 5 ildir [5].

Texnologiyanın təkamülü və ağıllı texnologiyanın əlçatanlığının artması, istifadəçilərin evlərində hakerlərin istismar etməsi üçün birdən çox giriş nöqtəsinin olması deməkdir. Hüquq - mühafizə orqanları artan problemi həll etməyə çalışsa da, internetin anonimliyindən istifadə edərək cinayət sayları artmaqda davam edir.

## Ədəbiyyat

1.Jackson A.A. Cybercrime of world. PP press, 2018, 500 p.

2.https://www.pandasecurity.com/en/mediacenter/panda-security/types-of-cybercrime/ – Cybercrime 2021.

3.http://www.un.org/russian/topics/crime/docs10.htm - BMT-nin cinayətkarlığın qarşısının alınması və qanunu pozanlarla davranış üzrə X Konqresi 2021.
4.https://www.unodc.org/documents/data-and- alysis/tocta/10. Cybercrime.pdf – Cybercrime 2021.
5.https://www.researchgate.net/publication/265350281_Cybercrime_definition – Cybercrime defination 2021.

## AZƏRBAYCAN MƏDƏNİ SİYASƏTİ XXI ƏSRDƏ

***Musayeva Pəri Zaur qızı***
*BDU-nun II kurs magistrantı*
*perimusayeva98@gmail.com*

XXI əsrin yaşamış olduğumuz 21 ilinə nəzər yetirsək, Azərbaycan mədəniyyətinin hədsiz çoxşaxəli inkişafının şahidi oluruq. Müasir Azərbaycan Respublikasının memarı Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti və onun siyasətinin uğurlu davamçıları olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və birinci vitse-prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın diqqəti, əməyi nəticəsində mədəniyyətin istənilən sahəsində – kino, teatr, rəssamlıq, xalçaçılıq, memarlıq, tarixi abidələr, turizm, yol və digər sahələrdə çox mühüm tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. 2002-ci ilin avqust ayında formalaşdırılmış Mədəniyyət Nazirliyinin şöbəsi ölkədə mədəniyyət siyasətini həyata keçirir. Məhz bu şöbə tərəfindən 2003-cü ildə 2004-2008-ci illər üçün “Azərbaycan mədəniyyətinin dövlət strateji inkişafı proqramının” layihəsi hazırlanmışdır. 4 bölmə və 20 fəsildən ibarət olan bu proqramda mədəniyyət siyasətinin başlıca istiqamətləri göstərilmişdir. Bundan başqa, Məəniyyət Nazirliyinin şöbəsi YUNESKO, Avropa Şurası, Avropa birliyi, MDB və digər bir çox beynəlxalq səviyyədə tanınmış təşkilatların qurumları ilə əməkdaşlıq etməklə xarici mədəniyyət siyasəti istiqamətində bir sıra uğurlar əldə etmişdir [1, səh.155-157].

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası öz inkişafında demokratik yolu seçmiş və bu baxımdan, demokratik hüquqi baza formalaşdırmışdır. Mədəni siyasət sahəsi səlahiyyətlərin bölünməsi prinsipi ilə həyata keçirilir. Ümumən, ölkədə mətbuatın, televiziya və radio kanallarının sərbəst şəkildə fəaliyyət göstərməsi, eləcə də, siyasi partiya və ictimai təşkilatların azadlığı, bundan başqa, vətəndaş cəmiyyətinin başlıca əlamətlərinin – tolerantlığın, vətəndaş hüquq və azadlığının, şəxsiyyətin toxunulmazlığı və söz azadlığının və digər bu kimi mühüm əlamətlərin təmin olunması məhz siyasi plüralizmdən xəbər verir.

Mədəniyyət siyasəti sahəsi ilə bağlı atılan bütün addımlar, qazanılan uğurlar Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsinə əhəmiyyətli şərait yaradır [2, səh.9-10].

Hər bir xalqın milli mədəniyyətinin başlıca göstəricisi dil hesab olunur. Ümummilli lider Heydər Əliyevin imzaladığı 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman, 2003-cü ildə isə "Azərbaycan dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" sərəncam Azərbaycanın siyasi həyatında, eləcə də, mədəniyyət tarixində olduqca önəmli yer tutur.

Dünyanın başqa ölkələrində yaşayan soydaşlarımızın öz tarixi vətəni ilə əlaqələrinin genişləndirilməsi məqsədilə 2001-ci ildə Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. 2002-ci ildə isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 2006-cı ildə Azərbaycan Prezidenti sərəncam imzaladı. Həmin sərəncama əsasən, 2006-cı ildə Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirildi. 2011-ci ildə isə dünya azərbaycanlılarının III qurultayı keçirildi [3].

Məlumdur ki, Şərqdə ilk teatr, opera, kino və s. Azərbaycanda meydana gəlmişdir. Məhz müasir dönəmdə də bu sahəsinin inkişafına xüsusi diqqət yetirilir. “Azərbaycanfilm” kinostudiyasının müasir tələblərə uyğun inkişafı üçün Azərbaycan Res-

publikasının Prezidenti İlham Əliyevin 2007-ci ildə verdiyi "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" sərəncam, Azərbaycan kinosunun 2008-2018-ci illər ərzində inkişafına dair "Dövlət Proqramı" ölkəmizdə kino mədəniyyətinin yenidən qurulması və inkişafına şərait yaratmışdır. Nəticə olaraq, bu illər ərzində Azərbaycan filmləri bir sıra xarici ölkədə keçirilmiş 40-dan çox beynəlxalq festivalda təmsil olunmuşdur. Məsələn, Beynəlxalq Kann Film Festivalında dövlət sifarişi ilə çəkilmiş "Aktrisa" və "Sahə" bədii filmləri təmsil olunmuşdur.

Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Azərbaycan Mədəniyyət Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə 1945-ci çəkilmiş olan "Arşın mal alan" filmi 2013-cü ildə bərpa edilərək rənglənmişdir.

Ümumiyyətlə, yaradılan bir çox ekran əsəri, film xalqımızın tarixini, mədəniyyətini özündə yaşadaraq gələcək nəsillərə ötürdüyü üçün bu sahə daim diqqət mərkəzindədir. Elə bu səbəbdən, bir çox ali təhsil müəssisələrində teatrşünaslıq, kinoşünaslıq, sənətşünaslıq kimi fakultələr fəaliyyət göstərir.

Azərbaycan xalqının tarixən məşğul olduğu sənət növlərindən biri də rəssamlıq və xalçaçılıqdır. Məlumdur ki, dünya muzeylərində Azərbaycan rəssamlarının çəkdiyi əsəsrlər mövcuddur. Azərbaycan təsviri incəsənətinin dünyada təbliğ edilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın diqqət və əməyi danılmazdır. Belə ki, vaxtaşırı olaraq Azərbaycan rəssamlarının əsərləri müxtəlif ölkələrdə sərgilənir. Bundan başqa, 2000-ci ildə Azərbaycan Rəssamlıq Akademiyasının açılışı dövlətimizin mədəniyyətin bu sahəsinə olan diqqətinin bariz nümunəsidir.

Azərbaycan xalq tətbiqi sənətinin qolu olan xalçaçılq da diqqətdən kənar qalmamışdır. 2010-cu ildə Azərbaycan xalça sənəti YUNESKO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edilmişdir. Tarixi çox qədim olan xalçaçılıq bu gün də öz inkişafının yeni mərhələsini yaşa-

yır. Prezident İlham Əliyevin Sərəncamı ilə 2014-cü ildən müasir standartlara uyğun inşa edilən və fəaliyyətə başlayan "Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi" Azərbaycan xalçasının dünya miqyasında tətbiqinə, tanınmasına şərait yaradır. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Bu cəmiyyət xalça və xalça məmulatlarının ölkədə və xaricdə satışının təşkilində, istehsalında yeni texnologiyaların istifadəsində, ümumən, xalçaçılığn hərtərəfli inkişafında böyük rol oynayır [4].

Tarixi abidələri hər bir xalqın mədəniyyətinin və tarixinin güzgüsü adlandırsaq, yanılmarıq. Azərbaycanın tarixi abidələrlə zəngin olması əcdadlarımızın tarixi siyasətinin, mədəniyyətinin zənginliyinin sübutudur. Bu abidələrin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsində, bərpasında, YUNESKO-nun Ümumdünya irsi siyahısına salınmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Mədəniyyət Fondunun Prezidenti Mehriban Əliyevanın diqqət və əməyi olduqca böyükdür.

Şərq ilə Qərbin qovuşduğu coğrafi məkanda yerləşən ölkəmizin paytaxtı paytaxtı Bakı şəhəri özünəməxsus memarlığı ilə fərqlənir. Müasir dizaynı ilə seçilən "Alov qüllələri" kompleksinin inşası son illərdə Odlar Yurdu Azərbaycanda aparılan quruculuq işlərinin miqyasını götərir. Bu kompleks həm ideya, həm də arxitektura baxımından diqqəti cəlb edən nadir nümunələrdəndir.

10 may 2012-ci ildə istifadəyə verilmiş Heydər Əliyevin adını daşıyan Mərkəz müasir Azərbaycanın, Bakının rəmzinə çevrilmişdir. Heydər Əliyev Mərkəzinin binası müasir Azərbaycanın dinamik inkişafını təcəsüm edir [5].

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti və komandanlığı altında müzəffər Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı mənfur düşməndən azad etmişdir. Bu qələbə, eyni zamanda, düşmənlə-

rimizin milli-mədəni, irsi sərvətlərimizi məhv etmək, özününküləşdirmək cəhdinə son qoymuşdur. İlham Əliyev tərəfindən Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və Şuşa şəhərində keçirilmiş "Xarıbülbül" musiqi festivalı Azərbaycan mədəniyyətinə olan diqqət və qayğının bariz nümunəsidir [6].

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirməsi və eyni zamanda, öz siyasi xətti Azərbaycan mədəniyyətinin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsinin zəmanətidir.

### Ədəbiyyat


1. Namiq Abbasov, "Mədəniyyət siyasəti və mədəni irs". Bakı – 2011. 218 s.
2. Namiq Abbasov, "Müasir şəraitdə Azərbaycan Dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri". Bakı – 2008. 239 s.
3. *Natəvan Dəmirçioğlu,* "Azərbaycan XXI əsrdə mədəniyyəti" http://old.xalqqazeti.com/az/news/culture/24837
4. https://www.e-gov.az/en/content/read/18
5. http://atv.az/news/demo-sos/70854-azerbaycani-dunyaya-tanidan
6. https://az.wikipedia.org/wiki/Xar%C4%B1b%C3%BClb%C3%BCl_Musiqi_Festival%C4%B1


## DİNİ EKSTREMİZM TƏHLÜKƏSİ


***Qunizadə Zabirə Nəcməddin***
*BDU-nun II kurs magistrantı*
*zabiraqunizade@gmail.com*


Din kəlməsi ərəb dilində "boyun əymək, idarə etmək, cəza vermək, mükafat vermək, hesaba çəkmək" və s. mənalara gəlir. "Din" kəlməsinin "borc" mənasına gələn "deyn" kökündən tö-

rəndiyini də iddia edənlər vardır [2, səh. 9].

Həm müasir dövrdə həm də tarixən güclü sosial tənzimləmə vasitəsi olmuş din mühafizəçi rolunu oynayaraq qədim adət-ənənələri, dəyər münasibətlərini nəsildən-nəsilə ötürmüşdür. Lakin, din faktoru cəmiyyətin inkişafına da, tənəzzülünə də birbaşa təsir göstərə bilər. Savadsızlıq və məlumatsızlıq digər amillər kimi dini də təhlükəli bir silaha çevirir. Tarixə nəzər saldıqda və müasir dövrümüzdə din pərdəsi altında törədilmiş qeyri-humanist əməlləri görmək mümkündür. Belə antihumanist və dağıdıcı ideyaların təbliği, məlumatsız kütlənin idarə olunması ekstremizmin və onun nəticəsində də terrorizmin ilkin rüşeymlərini doğurur, dinin barışdırıcı tərəfinə kölgə salır. Cəmiyyət üçün faciəvi hesab oluna biləcək hallardandır ki, insanlar fanatizmə, xurafata, cahilliyə yönəlir, cəmiyyətin nizamı və stabilliyi pozulur. Bu cür ekstremist meyillərin üstünlük təşkil etdiyi ölkələrdə vətəndaş həmrəyliyinin olmaması, itaətsizlik, inkişafdan geri qalma kimi xüsusiyyətlər özünü göstərir.

Dini ekstremizm fərqli olanın qəbul edilməməsi, dözümsüzlüyün nəticəsi kimi meydana çıxır. Ekstremizm də bir ifratçılıq forması olaraq dini cəhətdən müxtəlif dini təşkilatların himayəsi altında həyata keçirilir və öz kökündə müxtəlif məqsədlər daşıyır. Ekstremist fəaliyyət - hakimiyyəti dəyişdirməyə və ya ələ keçirməyə, dövlətin suveren hüquqlarını pozmağa, qanunsuz silahlı birləşmələr yaratmağa, dini – etnik nifrət zəminində təxribata əl atmağa səsləyən ideologiya və fəaliyyətləri özündə əks etdirir. Radikal dini birliklər belə mövqelərdən çıxış edir. Ekstremistlər özlərindən fərqli olan inanclara və əqidələrə qarşı barışmaz mövqe sərgiləyirlər. Adətən ekstremizmin tərkibində aqressiv meyillər də özünü göstərir. Cəmiyyətin nizamını pozmağa cəhd edən ektremist fəaliyyətlər dini radikalizmin ən təhlükəli formalarıdır.

Qeyd etdiyimiz kimi ektremizm dözümsüzlüyün bir təzahür formasıdır. Fərqli olana normal münasibət bəsləmək ona qarşı aqressiya duymamaq tolerantlıq kimi ifadə olunur. Tolerantlıq-

dan danışdıqda deyə bilərik ki, dözümlü olmaq həm dünyagörüşü cəhətdən, həm də demokratik və hüquqi cəhətdən təmin olunur. Tolerant cəmiyyətlər üçün ən müsbət cəhətlər kimi irqçilik, dini dözümsüzlük, terror və ekstremizmin olmaması xasdır.

Təbiidir ki, dini silah kimi istifadə edən qruplaşmalar müxtəlif məqsədlərə xidmət edirlər. İstər maliyyələşməni, istərsə də təbliğatı həyata keçirənlərin məqsədi qarşıdurmalar yaradaraq mənfəət əldə etməkdir. Müasir dövrdə dini siyasiləşdirərək bu cür məqsədlərə çatmaq xüsusi təhlükəli hal almışdır. İnsanların dəyərlərindən inanclarından istifadə edərək nizamı pozma cəhdləri daim nəzarətdə saxlanır. Din üçün ən həssas məqam bundan ibarətdir ki, dindar olub olmamasından asılı olmayaraq insanlar öz dəyərlərini, nəsildən-nəsilə ötürülən adətlərini, inanclarını qoruyub saxlamağa səy göstərirlər. Bu qoruma mənəvi olaraq həyata keçirilsə də sui istifadə obyekti ola bilər. Keçmişdə təbliğat həyata keçirmək, tərəfdar toplamaq xərc, fiziki güc tələb edir, eyni zamanda konfidensiallığı uzun müddət qorumaq mümkün olmurdu. Lakin, müasir dövrümüzdə sosial şəbəkələr əlavə məsrəflər və fiziki güc tələb etmədən çoxsaylı tərəfdaş toplamağın asan vasitələrindən birinə çevrilmişdir. Siyasiləşməyə cəhd göstərən müxtəlif qruplaşmalar hazırda sosial-şəbəkələrdən istifadə edərək təbliğatlar aparır, insanların mənəviyyatından istifadə edərək öz məkrli planlarını həyata keçirməyə cəhd göstərirlər.

İnsan hüquq və azadlıqlarının ön planda olduğu, dünyəvi dövlətlərdə dinin siyasiləşməsi bir sıra neqativ nəticələr doğura bilər.

a) Konstitusiya quruluşu və dövlətçilik ənənələrinin zəiflədilməsi.
b) İctimai-siyasi sabitlik və əmin-amanlığın pozulması.
c) Dini-mənəvi dəyərlərin istismarı.
d) Dini radikalizm və ekstremizmin güclənməsi.
e) Məzhəbçilik meyillərinin artması [ 2. Səh 78 ].

Bütün bu sadaladığımız faktorlar dünyəvi və müstəqil bir döv-

lətin əsas sütunlarını sarsıdan, daxili nizamı pozan və vətəndaş etimadsızlığı formalaşdıran xüsusiyyətlərdir. Radikal birləşmələrin daim əsas məqsədi dövlətləri içəridən sarsıtmaq və tərəfdaş toplayaraq onların mənəvi duyğularından istifadə etməkdir.

Ekstremizmi aradan qaldırmağın ən ideal yolu insanlar arasında sevgi, tolerantlıq, dözümlülük kimi münasibətlərin təbliğ edilməsidir. Bütün terror əməllərindən və radikal mövqelərdən qorunmağın ən uğurlu yolu elmdir. Doğru və yanlış olanı fərqləndirməyi bacarmaq insanları hər-hansı təbliğata inanmaq, məkrli siyasətin əlində silah olmaq kimi təhlükələrdən xilas edə bilər.

**Ədəbiyyat**


1. Əli Həziyev "Dini radikalizmin psixoloji aspektləri" Bakı 2018 səh 69
2. "Din və ideoloji təhlükəsizlik" Bakı 2020 səh 277
3. Sakit Hüseynov "Azərbaycanda dini tolerantlıq mədəniyyəti: Tarix və Müasirlik" Bakı-"Təknur"-2012 səh 176


## AZƏRBAYCANDA DEMOQRAFİK PROSESLƏRİN ƏHALİ VƏ DÖVLƏT ORQANLARI TƏRƏFİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ


***Bayramova Nurşən Qurban qızı***
*BDU-nun II kurs magistrantı*
*bayramova123@inbox.ru*


Tarix, dövlət gücünün ölkədəki demoqrafik dəyişikliklərə fərqli reaksiyalarını bilir - bu reaksiyalar, ilk növbədə, əhali hərəkatının dinamikasındakı əsas tendensiyalardan asılıdır. Dövlətin sosial-iqtisadi imkanlarının əhalinin sürətli artımının öhdəsindən gələ bilmədiyi Çin, İran və İndoneziyada bu tendensiyanı dayandırmaq üçün ailə planlaşdırılması və reproduktiv sağlamlıq sahəsində genişmiqyaslı islahatlara başlanıldı. Misir rəhbərliyi də oxşar bir problemlə maraqlanır: - "4 nəfərlik ailə-

ləri (ana, ata və iki uşağı) stimullaşdırmaq istəyirik", "dövlət öz imkanlarını aşan yardım göstərməyə hazır deyil. Əhalinin depopulyasiya ilə üzləşdiyi ölkələrdə fərqli bir yanaşma mövcuddur - məsələn, dövlətin ana kapitallı birinci və ikinci uşaqların doğulmasını stimullaşdırdığı Rusiyada bu hal nəzərə çarpır [2, s. 46].

Azərbaycan rəhbərliyi əhalinin artımından xəbərdardır, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə qeyd edib ki, iş yerlərinin açılması ölkənin demoqrafik inkişafını həmişə üstələməlidir. Əhalinin artımındakı xidmətləri, medianın inandırmalarına görə, respublikanın sosial-iqtisadi vəziyyətini və nəticədə demoqrafik vəziyyəti yaxşılaşdıran Azərbaycan rəhbərliyinə aid edilir. Ancaq bu cür ritorika yalnız qismən doğru ola bilər [3].

Azərbaycan, dünyanın bütün ölkələri kimi, demoqrafik bir keçid yaşayır: ölkədə ölüm nisbəti aşağı, əhalinin artımı üçün əlverişli yaş quruluşu və demoqrafik partlayış zamanı bir çox postsovet ölkələrinə nisbətən daha yüksək nisbətdə doğum nisbəti, əhalinin təbii artımını təmin etdi. Azərbaycan Başqa sözlə desək, Azərbaycanda sosial-iqtisadi şərtlər Saxaranın cənubundakı bəzi Afrika ölkələri səviyyəsində olsaydı, məsələn, Nigeriya (əhalinin təbii artımının Azərbaycandan daha böyük miqyasda olduğu) bu göstəricilər böyüməyə davam edəcəkdi.

BMT -nin proqnozlarına nəzər saldıqda aydın olur ki, Azərbaycan 21 -ci əsrin ortalarına qədər dövlət kimi medianın bu gün danışmamağı üstün tutduğu depopulyasiya mərhələsindən qaça bilməz. Və bu vəziyyətin arxasında pis bir siyasət olmayacaq, insanların azğınlığı yox, Azərbaycanın demoqrafik quruluşunda dəyişiklik olacaq.

Əlbəttə ki, dövlət demoqrafik proseslərə təsir göstərə bilər, ancaq yeganə sual nə və nə dərəcədədir: əlbəttə ki, erkən ölüm problemini həll etmək üçün səhiyyəni inkişaf etdirmək, sanitariya və gigiyenik şərtləri yaxşılaşdırmaq, təhlükəsiz yollar və rahat evlər tikmək lazımdır. Bütün bunlar bir dəfə insanlara mi-

sal üçün Abdel Omranın yazdığı "ölümlə mübarizədə" görünməmiş uğurlar qazanmasına kömək etdi. Azərbaycan rəhbərliyi Azərbaycan demoqrafiyasının ən kəskin problemlərindən bir neçəsini bilir [1, s. 41]:

- körpə və uşaq ölümü,
- ana ölümü və
- selektiv abort.

İlk ikisi normativ hüquqi aktlar və anaların reproduktiv sağlamlığı üzrə fəaliyyət proqramı ilə səhiyyə sisteminin təkmilləşdirilməsi ilə əlaqədardırsa, sonuncu problemin həlli üçün insanların maarifləndirilməsinə diqqət yetirilməlidir.

### Ədəbiyyat


1. Реэр, Д. (2015). Экономические и социальные последствиядемографического перехода (перевод с английского). Демографическоеобозрение, 1(4), 41-67.
2. Шукюров А. С. Семейные отношения в Азербайджане в светеконцепции демографического перехода. М.: 2019 г, 46 с.
3. Avdeev A. Population Situation Analysis: Beyond the DemographicTransition in Azerbaijan // UNFPA/UNFD, 2015,180 p.


## MƏNZİL PROBLEMİNİN HƏLLİ YARADICI CƏMİYYƏTİN ƏSAS İNKİŞAF İSTİQAMƏTİ KİMİ


***Nəbili Muxtar Tahir oğlu***

*BDU-nun II kurs magistrantı*

*muxtar.nebili@mail.ru*


Yaradıcı şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırıl-ması cəmiyyətin inkişafının təməl şərtlərindəndir. Mənzil sferasınının vəziyyəti cəmiyyətin inkişafında sosial şərtlərin ən vacibidir və məişət problemini həll etdikdə insan faktorunun potensialı realizəsini təmin edir [2, s.20]. Yaradıcı şəxslərin həyat şəraitinin yaxşılaşdırılması üçün dövlətin açıq dəstəyi ictimaiyyət

tərəfindən yüksək qiymətləndirilir.

Elm adamlarının və digər yaradıcı şəxslərin sosial problemlərinin həlli, xüsusən gənc alimlərin mənzil probleminin həlli, yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, xaricdəki tədqiqat mərkəzlərinə göndərilməsi üçün praktiki addımlar atılır.Bir sözlə, dövlətin yaradıcı şəxslərə mənzil verməsi ölkədə mühüm bir prosesdir [4]. Bu baxımdan mövzu müasir dövrümüzdə olduqca aktualdır.

Araşdırmada əsasən müşahidə, müqayisəli təhlil və sorğu metodlarından istifadə edilmişdir. Müşahidə, bir hadisəni başa düşmək üçün vasitələrdən və ya hiss orqanlarından istifadə etməklə edilən müşahidə prosesidir. Araşdırma zamanı müşahidə metodundan YouTube kanallarında və xəbər saytlarında canlı olaraq mənzil probleminin həlli ilə bağlı danışıqları dinləmək üçün istifadə edilə bilər.

Müqayisəli analiz metodunda bir və ya iki vəziyyət, statistik göstəricilər, hadisələr və ya hər hansı bir vəziyyət müqayisə edilir.

Sorğu təhlili tədqiqat zamanı bir və ya iki nəfərdən və ya daha böyük bir auditoriyadan sual vermək və nəticə çıxarmaq üçün istifadə olunur. Bu məqsədlə sorğu metodu yeni ev verilmiş elm və sənət adamalrı arasında aparıla bilər.

Tədqiqatın məqsədi yaradıcı cəmiyyətin mənzil probleminin həlli məsələlərini tədqiq etmək və bu məsələdə dövlətin rolunu araşdırmaq.

Tədqiqatın vəzifələri aşağıdakılardır:

a) elm adamlarının mənzil probleminin həll edilməsini araşdırmaq;

b) jurnalistlərin mənzil problemləri məsələlərini təhlil etmək;

c) müəllimlərin, xüsusilə də gənc orta və ali məktəb müəllimlərinin, incəsənət işçilərinin mənzil problemini araşdırmaq.

Sənətçilərin, yazıçıların və jurnalistlərin sosial şəraiti hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Jurnalistlər üçün

mənzil şəraitini yaxşılaşdırmaq məsələsi ilk proses deyil. 22 iyul 2013 -cü ildə 156 jurnalistin mənzil problemi həll olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ildə Milli Mətbuat Günü münasibətilə jurnalistlər üçün tikilmiş növbəti binada mənzillərin paylanması mərasimində iştirak etmiş və jurnalistlər üçün tikilmiş ikinci binada 255 mənzilin olduğunu vurğulamışdır [1, s.2].

Azərbaycanda elm və təhsilin müasir səviyyədə inkişafı, digər şeylərlə yanaşı, inkişaf etmiş ölkələrlə əməkdaşlığın genişləndirilməsindən, elmi fəaliyyətin təşkili və təhsil prosesində beynəlxalq təcrübə mübadiləsindən asılıdır. Bu səbəbdən ölkəmizdəki elm və təhsil dünyanın ayrılmaz bir hissəsi olaraq inkişaf edir, qlobal intellektual mühitə, universitetlərə və araşdırma mərkəzlərinə sürətlə inteqrasiya olunur.

Təbii ki, digər sahələrdə olduğu kimi, elmin beynəlxalq mühitə inteqrasiyasında müəyyən problemlər mövcuddur. İndi sosial-iqtisadi, mədəni, mənəvi, siyasi və ideoloji sahələrdə sürətli dəyişikliklərin vaxtıdır. Bu prosesdə bir tərəfdən elmin özü məqsədyönlü şəkildə dəyişdirilməli, digər tərəfdən başqa sahələrdəki dəyişikliklərə elmi dəstək verməlidir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, bu proseslər yuxarıda sadalanan kompleks qlobal problemlər kontekstində baş verir.

Gənc alimlərin mənzilə çox ehtiyacı var. Təcrübə göstərir ki, bir çox istedadlı gənc alimlər, perspektivli mütəxəssislər sosial problemlər üzündən elmini tərk edir, fəaliyyət sahəsini dəyişir və ən yaxşı halda elmdən başqa digər sahələrdə çalışırlar.

Ölkəmiz son illərdə sosial sahədə uğurlu dövlət siyasəti həyata keçirir, əhalinin sosial rifahının yaxşılaşdırılması üçün genişmiqyaslı və ardıcıl tədbirlər həyata keçirir, yoxsul təbəqələrə kömək edir, mənzil şəraitini yaxşılaşdırır, yeni layihələr həyata keçirir. Bu istiqamətdə atılan məqsədyönlü addımlardan biri də Akademiya tarixində mühüm hadisə olan "Science City" yaşayış kompleksinin inşasıdır. AMEA əməkdaşlarının sosial və-

ziyyətinin yaxşılaşdırılması üçün atılan mühüm addımlardan biri də bu kompleksin inşasıdır. Bu kompleksin inşası elm adamlarının mənzil probleminin həll olunmasında mühüm rol oynayacaq [3].

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Vətəndaş cəmiyyəti Aylıq elmi-nəzəri, metodik jurnal № 7 (106) İyul 2017, s.64.
2. Əliyev R. (2020). Azərbaycanda mənzil bazarında tələb və təklifin ekonometrik tədqiqi, İPƏK YOLU, No.2, səh.13-22.
3. https://science.gov.az/az/news/open/17237.
4. https://science.gov.az/az/news/open/31


## II QARABAĞ MÜHARİBƏSİNİN İŞIQLANDIRILMASINDA AZƏRBAYCAN MEDİASININ ROLU


***Rza Xaqan Fuad oğlu***
*BDU-nun II kurs magistrantı*
*xaqan.rza.fuad@bsu.edu.az*


Müasir dövrün inkişaf xüsusiyyətləri belədir ki, istənilən sosial hadisənin əks sədası cəmiyyətdə xüsusi rəy formalaşdırır, münasibəti bildirir. Bu cür hallar sosial inkişafın keçid mərhələlərində daha açıq şəkildə özünü biruzə verir. Azərbaycan cəmiyyəti SSRİ dağılandan sonra belə mərhələni yaşayaraq bir çox məşəqqətlər və ziddiyyətlər yaşadı, əzab və əziyyətlər çəkdi. Nəhəng Sovet imperiyasının dağılması nəticəsində formalaşan müstəqil dövlətlər öz tarixi yükünün ağırlığını çəkməli olmuşlar. Azərbaycan digər respublikalarla müqayisədə daha böyük çətinliklərlə rastlaşdı. Bölgədə yüz illər ərzində formalaşan və böyük dövlətlərin maraqlarına uyğun olaraq “tənzimlənən” siyasi, etnik, mədəni-mənəvi qarşıdurmalar nəticəsində qanlı

Dağlıq Qarabağ münaqişəsi meydana gəldi. Müasir dövrdə istər müharibənin taktika və strategiyasında, istərsə də onun tərkib hissəsi olan informasiya müharibəsi zamanı istifadə olunan yeni texnoloji vasitələr və fəndlər olduqca rəngarəngdir.

Kütləvi informasiya vasitələrinin, o cümlədən sosial şəbəkələrin insanların şuuruna təsiri yolları ilk növbədə kiçik sosial qruplarla bağlıdır. Məlumdur ki  şəxsiyyətlərarası münasibətlər burada formalaşan qrupdaxili dəyərlər mübadiləsi üzərində qurulur, bu da qrup üzvləri status strukturunda tutduğu yerlərdən asılı olur. Dəyərlər dedikdə ilk növbədə maddi və ya ideal olan cisimlər və ideyalar nəzərdə tutulur ki, bunlar insan üçün xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, hər bir şəxsiyyətin keyfiyyətləri, onun bilikləri və təcrübəsi qrup üzvləri üçün müəyyən dəyər rolunu oynayır, həmin bilik və təcrübə özünü qazandığı status və nüfuza dəyişir. Demək olar ki, kütləvi informasiya kommunikasiyaları hər bir tarixi mərhələdə mübadilə yolu ilə qrupdaxili proseslərə əsaslı şəkildə təsir göstərir. Nəticədə qrupda lider seçilir, işgüzar münasibətlər qurulur, xüsusi emosional durum meydana gəlir.

Demək olar ki, müharibə dövründə bu cür dəyərlər mübadiləsinin sürəti qat-qat artmışdır, o daha intensiv olmuş və daha çox insanlar bu mübadilədə iştirak etmişdir. Bunun nail olmaq üçün kütləvi informasiya vasitələrində verilən məlumatlar bilavasitə insanların maraq və tələbatlarına uyğunlaşdırılaraq təqdim edilirdi. Illərlə yığılıb qalmış nigarançılıq, narahatlıq, verilən itkilərin ağrısı nəhayət ki aradan qaldırılmağa başlanmışdır.

İnsanlarda xüsusi ruh yüksəkliyi formalaşmış, gündəlik ünsiyyətdə tələbat, məlumatları qəbul edib mənimsəmək arzusu, onlara münasibət bildirmək səyləri artırdı. Baxmayaraq ki, müharibə vəziyyətinə görə müəyyən bir müddət bəzi sosial şəbəkələr aradan qaldırılmışdır, informasiya-kommunikasiya texnologiyalarının inkişafı insanlara digər imkanlarından istifadə etmək fürsəti verirdi.

Məlumdur ki, “hazırda ölkəmizdə 5 mindən çox media sub-

yekti fəaliyyət göstərir. Artıq Azərbaycan mətbuatı qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirilib, dünyanın aparıcı media orqanları ölkəmizin aparıcı xəbər agentliklərinə istinadlar edirlər, xəbər mübadiləsi həyata keçirilir, xarici ölkələrdə bürolar fəaliyyət göstərir, həmçinin yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan ixtisasartırma və təkmilləşmə kurslarında iştirak edirlər” [1].

Unutmayaq ki, kütləvi informasiya vasitələrinin müharibə şəraitində fəaliyyəti həm də qarşı tərəf, yəni düşmənin təbliğat kompaniyasına sinə gəlmək, burada yayımlanan yalançı və təxribat xarakterli məlumatlara qarşı durmaqdan ibarət olmuşdur. Həm də, məlum olduğu kimi, belə fəaliyyət nəinki respublika hüdudlarında, həm də bütün dünyada həyata keçirilirdi. Erməni tərəfi və onların havadarları var qüvvəsi ilə çalışırlar ki, bizim haqq işimizi qaralasın, uzun müddət davam edən münaqişə isə öz həllini yenə də tapmasın. Yalançı məlumatların yayılması isə ondan ibarət idi ki, güya Azərbaycan ərazisində bizin tərəfdə müxtəlif ölkələrdən gətirilən muzdlu silahlılar iştirak edir. Digər yalan isə ondan ibarət idi ki, Qarabağ torpaqları onların əzəli məskunlaşdığı yerdir.

Demək olar ki, mediada istər peşəkar jurnalislər, istərsə də bütün sosial şəbəkələr nümayəndələri fəal şəkildə öz fikrini bildirməyə çalışırdılar. Ümumi ruh yüksəkliyi, siyasi mədəniyyətin yeni çalarları meydana gəlirdi. Belə bir fövqəl şərait insanları birləşməyə, vahid dəyər əsasında ümumi amal ugrunda irəliyə doğru getməyə sövq edirdi.

Ümumiyyətlə “günümüzdə, xəbərləri əldə etmək üçün qəzet, televiziya və radio kimi ənənəvi formatlardan daha çox onlayn mətbuat mənb ələrinə, peyk televiziyasına, bloqlara və sosial şəbəkələrə güvənirik. Biz məlumatları yalnız ənənəvi təlim keçmiş jurnalistlərdən deyil, həmçinin vət əndaş jurnalistlərdən və diktorlardan alırıq. Bu, bizim sosial və siyasi mənzərəmizə təsir edir. Bu həm də informasiya inqilabının hökumətlər üçün nə anlama gələ biləcəyindən qorxan repressiv hökümətlərin is-

tifadə etdikləri taktikaların dəyişdirilməsinə gətirib çıxardır” [2].

44 günlük müharibə dövründə beynəlxalq ictimai rəy də formalaşmaqda idi. Burada sosial şəbəkələrin rolu olduqca böyük olmuşdur. Kütləvi etirazlara çağırışlar, təhrif olunmuş faktların dinləyicilərə və tamaşaçılara xüsusi tərzdə çatdırılması, hər hansı bir siyasi gediş və yaxud hadisə ilə bağlı piar-kampaniyaların keçirilməsi göstərir ki, KİV müasir dövrdə siyasi texnologiyaları həyata keçirmək işində qüdrətli bir alətə çevrilmişdir. Bunu xüsusi olaraq erməni diasporanın daha sıx yaşadıqları ölkələrdə müşahidə etmək olur (Fransa, ABŞ, Rusiya və s.).

Ekspertlər ölkəmizdə düşüncə mərkəzləri və jurnalistlərin xarici mediada çıxış etməsinə ehtiyac olduğunu qeyd edirlər, göstərirlər ki, Rusiya düşüncə mərkəzlərində belə tədbirlər olanda ora rus dilini bilən jurnalist və ekspertlər yönləndirməkdə çətinlik çəkirik [3]. Yəni problemin bu tərəfi də var. Həm rus, həm də digər xarici dilləri yaxşı bilən jurnalistlərə tələbatımız olduqca böyükdür. Bunu jurnalistika, tərcümə, beynəlxalq münasibətlər ixtisaslarında oxuyan tələbələr üçün çox vacibdir. Məlumatların mənimsənilməsi və istifadəsi, yayımlanması, ünsiyyətin genişləndirilməsi auditoriya tərəfindən onun ictimai şüur və siyasi mədəniyyət səviyyələrində qavranılması üçün uğurla istifadə oluna bilər [4].

Müharibədə informasiyadan düzgün istifadə etməklə onu operativ şəkildə dünyaya çatdırılması işində bütün dövlət strukturları Respublika Prezidenti cənab İlham Əliyev başda olmaqla fəal iştirak ediblər. Burada KİV imkanları istər dövlətdaxili, istərsə də beynəlxalq səviyyələrdə istifadə olunurdu, indiyə qədər dövlət srtukturları ilə KİV sıx təmasda olaraq postmüharibə dövründə də münaqişənin fəsadlarını aradan qaldırılması ilə bağlı real həqiqətləri dünyaya çatdırmaqdadır.

Həm də “İnternet resurslarla yanaşı, telekanallarımız cəbhə bölgələrindən ən son məlumatları çatdıra bildi, təmas xəttindən mümkün olduğu qədər, dövlətin informasiya siyasətinə zidd ol-

mayaraq kadrlar göstərə bildilər. Mütəxəssislər hesab edirlər ki, televiziyalarımız əvvəlki illərlə müqayisədə çox dəyişiblər. Xüsusən də müharibə dövründə vətəndaşların informasiya təminatını həyata keçirdilər, həm də müharibə zamanı lazım olan formada, informasiya axınını peşəkar şəkildə idarə etdilər. İstər Azərbaycan Televiziyası (AzTV), istərsə də, özəl telekanallar üzərinə düşən işi layiqincə yerinə yetirməyə çalışdılar" [4].

Burada öz həllini gözləyən bir sıra məsələlər var. Ilk növbədə dövlət təhlükəsizliyi baxımından unutmaq olmaz ki, informasiya təhlükəsizliyi onun tərkib hissəsidir. Deməli, istənilən sosial həyatla bağlı məlumatın çatdırılması məhz bu prizmadan edilməlidir. Digər tərəfdən, dünya, o cümlədən bölgə ölkələrinin siyasi maraqları nəzərə alınmalıdır və media-cəmiyyət münasibətləri bu maraqların ölkəmiz üçün nə dərəcədə zəruri olmasını thlil etməklə qərar qəbul edilməlidir. Həm də insanların mənəvi-psixoloji və əxlaqi dəyərlər sisteminin formalaşmasında media nümayəndələri öz rolunu gərək unutmasın.

Bütövlükdə nəticə olaraq göstərmək olar ki, KİV nümayəndələri müharibə dövründə ümumən fədakarcasına, bəzən öz həyatı bahasına öz borclarını yerinə yetirmiş,ictimai rəyin formalaşmasında və qələbənin yaxınlaşdırılmasında xüsusi rol oynamışlar.

### Ədəbiyyat


1. Azərbaycan KİV-nin müharibə və hərbi vəziyyət şəraitində işləmək bacarığı bütün dünya mediasına nümunə oldu - Səttar Möhbalıyev // https://az.trend.az/azerbaijan/politics/3458563.html
2. KİV // https://www.coe.int/az/web/compass/media
3. Vətən Müharibəsi və postmüharibə dövründə KİV və beyin mərkəzlərinin rolu: qarşıdakı hədəflər // https://apa.az/az/xeber/daxili-siyaset/
4. Azərbaycan mediası "müharibə imtahanı"ndan necə çıxdı? - Mütəxəssis rəyləri // http://aztv.az/az/news/10741/

# FƏLSƏFƏ VƏ TARİX BÖLMƏSİ

***Bölmə rəhbəri: b/m Azər Allahverdiyev***

## DİNİ İBADƏTLƏRDƏ MİFOLOJİ ELEMENTLƏR VƏ İNANCLAR

***Nəzərov Rövşən Seylant oğlu,***
*BDU-nun doktorantı*
*rovshan.nezerov@mail.ru*

Məlumdur ki, dini təcrübələr (fövqəltəbii ilə əlaqəli simvolik hərəkətlər) aşağıdakı sahələrə bölünür:

a) ibadət, adətən qurbanla müşayiət olunan əsas ayindir;

b) digər rituallar (fərdi və kollektiv; həyatın müəyyən mərhələsinə aid ayinlər (keçmə və ya başlanğıc ayinləri); illik dövrün ritualları (təqvim); situasiya mərasimləri və s. [1]. Bunların həyata keçirilməsində cəmiyyətin mənəvi həyatının, mədəniyyətin təsiri olduqca böyükdür.

İnsan anlayışında təkcə heyvanlar və bitkilər deyil, çaylar, dağlar, çöllər, atəş, hava, torpaq, su, göy cisimləri də canlı olduğu ortaya çıxdı. Bu şəkildə gerçəkləşən mahiyyətlərin hər biri şəxsi başlanğıc və bununla birlikdə iradə, istəklər, maraqlar, asılılıqlar əldə etdi. Daha sonra, hər bir varlığa bir ad verilirdi. Bundan əlavə, insan şüuru adi praktikada görünməyən, lakin insan həyatına böyük təsir göstərə bilən varlıq proseslərində mühüm rol oynayan canlılar haqqında bir fikir formalaşdırmışdır. Müxtəlif mədəni və etnik sistemlər mifoloji varlıqlarının məcmusu ilə fərqlənir. Qədim miflərin ayrılmaz simvolları Olimpiya tanrıları, kentavrlar, qriffinlər, sikloplar, sirenlərdir və s.

İnsan cəmiyyəti ən qədim dövrlərdən etibarən dünyaya münasibətində müxtəlif əfsanəvi təsəvvürlərlə və inanclarla yaşa-

yaraq həmin münasibətləri inkişaf etdirirdi. Dini dünyagörüşü ən qədim şüur formalarından olaraq öz əksini ibadətlərdə, incəsənətdə, məişətin bir çox sahələrində öz əksini tapırdı. Burada antropomorfizm hökm sürür, insan keyfiyyətləri və xüsusiyyətləri onu əhatə edən aləmdə axtarılır və təyin edilirdi.

Ibtidai dini təsəvvürlər insanın təbiətlə münasibətlərini özündə əks etdirirdi. Artıq hər hansı dini ibadət özündə həmin təsəvvürlərin əlamətlərini daşıyırdı. Məsələn, qədim Misir cəmiyyətində gündəlik həyat axını müxtəlif adət və mərasimlərlə əhatə olunurdu.

Misirlilər, çoxallahlıq şəraitində, tanrıların ibadətindən istifadə etmək və axirət dünyasına keçidi asanlaşdırmaq üçün lazım olan əşyaları yaratdılar. İnanırdılar ki, əgər bir insanın digər dünyaya keçməsi məcburi rituallarla müşayiət olunarsa, bu, bu dünya ilə axirət həyatı arasında əlaqə qurmağa imkan verir. Üstəlik, ibadətlə bu dünyada insan həyatının səviyyəsi arasında birbaşa əlaqə təsvir olunan ritual obyektlərin təbiətində və formalarında özünü göstərdi. Fiqurun ölçüsü nə qədər böyükdürsə, insanın statusu da bir o qədər yüksəkdir. Təsvir edilən fiqurların portret bənzərliyinə nail olmaq lazım idi və bu fiqurlarda təsvir olunan simvollar adətən dini bir məna daşıyırdı [2].

Misirlilər axirət dünyasına inanırdılar, buna hazırlaşmağı lazım bilirdilər. Hər şeydən əvvəl fiziki qalıqları qoruyurdular, yəni mərhumun cəsədini mumiyaladır, balzamladır və ölüləri axirət həyatında lazım ola biləcək əşyalarla basdırdılar. Yəni hər şeyi qoyurdular: zərgərlikdən mebelə qədər və zəngin insanların məzarı möhtəşəm şəkildə bəzədilərək bununla da sakinləri üçün xoş bir mühit yaradılırdı. Mərhumun axirətdə işləyəcəyinə inanılırdı və xidmətçilər bu işdə ona kömək etməli idilər. Axirətə gedən yol rituallar və sehrlərlə müşayiət olunurdu. Bu sehrli düsturların bir çoxu Ölülər Kitabına, yəni məzarda mərhumla birlikdə qoyulmuş bir topluya daxil edilirdi.

Çaqqalın başı olan ölülər tanrısı Anubis ölülərin hökmündə əsas fiqur idi. Mumiyəni qoruyaraq mərhumun ürəyini tərəzidə

çəkirdi (misirlilər burada xarakter və ağılın yerləşdiyinə inanırdılar). Bir insan tələblərə uyğun olmursa, onu bir heyvanabənzər məxluqlar parçalayıb yeyərdilər. Misirlilər dəfn edilmiş insanların daxili orqanlarını xüsusi qablarda saxlayırdılar, bunlar qaraciyər, ağciyər, mədə, bağırsaq və s. Idi. Misirlilərin inandıqları bir çox sehrli simvol yaradılırdı. Onlar ilahi simvolların pisliyi dəf edə biləcəyinə inanırdılar. Məsələn, daxili görmə gözü olan *vejat* ən güclü simvollardan biri idi. Çıxarılmış və sonra öz yerinə qayıdan Horus Gözü, dirşəlişin simvolu sayılırdı və şəkli tez-tez mumiyanın geyimində təsvir olunurdu [5].

Qeyd etmək lazımdır ki, Hindistan və Çin sivilizasiyaları da dəfn mərasimləri simvolların təsvirinin müxtəlifliyi və zənginliyi ilə fərqlənirdi. Şan dövrün Çin sivilizasiyasında, qədim qurban və ya dəfn mərasimləri ilə əlaqəli olan məzarların səthində fantastik heyvanlar və naxışlar təsvir edilmişdir. Qəbirə tuncdan və ya yeşimdən hazırlanmış bahalı əşyalar qoyulsa, eyni zamanda müxtəlif ritual funksiyaları yerinə yetirsələr, bu sahibin yüksək statusunun simvolu olduğuna inanılırdı. Çində, yeşimin sehrli xüsusiyyətlərə sahib olduğuna inanılırdı və buna görə də ölülərlə birlikdə yeşim lövhələri basdırılırdı və onlardan ölənlər üçün kostyum hazırlanırdı. Ritual qabda buynuzlu canavarın üzü olan bir maska təsvir edilmişdir. Məsələn, ritual proseslər üçün, xüsusən də spirtli içkilərin istifadəsi üçün nəzərdə tutulmuş eramızdan əvvəl XI əsrə aid bir qab var, burada Canavar pişiyi təsvir edilmişdir.

Oxşar ənənələrə qədim Yunanıstan və qədim İtaliya sənətində də rast gəlmək olar, məsələn, qədim etrusklar nəhəng nekropollar tikdirmiş və qədim Romadakı gladiator döyüşlərinə bənzər cənazə oyunları keçirmişlər. Qəbirləri idmanı əks etdirən freskalarla bəzədilər. Qəbir daşı heykəllər və tunc güzgülər kimi müxtəlif metal məmulatları taxırlar.

Qədim köçəri xalqlar da ritual fəaliyyətlə əlaqəli olduğu müxtəlif dini ənənələri inkişaf etdirmişlər. Populyar təsvirlər şiddətli heyvan döyüşləri, boyunbağı və ya bilərziklərin ucla-

rında birləşən şiddətli başlar idi. Onların tarixdən əvvəlki ovçuluq sehrləri ilə əlaqəli olması ehtimalı var. Bundan əlavə, heyvanların təsviri hər bir tayfa üçün əcdadların totemik fiquru hesab edilə bilər.

Bildiyiniz kimi, erkən xristianlıq şəraitində müqəddəslərin ikonalarda və Məbədlərin divarlarında təsviri müstəsna əhəmiyyət qazandı. İlahi hərəkətlərin müxtəlif səhnələri də təsvir edilmişdir. Məsihin şəkilləri, xüsusən də mələklər və sadiq insanlar ilə əhatə olunmuş yüksəlişi xüsusilə məşhur idi.

Qeyd etmək lazımdır ki, qədim vikinqlərin ritual görüntülərində həqiqi və fantastik heyvan fiqurları da çoxdur. Bununla yanaşı, insan fiqurları da var və bu rəmzlərin simvolik mənası həm Vikinqlərin həyatı, həm də Müqəddəs Kitab səhnələri ilə əlaqələndirilə bilər. Anglo-Saksonlar və Keltlər ya günəşi, ya da bir müqəddəsin halosunu simvollaşdıran təkərli xaçları təsvir edirdilər və hətta xaçlar Bibliya səhnələri ilə zəngin şəkildə bəzədilmişdi.

Tanrıların şəkilləri nadir hallarda ortaya çıxırdı. Xristianlar bütləri sistematik şəkildə məhv etsələr də, xristian sənətkarların İncillərə, daş xaçlara və metal işlərinə uyğunlaşdıraraq qədim bütpərəst əsərlərdən bəzi motivləri götürdükləri güman edilir. Dini kitabları dəbdəbəli şəkildə bəzəmək adəti geniş yayılmışdı.

İslamın erkən dövründə, insan obrazını qadağan edən bir sıra ənənələr artıq inkişaf etmişdi, çiçəklər, bitkilər və ya quşlarla müxtəlif bəzək əşyaları təsvir etmək mümkün idi, xəttatlıq dekorativ sənətkarlıq üçün, məscidlərdə müqəddəs kitabələrin tətbiqində mühüm rol oynayırdı.

Hind dinində möhtəşəm məbədlər tikmək, tanrıların fiqurlarını, əməllərini təsvir etmək adət idi və müxtəlif heyvanların, simvolların, məsələn, təkərin təsviri tanrıların təsviri ilə müşayiət olunurdu. Məsələn, Tanrı Vişnu, ilanın qədim Hindu simvolunu simvolizə edən böyük bir ilan Ananti üzərində təsvir edilirdi. Ya da Tanrıça Ganqa, Şivanın saçlarının arasından ke-

çir və ovuclarını bir -birinə bükərək saxlayır, bu da çayın soyuq suları da daxil olmaqla, dünyada hər şeyin mənbəyi olan Şivaya ehtiram əlaməti olaraq təsvir edilir [3].

Cənub -Şərqi Asiyadakı Buddist məbədlərində, minlərlə tanrıça ekzotik saç düzümü olan incə saray paltarlarında divarlar üzərində oyulmuşdur. Bu, onları tanrılarla ünsiyyət qura biləcək bir vəziyyətə gətirir. Buddanın fikirlərini dindarların şüuruna gətirə biləcək təsvir edilən Buddanın fiqurları və məbədin ölçüsü idi.

Mərkəzi və Cənubi Amerikada Olmeklərin ənənələrinin eramızdan əvvəl son 2000 ildə Meksika Körfəzi sahillərində çiçəklənən sivilizasiyada da inkişaf etdiyini qeyd etmək lazımdır. Heykəllər və məbəd piramidaları quran, tanrıların böyük oyma daş fiqurlarını quraşdıran Olmeklər idi. Onlar həm də geniş bir ritual təqvimi yaratdılar və bütün bu işlər, tanrıların qurbanlarla mülayimləşdirilməsini təyin edən və tanrılara ibadət edərək gündəlik həyatın çətinliklərini yüngülləşdirən Olmeklərin dini inancları ilə əlaqəli idi. Maya sivilizasiyası dövründə əhəng daşından yüksək məbədlər də tikilmiş, piramidalar gipslə örtülmüş, heykəl və oymalarla bəzədilmişdir. Sonrakı binalar üfüqi sütun formasına malik idi. Çox vaxt məbədlərin divarlarında müxtəlif mifoloji səhnələr təsvir olunurdu.

Orta əsrlərdə və cəmiyyətin inkişafının sonrakı dövrlərində insan həyatında dini faktor həlledici rol oynadı. Müasir dünya dinlərinin əsasını təşkil edən tövhid inancı hər bir insanın gündəlik həyatında mühüm rol oynayır. Müəyyən bir dinlə əlaqəli ayinlər və ənənələr ənənəvi olaraq mifoloji təsəvvürlərlə əlaqəli olanlar da daxil olmaqla, həyat vəziyyətləri və bir sıra inanclar haqqında əvvəlki fikirlərə əsaslanmağa davam edir.

Bütövlükdə Allaha inam ilk növbədə təbii hadisələrlə, hər bir insanın ətrafındakı həyat vəziyyətləri ilə bağlıdır və onun həllində tez-tez mifoloji fikirlərinə müraciət olunur. Təbii şərait, çətin həyat vəziyyətlərinin həllində istifadə imkanları ilə əlaqələndirilir. Müasir Xristianlıqda müqəddəslərə inam əsasında

həll edilə bilən müxtəlif çətin vəziyyətlərdə olan müqəddəsləri, peyğəmbərləri, sadə insanları təsvir etmək adi haldır. Müqəddəs Kitabdan və digər müqəddəs kitablardan səhnələr təsvir edilmişdir. Məhz bu yolla dini ziyarətgahlara inam gücləndirilir. Təhlil göstərir ki, bu mərasimlər minilliklər ərzində formalaşmış çoxsaylı mif və əfsanələri özündə əks etdirir.

**Ədəbiyyat**


1. Юнусов Я. Человек и время в системе мифологически религиозного учения Мирчи Элиаде // Avrasya Uluslararası Araştırmalar Dergisi Cilt:1 •Sayı:1•Temmuz 2012•Türkiye / https://dergipark.org.
2. Мифы народов мира: Энциклопедия в 2-х т. М.: 1980-1982
3. Токарев С.А. Ранние формы религии. М.: 1990. - 2008.
4. Трапезников А. Храм, обряды, богослужение. М.: 2007
5. Пьер Монте. Эпоха Рамсесов. Быт, религия, культура / Переводчик: Д. Шамшин. — М.: Центрполиграф, 2004. — 366 с.


## FƏLSƏFƏDƏ İNSAN VƏ TƏBİƏT MÜNASİBƏTLƏRİNİN MÜASİR SƏVİYYƏSİ


***Əliyev Rəvan Əyyub oğlu***
*BDU-nun II kurs magistrantı*
*ravanaliyev.97@gmail.com*


Fəlsəfə insan və onun həyatdakı yerini eyni zamanda təbiət və onun dünyadakı rolunu müəyyənləşdirməyə çalışır. Təbiət mühitində yaşadığımız üçün isə insan və təbiət arasında olan əlaqəni aydın şəkildə başa düşmək lazımdır. Bu münasibətlərin formalaşması uzun bir tarixi dövr keçsə də bu gün müasir səviyyədə bu münasibətlərin fəlsəfi aspektlərinin təhlili mühüm əhəmiyyət kəsb edir. Bütün dövrlər ərzində bu münasibətlərin öyrənilməsi daim diqqət mərkəzində olmuşdur.

İnsan və təbiət münasibətlərinin müasir səviyyəsinin öyrə-

nilməsində bir sıra alimlərin rolu böyükdür. Marksa görə insanın müəyyən təbii ehtiyacları var ki, bu ehtiyacları ödəmək məqsədilə insan təbiətdən asılıdır. Nəticədə insan təbiətdən, təbiət də insandan asılı olur. İnsan təbiəti, təbiət isə insanı dəyişir. Bu səbəbi əsas gətirərək Marks qeyd edirdi ki, insanla təbiət arasında ya bərabər ya da müsbət münasibətlər vardır. Müasir səviyyədə bu münasibətləri təhlil etdikdə əslində müəyyən bir ziddiyyət meydana gəlir: insanla təbiət arasında mütləq bərabər qarşılıqlı əlaqənin olması doğrudurmu, yaxud insanla təbiət arasında yalnız müsbət əlaqə var? Bu məsələ insan və təbiət münasibətlərinin müasir səviyyəsini aydınlaşdırmağa geniş imkan yaradır.

Ümumilikdə bəşər tarixində insan-təbiət münasibətlərinin 3 tipi qeyd olunur [4]:

1. İbtidai dövrü
2. İntibah dövrü
3. Sənaye mərhələsi dövrü

İnsan və təbiət münasibətlərinin müasir səviyyəsini öyrənərkən əsasən sənaye mərhələsi dövrü üzrə təhlilə diqqət ayırmaq lazımdır. Bu mərhələdə insan və təbiət arasında münasibətlər yeni xarakter almışdır. Məsələn, mənbələrin böyük əksəriyyəti qeyd edir ki, XX əsrin ikinci yarısından başlayaraq insanla təbiət münasibətləri daha da genişlənmişdir. Eyni vaxtda ətraf mühitin vəziyyətinin korlanması müşahidə olunmağa başlamışdır. Deməli, artıq burada qlobal problem məsələsi gündəmə gəlir. Ümumilikdə, insan və təbiət münasibətlərinin müasir səviyyəsi bu gün əvvəllər daha geniş xarakter almış qlobal problemlərin təkamülü ilə yanaşı yeni qlobal problemlərin meydana çıxmasına şərait yaratmışdır. Buraya ətraf mühitin çirklənməsi, ekosistem tarazlığının sabitliyinin məhv olması kimi bir sıra əsas qlobal problemlər daxildir [2]. Doğrudur ki, insan və təbiət münasibətləri əvvəldən də bir sıra qlobal problemlərin əsasında dururdu və bir çox ədəbiyyatlar qlobal problemlərin təsnifatında insan və təbiət, cəmiyyət və təbiət bölgüsünü qeyd edirdi. Məsələn, marksist sosioloji ədəbiyyatda məhz qlobal

problemlərin 2-ci tipi kimi cəmiyyət və təbiət arasında qarşılıqlı təsiri əks etdirən problemlər göstərilmişdir [4]. Ancaq insan və təbiət münasibətlərinin müasir səviyyəsində artıq tətqiq olunan qlobal problemlərin özləri də altqruplara ayrılmışdır. Məsələn, tətqiqatçılar bu münasibətlərin müasir səviyyəsində yaranan yeni qlobal problem kimi ekoloji problemlərin özünü də 2 qrup ziddiyyətlərə bölürlər [ 4, s. 352]:

1. Cəmiyyət və təbiət arasındakı ziddiyyətlər.
2. İnsan və təbiət arasındakı ziddiyyətlər.

İnsan-təbiət münasibətlər sisteminin müasir səviyyəsinin özünəməxsus xüsusiyyətlərindən biri də elmi texniki inqilabdır. İnsan-təbiət-cəmiyyət münasibətlərindən doğan problemlərin əsasında da elmi texniki inqilabın rolu böyükdür. Enerji problemləri, ətraf mühitin qorunması, qlobal istiləşmə kimi yeni növ problemlər müasir dövrün problemləridir [1]. Ancaq qeyd etmək lazımdır ki,bu münasibətlərin nəticəsində yaranan bir sıra qlobal problemlərin xüsusilə də ekoloji böhranın aradan qaldırılması məsələsində elmi-texniki tərəqqinin roluna da münasibət fərqlidir. Bəzi Qərb və Şərq sosioloqları bu problemlərin elmi texniki inqilabın bilavasitə nəticəsi kimi qəbul edirlər və maraqlıdır ki, dünya problemlərinin aradan qaldırılmasında onun müsbət rol oynayacağını xüsusi vurğulayırlar.

İnsan və təbiət münasibətlərinin inkişafının müasir səviyyəsində çoxsaylı ekoloji problemlərin həlli üçün əsas baza kimi eyni zamanda iqtisadiyyatın tarazlı inkişafı və onun ekologiyalaşdırılması kimi məsələlər də diqqətə alınır [3]. Göründüyü kimi bu münasibətlərin müasir səviyyəsi demək olar bütün elm sahələrinin çoxunda tətqiqatların mərkəzində olmuşdur. Hətta müasir inkişaf mərhələsində insan-təbiət münasibətlərində təbiətdən istifadənin elmi cəhətdən idarə edilə bilən nəzəri konsepsiyası hazırlanmışdır ki, buna noosfer haqqında elmi nəzəriyyəni göstərmək olar. Noosferanın elmi anlayışı təbiət ilə cəmiyyətin qarşılıqlı əlaqəsinin inkişafını yüksək səviyyədə təmin etməyi nəzərdə tutur. Yəni, burada insanın səmərəli fəaliy-

yətinin həm təbiətin, həm də cəmiyyətin inkişafında başlıca amil olması əsasdır.

Fəlsəfədə insan və təbiət münasibətlərinə baxış bütün dövrlər üçün aktual təhlil mövzusudur və insan varlığının mövcud olduğu dövrlər üçün aktuallığını daha da yüksəldəcəkdir. Çünki insan yaşaması, nəslinin davam etdirilməsi üçün təbiətlə sıx əlaqəyə girməlidir. Buna görə də insan və təbiət arasında olan qarşılıqlı münasibətlər sistemində getdikcə müasirləşən yeni əlaqələr yaranacaqdır. Bu səbəbdən insan və təbiət münasibətlərinin müasir səviyyəsinin fəlsəfi aspektlərinin təhlili mütləqdir.

## Ədəbiyyat


1. Əliyev A.Ə., Şəkərəliyev. A. Ş., Dadaşov İ. Ş.Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. (Monoqrafiya). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2003, 455 səh.
2. Xəlilov. T. A., Zeynalova M. Ə., Qlobal ekoloji problemləri (Ali məktəblər üçün dərs vəsaiti). Bakı, "MBM", 2013, 212 səh.
3. İbrahimov İ.H. Ətraf mühitin iqtisadiyyatı. Bakı, "Bakı Biznes Universiteti" nəşriyyatı, 2015, 357 səh.
4. Şükürov. A. M. Fəlsəfə-yenidən işlənmiş və təkmilləşdirilmiş 2-ci nəşr. Bakı, 2008, 471 səh.


## İKT VƏ TARİXİ FAKTLARIN TƏDQİQİ VƏ TƏTBİQİ


***Qayıbxanova Zəminə Vahid qızı,***
*Azərbaycan Dövlət Universitetinin*
*Quba filialı, Pedaqoji və Sosial Elmlər Bölməsi baş müəllim,*
*zema.vahidzade@mail.ru*


Hal-hazırda, bir tərəfdən müxtəlif məlumat bazalarının yaradılması, İnternet texnologiyalarının istifadəsi, kompüter mühitində səlis davranan tarixçilərin tədqiqat mühitinə gəlişi və digər tərəfdən, riyaziyyatçıların humanitar elmlərdə tətbiq olunan problemlərə böyük marağı yenidən riyazi nəzəriyyənin, bütöv-

lükdə kompüter və riyazi elmlərin tarixi biliklərə diqqətini artırmışdır.

Müasir dövrdə tarixi faktların araşdırılması və öyrənilməsində informasiya-kommunikasiya texnologiyalarının əhəmiyyəti və rolu olduqca böyükdür. Bunu son zamanlarda aparılan müxtəlif sahələrdə araşdırmalar da görmək olur. Məsələn, hansısa qədim tapıntının öyrənilməsi kompüter tomoqrafiyası, bioloji və kimyəvi tədqiqat üsulları ilə aparılır, nəticədə əldə edilən məlumatlar daha geniş və əhatəli olur. Deməli, tarixin qədimliyindən asılı olmayaraq yeni texnologiyalar hər hans bir faktının öyrənilməsini daha əl çatanlı edir. Qədim Misir ehramların 4-cü quruluşunu öyrənmək üçün də yeni texnologiyalardan geniş istifadə olunur. Yeni texnologiyalar daha çox arxeologiya sahəsində tətbiq olunur. Bu sahədə əldə edilən tapıntılar sırasında yazılı abidələr də var. Qedim mətnlərin öyrənilməsində kompüter imkanlarından geniş istifadə olunur.

Üstəlik, İKT imkanları tarixlə bağlı məlumatların mənimsənilməsi prosesini da daha səmərəli və rahat edir. Öyrənmə bilik əldə etmək prosesidir. Ənənəvi bilik mənbəyi - dərslik imkanları ilə məhduddur. Təhsilin müxtəlif səviyyələrində olan şagirdlərin həmişə əlavə məlumat mənbələrinə ehtiyacı var idi: kitabxanalar, muzeylər, arxivlər. İndiki vaxtda İnternetin informasiya resurslarından tədrisdə geniş istifadə edilməsi çox kömək edir. Müasir sivilizasiya çərçivəsində yaşayan insan informasiyanı vizual qavramaq istəyi ilə xarakterizə olunur. Psixoloqlar qeyd edirlər ki, informasiyanı vizual qavramağa can atmaq müasir insan üçün xarakterikdir. Şagirdlər vizualları mətndən daha yaxşı qəbul edirlər [1].

Eyni zamanda göstərilməlidir ki, hər hansı bir məlumat haqqında bilikləri müqayisəli şəkildə təhlil etmək üçün internet imkanlarından geniş istifadə olunur. Internet nəhəng informasiya məkanı olaraq müxtəlif dillərdə və formalarda məlumatı toplayır və istifadəçiyə təqdim edir. Burada kontent təhlil vasitəsilə tarixi məlumatı hərtərəfli təhlil etmək olur.

Tədqiqatçılar hesab edirlər ki, “tarix və geoinformasiya sistemləri kimi müasir elmin iki fərqli sektor sahəsinin inteqrasiyası tarixi və etnoqrafik tədqiqatlar üçün bir sıra keyfiyyətcə yeni informasiya texnologiyalarını inkişaf etdirməyə və tətbiq etməyə imkan verir. Müasir məlumat inteqrasiyası və birləşməsi vasitələri ilə birlikdə simulyativ modelləşdirmə üçün coğrafi informasiya sistemlərindən, proqram sistemlərindən istifadə, müxtəlif sahələrdə, o cümlədən tarix, etnoqrafiya, antropologiya və s. daxil ola biləcək humanitar biliklərlə əlaqəli elmi tədqiqatların səmərəliliyini artırmağa imkan verir. Bu cür informasiya texnologiyalarının əsas imkanlarını və xüsusiyyətlərini nəzərdən keçirərkən məlum olur ki, bu informasiya texnologiyalarının tərkibinin və məzmununun təfərrüatı, ümumilikdə tarixi və etnoqrafik tədqiqatlar sahəsində istifadəyə yönəlmiş CİS metodlarının tətbiqinin xüsusiyyətlərini və onlara uyğun məlumat inteqrasiya vasitələrini təsvir etməyə imkan verir [2].

Azərbaycan Milli Elmlər Akademiyasının ictimai elmlər bölməsində bu istiqamətdə müəyyən işlər aparılır. Ilk növbədə elmlərarası inteqrasiya səviyyəsində tarixi elm sahəsində tədqiqatların aparılması nəzərdə tutulur [3]. Tarix sahəsində aparılan təbliğatlar göstərir ki, burada getdikcə daha çox müasir texnologiyalarından istifadə olunur.

Qeyd etmək lazımdır ki, AMEA, Tarix İnstitutunun əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq («Azərbaycan tarixinin ümumi konsep-siya-sı»dır. Həmin istiqamət «Azərbaycan tarixi üzrə ümumiləşdirici tədqiqatlar», «Tarixşünaslıq və mənbəşünaslıq», «Azərbaycanın siyasi tarixi», «Azərbaycanın sosial iqtisadi tarixi») tədqiqatlar müasir İKT imkaanlarından istifadə olunaraq həyata keçirilir.

Azərbaycanın tarixi keçmişinin ən qaranlıq və ziddiyyətli səhifələrin öyrənilməsində və dünya ictimaiyyətinin nəzərinə çatdırılmasında İnstitut xeyli iş görür. Məsələn, 2013-cü ilin yanvar ayında Azərbaycan Respublikası Qubadlı rayon İcra Hakimiyyətinin müraciətinə cavab olaraq Tarix İnstitutu rayo-

nun Ermənistan tərəfindən işğalının 20 illiyi ilə bağlı «Qubadlı: qədim Azərbaycan torpağı Zəngəzurun qapısı» (424 səh.) adlı monoqrafiyanı və həmin monoqrafiyanın ümumi məzmununu əks etdirən rus (125 səh.) və ingilis (120 səh.) dillərində nüsxələrini nəşr etdirmişdir [4].

Tarix elmində inteqrasiya olunmuş bir yanaşmanın epistemoloji prinsipləri aşağıdakı əsaslardan irəli gəlir:

Tarix elmini fərqləndirən anlayış və izah prosedurlarının struktur xüsusiyyətlərində tarixi bilik və idrakın özünəməxsusluqlarını nəzərə almaq lazımdır. Bu da tarixin epistemologiyasında hər hansı bir istiqamətin perspektivi, peşəkar tərəflərini vurğulamaq üçün bir imkandır, tarixi bilik, tarixi anlayışların məzmununun biliyə çevrildiyi hüdudu tapmaqdır. Fənlərarası metodların istifadəsi tarixi düşüncə məntiqinin problemlərini inkişaf etdirmək imkanlarını da genişləndirir. Tarixin hekayətlər səviyyəsində epistemoloji təhlil K. Hempel, W. Drey, M. Mandelbaum kimi tədqiqatçıların empirik-psixoloji görüşlərinə uyğun nəzərdən keçirilməlidir. Formal və kəmiyyət metodlarına əsaslanan inteqrasiya olunmuş bir yanaşmanın çərçivəsində həyata keçirilməsi gizli prosedurların aşkarlanmasına imkan verir.

Bir epistemoloji xüsusiyyət olaraq, müəyyən bir müddət ərzində sabit əlaqələrin formal bir analoqunu tapmaqdan, prosesləri, əlaqələri, qrupların sosial və siyasi davranışlarını, eləcə də mətnin quruluşunu xarakterizə edən dərkedici prosedurların məcmusu kimi struktur modelləşdirmənin imkanlarından da hal-hazırda geniş istifadə olunur. Nəticədə tarixi hadisələrin təhlilində də yenilikçi yanaşma meydana gəlir, tarixi məlumatların təhlilində statistik meyllərin müəyyən edilməsi üçün imkanlar genişlənir. Ümumiyyətlə, burada fənlərarası tədqiqatlar üçün böyük perspektivlər var. Tarix və riyaziyyat, semiotika, məntiq, kompüter elminin kəsişməsindəki kəşflər, kompüter mediasında tarixlə bağlı məlumat bazalarının və məlumat banklarının yaradılması və tarixin hərtərəfli kəmiyyət və for-

mal təhlili üçün istifadə edilməsi tarixin öyrənilməsində yeni perspektivlər açır.

Artıq tarixdə fərdi olanın öyrənilməsinin ümumi ilə müqayisəsi, tarixin yalnız anlayış və intuisiya tədqiqat prosedurlarına əsaslanan bilik kimi qəbul edilməsi kimi hallara qarşı çıxırlar. Hermenevtikanın koqnitiv xəritəçəkmə, məlumat bazası və məlumat banklarına, formal məntiq və süni intellekt metodlarına əsaslanan bir istiqamətin formalaşması tarixçilər üçün adi bir hala çevrildi.

Bu gün tədqiqat metodlarının bütöv bir sistemi artıq formalaşmışdır. Bunlar ümumelmi metodlar, tarixi araşdırma metodları, ümumi elmi metodları, məntiqi və tarixi, sistem yanaşması və sistem təhlili, induksiya, deduksiya, analiz və sintez, modelləşdirmə, intuisiya, elmi metodların tətbiqini özündə birləşdirən metodlar sistemidir. XX-XXI əsrlərdə Azərbaycan tarixinin öyrənilməsində bütün bu metodlar geniş istifadə olunur.

Bundan əlavə, xüsusi tarixi araşdırma üsulları da mövcuddur. Bu, xüsusi tarixi araşdırma metodları sistemidir, yəni: tarixi-genetik, retrospektiv, sinxron, xronoloji, diaxronik, tarixi-müqayisəli, tarixi-tipoloji, tarixi-sistemli, müasir milli tarixdə metodların tətbiq edilməsi imkanı. Göründüyü kimi, tarix elmində istifadə olunana metodlar sırasında həm humanitar, həm də sosial elmlərə aid metodlardan geniş istifadə olunur.

Tarix elmində hal-hazırda aşağıdakı tədqiqat proqramı və tarixi tədqiqatın əsas mərhələləri qəbul edilmişdir:

Obyektin seçimi və tədqiqat probleminin formalaşdırılması.

Mənbə və məlumat əsaslarının müəyyən edilməsi və tədqiqat metodlarının seçilməsi.

Tarixi reallığın yenidən qurulması və empirik idrak səviyyəsi, məlumatların virtual bərpası və nəzəri bilik səviyyəsi.

Tarixi izahların növləri və tarixi araşdırmalarda nəzəriyyənin rolu. Tədqiqatda anlayışların və kateqoriyaların rolu.

Tarixi biliklərin məntiqi quruluşu, tarixi konsepsiya. Araşdırma nəticələrinin yoxlanılması.

Beləliklə, insan fəaliyyətinin obyektiv istiqamətlənməsi və nəticələri elan olunan məqsədlərlə deyil, istifadə olunan üsullarla müəyyən edilir. Məqsəd deyil, insanın özü ixtiyari olaraq, ancaq şüurlu bir ehtiyacdan başqa bir şey olmayan məqsədə uyğun olaraq fəaliyyətinin formasını və bununla da nəticəsini təyin edir. Yuxarıda göstərilənlər, müxtəlif koqnitiv fəaliyyət və ümumilikdə fəaliyyət kimi elmi tarixi-idrak fəaliyyətinə tam aiddir.

Beləliklə, tarixi bilik metodları məsələsini bütün tarix elminin əsas sualına çevirmək lazımdır. Həm də burada istifadə olunan üsulları bilmək yox, praktikanın özü, formalaşması və qurulması, mənəvi bir təcrübədə tətbiq edilməsi baxımından tətbiq etmək lazımdır. İdrakda keyfiyyətcə daha yüksək hədəflərə çatan tədqiqatçı köhnəni təkmilləşdirmək və prinsipcə yeni üsullar yaratmaq məcburiyyətindədir.

**Ədəbiyyat**


1. Быланова С.В. Информационно-коммуникационные технологии в преподавании истории // Образование и проблемы развития общества, 2017, № 1 (4), s. 4-8
2. Ивакин Я.А. Междисциплинарный характер применения геоинформационных технологий в исторических исследованиях // Сетевой журнал «Научный результат». Серия «Информационные технологии». - Т.1, № 2, 2016, https://core.ac.uk/download/pdf/326324435.pdf
3. "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda beynəlxalq konfrans keçirilib // http://ieb.science.gov.az/az/news/1509/
4. https://science.gov.az/az/institutes/760
5. Астахов М.В. О соотношении технологии, подходов, методов и методик в историко-научном исследовании // http://www.hist.msu.ru/

# PSİXOANALİZ KONSEPSİYASININ YARANMASI

**_Bayramov Rafət Tahir oğlu_**
_BDU-nun II kurs magistrantı_
_bvrafat@gmail.com_

Psixoanaliz Ziqmund Freyd tərəfindən yaradılmış və olduqca ciddi tənqidlərə məruz qalmışdır. Bu tənqidlər yarandığı gündən indiyə qədər davam etməkdədir. Ziqmund Freyd 1856-cı il, Avstriya-Macarıstan imperiyasının Freyburq şəhərində anadan olmuşdur. Freydin gənclik dövrü əslində siyasi cəhətdən çaxnaşmalı bir dövrə təsadüf edir. XIX əsrin sonları Avropa üçün psixi xəstəliklərin yüksək saylara çatdığı dövrdür. Əsasən gənc və ortayaşlı qadınların psixi problemləri artmaqda idi. Amma dövrün psixologiya elmi hələ o qədər inkişaf etməmişdi ki, düzgün diaqnozlar və müalicə yolları mənimsənilsin. Həkimlər bu xəstələrə adətən "nevrasteniya" və "isteriya" diaqnozlarını qoyurdular. Lakin onlar bu xəstəliklərin də, düzgün müalicə metoduna bələd deyildilər. Bu zaman Freyd Vyanada idi, lakin onun fikrincə psixologiyaya yön verən Vyana yox, Paris idi. Parisdə Şarkonun hipnoz vasitəsilə müalicələri, fərqli eksperimentləri Freydə də məlum idi.

Şarkonu dinləmək üçün Freyd Parisə ezam olunur və bu ona gözlədiyindən də uğurlu nəticələr verir. İsteriyanın müalicəsində ciddi hesab oluna biləcək uğurlar qazanır və biliklərini ciddi şəkildə zənginləşdirir. Elə bu ona gələcəkdə yaradacağı, psixoanalizin prinsiplərini izah etməkdə və əsaslandırmaqda yardımçı olur. Freydin həyatındakı ciddi hadisələrdən biri də, onun İosif Breyerlə tanışlığı olur. Onlar isteriyanın müalicəsi üçün ciddi tədqiqatlar aparmağa başlayırlar.Əslində o dövr üçün geniş tətbiq edilən metod elə "hipnoz" metodu idi. Və onlar da bu metoddan istifadə edirlər. Amma onların arasında müəyyən fikir ayrılıqları var idi. Breyer isteriyanın müalicəsini simptomları aradan qaldırmaqda görürdü. Bu fikri də

ona, tibb və psixologiyadan uzaqlaşmağa imkan vermirdi. Freyd isə bu simptomların aradan qaldırılmasına hələ başlanğıc kimi baxırdı.

Freyd elmin və şüurun məqsədlirinin üst-üstə düşdüyünə inanırdı. Lakin nevrologiya və psixologiyadakı son kəşfləri ona şüurdan fərqli psixikanın olduğunu sübut edirdi. Bu mövcudluğun izahı isə əsas problem idi. Elm bu izahda gücsüz qalırdı, bu səbəbdən Freyd, psixi varlığın ilkin halına qayıtmalı olduğunu düşünürdü. Bu saf hal ilə, hal-hazırki mədəni hal qarşılaşdırıldıqda transformasiyanın hansı istiqamətə getdiyi də məlum olurdu.

Psixoanalitik nöqteyi-nəzərə görə nevrozların simptomları seksual xarakter daşıyır. Bu prosesdə Freyd çoxlarını şoka salan uşaq seksuallığını kəşf etdi və bu da onun üçün bişüurun reallığını və onun fəaliyyət mexanizmini izah etmək üçün çıxış momenti rolunu oynadı [2, səh18].

Şəxsi söhbətləri zamanı Şarko Freydə nevrozların problemlərinin əslində seksual həyatlarından qaynaqlandığını bildirmişdi. Şarkonun bu ideyaları ilə Freyd, isteriyanın anatomik yollarla müalicə oluna bilməyəcəyinə inanmışdı. Anatomik üsullar nəinki isteriyanı müalicə hətta onu izah belə edə bilməzdi. Breyerisə düşünürdü ki, isteriyaya hipnozun təsiri böyükdür və xəstələr bu vasitə ilə ürəklərindən keçəni deyən zaman müəyyən qədər rahatlayırlar və bəzən də sağalırlar. Hipnoz zamanı şüurun genişlənməsi də Breyerin eksperimentləri zamanı məlum olmuşdu. Lakin Freyd hipnozun uğurlu bir üsul olmadığını düşünürdü. Çünki hipnoz hər zaman uğurlu nəticə vermirdi. Hipnoz zamanı pasiyent reallaşmasını istədiyi, üzə çıxarmalı olduğu həyacanların müqavimətini qıra bilmir və heç də hamısını deyə bilmirdi. Bu səbəbdən Freyd təlqin və bütövlükdə hipnozdan imtina etdi. Psixoanaliz ilkin olaraq bu kəşflərə əsaslansa da, sonradan psixologiya və humanitar elmlər tarixində inqilab yaratdı.

1896-cı ildən etibarən Z.Freyd "psixoanaliz" anlayışından

istifadə etməyə başlayır. Psixoanalizə qədər həkimlər müstəsna dərəcədə anatomik fiziki və kimyəvi momentlər əsasında tərbiyələnmişdilər. Onlar psixi qiymətləndirməyə hazırlanmamışdılar. Freyd psixologiyanın özündən əvvəlki inkişaf dövrünü "materialist və mexanisist" dövr adlandırır [2, səh 21].

Qeyd etmək yerinə düşər ki, dövrün filosofları psixoanalizi tənqid edir və qeyri-şüurini, bişüuru rədd edirdilər. Psixika və şüurun konkret anlayışlar olduğuna inanırdılar. Freyd isə özünün "yuxugörmənin yozulması" əsərində bunu rədd edir, bu fikirlərin elmə də zidd olduğunu bildirirdi.

Psixoanaliz ilk zamanlarında tibbi praktikaya aid olan metod, psixoterapevtik metod kimi yaranmışdır. Amma daha sonralar yaradıcısı Z.Freyd tərəfindən tətbiq sferası genişləndirilir və psixoanaliz bir yaşam tərzinə, dünyagö-rüşünə, mənəviyyata çevrilir. Freyd deyir ki "psixoanalizin tətbiqi ilə bütün insan nəsli pasiyent halına salınır. Bu isə zarafat deyil, burada bəşəriyyətin güclü duyğuları, təlimin məzmunu ilə təhqir edilir. Bu fikirlərin səbəbi psixoanalizin əslində insanların həqiqətlərinə, inandıqları şeylərə və hörmət etdikləri adət-ənənələrə qarşı çıxması idi. Psixoanalizi şüurlu psixologiyadan, qeyri-şüuri, bişüur psixologiyasına keçid hesab etmək olar.

Freyd psixoanalizə insanların qeyri-şüuri aləminə nüfuz etmə vasitəsi, yolu kimi baxırdı. Elə buradan yola çıxaraq xəstəlikləri qeyri-şüuriyə təsir vasitəsilə sağaltmağa çalışırdı. Psixoanaliz iddia edirdi ki, bu psixi xəstəliklərin səbəb və simptomları əslində reallaşmayan amma reallaşmağa cəhd göstərən arzular, ilkin istəklər idi. "Sıxışıb qalmış istəklər" bu problemləri yaradırdı. Qeyri-şüur şüura qarşı hücuma keçir və bunun nəticəsi olaraq psixi xəstəlik yaranır. Bu hücumu dəf etmək, simptomları aradan qaldırmaq xəstəliyin də sağalması deməkdir. Psixoanalizin əsas məqsədini 'insan xoşbəxtliyi' hesab etmək olar. Bu isə insanın xarakterinin düzgün tərbiyə ilə formalaşması nəticəsində mümkün ola bilər. Amma bu xarakter formalaşmasında insanın öz iştirakı vacibdir. İnsan istəkləri, arzu-

ları, fikirləri, özü haqqında mükəmməl biliyə malik olmalıdır. Bu isə psixoanalizilə insana təlqin olunmalıdır, yalnız bu yolla mümkündür. Yəni insan psixoanalizilə "özü" ola bilər.

Bizim alışdığımıza görə, hansısa xəstəni yeni müalicə metodu ilə sağaltmağa başlayanda ona bu müalicənin qorxulu olmadığını və uğurla başa çatacağını aşılamağa çalışırlar. Belə bir yanaşmanı mən də, düzgün sayıram və bununla müalicənin uğur qazanma şansının artdığını düşünürəm. Ancaq biz hansısa nevrotiki psixoanaliz üsulu ilə müalicə eləyəndə büsbütün başqa bir yanaşmaya əl atırıq. Biz bu vaxt xəstəyə müalicənin ağırlığından, uzun çəkəcəyindən, habelə onun sağalmasının çoxlu güc və sarsıntılarla başa gələcəyindən danışırıq. Müalicənin uğurla bitəcəyinə gəlincə, biz bununla bağlı da xəstəyə söz verib onu arxayın eləmirik, axı uğurlu sonluq xəstənin özünü necə aparmasından, onun müalicəyə anlayışla yanaşmasından, öz düşündüklərini gizlətməyib yerli-yataqlı danışmasından və dözümlülüyündən asılıdır [1,səh 9,10].

**Ədəbiyyat**


1. Psixoanalizlə ilkin tanışlıq / Z. Freyd; red. İ. Akifqızı; tərc. A. Gündüz "Qanun" nəşriyyatı, Bakı 2016, 343 səh
2. Klassik psixoanalizin əsasları / İsmayılov Fərman Qəhrəman oğlu, Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2003, 348 səh.


## ÖZGƏLƏŞMƏ PROBLEMİNƏ DAİR TARİXİ-FƏLSƏFİ BAXIŞLAR VƏ ƏNƏNƏLƏR


***İbrahimova Fidan Məzəli qızı***

*BDU-nun II kurs magistrantı*

*i-fidan@inbox.ru*


Müasir sosiohumanitar elmdə özgələşmə problemi ilə bağlı məsələlər olduqca az işıqlandırılır. Bunun bir mühüm səbəbi də onunla əlaqədardır ki, özgələşmə fenomeni birmənalı anlaşıl-

mır, məzmununa görə mürəkkəb və çətin qavranılandır. Problemin bir tərəfi də terminoloji kasadlıqla bağlıdır və bu mənzərə yalnız Azərbaycan dilində müşahidə olunmur.

Tarixi fəlsəfi planda özgələşməyə dair baxışların inkişafı uzunmüddətli dövrü əhatə edir. Hələ vaxtilə tanınmış filosof T.İ.Oyzerman qeyd edirdi: "Fəlsəfədə özgələşmə problemi heç də son zamanlar yaranmayıb. Bu problemin köklərinə çətinlik çəkmədən qədim fəlsəfədə təsadüf etmək mümkündür".

İçində olduğumuz çağdaş dünyamızın ən önəmli sözügedən məsələlərindən birı də özgələşmə problemidir. Bir sıra elm insanları idda edirlər ki, müasir dövr insanı ilə dünya arasında özgələşmə baş verir, insan özündən, cəmiyyətdən, reallıqdan uzaqlaşır. Onun həyata münasibəti öz bəşəri xüsusiyyətlərini itirir. Həqiqətən də, fikir versək görmüş olacağıq ki, müasir dünyamız öz xaosu, çaşdırıcı problemləri ilə elə çeşidli təzadlar yaradır ki, "hər şeyin ölçüsü olan insan"ın zəkası bu çaşdırıçı sonsuzluqda daim mübarizədədir. Haydegger yazırdı ki, dünya və insan insan üçün özgələşmişdir və bu özgələşmə ümumbəşəri taleyə çevrilmişdir. İnsanın elə yarandığı dövrdən pisliyə batdığını iddia edən Nitşe isə öz növbəsində bildirmişdir ki, "əslində insanlar hər cür yaxşı və pis olan hər şeyi özləri özlərinə etmişlər" [1].

"Özgələşmə" anlayışının məzmunu məsələsi, sosial ifadə etdiyi mənalar bu gün də mübahisəli olaraq qalmaqdadır. Qeyd etmək lazımdır ki, bir tərəfdən, özgələşmə sosial olan ilə əlaqələndirilir, fərqli variantlar kimi antaqonizmlər və istismar sosial bərabərsizlik kimi, digər tərəfdən özgələşmə göstərilən anlayışların heç birinə aid edilmir. Özgələşmənin təfərrüatlı xüsusiyyətlərini anlamaq üçün problemə kiçik bir tarixi və fəlsəfi ekskursiya etmək lazımdır [5, s.26].

Özgələşmə probleminə, daha dəqiq desək, bu sosial hadisənin (prosesin) aradan qaldırılması məsələsinə ən həssas və elmi baxımdan korrekt münasibət göstərən mütəfəkkirlərdən biri görkəmli ingilis filosofu Con Lokk (1632-1704) olmuşdur. So-

sial-siyasi kompromis mövqeyindən çıxış edən və hüquqi dövlət nəzəriyyəsinin banisi kimi tanınan C.Lokk, mütəxəssislərin ümumi rəyinə görə, həmişə ölçü nisbətlərini, həddi gözləməklə, sağlam düşüncəyə riayət etməklə fərqlənmişdir. Özgələşmə probleminə münasibətdə də bu cəhətlər özünü göstərir. O, T.Hobbsdan fərqli olaraq, çıxış yolunu təbii hüquqların mütləq surətdə dövlətə verilməsində, amansızcasına məhdudlaşdırılmasında və yaxud onlara biganəlikdə deyil, qanuna və qanunçuluğa istinad etməkdə, dövlət hakimiyyətinin məsuliyyətinin və effektliyinin artırılmasında, bu hakimiyyətin xalqın iradəsinə tabe olmasında və ədalətliliyində görürdü. Məhz bu məqsədlə də o, özünün hüquqi dövlət konsepsiyasını işləyib hazırlamışdır ki, burada da "hakimiyyətin bölünməsi" ideyası başlıca yer tutur.

Qeyd etmək istərdim ki, çüasir Azərbaycan fəlsəfəsində özgələşməyə aid tədqiqat yazıları əsasən Fərman İsmayılovun adı ilə bağlıdır. Ekstensial fəlsəfə kontekstində işlənmiş "Özgələşmə-cəhənnəm sədaları" adlı yazısında o, toxunulan məsələ ilə bağlı bir çox maraqlı, faydalı fikirlər irəli sürmüş, yəklif və tövsiyyələrini vermişdir.

O, özgələşməni ekstensializmin kuzə daşı hesab edirdi. Özgələşmə təfəkkür tərzi kimi ekstensializmin formalaşmasının əsasını təşkil edən zəruri tarixi şərtlərin nüvəsidir. Həmçini özgələşmə problemi ilə biz insan və dünya probleminin qəlbinə toxunmuş oluruq. Problem geniş olmaqla yanaşı, müasirliyin ən aktual problemidir [2, s.173].

Özgələşmə insan əməyi, cəhdləri, düşüncə və hərəkətlərinin əsas qüvvəyə çevrilməsi ilə insana qarşı durmasıdır. Baxmayaraq ki, bu qüvvələr insan tərəfindən yaradılır, amma son nəticə olaraq insan üzərində hakim qüvvəyə çevrilir. Özgələşmə insan ilə dünya,insan, şəxsiyyət ilə cəmiyyət, təfəkkür ilə reallığın, şəxsiyyət ilə ətraf aləmin, mədəniyyətin və.s münasibətlərini pozan, onlar arasındakı əlaqəni kəsən, bir-birinə qarşı qoyan qüvvə kimi əsas rol oynayır.

Sözün əsl mənasında götürüldükdə özgələşmə insanın real varlığı ilə ideal varlığı arasındakı ayrıcalıq, yaranan fərqlilikdir. Özgələşmə problemi elə bir sosial-psixoloji haldır ki, bu vəziyyətdə şəxsiyyət və real mövcudluq arasında əksliklər özünü göstərir. Bu ziddiyyət insanın öz bacarıq və qabiliyyətlərini reallığa çevirmə imkanı ilə sosial mühit, münasibət arasında mövcud olan uyğunsuzluq kimi müşahidə olunur. Həmçinin qeyd etmək lazımdır ki, özgələşmə irqi və etnik mənsubiyyətindən asılı olmadan bütün şəxslərin həyat fəaliyyətində özünü göstərir. Özgələşmə insanların arzu və istəkləri ilə sosial reallıq arasında ziddiyyətin insan təfəkküründə yaratdığı psixoloji ifadəsi, bu ziddiyyətin şəxsiyyət tərəfindən düşmən kimi dərk olunması, tənhalıq və təklik hissi, fəaliyyət prosesində davranış normalarının pozulması deməkdir [3, s.307].

Özgələşmə ümumi tarixi xarakter daşıyır. O, Hegel fəlsəfəsində də əsas diqqət obyektlərindən birini təşkil edir. O, əsasən özgələşməni insanın öz fəalliyət prosesində yaratdığı gerçəkliyə real münasibəti kimi izah etmişdir. İnsanın yaratdığı bu gerçəklik məhz insan tərəfindən reallıq olmayan kimi başa düşülür, bununla da insan özündə özgələşmə anlayışını yaratmış olur. Bütün bunlarla yanaşı insan öz real "Mən"ini qoruyub saxlayır. O, qeyd etmişdir ki, özgələşmə zamanı insan hər şeydən öncə bir fərd kimi ümumi olanı özündən kənarlaşdırır, ona müstəqillik verir. Bu zaman o öz gerçəkliyindən imtina edərək bilik kimi qalır. Məsələn insanın mənfi xüsusiyyətləri öz varlığından imtina edən azadlığının ümumilik götürüldükdə özgələşməsi deməkdir ki, bununla da onun daha başqa dünyası vardır.

Böyük mütəfəkkir özgələşmə probleminə yanaşma tərzi ilə öz fəlsəfəsində "substansiya-subyekt"konsepsiyasının əsasını qoymuşdur [4, s.291].

İnsan dünyaya gəldiyi andan öz iradəsindən asılı olmadan mürəkkəb soaillaşma prosesinə, müxtəlif əlaqə və münasibətlər sisteminə qatılmış olur. Ailə və cəmiyyət daxilində keşməkeşli

hadisə və proseslərdən keçməli olan fərd müəyyən norma və tələblərlə, stereotiplərlə üzləşir. İnsan şəxsiyyət, cəmiyyət, ətraf mühit, dövlət ilə münasibətlər sistemində əsas iştirakçıya çevrilir. Belə iştiraketmə məhz özgələşməni şərtləndirən başlıca amildir. Bir çox mütəfəkkirlər özgələşməni anadangəlmə proses kimi deyil, insanların özləri tərəfindən həyata keçirilən "tarixi proses" kimi qiymətləndirirlər. Ümumilikdə götürüldükdə qeyd etmək olar ki, əksər mütəfəkkirlərin özgələşməyə dair fikri bundan ibarətdir: insan varlığının dəyərdən düşməsi, onun ali dəyərlər səviyyəsindən adi şeylər dərəcəsinə endirilməsi bu problemə - bu problemə gedən əsas yoldur.

**Ədəbiyyat**


1. https://versus.az/article/az/646
2. İsmayılov.F.Q "İnsan və dünya"-(Özgələşmə-cəhənnəm sədaları) Bakı, 1994, 252 səh.
3. Rzayev.M.H "Müasir şəxsiyyət" –(Sosial-fəlsəfi təhlil) Bakı, 2015, 515 səh.
4. Гегель Г. Философия права. М.: Мысль, 1990, с. 527
5. Горький А.М. проблема отчуждения в современной теории культуры, этике и эстетике Свергловск 1990, с 136


# ARİSTOTELİN MƏNƏVİ-ƏXLAQİ GÖRÜŞLƏRİ VƏ NİKOMAX ETİKASI


***Qasımova Lamiyə Elşad qızı***
*BDU-nun II kurs magistrantı*
*qlamiye142@gmail.com*


Aristotel antik dövrün ən görkəmli filosoflarından biri olmuşdur.Onun fəlsəfəsi elm dünyasında xüsusilə seçilir. Dahi filosof ilk dəfə olaraq insan düşüncəsinin, baxışlarının bütün kateqoriyalarını əhatə edən fəlsəfi sistem yarada bilmişdir. Beləliklə, Aristotel məntiq, təbiət, metafizika, ontologiya, əxlaq,

dövlət, ritorika, poetika və s. sahələrinə aid kitablar yazmışdır [1; səh 83].

Əxlaqa dair fikirləri onun fəlsəfəsinin xüsusi məqamlarından biridir. Aristotelin mənəvi-əxlaqi düşüncələrinin əks olunduğu əsasən üç ayrı kitabı mövcuddur. Bu əsərlər Eudemos etikası, Magna Moralia və ya Böyük etika, Nikomax etikası adlanır. Eudemos etikası yeddi hissədən, Böyük etika iki hissədən, Nikomax etikası isə on hissədən ibarətdir [5; səh 234]. Digər iki kitaba nəzərən Nikomax etikası elm xadimləri və tədqiqatçılar tərəfindən daha çox diqqət görmüşdür. Bunun səbəbləri qismində Nikomax etikasının daha geniş və dolğun olmasını qeyd edə bilərik. Kitabda xeyirxahlıq, yaxşılıq, dostluq, fəzilət, xoşbəxtlik və həzz kimi mövzular aydınlaşdırılır.

Dahi filosofa görə yaxşılıq insanın bütün əməllərinin, hərəkətlərinin son nəticəsidir. Bütün sənətlərin, metodoloji sorğuların, araşdırmaların, mənəvi qətiyyətlərin, seçimlərin əsas məqsədi yaxşılığa nail olmaqdır, bu səbəbdən yaxşılıq əvvəlcədən dəqiq müəyyənləşdirilmişdir. Bizim bütün arzularımızın obyekti yaxşılıqdır, bu məfhum hamı tərəfindən arzu olunandır.

Yuxarıda qeyd etdik ki,yaxşılıq bütün əməllərin sonudur. Lakin bu sonluqlar bir-birilərindən fərqlənə bilərlər. Əməllərimiz bu sonluqların məzmununu təşkil edir. Məsələn səhiyyə tibbin sonluğudur, iqtisadiyyat sərvətin sonluğudur. Əməllərimiz məqsədlərimizlə sıx əlaqəlidir. Aristotel qeyd edir ki,əgər insanın məqsədi həm özü, həm də ölkənin xeyiri üçündürsə bu,ən yaxşı və fəzilətli haldır. Çünki ölkə üçün gerçəkləşən yaxşılıq tək bir insanın xeyirindən daha vacibdir və ilahi məzmun kəsb edir. Bu səbəbdən insan çalışmalıdır ki, onun məqsədləri və əməlləri dövlətin xeyrinə uyğun olsun. Yaxşılıqları dəqiq müəyyən etmək,dövlətin xeyirlərini axtarmaq,dövlət üçün fəzilətli vətəndaş olmaq lazımdır. Bu düşüncələrin nəticəsi olaraq deyə bilərik ki, yaxşılığın müəyyənləşdirilməsi və əldə olunması üçün siyasi elmlər vacib yer tutur. Öz arzu və istəklərini, əməllərini ağılla təşkil edənlər siyasətin öyrənilmə-

sində və siyasi elmlər vasitəsilə yaxşılığa müvəffəq olmaqda uğurlu olacaqdırlar.

Nikomax etikasında xoşbəxtlik haqqında düşüncələr də böyük maraq doğurur. "Xoşbəxtlik nədir?" sualı adi insanlar və mütəfəkkirlər, filosoflar tərəfindən bir mənalı qəbul olunmur. Xoşbəxtlik haqqında baxışlar insanın cəmiyyətdəki statusuna, yaşadığı situasiyalara görə, hisslərinə, ən əsasıda onun mənəvi-əxlaqi düşüncəsinə, fəzilətinə görə dəyişir. Məsələn, çox ağır xəstə sağlamlığına qovuşanda, yoxsul olan bir kəs var-dövlət, sərvət əldə etdikdə, cahil biliklərə yiyələndikdə xoşbəxt olur. Xoşbəxtlik və xeyirxahlıq anlayışları arasında sıx əlaqə mövcuddur. Mənəvi-əxlaqi dəyərlər konteksində qeyd edə bilərik ki, fəzilətli bir insan xeyirxahlığa nail olduqda xoşbəxtlik əldə edir.

Aristotelə görə üç əsas həyat istiqaməti, yaşamaq tərzi mövcuddur. Ayrı-ayrılıqda bu istiqamətləri nəzərdən keçirdək.

Hedonist həyat. Hedonizm zövqün və həzzin bəşəriyyətdə ən əsas xoşbəxtlik olduğunu irəli sürən fəlsəfi cərəyandır. Hedonistlər inanırlar ki, bir fərd üçün ən xeyirli əməl həzzdir və buna görə də onlar həzzin ən yüksək həddə çıxarılmasına çalışırlar. Həzzin həyatdakı yeganə yaxşılıq olduğunu, ağrının isə şər qüvvə olduğunu irəli sürürlər.

Siyasi həyat. Aristotel elmlər içərisində siyasəti çox yüksək qiymətləndirmişdir. Onun fikrincə bir davranışın yaxşı və ya pis olaraq qiymətləndirilməsini siyasət həyata keçirə bilər. Həmçinin siyasət mənəvi-əxlaqi konteksi təmin və tənzim edir.

Nəzəri həyat. Əməllərin praktiki olaraq davamlı şəkildə, eyni bir qaydada həyata keçirilməsindənsə, onların nəzəri olaraq irəli sürülməsi və uzun müddət öz mövcudluqlarını saxlaması daha asanddır. Nəzəri həyata görə insan üçün ən gözəl və xoşbəxt həyat ağıl və fəzilət ilə yaşamaqdan irəli gəlir. Ağıl ilahi xüsusiyyətə malikdir və ağıla uyğun bir həyat da ilahi bir həyatdır. Xoşbəxtlik isə sükut daxilindədir, bəzən sükuta çatmaq üçün sükutu tərk edirik. Məsələn, sülh uğrunda mübarizə apar-

maq kimi [5; səh 226].

İnsanların yaşayışına və mənəvi-əxlaqi dəyərlərinə bir sıra xarici amillər təsir göstərir. Sərvət,siyasi güc,dostlar və s. xarici amillər qismində çıxış edir. Digər tərəfdən, insanın kasıb olması, yaxşı övladlarının və ya gözəlliyinin, nəcibliyinin olmaması onun zərərinədir. Bir insanın uşağı xeyirli övlad deyilsə və ya uşağının ölümünü görmüşsə, həmin insan xoşbəxt deyildir. Bu səbəbdən xoşbəxtlik üçün xarici amillər vacib rol oynayır. Həyatdakı mənfi dəyişikliklər ağrı və əzab gətirir,çox şeyə ziyan vurur. Lakin bu zaman insan səbrli olarsa və bədbəxtliklərlə cəsarətlə mübarizə apararsa, bu zaman mənəvi-əxlaqi dəyərlər onun həyat yoluna işıq gətirəcək və insan xoşbəxtliyi tapacaqdır. Xoşbəxtlik fəzilət və təlim-tərbiyə ilə əldə edilir, nəticədə mükafat olaraq xoşbəxtlik meydana gəlir,lakin həm də xoşbəxtlik ilahi bir məsələdir. Xeyirxah və düzgün əməllər vasitəsiylə xoşbəxtlik mövcud olur, bədbəxtlik isə pis əməllərdən və əxlaqsız olmaqdan qaynaqlanır.

Nikomax etikasında Aristotel fəziləti iki yerə ayırır: ağıl və dərrakə ilə əlaqəli olan intellektual fəzilət, digəri isə xarakter ilə əlaqədar olan fəzilət. İntellektual fəzilətlər qrupuna müdriklik, düzgün qərarlar vermək, ağıllı olmaq,xarakter fəzilətlər qrupuna isə alicənablıq, mötədillik və mülayimliq daxildir. İntellektual və ya düşüncə fəzilətləri müəyyən zaman ərzində təlim və təhsil vasitəsi ilə inkişaf edirlər. Xarakter fəzilətləri isə vərdişlərlə əldə edilir. Bəzi insanlara qarşı davranışımız bizi ədalətli, yaxşı və ya ədalətsiz, pis bir fərdə çevirir. Hər hansısa bir situasiyada insanın etdiyi hərəkətlər onun cəsarətli və ya qorxaq olduğunu göstərir. Bir sözlə, insanın hərəkətləri və davranışları onun xarakterini meydana gətirir. Nəticədə insan uşaqlıq vaxtlarından fəziləti və əxlaqi dəyərləri əldə rəhbər tutmalıdır. Hərəkətlərinin necə olduğunu araşdırmalı və həyatdakı fəaliyyətini düzgünlüyə uyğunlaşdırmalıdır çünki xarakteri yaradan amillər məhz bunlardır.

**Ədəbiyyat**

1. Əlizadə A.A. Antik fəlsəfə tarixi. Ali məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı-2016, 288 s.

2. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı, "Şərq-Qərb", 2010, 360 səh.

3. Aristoteles. Nikomakhos'a etik.Eski Yunancadan çeviren Furkan Akderin. Say yayınları, İstanbul 2014, 238 sayfa

4. Hedonism (Stanford Encyclopedia of Philosophy)

5. Mahmut Kaya. İslam kaynakları işığında Aristoteles ve Felsefesi. Ekin Yayınları, İstanbul 1983, 343 sayfa

## MİLLƏTÇİLİK İDEOLOJİ FENOMEN KİMİ

***Manafova Zeynəb Asim qızı***
*BDU-nun II kurs magistrantı*
*zeynebmanafova1@gmail.com*

Avropada ilk dəfə XVIII əsr Fransız filosofu Etyeni Bono de Kondilak (Etienne Bonnot de Condillac, 1715-1780) dərketmədə əsas rolun xarici aləmlə əlaqəli olan amillərlə bağlı olduğunu bildirmişdir. Kondilakın ardınca Klod Adrian Helvetsi (Claude Adrian Helvetius, 1715-1771) və digər filosoflar dünyanın anlaşılmasını xarici amillərlə, xüsusilə də təlim-tərbiyə və təhsil sistemi ilə əlaqələndirmiş və dərketmədə səhvə yol verməmək üçün düzgün fikri tapmağı həlledici saymışlar. Buradan da "doğru fikir elmi" anlayışı doğmuş, 1796-cı ildə isə Fransız filosofu va iqtisadçısı Destütt de Trasi (Destutt de Tracy, 1754-1836) tarixdə ilk dəfə olaraq "İdeologiya ünsürlərinə aid layihə" adlı əsərində "ideologiya" terminini işlətmiş və onu "doğru fikir elmi", "mövzusu fikirlərin tədqiqindən ibarət olan elm" mənasında açıqlamışdır [2, s.14].

Millətçilik ideoloji fenomendir. Bunu aydınlaşdırmaq üçün ilk öncə millətçilik, milli ideya, milli ideologiya kimi anlayışlara müraciət etmək lazımdır. Millətçilik dedikdə, müəyyən bir

millətin maraqlarını müdafiə edən, xüsusən həmin millətin öz vətəni üzərindəki suverenliyini qoruması və ya qazanması üçün mübarizə aparan ideologiya anlaşılır. Millətçilik hər bir millətin kənar müdaxilədən qurtularaq özünü idarə etməsini,bir millətin nəzəri struktur üçün təbii və ideal bir əsas olduğunu, millətin siyasi gücün tək haqlı mənbəyi olduğunu ehtiva edir. Milli ideya və milli ideologiya məsələsinə gəldikdə isə hər bir millətin varlığı ilk növbədə, milli ideya və yaxud da milli ideyalarla bağlıdır. Məhz bir və yaxud bir neçə ideyanın nəticəsində milli ideologiya meydana gəlir. Ümumiyyətlə, millətin həyatında yalnız bir ideyanın olması və onun əsasında milli ideologiyanın yaranması çətindir. Burada ən yaxşı halda hansısa milli ideyanın aparıcı rolundan danışıla bilər. Yəni hər bir halda, milli ideologiyanın tərkibinə bir neçə ideya daxil olur. Ancaq burada diqqət yetirləcək əsas məqam millətin inkişafı və gələcəyi, özünü yaşatması üçün hansı ideyaların vacibliyi məsələsidir.

Onu da qeyd etməliyik ki, zaman-zaman milli ideologiyanın tərkibinə ya kənardan, ya da cəmiyyətin öz daxilindən yeni ideyalar daxil olur. Çünki ideologiya ideya, yaxud ideyalar haqqında təlim olduğuna görə, hər hansı millət müəyyən zaman kəsiklərində yeni ideyalar ilə qarşı-qarşıya qala bilər. Bu zaman yeni ideya və yaxud ideyaların mövcud ideyaların üstündən ya bir dəfəlik xətt çəkməklə, yəni zorakılıqla, ya da fərqli metodlarla onları kölgədə qoymaqla cəmiyyətin şüurunda özünə yer tapması da mümkündür. Bu cür situasiyalar ayrı-ayrı millətlərin taleyində dəfələrlə baş vermişdir. Bununla üz-üzə olan millətlər yeni ideyalarla mövcud ideyalar arasında ya uzlaşdırma tapmağa cəhd etmiş, ya yeni ideyanı qəbul etməmiş, ya da onun qarşısında məğlub olmuşlar. Məsələn, ruslar onlara kənardan daxil olan marksizmi rus milli ideyasının bir forması halına gətirmiş, bununla da çar Rusiyasının yerində Sovetlər Birliyi imperiyasını qurmağı bacarmışlar [1, s.25].

Bunun eynisini onlardan öncə farslar Hind-Avropa nəzəriyyəsinin yaradıcılarının köməyi ilə etmişlər. Belə ki, farsların bir

neçə əsr milli dövlətləri olmamış, yalnız İslam dinini şiəlik adı altında farsçılıqla-irançılıqla bərabərləşdir-dikdən sonra İranı bir fars dövləti etməyi bacarmışlar. Almanların çoxu isə bir əsrdə həm millətçiliyin ən mürtəce forması olan faşizmi-hitlerizmi qəbul etmiş, həm də uzun zaman keçmədən onu rədd etmişlər.

Milli ideya və milli ideologiya anlayışlarının bir- birindən fərqləndirən cəhətlər bunlardır:

1.Milli ideya milli mənfəətlərə əsaslanaraq milli hədəflərə istiqamətlənən və millət üzvlərinin əksəriyyəti tərəfindən qəbul olunub paylaşılan ortaq fikir, ortaq ideyadır.

Milli ideologiya isə milli mənfəətlərə əsaslanaraq milli hədəflərə istiqamətlənən və millət üzvlərinin böyük əksəriyyəti tərəfindən qəbul olunub paylaşılan ortaq fikir sistemidir. Onun bir sistem kimi mövcudluğu üçün qayələri, konkret şəkildə tərif edilən anlayışları, metodları, prinsipləri, doktrini və s. olmalıdır [3].

2. Milli ideya daha ümumi xarakterə malikdir və eyni bir ideya bir çox millətlər üçün ortaq milli ideya ola bilər. Lakin milli ideologiya hər millətin özünə xasdır. Alınma ideologiyalar belə hər millətin öz etno-sosial keyfiyyətlərinə uyğunlaşmasa, bir sistem kimi mövcud ola və milli ideologiyaya çevrilə bilməz.

3. Milli ideya millətin ehtiyaclarına uyğun olaraq ortaya çıxır, sayca birdən çox olur və milli ehtiyacların şiddətlilik dərəcəsinə görə iyerarxik əsasda düzülür. Lakin millət içərisində ideoloji fərqlilik olsa da, o ideologiyalardan yalnız biri millət üzvlərinin böyük əksəriyyəti tərəfindən qəbul edilib milli ideologiyaya çevrilir. Digərləri isə qəbul edildikləri təşkilat, partiya və s. üzvlərinin paylaşdığı ortaq fikir sistemi olub qrup ideologiyası hesab edilir.

4. Heç də bütün milli ideyaların varlığı üçün aparıcı lider və təşkilatlanma vacib deyil. Sadəcə, onların millət içərisində yayılması bəsdir. Lakin milli ideologiyanın mövcudluğu üçün aparıcı lider və taşkilatlanma faktorları böyük önəm daşıyır.

**Ədəbiyyat**

1. A. Rəhimoğlu. İdeologiya: məqalələr toplusu (Bakı 2017)
2. F. Ələkbərov. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (Bakı 2014)
3. Ayhan Tüyçigil. Türk Milliyetçiliyi Fikir Sistemi. Teori. (Ankara 1977)

# AZƏRBAYCANDA VARİSLİYİN QORUNMASI FƏLSƏFƏSİ

***Yusifzadə Zöhrə Azər qızı***
*BDU-nun II kurs magistrantı*
*zohrayusif@gmail.com*

Müasir dövrdə fəlsəfi cəhətdən öz təhlilini gözləyən bir çox məsələlər var. Xüsusən bəşər cəmiyyətində qloballaşmanın təsirinin daha geniş vüsət alması,öz milli kökləri üzərində dayanan hər bir dövlət üçün müəyyən narahatlıqlar doğurur. Qloballaşma suveren dövlətlər arasındakı sədləri dağıdaraq, cəmiyyətin daxilində sosial münasibətləri yeni məcraya salır,milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə mədudlaşdırır [1, s. 129]. Belə bir mərhələ-də həm öz dövlətçilik ənənələrini qorumaq, həm də qədimdən mövcud olan, köklü milli-mənəvi dəyərləri yad təsirlərdən qorumağı prioritet vəzifə kimi qarşıya qoyan dövlət üçün toplumun birliyini təmin etmək zəruridir.

Qarşılaşdığı maneələr qarşısında bir cəmiyyəti müqavimətli və qalib edən, o cəmiyyəti təşkil edən fərdlər arasında milli həmrəylik və birlik ruhudur. Tarixi-mədəni mühitdə milli birlik və mənlik şüuru etnomədəni dəyərlərin nəsildən-nəslə ötürülməsini təmin edir. Milli şüur millətin özünü dərk etməsi prosesinə təsir edir və cəmiyyətdə öz mövqeyinin möhkəmlənməsinə kömək edir.

Azərbaycanlıların milli ideologiyası kimi azəbaycançılığın ro-

lu bu mənada ölçüyəgəlməzdir. Milli ideologiya həm tarixi keçmişlə, həm də bu gün və gələcəklə səsləşməlidir. Heydər Əliyevin başçılığı iləazərbaycançılıq ideyası altında milli birliyi təmin edərək, bütün neqativ amillər aradan qaldırmış, xalqımız yeni minilliyə inamla qədəm qoymuşdur. Müxtəlif ideyaların məcmusu kimi çıxış edən ideologiya xalqın milli-mənəvi varlığının ilkin təzahürləri ilə bağlı olub onun kimliyini əks etdirən təfəkkür,adət və inanclar sistemidir [2, s. 11]. Azərbaycançılıq ideologiyasının əhəmiyyəti tarixi varislik prinsipindən məharətlə istifadə etməsidir. Mənəvi bütövlüyü sarsılan bir cəmiyyətin, parçalanması, məhv olması çox asandır. Bir millətin dövlətçilik ənənlərini qoruması üçün dəyərlər sistemi vacibdir.Azərbaycan xalqı özünəməxsus mədəniyyət, zəngin mənəvi irs, dövlətçilik ənənələrinə sahibdir. Heydər Əliyevin "Biz nadir irsin varisiyik" sitatında hər bir azərbaycanlının bu irsi qoruması və gələcək nəslə çatdırılmasında öz məhsuliyyətini dərk etməsi aşılanır. Varislik cəmiyyətin təməl xüsusiyyətlərinin bir nəsildən o biri nəsilə ötürülməsi prosesidir. Yeni xüsusiyyətlər yaranarkən varislik bunları topluyaraq sintez edib yeni nəsilə ötürür. İlk olaraq yaşadığımız dövr ilə tarixi keçmişi bir birinə bağlayan,yəni qazandığımız və gələcək nəsillərə əxz etdiyimiz prinsiplər aparıcıdır.

Keçid dövründə Heydər Əliyev dövlətçilik ənənələrinin və milli-mənəvi dəyərlərin ardıcıllığının və ənənəviliyinin davam etdirilməsində varisliyi təmin etdi. Köklü dövlətçilik dəyərlərinə sahiblikə yanaşaraq, Heydər Əliyev Azərbaycanda uzun illərdən sonra demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun yenidən təməlini qoydu. Həmçinin xalqın ictimai şüurunu əks etdirən milli-mənəvi dəyərlər,adət ənənələrin qorunması və gələcək nəsilə çatdırılmasında Heydər Əliyevin fenomenin xüsusi xidmətləri hər zaman özününü göstərmişdir. Qloballaşmanın sürətlənməsi dövründə Azərbaycanın həm qədim ənənələrini qoruması, həm də müasirliyə qədəm qoyması prosesi vəhdətdədir. Adət-ənənələrlə müasirlik arasındakı mənəvi ideoloji

bağlılıq milli mənlik şüurunun inkişafına da mühüm təsir göstərmişdir. Məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumibəşəri dəyərlərə hörmət, onların daim qorunmasına qayğı azərbaycanlıların birliyi və həmrəyli-yinin əsasını təşkil edir. Hedər Əliyev ölkədə və onun hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıların ümumi vətən naminə birləşməsini, həmrəy olmasını təmin etdi. Həmrəylik bəşəri fenomen kimi hər bir xalqın öz tarixi şüurunun ayrılmaz tərkib hissəsidir [bax :3]. Dəyişikliklərin başgicəlləndirici bir sürətlə getdiyi millətlər arenasında var olmaq üçün mübarizə aparmalı və layiq olduğumuz yeri tutmalıyıq.

**Ədəbiyyat**

1.Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, "XXI-Yeni Nəşrlər Evi", 2005, 464s.

2.Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Bakı, "Elm və təhsil", 2019, 456 s.

3.Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, "Qismət", 2003, 248 s.

## NEO-FREYDİZM ANLAYIŞI, MƏNŞƏYİ VƏ İNKİŞAF TARİXİ

***Mikayılova Səbinə Vüqar qızı,***
*BDU-nun II kurs magistrantı*
*sebine.mikayilova.99@mail.ru*

Neo-Freydizm, 1940-cı illərdən bəri ortaya çıxan müxtəlif Freydizm məktəblərini birləşdirən bir ilk növbədə ABŞ-dameydana gələn cərəyandır. Bu məktəblərin ümumi bir xüsusiyyəti, Freydin pansexualizmindən və şəxsiyyət nəzəriyyəsindəki ictimai münasibətlərin prioritetinin tanınma-sına doğru hegemonluğundan uzaqlaşması idi. Bununla da psixologiyanın sosiologiyası və sosiologiyanın psixologiyası ilə nəticələnən sosiologi-

yanın nailiyyətləri ilə Freudizmi zənginləşdirmək istəyi yaranır. Neo-Freydizmin başlanğıc nöqtəsi, A. Adlerdən ("hakimiyyətə iradə", "sosial maraq") vəK.Yungdan (kollektiv şüursuzluq) ayrılan fikirlərin yayılması hesab edilə bilər. Neo-Freydizmin ən böyük nümayəndələri E. Fromm, K. Xorni, G. K. Sullivan; E. Erikson və başqaları da ona meyl edir [1].

Neo-Freydizm psixologiya və fəlsəfədə müasir bir tendensiyadır və o, 19 -cu əsrin otuzuncu illərinin sonlarında psixoanalizin etnoqrafik və sosioloji nəzəriyyələrlə birləşməsi zamanı yarandı. Psixi proseslərdən şəxsi münasibətlərə keçid prosesində Neo-Freydizm zehni normaları bir insanı cəmiyyətə uyğunlaşdırmaq yolu hesab etməyə başlayır, yəni davranış formaları haqqında davranışçılıq ruhunda bir təlim kimi çıxış edir. Bu istiqamət Z. Freydin sublimasiya və libido haqqında nəzəriyyəsini tamamilə xaric edir, şüursuzluğu və onun rolunu inkar edir. Bu zaman psixoanalizin bir çox tezisi tənqid olunur, lakin ən vacib anlayışlar qalır ki, bunların arasında hər bir fərdə xas olan məntiqsiz motivlər xüsusi rol oynayır. Neo-Freydizmin bütün nümayəndələri suallara cavab almaq üçün tədricən şəxsiyyətlərarası münasibətlərin öyrənilməsinə keçməyəbaşlayırlar:

• bir insanın necə düzgün yaşamalı olması haqqında;
• ümumiyyətlə insan varlığı haqqında;
• insanın nəyə qadir olması haqqında.

Nevrozların əsas səbəbi, uşaqlıq illərində yaxınlarınızın diqqət və sevgisinin olmaması ilə tədricən artan düşmənçilik dünyası ilə qarşılaşdıqda yaranan narahatlıqdır. Məhz bu səbəbdən, bir insanın müasir dünyada sosial bir quruluşla qarşılıqlı əlaqədə harmoniya duyğusu, başqalarından təcrid olunma hissi, insanda yaranan təklik, özgəninkiliyi inkişaf etdirməsinə imkan vermir. Və yalnız cəmiyyət universal bir yadlaşma mənbəyi hesab edilə bilər və şəxsiyyətin, ideallarının və həyat dəyərlərinin çevrilməsinin və inkişafının əsas düşmənçilik meylləri kimi tanına bilər. Bunun səbəbi, hər bir fərdin şəfa tapması bütün cə-

miyyətin yaxşılaşmasına gətirib çıxarır.

Neo-Freydizm, psixoanalizin qurucusu tərəfindən əvvəlcə formalaşdırılmış anlayışları qəbul etmir, çünki onların təzahürünün xəyali və elmi olmayan mahiyyəti ortaya çıxdı. Bundan əlavə, klassik psixoanalizin bir çox mövqeyi və nəzəriyyəsi bu istiqamətin ayrı-ayrı nümayəndələri tərəfindən sorğu-suala tutulmuş və tənqid edilmişdir. Klassik psixoanalizin ümumi münasibətləri və prinsipləri neo-Freydlərin müasir cərəyanının təlimləri üçün əsas götürülmüşdür. Əsas olanlar bunlardı:

- insan fəaliyyətində baş verən irrasional anlar haqqında fikirlər,
- Cəmiyyətin və mədəniyyətin “repressivliyi”,
- “Şüursuz psixologiya”,
- fərdin daxili aləminin parçalanması və ziddiyyətli olması.

20-ci əsrin məşhur mədəniyyəti Freydin nəzəriyyəsini örnək götürür və bununla da fərdin mədəniyyət və təbiətlə qarşıdurmasının zəifləməsinə kömək edən tezahürlər meydana gəlməyə başlayır [2].

Freydizm və neo-Freydizm cərəyanları bütün sənət sahələrinə təsir etdi - personajların, eləcə də müəlliflərin özlərinin dərin zehni proseslərinin təhlilinə maraq, bir çox sənət əsərində müəyyən komplekslərin və bədnam qəhrəmanların başlamasına səbəb olaraq hakim mövqe tutdu.

ABŞ-da Freydizm və neo-Freydizmin uğuru, psixoanalizin qurucusunun hər şeydən əvvəl bir insanın istəklərini yerinə yetirməkdə, onun üçün xoşbəxtliyə çatmaqda israr etməsi ilə izah olunur və Amerika ənənəsi dəqiq olaraq fərdi mənlik ilə sıx bağlıdır.

Neo freydizm tərəfdarlarından fərqli olaraq Freyd inanırdı ki, burjua cəmiyyəti insanı korlayır və şikəst edir. İnsanın aqressivliyi cəmiyyətin iqtisadi və siyasi ziddiyyətlərinin nəticəsi deyil, əsl mahiyyətinin ifadəsidir. Psixoanaliz nəzəriyyəsindən istifadə edərək "əsaslandırıla bilməyəcək" bir cinayət yoxdur (cinayətin yeganə səbəbi zehni əlillikdir).

**Ədəbiyyat**

1. Хорни К. Наши внутренние конфликты. Конструктивная концепция невроза // Психоанализ и культура: Избр. труды Карен Хорни и Эриха Фромма. М., 1995. С. 7–190; Ее же. Невроз и личностный рост. Борьба за самореализацию. СПб., 1997.
2. Фромм Э. Человек одинок // Иностр. лит. 1966. № 1. С. 230–233; Его же. Автоматический конформизм // История зарубежной психологии. Тексты. М., 1986. С. 172–184.
3. Холл К., Линдсей Г. Теории личности. М., 1997.

# RENE DEKART FƏLSƏFƏSİNDƏ SUBSTANSİYA PROBLEMİ: *Res Cogitans* və *Res Extensa*

***Ağayeva Arzu Şahmar qızı***
*BDU- nun II kurs magistrantı*
*arzuagayevaa228@gmail.com*

Müasir fəlsəfənin qurucusu olaraq qəbul edilən Rene Dekart irəli sürmüş olduğu dualist substansiya konsepsiyası ilə ruh haqqında ənənəvi düşüncədən uzaqlaşmış və Çağdaş Zehin Fəlsəfəsinə zəmin hazırlamışdır. R.Dekartın fikrincə insan bir-birindən tamamilə fərqlənən iki substansiyadan; **zehin** və **bədəndən** ibarətdir. Tarixi planda dəyərləndirdikdə R.Dekarta qədər zehin və bədən, digər bir deyimlə ruh və bədən dualizmi üzrə müxtəlif fikirlər söylənmişdir. İnsanı anlama yolunda bəzən ruh, bəzən bədən, bəzən isə zehin və ya ağıl mərkəzə alınmışdır. Lakin Zehin-bədən dualizmi kontekstində aparılan ilk əsaslı tədqiqatlar Rene Dekartın adı ilə bağlıdır.

R.Dekart öz fəlsəfə yolunda ilk öncə sarsılmaz bir təməl, bir *arximed nöqtəsi* tapmağı və fəlsəfəsini həmin təməl üzrə inşa etməyi hədəfləmişdir. “**Metod Haqqında Düşüncələr**” kitabında az da olsa şübhə doğuran hər bir fikri düşüncə sistemindən tamamilə uzaqlaşdırmaq gərəkdiyini deyən R.Dekart işə ilk

öncə duyğularımız vasitəsilə əldə etdiyimiz bilgilərlə başlayır. “Bu günə qədər doğru olaraq qəbul etdiyim nə varsa hər birini ya duyğularımdan, ya da duyğularım vasitəsilə əldə etdim. Lakin duyğularımın zaman-zaman məni yanıltdığını da bilirəm. Bildiyimiz kimi, bizi bir dəfə yanıltmış olanın, yenidən yanıltması qaçınılmazdır. Beləliklə duyğularımıza güvənməmiz qeyri-mümkündür” [ 4. s, 25].

Daha sonra R.Dekart skeptik arqumentində bir az da irəli gedərək oyaq ikən gördüklərimizin birər xülyadan ibarət ola biləcəyini, hiyləgər bir aldadıcının gerçəkliyi bizə olduğundan tamamilə fərqli bir şəkildə göstərmiş ola biləcəyi fikrini irəli sürür.

Tamamilə şübhə doğurmayacaq bir həqiqət axtarışında öz mövcudluğunu belə şübhə altına alan R.Dekart axtardığı mütləq həqiqət nöqtəsini nəhayət bu arqumetdə tapır; ***Cogito Ergo Sum*** - *Düşünürəm, elə isə mövcudam.* Filosofun fikrincə bu ən qatı skeptiklərin belə inkar edə bilməyəcəyi bir arqumentdir. Hər şeyin bir illüziyadan ibarət olduğunu düşündüyüm anda belə, düşünən bir Mən’in mövcudluğu mütləqdir. Bütün gerçəkliyin bir xülyadan ibarət olduğuna inana bilərəm, lakin, heç bir halda öz qeyri-mövcudluğumu düşünə bilmərəm. Bir zehnim olmadığını düşünməyim belə, bir zehnim olduğunun sübutudur. Yəni mən, bütün mahiyyəti düşünməkdən ibarət olan və mövcud olmaq üçün bir bədənə ehtiyac duymayan substansiyayam. Mən sadəcə düşünən bir şeyəm – ***res cogitans***; bir zehin, bir ruh, ağıl və ya məntiqəm. Qısacası mən həqiqi bir şeyəm və həqiqətən mövcudam. Daha sonra Dekart “**Metafizika Haqqında Düşüncələr**” kitabında yazır; “Mənəm, mən varam. Bu dəqiqdir. Bəs neçə müddətlik? Əlbəttə düşünə bildiyim müddətcə. Çünki əgər bütün düşüncələrimi bir anda durdurmuş olsam, o zaman mövcudluğumdan tamamilə imtina etmişəm deməkdir.”

Dekart fəlsəfəsində insan iki yönlü bir varlıqdır; İnsanın zehni və bədəni bir birindən tamamilə fərqlənən iki fərqli mexanizm kimidir. Zehnin mahiyyəti düşünməkdirsə, cismin, bədənin mahiyyəti isə fəzada yer tutumuna malik olmasındadır – ***res extensa.*** Dekartın fikrincə, ruhi substansiya, yəni ***res cogi-***

***tans*** öz mövcudluğu üçün maddi şeylərə ehtiyac duymadığı kimi, bədən, yəni maddi substansiyanın da öz mövcudluğu üçün heç bir ruhi substansiyaya ehtiyacı yoxdur. Beləliklə Dekart bir tərəfdən maddi prinsip olaraq zehindən asılı olmayan materiyanı, digər tərəfdən maddədən asılı olmadan mövcud olan zehni substansiyanı qəbul edirdi.

R.Dekart özünün dualist substansiya konsepsiyasını bu şəkildə dəstəkləyir; "Əgər mən dəqiq olaraq A'nı B'dən və ya tam əksinə B'ni A'dan ayıra bilirəmsə, o zaman A və B metafizik olaraq fərqli varlıqdırlar. Zehnimi bədənimdən asılı olmayaraq qavraya bilirəm, nə də olsa mən özündə sadəcə düşünən bir şeyəm, lakin bədənim deyil. Digər tərəfdən isə bədənimi zehnimdən ayrı olaraq qavraya bilirəm. Bədənim yer tutumuna malikdir, zehnim isə deyil. O zaman nəticədə zehnim və bədənim metafizik olaraq tamamilə müstəqil şəkildə mövcuddurlar" [5. s,33].

Кант вводит понятие доброй воли, которую объясняет следующим образом: это чуткая нравственная способность человека внимать голосу практического разума, неумолимым его велением, чувствовать уважение к моральному закону, а понятие категорического императива связано с уважением к другу, к нравственному закону, как таковым, и человечеству в лице всякого человека. В исторических изменениях общественной жизни определяет

прогресс в победе альтруизма над эгоизмом, указывает, что важное условие развития человеческого общества – это общение, но очень важна индивидуальная свобода и обособленность различных народностей, идеальное выполнение всеми своего общественного долга [5].

Подытоживая сказанное, хотим отметить, что нравственная проблематика относительно понятия гуманизма, затронутая западными исследователями, достаточно обширная. Вместе с тем видно, что путь формирования представлений об общечеловеческих ценностях привел к современному представлению в рамках ценностных норм западной цивилизации о важности индивидуализма как жизненного принципа, который вместе с тем должен сочетаться с гуманизмом, как более общих основаниях человеческой жизни. Восточная цивилизация в этом отношении отличается от западной, где в основе человеческого общежития лежит принцип коллективизма.

## Литература


1. Балалыкин Д. А., Щеглов А. П., Шок Н. П. Гален: врач и философ. – М.: Весть, 2014. – 416 с.
2. Мироненко И. А. Биосоциальная проблема и становление глобальной психологии. – М.: Изд-во «Институт психологии РАН», 2019. – 406 с.
3. Историко-философские исследования. Кризис современного буржуазного человековедения. Сборник научных трудов. Свердловск: Изд. УрГУ, 1983. – 145 с.
4. Ревякина Н.В. Итальянское Возрождение. Гуманизм второй половины XIV века - первой половины XV века. Учебное пособие. Новосибирск: Изд-во НГУ, 1975. 11 п. л.
5. Кант, И. Сочинения в шести томах [Под общ. ред. В. Ф. Асмуса. А. В. Гулыги, Т. И. Ойзермана], М., изд-во

«Мысль», 1965. (Философское наследие. Акад. наук СССР. Ин-т философии) Т. 4. Ч. 1. 544 с.

## HUMANİZİMİN TARİXİ MƏNALANDIRILMASI

***Məmmədova Məlahət Şaban qızı***
*BDU-nun Fəlsəfə kafedrasının qiyabi doktorantı*
*mila-mamedova@inbox.ru*

Müasir, mürəkkəb dünyada humanizm problemi bütöv bir tam kimi, çoxsərhədli, tarixi, müxtəlif aspektlərdən sosial-fəlsəfi analiz tələb edən məsələ kimi özünü göstərir. Humanizmin tarixi mənalandırılması insanın təbiəti və varlığı ilə bağlıdır. Hər şeydən öncə bu anlayış, insanın tarixən müəyyən edilmiş "ideal insan" keyfiyyətləri kimi özünü göstərir. Bir qayda olaraq, burada əsas diqqət insanın mənəvi keyfiyyətlərinə yönəlir.

Humanizmə, cəmiyyətdə humanizm ünsürlərinə maraq hələ qədim dünyanın sosial fəlsəfi fikir tarixində öz əksini tapmışdır. Humanizm prinsipləri barədə təsəvvürlər həmin dövrdə artıq real həyatda və praktikada tətbiq edilirdı. Bu xüsusilə də Konfutsi fəlsəfəsində və bir çox qədim hind fəlsəfi istiqamətlərində özünü göstərib. Konfutsiçilikdə etikanın ən əsas anlayışı "jen"- insansevərlik idi ki, bu, cəmiyyətdə, ailədə, insanlar arasında münasibətləri müəyyənləşdirirdi. Bu konsepsiya yaşa və sosial yerinə görə özündən böyüklərə hörmət və sevgini ifadə etmişdir.Konfutsiyə görə yüksək məziyyətli insan iki əsas keyfiyyətə sahib olmalıdır: 1) insanpərvər olmalı 2) fərd olaraq dövlətə, cəmiyyətə borcunu yerinə yetirməlidir.

Qədim hind fəlsəfəsinin də bu məsələyə yanaşması maraqlı olmuşdur. Buddanın təlimində bu özünü daha qabarıq göstərmişdir. İnsanın bütün kənar təsirlərdən azad olub öz xöşbəxtliyinə yetişməsi, dörd nəcib həqiqət haqqında təlim, 8 pilləli qurtuluş yolu hər biri insanın mənəvi dünyası ilə bağlı olmuşdur. Humanist insan öz əməlində, düşüncələrində təmiz olmalı, bütün canlılara sevgi bəsləməli idi.

Orta əsrlər dövründə isə insan ilahi gücün bir parçası kimi qəbul olunurdu. Amma humanizm sosial-fəlsəfi problem kimi məhz intibah dövründə qabarmışdır. Bu dövr insansevərliyə, onun inkişafına yönəldiyi, feodal-teosentrik baxışlara qarşı çıxdığı üçün humanizim dövrü kimi xarakterizə olunmuşdur. Renessans dövrü fəlsəfəsinin mərkəzi mövzusu insan taleyi, ən vacib humanist dəyər isə insan azadlığı idi. Artıq yeni insan “model”i formalaşmağa başlayırdı. Onun əsas məğzini insanın fərdi-ruhi-fiziki mövcudluğu təşkil edirdi.

Humanizm ideyalarının inkişafında xüsusi rolu XX əsrdə İspaniya, Portuqaliya, Amerika humanistləri oynamışlar.

Bütövlükdə humanizmin inkişafı, onun formaları haqqında təsəvvürlər olsa da, bir anlayış kimi izahı verilməmişdir. Bütün yanaşmaları ümumiləşdirsək deyə bilərik ki, humanizm anlayışı elə bir mənanı ifadə edir ki, orada əsas diqqət insan hüquq və qabiliyyətlərinə, şəxsi dəyərlərinə, harmonik inkişafına, cəmiyyət həyatında insanın özünüinkişafı üçün uyğun şəraitin yaradılmasına və bu qəbildən olan amillərə yönəlir.

**Ədəbiyyat**


1. “Amerikan modeli”: gələcəklə münaqişədə. M.,1984.253 s.
2. Berdyayev N.A. Tarixin mənası.M.1990.-174s.
3. Teyyar de Şarden. İnsan fenomeni. M.1987.-239 s.
4. Uaytxed A.N. Fəlsəfə üzrə seçilmiş işlər. M.1990-176 s.


## RUSLARIN VƏ ALMANLARIN CƏNUBI QAFQAZA KÖÇÜRÜLMƏSI


***Cabarov Rəşad,***
*BDU-nunFəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının doktorantı,*
*Azərbaycan tarixi kafedrasının müəllimi*
*rasad.cabarov@mail.ru*



***Açar sözlər:*** Cənubi Qafqaz, ruslar, almanlar, köçürmə siyasəti

***Ключевые слова:*** Южный Кавказ, русские, немцы, переселенческая политика.
***Keywords:*** South Caucasus, Russians, Germans, resettlement policy.

Qafqaz müharibəsinin nəticəsində Rusiya İmperiyasının mənafeyi ilə bölgəni idarə etmək üçün tədbirlər planlaşdırıldı. Bu baxımdan, 1860-cı ilin avqustun sonunda knyaz A.İ. Baryatinskiy Vladikavkazda bir yığıncaq reallaşdırdı, Rusiyanın Qafqaz siyasətini həyata keçirmək üçün tədbirlər hazırlandı.

Rusiya-İran müharibəsi nəticəsində 1826-1828-ci illərdə Azərbaycanın şimal hissəsi Rusiya tərəfindən işğal olundu. Cənub Qacarlar dövlətinin bir hissəsinə çevrildi. Beləliklə, Azərbaycan Şimal və Cənuba bölündü. Rusiyanın köçürmə siyasətinin məqsədi Azərbaycan torpaqlarında etnik və dini dəstəyin yaradılması, azərbaycanlıların mənəvi cəhətdən zəifləməsi, onların "ikinci dərəcəli insanlar" a çevrilməsi idi. Eyni zamanda, məqsəd əslində Azərbaycan torpaqlarından azərbaycanlıları çıxarmaq və xristian miqrantların yerləşdirilməsi idi. Rusiyanın hakim elitası, yerli müsəlman əhalinin xarici hökmranlıq və xristianlığın üstünlüyü ilə barışmazlığını başa düşdü. Buna görə də Rusiya onları daim potensial düşmən və iğtişaşçılar kimi görürdü. Rusiyanın bu fəaliyyətlərinə qarşı ən mühüm dirəniş platforması islam dini idi.

Ermənilərlə yanaşı Azərbaycana ruslar da köçürülürdü. Azərbaycan ərazisində ilk rus qəsəbələri Türkmənçay müqaviləsinin bağlanmasından sonra 1830-1850-ci illərdə salınmışdır. N.Şavrovun sözlərinə görə, ilk rus qəsəbələrinin yerləşdirilməsinin ilkin məqsədi məzhəbçilərin yerləşdirilməsinin zəruriliyi səbəbindən yaranmışdı. Onların mərkəzdən uzaqlaşdırılması 1838-ci ildə başladı (60-cı illərin ortalarına qədər) [1, 14].

Köçürməyə icazə verən ilk qanunvericilik aktı 20 oktyabr 1830-cu il tarixində "Zaqafqaziya vilayətlərinə köçürülməsi" haqqında qərar adlanır. Ruslar daxili əyalətlərdən Qafqaza köçürüldü. Senator Kuzminskinin sözlərinə görə, Ruslardan ilk könüllü köçürülənlər 1830-cu ildə molokanların Orenburq vilayətindən köçürülməsi idi.

İlk rus kəndləri arasında Vel, Privolnoe, Prishib, Nikolaevka, Ivanovka idi [8, 53]. 1833-cü ilin ortalarından etibarən Rusiya məzhəbçiləri Şamaxı və Şuşa bölgələrinə, daha sonra Lənkəran bölgəsinə yerləşdirildilər. Bir müddət, onlara şəhərlərdə məskunlaşmaq qadağan idi. Bir müddət sonra Şamaxı və Lənkəran şəhərlərində məskunlaşmalar başladı və yalnız 1859-cu ildə Bakıda Slobodada yerləşməyə icazə verildi [9, 7].

1841-1847-ci illərdə Yelizavetpol vilayətində Slavyanka, Novo-Goreloe, Novo-Troitskoe və Novo-Spasskoe yaşayış məntəqələri duxobor təriqətçilərindən ibarət idi. Arxiv məlumatına görə, 1852-ci ildə, Yelizavetpol vilayətində köçkünlərin köçürülməsi zamanı yerli sakinlərdən daha çox torpaq alınırdı [6, 47].

Rus əhalisinin köçünün sonrakı dalğası XIX - XX əsrin əvvəllərində baş verir. Bu əsasən sənaye, xüsusilə də neft və şəhər inkişafı ilə bağlı idi. 1897-ci ildən 1913-cü ilə qədər Bakıda Rusiya miqrantlarının sayı 38.975-dən 76.288 nəfərədək artdı . Rus işçiləri əsasən Bakının şimal-şərq ətrafında sənaye kəməri olan Qara və Ağ şəhərə yerləşdirildilər [10, 322].

1902-ci ildə Bakının neft sənayesindəki rusların sayı bütün işçilərin 29,4% -ni təşkil etmişdir (3, 15). Ruslar əsasən rəhbər işlərdə idilər. 1910-cu ilin məlumatlarına əsasən, Bakıda 107 hüquqşünas və onların köməkçiləri var idi ki, onlardan 38-i rus, 48-i erməni, 4-ü isə müsəlman idi.

Muğanın ilk rus qəsəbələri 1860-cı illərdə ortaya çıxdı. 1887-ci ildə Qafqaz vətəndaş hissəsinin baş komandanı A.M.D.Dondukov-Korsakovun əmri ilə Cavad şəhəri ləğv edildi. Onun yerinə immiqrantların məskunlaşmasına icazə verildi. Beləliklə, Muğanda ilk kəndi Petropavlovka meydana gəldi. Bununla belə, Muğanın fəal məskunlaşdırılması XX əsrin əvvəlində başlamışdır. N. Volkovanın sözlərinə görə, Muğanların ruslar tərəfindən məskunlaşdırılması nəticəsində 1897-ci ildən 1917-ci ilə qədər 48 kənd meydana çıxdı [5]. O. D. Komarovanın məlumatına görə, yalnız 15 il, 1902-1917-ci illərdə Muğanda 20 min nəfərdən çox əhalisi olan 55 rus qəsəbəsi meydana

gəlmişdi [7, 9]. Bu illər ərzində, onlarla rus qəsəbələri Xəzər sahili boyunca yaradılmışdır: şimal hissəsində - Lənkəran rayonunda - Quba rayonunda, eləcə də cənubda onların sayı artmışdı. XIX-XX əsrin əvvələrində yüzdən artıq Rus pravoslav kəndi Azərbaycanda yaranmışdır.

Bölgədə çar hökumətinin iqtisadi maraqları siyasi maraqları ilə əlaqəli idi. Rusiya höküməti zəngin ruslara Muğan çölündə pambıq əkilməsi üçün kapital qoymağı təkif edirdi. Mil düzündə də belə bir vəziyyət var idi. 1901-ci ilədək Yelizavetpol əyalətinin vəziyyəti ilə bağlı hesabat göstərir ki, Mil Rusiya üçün ciddi siyasi əhəmiyyətə malikdir, çünki İranla sərhəd olan bu Zaqafqaziya vilayətləri rus elementi ilə məskunlaşdırılmışdır. Bu köçürmə siyasətini həyata keçirərkən, hakimiyyət orqanları torpaqların istifadəsi şərtlərini pozur və rus miqrantlar və azərbaycanlı yarımköçərilər arasında münaqişəyə səbəb olurdular. Beləliklə, Şərqi Zaqafqaziya ərazisində köçəri heyvandarlığın inkişafı üçün nəzərdə tutulan ərazilər ruslara əkin üçün verilirdi [4, 112-113].

Azərbaycana köçürülmüş xristian əhali arasında almanlar da var idi. Azərbaycana köçürülmüş almanların tarixini öyrənərkən Cənubi Qafqaza köç etmək üçün səbəblərini izah etmək lazımdır. Cənubi Qafqazda almanların köçürülməsinin səbəbi iki qrupa bölünür: 1) XIX əsrdə Almaniyanın daxili tarixi şəraiti; 2) Yeni işğal olunmuş Qafqaz bölgəsinə aktiv müstəmləkəçi köçürülmə siyasətini həyata keçirən Rusiya İmperiyasının siyasi və iqtisadi vəziyyətini əks etdirən səbəblər.

Ümumiyyətlə, Almanların köçürülməsinin səbəblərindən biri o zaman Qərbdə baş verən ictimai və siyasi proseslərlə əlaqəli olmalıdır. Napoleon ilə müharibədən sonra, Almaniyada yaşayan əhalinin səviyyəsi çox aşağı düşmüşdü, bu səbəbdən almanlar öz doğma torpaqlarını tərk etməyə başladılar [11, 303].

Çar hökumət orqanlarına ünvanladığı məktubunda General Yermolov Yelizavetpol vilayətində kolonistlərin yerləşməsini tövsiyə edirdilər. Nəticədə, Tiflisdə 40 alman ailə qaldı, qalan 8, 9 və 10-cu koloniyalar Yelizavetpol əyalətinə köçməyə məc-

bur edildi. Beləliklə, Yelizavetpoldan yeddi verstdə ilk Alman koloniyası yaradıldı - Yelenendorf (indi Göy-Göl rayonu). 8-ci koloniyaya Gottlob Koch rəhbərlik edirdi, Jacob Krause isə 9-cu koloniyaya və Wuchter 10-cu koloniyaya başçılıq edirdi. Yelenendorf koloniyası ilə bərabər, ikinci bir koloniya olan Annefelddə qurulmuşdu (indi Şəmkir şəhəri), qurulmuşdur (2, 303). Beləliklə, Azərbaycanın uzaq şərq torpaqları Almanlar üçün ikinci vətən oldu. XIX əsrin sonlarında Azərbaycanda Alman koloniyalarının sayı artmışdı. Bunlar arasında Georgsfeld (Leninkənd - Çinarlı), Alekseyevka, Grinfeld (Qazax əyalətində), Eigenfeld (İrmaclı - Şəmkir), Traubenfeld (Tovuz rayonu), Elizavetinka (Ağstafa) var idi [5, 303].

Rus çarizminin köçürülmə siyasətinin həyata keçirilməsində ümumi prinsip və əsas vəzifə, çar Rusiyası müstəmləkəçilik siyasətinin strategiyası, onun bölgədəki mövcudluğunun gücləndirilməsi idi. Qafqazın yeni bir bölgə kimi siyasi və iqtisadi itaətkarlığının təmin edilməsi çarizmin köç siyasətinin başlıca amili idi.

Beləliklə, XIX-XX əsrlərdə Qafqazda rus çaizminin köç siyasətinin nəticəsi olaraq, gəlmə əhalinin sayı artmışdı. Miqrantlar həm məcburi, həm də könüllü məskunlaşdırılmışdı.

**Ədəbiyyat**


1. Багиров Ф. А. Переселенческая политика царизма в Азербайджане (1830-1914 гг.). – М.: Маросейка, 2009., с.14
2. Басихин П. Немецкие колонии на Кавказе. Этнографический очерк, Кавказский вестник 1900. том 1, с.303
3. История Коммунистической партии Азербайджана. Ч. 1. – Баку: Азернешр, 1958. – С. 15
4. Исмаил-Заде Д. И. Граф И.И. Воронцов-Дашков. Наместник Кавказский. – М.: ЗАО Центрполиграф, 2005. – С. 112-113
5. Гизетти А.П. Сборник сведений о потерях Кавказских войск во время войн. Тифлис: 1901, с.303
6. Кафарова З. А. Формирование рабочего класса в Азербайджане. – Баку: Нурлан, 2005. – С. 47

7. Комарова О. Д. Демографическая характеристика русских селений в Азербайджане // Русские старожилы Азербайджана. Часть 1. – М.: Институт этнографии АН СССР, 1990. – С. 9.
8. Русские / Отв. ред. В.А. Александров, И.В. Власова, Н.С. Полищук. – М.: Наука, 2003. – С. 53.
9. Волкова Н. Г. Этнические процессы в Закавказье в XIX-XX вв. // Кавказский этнографический сборник. – М.: Изд-во АН СССР, 1969. – Т. 4. – С. 7.
10. Йорг Баберовски. Цивилизаторская миссия и национализм в Закавказье: 1828 – 1914 гг. // Новая имперская истории постсоветского пространства. – Казань: Центр исследований национализма и империи, 2004. – С. 322
11. Зейналова С. Немцы на Кавказе. Баку: 2008, с.303

# PSİXOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri – dos.Mirələm Vəliyev***

## TƏLİMDƏN GERİ QALMADA AİLƏNİN ROLU

***Kərimli Nəzrin Eyvaz qızı***
*BDU-nun II kurs magistrantı*
*nazrinkarimli2@gmail.com*

İnsan həyatının çox mühüm hissəsi ailə mühitində keçir. İnsanın xarakterinin, ətraf aləmə, əməyə, mədəniyyət sərvətlərinə münasibətinin əsasları məhz ailədə qoyulur. Ailənin tərbiyə şəraitini əks etdirən amilləri iki tipə ayırmaq olar. Ana-ata, ana-uşaqlar, ata-uşaqlar, uşaqların öz arasındakı münasibətləri birinci tip amillər sırasına daxildir. Ailənin maddi vəziyyəti, yaşayış mühitinin şəraiti isə ikinci tip amillərə aiddir.

Ailə mühiti şəxsiyyətin inkişafına və formalaşmasına bütövlükdə təsir göstərir. Aparılan psixoloji tədqiqatlardan aydın olur ki, uğursuz ailələrdə uşaqlarla valideynlər arasında əlaqə-

nin gərginləşməsi, ailənin maddi durumunun aşağı səviyyədə olması, habelə təhsilə biganə münasibət, KİV-lərin pozucu mövqeyi və s. kimi neqativ sosial amillər təlim prosesində müvəffəqiyyətsizliyə səbəb olur.

Tədqiqatçı V.M.Astapov belə hesab edirdi ki, təlimdə müvəffəqiyyətsizlik əksər hallarda idrak fəaliyyətinin pozulmaları ilə deyil, digər səbəblərlə əlaqəlidir. Çox zaman müvəffəqiyyətsizliyin səbəbi ailədə əlverişsiz həyat şəraitidir, valideynlər tərəfindən tədrisə həm nəzarətin, həm də köməyin olmamasıdır, ailədə münaqişələrin mövcudluğu və rejim qaydalarına əməl edilməməsidir.

Ailədəki mənfi hal uşaqların əsəb-psixi sferasına güclü təsir göstərir. Bunun nəticəsi kimi uşaqların intellektual və emosional aclığı, kobud intizamsızlığı, inkişafın gecikməsi və s. hallar təzahür edir.

Ailədə diqqətsiz, qayğısız böyüyən uşaqlar elə ilk günlərdən təlimdə çətinliklərlə qarşılaşırlar. Onların nitqinin məhdudluğu, lüğət ehtiyatının azlığı, ətraf aləm haqqında bilik və məlumatların kifayətsizliyi, bir çox bacarıqların formalaşmaması diqqəti cəlb edir. Bu tip uşaqlar məktəbin qayda-qanunlarına əməl etməkdə çətinlik çəkir, təlim prosesinə biganə yanaşırlar.

Psixoloqlar sinif kollektivində öz davranış və rəftarı ilə bir-birindən kəskin surətdə fərqlənən şagirdləri iki qrupa ayırmışlar. Birinci qrupa kollektivçilik, məsuliyyət hissi, aktivliyi ilə, ikinci qrupa isə əks keyfiyyətlərlə fərqlənən şagirdləri daxil etmişlər. Daha sonra isə şagirdlərin valideynləri ilə münasibətlərini təhlil etmişlər. Müəyyən edilmişdir ki, birinci qrupa daxil olan şagirdlərin valideynləri onların hissləri ilə daha yaxından maraqlanır, asudə vaxtlarını səmərəli təşkil edir, onlarla təmkinli rəftar edirlər.

Uşaq psixoloqu, psixiatr M.İ.Buyanov ailədə tərbiyənin bir neçə tipdən olan çatışmazlığını ayırd edir: [2 s. 153]

1. Göyçək Fatma tipi üzrə tərbiyə - bu halda valideynlər

uşaqlara hədsiz dərəcədə laqeyd münasibət bəsləyir, yüksək tələblər verirlər. Uşaqlara qarşı isti münasibət və rəğbətləndirmə nümayiş etdirilmir.

2. Ailənin kumiri tipi üzrə tərbiyə - belə ailələrdə uşaqların bütün tələbləri yerinə yetirilir, ailənin bütün həyatı ancaq onların arzu və istəkləri üzərində qurulur. Nəticədə uşaqlar şıltaq, özbaşına böyüyür, qadağaları qəbul etmir, valideynləri-nin imkanlarının məhdudluğunu başa düşmürlər.

3. İfrat qəyyumluq - uşağın müstəqilliyi əlindən alınır, imkanlarının inkişafına maneə olunur. Belə uşaqların bir çoxu qətiyyətsiz, zəif iradəli, həyata uyğunlaşa bilməyən adamlar kimi böyüyürlər və buna adət edirlər ki, onların əvəzinə kimsə hər şeyi edəcəkdir.

4. Hippoqəyyumluq - belə tərbiyə variantında uşaq özünü təqdim edir, onun davranışına heç kəs nəzarət etmir. Bu uşalarda sosial həyat vərdişləri formalaşdırılmır.

5. Kralın varisi tipi üzrə tərbiyə - belə ailələrin üzvləri cəmiyyətdə yüksək mövqe tuturlar. Valideynlər öz kariyeraları, şöhrətləri üçün çox vaxt ayırır, öz uşaqları ilə yetərincə məşğul olmurlar, müxtəlif hədiyyələr və qayğı əvəzinə emosiyaların gərginliyini alırlar. Valideynlər uşaqların tərbiyəsini qohumlara və ya təsadüfi adamlara tapşırırlar.

Valideyn-uşaq münasibətləri uşaqların həyəcanını formalaşdıran amildir, bunun nəticəsi isə təlimdə geri qalma ilə yekunlaşır. Qeyd etmək lazımdır ki, təlimin keyfiyyətinə təkcə valideyn-uşaq münasibətləri təsir göstərmir, eyni zamanda əksi də olur, uşaq yaxşı oxuyursa, adətən ailə münasibətləri də buna uyğun məcrəya yönəlir. Uğurlu təlim üçün emosional məmnunluq, valideyn tələbkarlığının yüksək səviyyəsi, uşağın tərbiyəsi baxımından ailədə münaqişələrin aradan qaldırılması məktəbli üçün çox vacibdir.

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə., Psixologiya Bakı 2009, səh 622

2. Vəliyev M.V.,Mustafayev A.M.,İnkişaf və yaş psixologiyası Bakı 2016, səh 331

3. Vəliyev M.V., Mustafayev A.M.,Təlimdə geri qalan şagirdlərin psixoloji xüsusiyyətləri. Müasir dövrün aktual problemləri. Elmi əsərlər toplusu. Buraxılış N.6. Bakı 2011

4. Выготский Л.С., Педагогическая психология М.,1991 480с.

# SƏNƏT SEÇİMİ VƏ HƏYATA KEÇİRİLMƏSİNİN SOSİAL-PSİXOLOJİ AMİLLƏRİ

***Ələkbərli Ayişə Cahid qızı***
*BDU-nun II kurs magistrantı*
*ayshe.elekberli@gmail.com*

Karyera qurma, peşəkar şəxsiyyətin formalaşması və sənət seçimi ilə bağlı qərar vermə modelləri ilə əlaqədardır. Bu proses bir çox amillərdən təsirlənir. Sənət seçimini və həyata keçirilməsini şərtləndirən amillər arasında tarixi, sosial-psixoloji, sosial-mədəni, sosial-iqtisadi, fərdi-şəxsi və genetik var. Müasir tədqiqatlar fərdin inkişafının sosial kontekstinin əhəmiyyətini vurğulayır. Sosial-psixoloji faktorlara aşağıdakılar daxildir: fərdin oynadığı çoxsaylı sosial rollar, məktəbin və ailənin tərkibi, müxtəlif sosial qrupların həyat tərzinin xüsusiyyətləri, yaxın sosial mühitin normaları, qavrayışları və dəyərləri. Bundan əlavə, cəmiyyətin tarixi, iqtisadi və mədəni xüsusiyyətləri ilə əlaqəli amillər qeyd olunur:

- məhdudiyyətlər qoyan və ya müəyyən peşə sahələrini təyin edən sosial quruluş (qrup, sinif);
- nəsillərin peşəkar və sosial tərcümeyi-hallarını əvvəlcədən müəyyən edən sosial quruluşun inkişafında tarixi mərhələ;
- bu tip cəmiyyətin mədəni spesifikliyi, ideoloji və siyasi xüsusiyyətləri, dövlətin sosial-iqtisadi vəziyyəti;
- sosial mənşə, tərbiyə və yaşam şərtləri, cəmiyyətin ehtiyacları (sənətə tələbat);
- valideynlərin peşə və təhsil səviyyəsi;
- irqi və etnik mənsubiyyət [4, s.26].

Sənət və qurmaq xüsusiyyətləri aşağıdakı fərdi və şəxsi xüsusiyyətlərlə əlaqələndirilə bilər:

- cins;
- yaş;

- sağlamlıq vəziyyəti;
- peşəkar istək və münasibətlər;
- dəyər istiqamətləri;
- ehtiyaclar və motivlər;
- qabiliyyət;
- maraqlar, meyllər;
- peşəkar oriyentasiya;
- özünə hörmət və özünütəsdiq onun tərkib hissəsi kimi;
- iddiaların səviyyəsi;
- daxili səviyyəsi;
- özünə inam, narahatlıq;
- fərdlərin xarakterik xüsusiyyətləri;
- sənət dünyası haqqında məlumatlılıq;
- rol gözləntilərinin ənənəvi xarakteri;
- peşə mənsubiyyətinə görə sənət imicinin xüsusiyyətləri;
- karyera və ümumiyyətlə özü haqqında fikirlərin xüsusiyyətləri;
- fərdi təcrübə, karyera məqsədlərinə çatmağın çətinlikləri haqqında fikirlər [2, s.61].

Bir çox şəxsiyyət xüsusiyyətləri insanın sənət seçimini təyin edir. Bu xüsusiyyətlər bir sıra psixoloji nəzəriyyələrdə təsvir edilmişdir. Beləliklə, *D.Super*-ə görə, fərdin özünü anlayışı sənət seçimini müəyyən edir. Eyni zamanda, mənlik anlayışı professional imiciylə əlaqələndirilir və mütəxəssisin imici şəxsiyyət üçün standartdır. *J.Holland*-a görə, sənət seçimi və quruluşu şəxsiyyət tipinə (realist, araşdırma, bədii, sosial, təşəbbüskar, şərti) və sosial mühitin növünə uyğun olma dərəcəsinə görə müəyyən edilir. *E.Cheyn*-in də qeyd etdiyi kimi, fərdin karyera inkişafı onun meylləri, dəyər istiqamətləri, sosial münasibətləri, maraqları və digər oxşar sosial şərtləndirilmiş fəaliyyət motivləri ilə əlaqədar olaraq müəyyən istiqamət əldə edir [1, s.137].

Sənət seçimində və inkişafında cinsi tipik fərqlər olduqca davamlıdır, uşaqlıqda peşə üstünlükləri seçilərkən başlayır və

iş dünyasının gender bölgüsü şəklində davam edir. Sənət seçimində əsas gender fərqləri aşağıdakılardır:

a) sənət maraqları;

b) mümkün sənət seçimlərinin çeşidi;

c) karyera arzuları və gözləntiləri;

d) ömrü boyu sənət uğurlarını proqnozlaşdırmaq;

e) peşəkar karyeraya erkən daxil olmaq;

f) iş itkisi vəziyyətinin öhdəsindən gəlmək üçün tədbirlər və s. [2, s.46].

Sənət seçimi, fərdin özünü və peşədəki imkanlarını necə qəbul etdiyini əks etdirir. Bu vizyonun təzahürlərindən biri də fərdin özünü göstərmə qabiliyyətidir. Özünütəsdiq, insanın məqsədlərinə çatmaq üçün vəziyyətə nəzarəti həyata keçirmək üçün lazım olan öz motivasiyasını, resurslarını və s. çatmaqdır. Fərdin karyerasının xüsusiyyətlərini təyin edən əhəmiyyətli faktor cinsiyyət rolu xüsusiyyətləridir və ya gender rollarıdır. Psixoloji ədəbiyyat mövzunun qarşılıqlı təsirini qeyd edir. Sənət seçiminin həyata keçirilməsini təmin edən keyfiyyətlərin ortaya çıxmasına və inkişafına səbəb olan şəxsi dəyişikliklər, əsasən karyeranın mövzunun şəxsiyyətinə təsirinin nəticəsidir. Sənət seçimi, insan ontogenezinə əsasən düzəldici və həyat yolunda formalaşdırıcı təsir göstərir. Deyə bilərik ki, əvvəl insan sənət seçir, sonra sənət onu seçir. Sənət seçməyi və qurmağı çətinləşdirən amillər də var. Bunlara "hərəkətə keçməzdən əvvəl tam əmin olmalıyam" kimi "miflər" daxildir. Bəzi fikirlər o qədər kök salmışdır ki, onları daşıyıcıları rəy kimi təyin edə bilməz, əksinə mübahisəsiz özünü göstərən həqiqətlər kimi qəbul edilir. Bu cür "əfsanələr" fərdin sənət seçimi və inkişaf imkanları ilə bağlı üfüqlərini daraldır.

Beləliklə, mövzu tərəfindən sənət seçiminə və həyata keçirilməsinə təsir edən bir çox amilləri qeyd etmək olar. Bu amillər müxtəlif səviyyələrdə təqdim olunur:

- şəxs (cinsi, yaşı, sağlamlıq vəziyyəti);
- şəxsi (maraqlar, meyl və qabiliyyətlər, dəyərlər və münasi-

bətlər, ehtiyaclar və motivlər, özünə hörmət və istəklərin səviyyəsi, xarakteroloji xüsusiyyətlər, sənət haqqında fikirlərin xüsusiyyətləri və s.);

- sosial-psixoloji (istinad mühitinin təsiri, fərdin sosial rolları) [3, s.106].

**Ədəbiyyat**

1. Аллахвердов М. С. Психология: учебник для вузов / отв. ред. А.А.Крылова. М.: Проспект, 2004. 267 с.

2. Голомшкок А.Е. Выбор профессии и воспитание личности школьника. М.: Владос, 1999. 145 с.

3. Маслоу А. Мотивация и личность. М.: Проспект, 2004. 326 с.

4. Функциональное значение успеха личност. М.А.Александрова, М.А.Дакоро, Е.П.Ларькова, Ф.Р.Туктаров. Ростов н/Д.: Наука-Пресс, 2005. 137 с.

## İNTERNET ASILILIĞININ YENİYETMƏNİN ŞƏXSİYYƏTİNİN İNKİŞAFINA TƏSİRİ

***Əhmədova Aişə İlqar qızı***
*BDU-nun II kurs magistrantı*
*aisha_ahmadova99@mail.ru*

Bu gün bəşəriyyət "kompüter-psixika" əlaqəsinin nəticələrinin problemi ilə üz-üzədir. İndiki vaxtda İnternetin istifadəçinin şəxsiyyətinə təsirinin dərin və sistemli olduğu artıq şübhə doğurmur. *A.E.Voiskunsky* və başqaları, İnternetdəki psixoloji araşdırmaların ilkin mərhələsini yekunlaşdıraraq, informasiya texnologiyalarının şəxsi inkişa-fına təsirinin birmənalı olaraq müsbət və ya mənfi qiymətləndirilə bilməyəcəyinə işarə edir. İnternet asılılığı deyilən şəxsiyyətdəki mənfi dəyişikliklərlə birlikdə , fərdi qabiliyyətlərin müsbət inkişaf ehtimalı var [1, s.12]. Bəli, "yeniyetmə - kompüter – İnternet" zəncirində əla-

qələrinin inkişafı üçün iki mümkün variant var: “müsbət" və "mənfi”. İkinci vəziyyətdə, kompüterdən və İnternetdən tez-tez istifadə etməklə, çox sayda davranış üzərində nəzarət problemlərində və nəticədə şəxsiyyət dəyişikliyində ifadə olunan İnternet asılılığının psixoloji təzahürləri ortaya çıxır. Bu yazıda, İnternet asılılığının yeniyetmənin şəxsiyyətinə dəyişdirici təsiri haqqında bir neçə məlumatı sistemləşdirməyə və ümumiləş-dirməyə, həm də bu gün yeniyetmələrin niyə formalaşması üçün əsas risk qrupunda olduğu sualına cavab verməyə çalışacağıq (fərqli ölkələrdə İnternetə bağlı yeniyetmələrin sayı 1,4 %-dən 17,9 %-ə qədər dəyişir)

Yeniyetmə, “Mən kiməm?”, “Mən kimin üçünəm?” suallarına cavab axtaran, inkişaf edən şəxsiyyətdir. Yeniyetməlik dövründə fərd keyfiyyətcə yeni sosial mövqeyə girir, bu zaman cəmiyyətin bir üzvü olaraq özünə qarşı şüurlu münasibəti formalaşır. Nəticə etibarilə, insanın sosial münasibətlərinin formalaşmasında çox şey bu dövrdə sosial yönümün necə davam etməsindən asılıdır. Hər yaş dövrü üçün aparıcı fəaliyyət növü xarakterikdir və müəyyən motivlər iyerarxiyasının formalaşmasına, məqsəd qoyma prosesinin inkişafına əhəmiyyətli təsir edən şəxsdir. Yeniyetməlik üçün, həmyaşıdları ilə münasibətlərin normalarını mənimsəməyə yönəlmiş fəaliyyətlər xarakterikdir. Şəxsiyyət həyatının bu tərəfi, yeniyetmə şəxsiyyətinin motivasiya-ehtiyac sahəsinə cavab verən ictimai faydalı fəaliyyətlə ifadə olunur, onun öz müqəddəratını təyin etməsi, özünü ifadə etməsi və böyüklər tərəfindən öz fəaliyyətinin tanınması həyata keçirilir. Bu ontogenez dövründə insanın sosial mahiyyətinin təzahürü və möhkəmlənməsi üçün ən əlverişli şərtlər formalaşır [4, s.172].

Yeniyetməlik zehni inkişafın kritik dövrüdür. Kəskin gedən zehni sınıq onun müstəsna mürəkkəbliyini və uyğunsuzluğunu təyin edir. İnkişaf fiziologiyasında kritik dövrlər normal inkişaf gedişatını pozma ehtimalı baxımından nəzərdən keçirilir və psixologiyada bu termin yeniyetmənin təsirlərin formalaşma-

sına həssaslığını ifadə edir. Sabit dövrlərdən fərqli olaraq, kritik dövrlər nisbətən qısa müddət ərzində şəxsiyyətin formalaşmasında kardinal dəyişikliklərin baş verdiyi inkişaf dönəmləridir. Məlumdur ki, bu dövrün ən əhəmiyyətli psixoloji neoplazması özünüdərkin formalaşmasıdır. Yeniyetmənin özünü dərk etməsini xarakterizə edən əhəmiyyətli xüsusiyyət yetkinlik hissidir. Beləliklə, yeniyetmə özünü real münasibətlər sistemində böyüklərin vəziyyətinə salır. Yaşın psixoloji xüsusiyyətləri bir sıra hallarla, ilk növbədə yeniyetmənin sosial şərtləri və həyat tərzi, tərbiyəsi və praktik fəaliyyətinin xarakteri ilə müəyyən edilir. Bu dövrdə yeni fəaliyyətlər axtarılır. Şəxsiyyətinin formalaşması yeniyetmənin həyatında hansı fəaliyyətin aparıcı olacağına bağlıdır.

Bildiyiniz kimi, hər hansı fəaliyyət ehtiyacları ödəmək məqsədi daşıyır. Müasir yeniyetmənin əsas ehtiyaclarının dairəsi olduqca genişdir. Həyat (fizioloji və təhlükəsizlik) ilə yanaşı, sosial ehtiyaclar (ünsiyyət, sevgi, tanınma) və şəxsiyyətin inkişafı ilə bağlı ehtiyaclar (idrak, anlayış, özünü dərk etmə) onların arasında mühüm yer tutur. İnternet İnkişaf Fondu tərəfindən *G.V.Soldatova, O.S.Gostimskaya, E.Y.Kropaleva*, aparılmış tədqiqatlar yeniyetmələrin İnternetin köməyi ilə qarşıladığı ehtiyacların aralığını təyin etməyə imkan verdi. Bunların arasından aşağıdakıları vurğulamaq olar:

- muxtariyyət və müstəqillik ehtiyacı (sosiallaşma prosesində bu ehtiyac, ilk növbədə, valideynlərdən müstəqillik arzusunu nəzərdə tutur);
- özünü tanıma ehtiyacı;
- tanınma və biliyə ehtiyac;
- ünsiyyətə, maraq qrupuna aid olmağa, sevgiyə olan sosial ehtiyacın ödənilməsi;
- mülkiyyət ehtiyacı;
- koqnitiv ehtiyac, həm də yeni biliklərə sahib olmaq həmyaşıdları tərəfindən tanınmağa və özünü həyata keçirməyə kömək edir [3, s.22].

İnternetdən istifadə nəticəsində, sistemin əsas insan ehtiyaclarından biri olan təhlükəsizlik ehtiyacını ödəyən vəziyyətə tam nəzarət və sahiblik hissi yaranır. Yeniyetmələrin niyə vaxtlarını kiber məkan kimi qəribə və qeyri-adi yerlərdə keçirdiklərini daha yaxşı başa düşmək üçün böyümənin sadə və tanınmış cəhətlərini təkrarlamağa dəyər. Yeniyetmələr ətraf aləmdəki yerini müəyyən etməyə çalışırlar. Özlərinə "qlobal" suallar verirlər: Mən kiməm? Niyə yaşayıram? Bunlar cavablandırılması çox çətin olan suallardır və bəzilərini kibermәkanda tapa bilərsiniz. Böyümək prosesində insan sevgi münasibətlərinin müxtəlif cəhətləri ilə, xüsusən də əks cinslə tanış olur. Qrupa aid olmaq hissini yaşaya biləcəyi dostlar və yer axtarır. Bütün bu əlaqələr şəxsi identifikasiyanın vacib bir hissəsidir. Kibermәkan ona maraqlarını, dəyərlərini və meyllərinə görə üzvlərini birləşdirən saysız-hesabsız insan və qruplar təqdim edir. Yeniyetmələrin həyatda öz yerlərini axtarmaları və digər insanlarla münasibət qurmaları, valideynlərindən ayrılmaq arzusu ilə əl-ələ verir. Yeniyetmə müstəqil olmaq və istədiyini etmək istəyir. Ancaq eyni zamanda valideynlərindən tamamilə ayrılmaq istəmir. Burada İnternet unikal fürsət verir. Yeni insanlarla tanış olmaq, maraqlı şeylər etmək, dünyanı kəşf etmək istəyirsən? Valideynlərinizlə evdə qalmaq istəyirsiniz? İnternet eyni zamanda bunu etməyə imkan verir.

Məlumdur ki, yeniyetməlik psixologiyası "valideynlər və övladlar" problemi ilə sıx bağlıdır. Kompüter oyunlarına patoloji asılılıq ilə xarakterizə olunan yeniyetmələrin ailələrində *R.F.Teperik*-in apardığı araşdırmaların nəticələrinə görə, ailə ünsiyyətinin spesifikliyi ortaya çıxdı: analar ya hiper və ya hipoprotektiv xüsusiyyətlər göstərir, emosional məsafə ata ilə münasibətlər üçün xarakterikdir [4, s.59]. Əlaqəli hadisələr və patoloji davranış nümunələri müşahidə olunur. Bu, yeniyetmədə təcrid hissinin yaranmasına və sonradan həmyaşıd qrupunda uyğunlaşma problemlərinə səbəb oldu. Yeniyetməlik, məktəb, ailə və dostların təzyiqi ilə çətin və sinir bozucu həyat dövrüdür. Xüsusilə bədəndəki hormonal dəyişikliklərlə sıxlaşdıqda, yeniyetmə yaşadı-

ğı təcrübələrlə nə etməlidir? Məyusluqdan qurtulmaq lazımdır və bunu anonim, məsuliyyətsiz kiber məkanda etməyə çalışa bilər. *V.L.Malygin, N.S.Khomerika* və *E.A.Smirnova* üçün İnternet asılılığının formalaşması üçün risk faktorları yeniyetmələrin aşağıdakı şəxsiyyət xüsusiyyətləri ilə əlaqələndirilir: yeni duyğular axtarmağa meyl, təcavüzkarlıq və narahatlıq, antisosial mübarizə strategiyaları, emosional yadlaşma, aşağı ünsiyyət qabiliyyəti və s. [2, s.33]. Buna görə də, bütün yeniyetmə istifadəçilər eyni şəbəkədə tutulur və eyni risk qrupundadır.

**Ədəbiyyat**


1. Бабаева Ю.Д., Войскунский А.Е., Смыслова О.В. Интернет: воздействие на личность. Гуманитарные исследования в Интернете. Москва: Можайск-Терра, 2000, 431 с.
2. Балонов И.М. «Компьютер и подросток» М., 2002 г. С.32-58.
3. Егоров А.Ю., Кузнецова Н., Петрова Е. Особенности личности подростков с интернет-зависимостью // Вопросы психического здоровья детей и подростков. 2005. Т.5. № 2. С. 20-27
4. Фельдштейн Д.И. Возрастная и педагогическая психология. Избранные психологические труды. М.: Издательство Московского психолого-социального института, 2002. 432 с.


## AİLƏ, SOSİAL MÜNASİBƏTLƏR VƏ İCMA ƏSASLI YANAŞMANIN UŞAQLARIN RİFAHINDA TƏSİRİ


***Şahinzadə Günel Oqtay qızı***
***BDU-nun Psixologiya kafedrasının doktorantı***
***gunelshahinzade@mail.ru***


Ailədən kənar böyüyən, tərbiyə alan uşaqların psixi inkişaf xüsusiyyətləri müasir dövrümüzün aktual məsələlərindəndir. Belə uşaqların inkişaf tempi, onun xüsusiyyətləri ailədə, vali-

deyn himayəsində böyüyən uşaqların inkişafından xeyli fərqlənir. Onların inkişafları və sağlamlıqları bir sıra neqativ xüsusiyyətlərə malik olur. Bu kənara çıxmalar onların bütün inkişaf mərhələlərində - körpəlikdən başlayaraq yeniyetməlik və daha sonrakı inkişaflarında özünü göstərir.

Qapalı uşaq müəssisələrinin üzvlərində psixoloji xüsusiyyətlərin spesifik və müxtəlif kompleksləri müşahidə olunur.bu komplekslər onların ailədə böyüyən həmyaşıd-larından fərqlənməsinə səbəb olur [3, s.200]. İnkişafın spesifikliyi, qapalı uşaq müəssisəsində olan uşaqların iradi sferası və şəxsiyyət xüsusiyyətləri baxılan bütün yaş dövrlərində saxlanıldığını göstərir. Bu xüsusiyyətlərə daxili pozisiya (gələcəyə zəif istiqamətlənmə), emosional sahə, "Mən" obrazın sadələşmiş və tükənmiş məzmunu, özünə münasibətin aşağı olması, böyüklərə, həmyaşıdlarına və əşyalara münasibətdə seçiciliyin formalaşmaması, impulsivlik, davranışın dərk olunmaması və müstəqil olmaması, təfəkkürün situativliyi və s.-ni aid etmək olar. Uşaqların kommunikativ fəaliyyətləri ilə onların psixoloji xüsusiyyətləri bir-biri ilə qarşılıqlı əlaqədədir. Uşaqlarda ünsiyyətin inkişafı böyüklərin onu necə təşkil edib həyata keçirmələrindən asılıdır [2, s. 440].

Qısa olaraq uşaq evləri və internatlarda böyüyən uşaqların xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Uşağın intellektual inkişafının çatışmazlığı iradi proseslərin, diqqətin davamsızlığının, zəif yaddaşın, zəif inkişaf etmiş təfəkkürün, aşağı erudisiyasiyanın və s.-nin zəifləməsi və ya formalaşmaması inkişafsızlığında ifadə oluna bilər. Aşağı intellektual inkişafın səbəbləri müxtəlif ola bilər: beynin normal işinin pozulmasından tutmuş normal təhsil-tərbiyə şəraitinin olmamasına qədər dəyişə bilər. Uşağın intellektual inkişafı kifayət qədər diqqətin olmaması onun təlimdə geriləməsinə səbəb ola bilər.

2. Uşaqların yaşıdları ilə birgə fəaliyyəti və ünsiyyəti. Oyun zamanı uşaqlar yoldaşlarına və fəaliyyətlərinə daha az diqqətli olurlar. Oyun zamanı dostlarının xahişlərinə, küsmələrinə fikir vermirlər. Rollu oyunlar zamanı isə oynadığı roldan

çox öz adından çıxış edirlər.

3. Internat müəssisələrində tərbiyə alanların cinsi identifikasiya problemi. Qadın və kişi streotipləri özünüdərk, təcrübə və öz cinsindən olanlarla identifikasiya nəticəsində keçir. Internatda böyüyən uşaqlar bu yönəlişdən təcrid olunurlar. Lakin məktəbyaşlı uşaqlar artıq öz cinsini dərk edir, özünü qız və ya oğlan kimi təsdiqləməyə çalışırlar. Bu dövrdə onlar ailələrdə olan həmyaşıdlarından fərqlənmirlər. Lakin onların belə cinsi identifikası keyfiyyət baxımından bir-birindən fərqlənir. Belə ki, ailədə uşaqlar özlərini öz valideynləri ilə identifikasiya edirlər, internatdakı uşaqlar isə öz yaşıdları ilə [3, s. 186].

4. Şəxsiyyətin mənəvi inkişafında problemlər. Mənəvi inkişafda problemlər kiçik məktəb yaşından başlayır. Bunlar özünü oğurluq, məsuliyyətsizlik, daha zəifləri əzmək təhqir etmək, empatiyanın az olması, mənəvi normalara, qaydalara, məhdudiyyətlərə fikir verməmək kimi problemlərdə özünü göstərir.

5. Yetim uşaqların sosiallaşması. Sosializasiya problemi dedikdə mütəxəssislər bu və ya digər sosial rola malik olmaqda qarşıya çıxan çətinlikləri nəzərdə tuturlar. Bu rollara malik olduqca insan sosiallaşır, şəxsiyyətə çevrilir. Adi uşaq üçün normal əlaqələrin olmaması uşağın ayrı-ayrı yerlərdən aldığı informasiya əsasında bu rolları qurmasına gətirib çıxarır.

6. Emosional-iradi inkişafın problemləri. Internat evlərində böyüyən uşaqların şəxsiyyətinin formalaşmasında olan əsas problemlərdən biri də emosional-iradi sferanın inkişafında olan problemlərdir. Bu pozuntulara sosial qarşılıqlı təsirdə olan problemlər, özünə inamsızlıq, özünütəşkilin, məqsədyönlülüyün azalması, müstəqilliyin kifayət qədər inkişaf etməməsi ("şəxsiyyət gücü"), qeyri-adekvat özünüqiymətləndirməni misal göstərmək olar. Bu cür pozulmalar özünü yüksəlmiş həyacanlılıqda, emosional gərginlikdə, psixoloji yorğunluqda, emosional stressdə özünü göstərir.

Yetim uşaqların psixi inkişafını xarakterizə edən bəzi ümumi xüsusiyyətlərə baxmayaraq psixo-pedaqoji müşahidənin subyek-

ti olaraq hər biri özünəməxsus xüsusiyyətləri vardır. Internat məktəblərində tərbiyə alan uşaqları birləşdirən bir xüsusiyyət onların deprivasiya sindromudur [1, s. 98]. Bununla belə hər bir uşaq özünün yetimlik tarixi, böyüklərlə münasibət təcrübəsi, özünün şəxsiyyətinin inkişaf xüsusiyyətləri vardır ki, bunlarda hər zaman psixi inkişafın gerilməsi və ya ləngiməsi kimi təsnif oluna bilməzlər. uşağın şəxsiyyətinin formalaşmasına təsir edən amillərdən biri onun deprivasiya şəraitində inkişaf etməsidir.

### Ədəbiyyat

1. Буянов, М.И. - Ребенок из неблагополучной семьи: Записки детского психиатра: Кн. для учителей и родителей. – М.: Просвещение, 1988. – 207 с.
2. Муфтеева, А.М. Психологические особенности воспитанников социального приюта / Человек. Общество. Культура. Социализация: материалы Всероссийской научно-практической студенческой конференции. – Уфа: Изд-во БГПУ, 2009. – 440 с.
3. Прихожан, А.М., Толстых, Н.Н. Психология сиротства – СПб: Питер, 2005 г. – 400 с.

## İLKİN UŞAQ AUTİZMİNDƏ PSİXOLOJİ İŞİN TƏŞKİLİ

***p.ü.f.d. Nuriyyeva Məlahət Rafiq qızı***
*BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müəllimi*
*nuruyeva.malahat@bsu.edu.az*

Autistik uşaqların problemləri göstərir ki, reabilitasiyada əsas olaraq müalicəvi təşkil və sosial-psixoloji dəstək vacibdir. Psixoloji dəstək özündə böyüklərlə əlaqəni, sensor və emosional diskomfortun aradan qaldırılmasını, qorxuları, qarşılıqlı təsir vərdişlərinin öyrədilməsini, məqsədyönlü davranışın formalaşdırılmasını, mənfi davranışların aradan qaldırılmasını birləşdirən psixoloji korreksioyanı nəzərdə tutur.

Pedaqoji korreksiya pedaqoqla qarşılıqlı təsirin aktivləş-

məsinə, özünəqulluq bacarıqlarının öyrədilməsinə, qavramada, motorikada, diqqətdə, nitqdə olan geriləmələrə istiqamətlənir [2, s. 250].

İlkin uşaq autizmli uşaqlar üçün psixokorreksion proqram tərtib ederkən hər şeydən əvvəl affektiv potologiyanın xüsusiyyətlərini nəzərə almaq lazımdır. Ənənəvi olaraq 2 ayrılır:

- Emosional-iradi inkişafında nəzərə çarpan təhrifləri olan uşaqlar
- Koqnitiv inkişafında nəzərə çarpan təhrifləri olan uşaqlar.

Bəzi alimlər üçünücü qrupu da – təhrif olunmuş inkişafın mozaik forması (həm emosional-iradi sfera, həm də koqnitiv sahənin təhrif olunması) qrupunu əlavə etməyi təklif edir.

Autistik uşaqlarla əsas psixokorreksion iş əsasən özündə aşağıdakıları birləşdirir:

- Uşağın xarici aləmə orientasiyası
- Ona sadə kontank bacarıqlarının öyrədilməsi
- Uşağa daha çətin davranış formalarının öyrədilməsi
- Autistik uşağın özünüdərkinin və şəxsiyyətinin inkişafı

Tədqiqatçılar işlərində ilkin uşaq autizmli uşaqların psixokorreksiyasının əsas məsələlərinə aşağıdakıları aid etmişdirlər [1, s. 20]:

1. Autistik uşaqla kontaktın qurulması və ünsiyyət zamanı neqativizmin aradan qaldırılması. Autistik uşaqla kontaktın yaradılması prosesi uzun müddət tələb edir və bütün korreksiya işinin əsasını təşkil edir. Bu vəzifəinn müvəffəqiyyətlə icrası məşğələnin mülayim sensor atmosferdə keçməsi məsləhət görülür. Bunu xüsusi təchiz edilmiş müəssisədə sakit həzin müsiqi ilə əldə etmək olar. İlkin uşaq autizmli uşaqların psixoloji korreksiyasında müsiqi böyük rol oynayır. Məşğələlərdə mülayim, azad emosionallığa da mühüm əhəmiyyət verilir: uşaqla sakit tərzdə danışmalı, bəzi hallarda isə (xüsusilə uşaq qıcıqlanmış olduqda) pıçıltılı səslə danışmalı, kəs-

kin hərəkətlərə, uşağa birbaşa suallarla müraciət etməyə yol verməməlidir. Qeyd etmək lazımdır ki, bu halda autizmli uşaqlarla işləyən mütəxəssisin qarşısında onun qorxuları ilə də işləmək durur. Bu vəzifənin yerinə yetirilməsində direktiv oyun terapiyasından istifadə etmək olar.

2. Sensor və emosional diskomfortun yumşaldılması. Bu problemi həll etmək üçün, mütəxəssisin uşağın əhvalını başa düşmək qabiliyyəti olmalı, korreksiya prosesində uşağın davranışının spesifikyini başa düşməli, həmçinin, uşağın affektiv oyanıqlıq vaxtını tutmalı və ona emosional oyun mənasını verməyi bacarmalıdır.

3. Böyüklər və uşaqlarla ünsiyyət prosesində uşağın psixi aktivliyinin yüksəldilməsi. Məqsədyönlü davranış – autizmli uşaqların psixokorreksiyasında vacib vəzifədir. Bu vəzifənin həyata keçirilməsində uşağın diqqətinin cəmlənməsinə yönəlmiş mahnı ilə müşayət olunan məşğələ və oyunlar rol oynayır [2, s. 100].

4. Məqsədyönlü davranışın təşkilindəki çətinliklərin aradan qaldırılması.

5. Mənfi davranış formalarının (aqressiya, neqativizm və s.) aradan qaldırılması. Bu vəzifənin həyata keçirilməsi üçün uşaq üçün müəyyən komfortlu şərait lazımdır. Məşğələ üçün xüsusi təchiz olunmuş zal, işiqlandırma, iti və ağır əşyaların olmaması, oyuncaqların az olması lazımdır.

6. Oyun zamanı və ya digər fəaliyyət zamanı mütəxəssis və uşaq arasında məqsədyönlü təsirin təşkili.

Autizmli uşaqların dəqiq gün rejimi, ənənələrə dəqiq əməl edilməsi,məşlələrin keçirilmə şəraitinin eyniliyi vacibdir. Korreksiya qrupunu təşkil edərkən affektiv patologiyanın səviyyəsini, yaş xüsusiyyətlərini – uşaqlar arasındakı yaş fərqi 2 yaşı ötməməli nəzərə almalı, qrupdakı uşaqlar 3-5 nəfər arasında olmalıdır [3, s.240].

Autizmli uşaqlarla işləmək üçün bir sıra psixokorreksion

texnologiya mövcuddur. Sankt-Peterbruq psixo-pedaqoji mərkəzində illər ərzində ilkin uşaq autizmindən əziyyət çəkən uşaqlarla qrup məşğələləri keçirilib və bu məşğələlər əsasında 4 əsas blok müəyyənləşdirilmişdir. Hər blok üçün özünün məşğələləri mövcuddur.

1. Diaqnostik-konsultativ
2. Orientasiyalı
3. Əsaslı korreksion
4. Möhkəmləndirici

Autizmli uşaqlarla işləməyin digər metodikası holdinq-terapiya (hold- ingilis sözündən tərcümədə saxlamaq, əldə etmək deməkdir) adlanır [3, s. 230]. Onun müəllifi Marta Velçdir. Terapiyanın əsası – ilkin uşsü emosioanl pozulmalarına ana və uşaq arasındakı emosional bağların pozulmasının nəticəsi kimi baxan konsepsiyadır. Holdinq terapiya -əsasən ana ilə uşağın arasındalə kontakta üstünlük verir, çünki, bu uşaqlar ana ilə fiziki və emosional təsiri rədd edirlər.

Ən yeni və hələ ki axıra qədər öyrənilməyən metod isə autizmli uşaqlar üçün onlara xüsusi bacarıqları öyrədən robotların hazırlanmasıdır. Vanderbilt Universitetinin əməkdaşları "Rassel" ("Russell) adlandırdıqları robotu təqdim ediblər. Onun əsas vəzifəsi autizmli uşaqların öyrətməkdir.

## Ədəbiyyat


1. Никольская О.С., Розенблюм С.А. Дети с расстройствами аутистического спектра. Учебное пособие. ФГОС ОВЗ. – М.: Просвещение, 2020. – 43 с
2. Симашкова Н.В., Якупова Л.П. Дифференциальная диагностика больных расстройствами аутистического спектра. Под ред. Симашковой Н.В., Клюшник Т.П. – М.: ГЭОТАР-Медиа, 2016. – 288 с.
3. Kanner L. Autistic disturbances of affective contact // The Nervous Child. – 1943. – №2 (3). – P. 217-250.

# AZƏRBAYCANDA AUTİZM PROBLEMİ

***Əliyeva Vüsalə Fəqayət qızı***
*BDU-nun II kurs magistrantı*
*vusalaliyeva1988@mail.ru*

XXI əsrin qlobal problemi hesab edilən autizm ölkəmizdə də ən aktual məsələlərdəndir. Yaranma səbəbi elmə tam məlum olmayan autizm sindromu ilə mübarizə günün tələbidir. Qeyri- rəsmi statistikaya əsasən ölkəmizdə altı mindən çox uşaq autizm sindromundan əziyyət çəkir. Getdikcə bu say artmaq üzərədir. Dəqiq rəqəmlərin olmaması bu xəstəliyin ailələr tərəfindən gizlədilməsi, onların bu xəstəlik haqqında məlumat-larının olmaması, həmçinin onların bəzilərinin müxtəlif adlarla qeydiyyata düşmələridir. Erkən müəyyən edilən diaqnoz və aparılan məşğələlərlə, edilən müalicələrlə autizmli insanları cəmiyyətə qazandırmaq, istedadlarını aşkarlamaq və onların potensiallarından düzgün istifadə etmək mümkündür.

2014-cü ildə Azərbaycan autizmli uşaqların sayına görə dünya ölkələri arasında 3-cü yeri tumuşdur. Araşdırmalara əsasən uşaqlarda autizm xəstəliyi şəkərli diabed, xərçəng və QİÇS kimi xəstəliklərin ümumi sayından çoxdur.

2 Aprel Dünya Autizm Məlumatlandırma Günü BMT-nin 18 dekabr 2007-ci il 62,139 qərarı ilə Qətər dövlətinin təklifi əsasında təsis olunmuşdur və aprel həm də dünyada Autizm Maarifləndirmə ayı kimi də qeyd edilir [2].

Aprelin 2-də Dünya Autizm Məlumatlandırma Günündə Beynəlxalq miqyasda qeyd olunan "Mavi işıqla işıqlandır" aksiyasına dünyanın digər şəhərləri kimi ölkəmiz də qoşulmuşdur.Bu aksiya getdikcə yayılmaqda olan autizm xəstəliyi haqqında insanların məlumatını artırmağa yönəldilmiş böyük bir təşəbbüsdür. 2 aprel tarixi BMT tərəfindən Ümumdünya Autizm Günü kimi qəbul olunduqdan sonra dünyaca məşhur olan "Autism speaks" cəmiyyəti bu günlə əlaqədar "light it up Blue"("Mavi işıqla işıqlandır")

lahiyəsini həyata keçirir. Həmin gün dünyanın bir çox ölkələrində ən görkəmli binalar autizmi simvolizə edən mavi rənglə işıqlandırılaraq 2 Aprel tarixini Ümumdünya Autizm Günü olduğunu insanlara çatdırır. Burada əsas məqsəd insanlar arasında autizm xəstəliyi haqqında maarifləndirməni artırmaq və autizmli insanların həyat keyfiyyətlərinin yaxşılaşdırılmasına kömək etməkdir.İlk dəfə 2010-cu ildə ABŞ-da həyata keçirilən bu layihə hazırda 5 qitə,146 ölkə,650 şəhəri əhatə edir [3].

Azərbaycan bu layihəyə Heydər Əliyev Fondu,BMT-nin Uşaq Fondunun (UNİCEF) və ölkəmizdə ilk autizm təşkilatı olan Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi İctimai Birliyinin dəstəyi ilə 2012-ci ildə Ümumdünya Autizm günündə qoşulub.Bu aksiya çərçivəsində ölkəmizdə ilk dəfə Bakı Biznes Mərkəzi, 2013-cü ildə Heydər Əliyev Fondu, Bakı Four Seaons oteli mavi işığa boyanaraq autizmi tanıdığını bəyan etdi. Həmin ildən başlayaraq bu aksiya hər il davam etdirilir. Ölkəmizin ən görkəmli binaları  Kristal Zalı, Bakı Olimpiya Stadionu və s. mavi işığa boyanaraq "Gəlin autizm spektr pozuntularından əziyyət çəkən insanlarla əl-ələ işləməyə, onlara güclü tərəflərini inkişaf etdirməyə və eyni zamanda onların qarşılaşdıqları çətinliklərin qarşısını almağa davam edək və onlara haqları olan layiqli həyat yaşamalarına yardım edək" şüarına qoşularaq mavi işığa bürünür və bununla da insanları autizm xəstəliyi haqqında məlumatlandırılır.

Azərbaycanda autizm sindromu diaqnoz olaraq əlilliyin təsnifatı siyahısına 2015 ci ildən  daxil edilib. Əvvəllər autizm əlamətləri olan insanlara "inkişaf ləngiməsi", "əqli geriləmə" hətta autizm sindromunun nə olduğunu anlamayaraq "debil " diaqnozu belə qoyulurdu. Ancaq autizm sindromlu uşaqların 30 %-də əqli gerilik müşahidə olunur. Hətta bir çox autizmli uşaqlarda yüksək intellektual səviyyə də müşahidə olunur.

Son dövürlərdə autizm problemi Azərbaycanda əvvəlki illərlə müqayisədə daha çox tanınır. Buna səbəb isə bu sahədə təşkil olunan lahiyələr,görülən tədbirlər planıdır.Ancaq buna baxmayaraq Azərbaycanda bu sahədə yetəri qədər qanun layihələri, reabilitasi-

ya mərkəzləri yoxdur. Digər problemlər-dən biri də xüsusi məktəblərin olmamasıdır. Autizmli uşaqlar üçün xüsusi təhsil proqramı hazırlanmalıdır, çünki onların davranışlarında pozuntu olduğuna görə ənənəvi təhsil mərkəzlərində digər uşaqlarla birlikdə təhsil ala bilməzlər. Həmçinin bu xəstəlikdən əziyyət çəkənlərə təlim keçəcək peşəkar kadrların da azlığı danılmaz faktdır.

Autizm psixoloji problem olsa da sübut olunmuşdur ki, onların beyinlərinin bir istiqaməti inkişaf edib. Bu isə autizmli uşaqların hər hansı bir istedadının olması deməkdir. Həmin istedadı vaxtında aşkarlamaq lazımdır.

Autizmin korreksiyası ilə bağlı bir sıra özəl mərkəzlər fəaliyyət göstərir. Bu mərkəzlərin əsas məqsədi autizm xəstəliyi ilə bağlı cəmiyyəti maarifləndirmək, cəmiyyətin bu uşaqlara münasibətini düzgün formalaşdırmaq, belə uşaqların valideynlərinə dəstək olmaq, onların övladlarına necə davranacaqlarını, necə münasibət göstərəcəklərini, autizmli uşaqlara müxtəlif psixoloji, defektoloji və s. yardımlar göstərmək, dünya təcrübələrindən istifadə edərək onları tətbiq etməkdir [1,s.32].

Belə mərkəzlərin respublikamızda fəaliyyət göstərməsi autizm brobleminin daha geniş şəkildə tanınmasına müsbət təsir göstərir. Bu sahədə nə qədər çox maarifləndirmə işləri aparılarsa bir o qədər çox belə uşaqlara ətrafdakı insanların münasibətləri dəyişərək müsbət istiqamətdə olar. Buna görə də ölkəmizdə belə mərkəzlərin sayını artırmaq,maarifləndirmə işlərini genişləndirmək lazımdır və bu işdə cəmiyyətin bütün təbəqələrinin fəallığı zəruridir.

Azərbaycanda autizm xəstəliyinin korreksiyası ilə bağlı bir çox üsullardan istifadə olunur: ABA (Applied Behavioral Analysis) terapiyası, PECS (Picture Exchange Communica-tion), Qrup terapiyası, Musiqi terapiyası, Qum terapiyası və s.

Son dövürlərdə dövlət səviyyəsində əlilliyi olan şəxslərə qayğı daha geniş vüsət alıb. Bu işdə dövlət başçısı İlham Əliyevin və onun xanımı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səyləri nəticəsində görülən işlər öz əksini tapır.

Bəli, 2 aprel Ümumdünya Autizm günüdür. Ancaq ilin tək bir günü deyil, ilin hər günü onlara qayğı ilə yanaşılmalı, onlara sahib çıxılmalı, dinləməli, diqqətimizi və dəstəyimizi əsirgəməməliyik. Çünki insanlar hər zaman bir-birlərinə dəstək olmalıdırlar. Autizmli uşaqların isə bu dəstəyə daha çox ehtiyacları var. Bunu nəzərə alaraq autizmli uşaqların qarşılaşdıqları problemləri, çətinlikləri aradan qaldırmaq təkcə dövlətin deyil, hər bir kəsin əsas vəzifəsi olmalıdır.

Uşaqlar bizim gələcəmizdir. Onlar fərqli olmalarından asılı olmayaraq hər birinin təhsilə, inkişafa,diqqətə və ünsiyyətə ehtiyacı var və bundan məhrum olmamalıdırlar. Onlar sadəcə olaraq fərqlidirlər. Fərqlilik isə bir özəllikdir və bu özəllikləri isə bir möcüzəyə çevirmək mümkündür.

**Ədəbiyyat**


1. Açıq Cəmiyyət İnistitutu-Yardım Fondu .Uşaq İnkişaf Metodikası.2011.

2. Azərbaycan Respublikası “Autizm ” Defektoloji və Psixoloji Yardım Mərkəzi İctimai Birliyi. http//www.autizm.az.

3.Əlil Təşkilatlar İttifaqı, Autizm Günü Layihəsi. http//www.udpo.az


## GENDER STEREOTİPLƏRİNİN FORMALAŞMASINA AİLƏNİN TƏSİRİ


***Əlizadə Günəş Rahim qızı***

*BDU-nun II kurs magistrantı*

*gunes5070@gmail.com*


Ümumbəşəri dəyər olan ailə mədəni irsin, etnik norma və ənənələrin daşıyıcısıdır. Ailənin dəyəri təkcə ayrı-ayrı fərdlər, şəxsiyyətlər üçün deyil, bütün cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir. Ailə bir çox - sosial fəlsəfə, psixologiya, sosial psixologiya, sosial pedaqogika, pedaqogika, sosiologiya, gender peda-

qogikasının və başqa elmlərin maraq dairəsindədir. İnsanları nə birləşdirir, insanları nə ayırır, bir evdə yaşayan insanlar bir-birilərinə necə təsir edirlər, niyə insanlar bir- birilərindən küsür və niyə barışır, ev təsərrüfatlarını necə idarə edirlər, təhsilə niyə belə önəm verirlər, övlad dünyaya gətirib, böyüdüb, tərbiyə edirlər, müxtəlif yaş təbəqələri eyni şəraitdə yaşayır və sairə bu kimi ailə ilə bağlı məsələlər tədqiqat üçün maraq doğurur.

Məlumdur ki, ailənin üç başlıca funksiyası mövcuddur. Nəsil artırma təsərrüfat məşğuliyyəti, uşaqların fiziki-əxlaqi və cinsi tərbiyəsi. Azərbaycan ailələrində daim adət-ənənələrlə tənzimlənən qarşılıqlı münasibətlərdə, əsasən, patriarxal adətlər hakimdir. Lakin ailədəki münasibətlər qarşılıqlı hörmətə əsaslanır. Professor Baheddin Ögel və professor Abülkadır İnan türklərdə yalnız patriarxal ailələrin - baba ailəsinin mövcudluğunu göstərirlər. Onlar türk ailəsini dövlət və ordunun təmsili hesab edir, ailələrini qorumaq üçün gənclərin savaşa getdiklərini, ailə, toplum və dövlətin sıx bağlılığını diqqətə çatdırırlar. Göytürk, Səlcuq, Osmanlı dövrlərində, Oğuz va türkmənlər dövlətin yaranmasını ailənin yaranması kimi qəbul edirdilər. Ailə bölünməz idi. Oğulu ata, qızı isə ana tərbiyyələndirirdi. Türklərdə ailənin əsasını ata, oğul və onların törəmələri təşkil edirdi [2].

Cəmiyyətin ən kiçik birliyi olan ailənin gender rollarının öyrənilməsi və onun mənimsənilməsində yeri çox vacibdir. Valideynlər uşaqları üçün qadın və kişi davranışının ilk nümunələri hesab olunur. Ailədə uşağa qarşı göstərilən davranışlar cinsiyyət qavrayışının formalaşmasına təsir göstərir. Valideynlərin münasibətləri uşağın ailədə və cəmiyyətdə yerini müəyyənləşdirmək üçün çox vacibdir. Həddindən artıq qorunan ailələrdə böyüyən uşaqlar asılı və ya özünə güvənən bir fərd ola bilərlər. Son dərəcə sərbəst ailələrdə də böyüən uşaqlar isə əksinə, eqoist ola bilər və ya başqalarının fikirlərinə əhəmiyyət vermiyən ola bilirlər. Bundan əlavə, demokratik-eqolyar bir ailədə böyüyən uşaq inamlıdır, başqalarına hörmət edir, qadın və kişidən asılı olmayaraq hər kəsin bərabər olduğu fikri ilə gender şəxsiyyətini yaradır.

Gender ayrıseçkiliyi cəmiyyətin ən kiçik quruluşu olan ailədə başlayır. Mədəni dəyərlərlə qız və oğlanlar fərqli sahələrə və obyektlərə yönəldilir. Nəticədə gender bərabərsizliyini təsdiqləyən qadınlar və kişilər yetişdirilir. Cəmiyyətin təhsil, evlilik, iş kimi qadınlara verdiyi rollar və gözləntilər müstəqil qərarlar qəbul etmək və həyatlarına təsir edən qərarlarını həyata keçirməyə çox mane olur. Gender qadınları mədəni baxımdan daha az dəyərli görür. Qızlar və oğlanlar bioloji fərqlərlə doğulurlar və ünsiyyət qurduğu ailə institutunda cəmiyyətin cinsə yüklədiyi cinsiyyət davranış qaydalarını öyrənmiş olurlar. Valideynlər də öz növbəsində övladlarını cəmiyyətdəki ümumi gender rollarının qavranılmasına görə tərbiyə edir. Məsələn, oğlan uşaqları maşınla oynayır, qız uşağı gəlincik ilə oynayır. Ya da qız anasına ev işlərində kömək edərək öyrənir, oğlan isə atasına güc tələb edən işlərdə kömək edir, evdən kənarda işləyir. Qız və oğlan arasında geyim və azadlıq baxımından da fərq var. Belə ki, oğlanın bir sevgilisi varsa, ailə üzvləri tərəfindən "aslan oğlum" kimi cümlələrlə qiymətləndirilir, halbuki eyni vəziyyət qızda olanda fərqli fikirlər formalaşır.

Ailə üzvləri tərəfindən qıza "camaat nə deyər" fikri çərçivəsində töhmət verilir. Xüsusilə patriarxal cəmiyyətlərdə bu vəziyyət daha da çoxdur. Qız uşağını məktəbə göndərməmək və ya erkən yaşda evlənmək kimi amillərə görə bir qadın ictimai sahədəki ayrıseçkiliyə həm status, həm də əmək bölgüsü baxımından məruz qalır. Nəticədə ailədəki gender ayrıseçkiliyi şəxsin bütün həyatına təsir göstərir [3].

Ailə sosial quruluşu formalaşdıran və fərdlərin sosiallaşmasında aktiv rol oynayan bir qurumdur. Fərdlər əvvəlcə ailədə sosiallaşma prosesinə başlayırlar və müvafiq olaraq valideynlərindən öyrəndiklərini öz həyatlarına uyğunlaşdırırlar. Ailə gələcəkdə hansı ailənin yaranacağını və bu ailənin qurulması üçün hansı rol və funksiyaları yerinə yetirəcəyini müəyyənləşdirir. Bu səbəblə ailəni cəmiyyətin ən kiçik bir vahidi olaraq müəyyən edə bilərik ki, bu da fərdlərin həyatdan məmnun qalması, emosional, iqtisadi,

fiziki ehtiyaclarını təmin etməsi, funksiyalarını sağlam bir şəkildə yerinə yetirməsi və sosiallaşması üçün vacibdir. Ailənin hər bir üzvü fərqli xüsusiyyətlərə, rol gözləmələrinə və fərqli qabiliyyətlərə malikdir. Ailə üzvlərinin cinsiyyət rolları və bir-birlərindən gözləntiləri ailənin funksiyalarında öz əksini tapmışdır.

Valideyn amili cinsi rolların qavranılmasında çox vacibdir. Uşaqlar cinsi şəxsiyyətlərini valideynləri ilə münasibətlər vasitəsilə əldə edirlər. Bu perspektivə uyğun olaraq gender rolları, münasibət və düşüncələr sosiallaşmanın ilk yeri olan ailədə öyrənilir. Əvvəlcə bu yolda gender perspektivi istiqamətində davranışın əsası formalaşır. Bir müddətdən sonra məktəb həmyaşıdları, müəllimlər və media vasitəsi ilə gücləndirilir. Qızlar və ya oğlanlar əvvəlcə anaları ilə tanış olurlar. Bu qarşılıqlı təsir uşaqların atanın müəyyənləşdirilməsi ilə davam edir. Bu müddətdə oğlan və qızların cins rollarına uyğun olaraq inkişafı gözlənilir və oğlan və qızlara müvafiq olaraq həvəsləndirilir. Cinsiyyət rollarını qazanmaq prosesində oğlanlar cinsiyyət rollarını qızlara nisbətən daha tez daxili hala gətirirlər.

Cinsiyyətin inkişafı ilə bağlı ilk nəzəri açıqlamalar Freyd tərəfindən verilmişdir. Freydin sözlərinə görə, uşaqlar cinsi şəxsiyyətlərini valideynləri ilə münasibətlərdə olan ziddiyyətli hissləri və qısqanclıqları həll etməklə əldə edirlər. Cinsin formalaşması ilə bağlı fikir psixoanalitik yanaşmanın libido konsepsiyasına əsaslanır. Libido, bioloji və sosial cinsi tənzimləyən və bioloji əsası olan cinsi enerji deməkdir. Freyd nəzəriyyəsində cinsiyyət qazancının üç dövrünə toxunulur. Uşaqlar ilk dövrdə cinslərindən xəbərdar deyillər. Fallik dövrünün bir hissəsini (3-5 yaş) əhatə edən ikinci dövrdə uşaqlar kişi və qadın arasındakı gender fərqlərini anlamağa başlayırlar. Üçüncü dövrdə oğlan və qızlar valideynləri tərəfindən müşahidə edilərək cinsiyyət tələb olunan rolları yerinə yetirməyə başlayırlar. Oğlanlarda Edip və qızlarda Elektra kompleksinin təhlili nəticəsində qızlar və oğlanların valideynləri ilə münasibətləri müəyyənləşir və cinsiyyət rollarına uyğun hərəkət etməyə başlayırlar [4].

**Ədəbiyyat**

1. Abasov Əli, Mirzəzadə Rəna, Gendərə Giriş, Bakı.2004
2.Ağayeva Kiyafət, Azərbaycanda Gender Məsələləri, Bakı.2014
3.Sercan Çelik Demirtaş, Ergenlerde Toplumsal Cinsiyyət Algısı, Yüksek Lisans Tezi, İstanbul.2019
4.Fulya Akgül Gök, Evli Kadın və Erkeklerin Toplumsal Cinsiyyət Rolleri ile İlgili Algılarının Aile İşlevlerine Yansıması, Yüksek Lisans Tezi,Ankara.2013
5. Jean Stockard, Gender Socialization, New York,1999

## TAM VƏ NATAMAM AİLƏDƏ YENİYETMƏLƏRİN TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİ

***Əsədbəyli Nigar Rasim qızı***
*BDU-nun II kurs magistrantı*
*esedbeli.nigar@gmail.com*

Yeniyetmənin sosiallaşmasında əsas amil ailədir. Natamam ailədə, bu proses pozulur. Natamam ailənin problemi əslində yeniyetmənin sosiallaşma pozğunluğu problemidir. Valideynlərdən birinin olmaması təqdirində tərbiyə prosesində bəzi məqamlar nəzərə alınmalıdır. Natamam ailə, ata-anadan biri olan ailədir. Belə ailələrin üç növü var:

1. valideynlərindən birinin ailəsini tərk etdiyi və ya öldüyü öz uşaqları olan ailə;
2. qadının nikahdan kənar uşaq böyütdüyü ailə;
3. övladlığa götürülmüş uşaqları olan ailə [1, s.32-36].

Tərbiyə həm tərbiyə edənlərin, həm də tərbiyə alanların bir-birinə qarşılıqlı təsir göstərdiyi çox mürəkkəb prosesdir. Tərbiyənin müvəffəqiyyəti və ya uğursuzluğu əsasən ailənin formal quruluşundan deyil, ailənin yetkin hesab edilə biləcəyindən asılıdır. Tam ailədə münasibətlər sevgi və hörmət əsasında formalaşır. Vicdanlı olmaq, başa düşmək və bütün duyğularınızı, düşüncələrinizi inamla ifadə etmək mümkündür.

Tam ailənin problemli ailədən heç bir probleminin olmaması ilə deyil, tam ailənin, birincisi, ortaya çıxan problemlərə göz yummamasını, ikincisi, bunların öhdəsindən gələ bilməsi ilə fərqlənir. Fərqli kateqoriyalı ailələrdə olan yeniyetmələrin tərbiyəsində öznə məxsus xüsusiyyətlər vardır. Birmənalı şəkildə demək olmaz ki, atanın (ananın) varlığı uğurlu tərbiyəni təmin edir və onun əslində yoxluğu yalnız mənfi təsir göstərəcək. Beləliklə, psixoloji tədqiqatların nəticələri göstərdi ki, ailədaxili münaqişələr çox vaxt yeniyetməyə valideynlərdən biri ilə sabit həyatdan daha ağır təsir göstərir. Ancaq boşanmanın yeniyetmənin psixologiyasına travmatik təsirini göstərən bir çox klinik müşahidələr və empirik tədqiqatlar olmuşdur. Valideynlərin boşanması yeniyetmələrdə aşağıdakı ağır nəticələrə səbəb ola bilər: depressiya, nevrozlar və müxtəlif davranış pozğunluqları - qəzəb, aqressivlik, itaətsizlik və əksinə təcrid.

Natamam ailənin uşaqları, tam ailənin uşaqları eyni bioloji və psixoloji qanunlara uyğun olaraq inkişaf edir, eyni tərbiyə standartlarına tabe olurlar. Buna baxmayaraq, bir valideyn tərəfindən verilmiş tərbiyə tam ailədə alınmış tərbiyədən əhəmiyyətli dərəcədə fərqlənir. Yeniyetmənin həyatının bu xüsusi şərtlərinin onun şəxsi inkişaf xüsusiyyətlərində əks olunacağına inanmaq üçün hər cür əsas var: emosional rifahı, özünə hörməti, ətrafdakı insanlara münasibəti. Natamam ailədə yeniyetmənin inkişafının, şəxsiyyətinin xüsusiyyətləri onun yaşından və cinsindən, həmçinin atasının (anasının) birinin olmamasının səbəbindən asılı olacaqdır. Buna baxmayaraq, yeniyetmə gec-tez özünü həm anası, həm də atası olan başqaları ilə müqayisə edərək valideynlərindən birinin yoxluğunu dərk etməyə başlayır. Yeniyetməlik, obyektiv və zəruri ayrılıq prosesi, muxtariyyət axtarışı, səlahiyyətlərdən yaxa qurtarmaq istəyi və ailə xaricindəki emosional əlaqələrə maraqla xarakterizə olunur. Bu zaman meydana gələn boşanma nəticəsində mənfilik və müqavimət daha da şiddətlənir. Erkən təcrübələr,

dostlarla münasibət qayğısı, azadlıq arzusu artır. Yeniyetmənin problemlərini həll edərək hisslərini nəzərə almayan valideynlərinə qarşı qəzəb yaranır. Valideynlərin boşanmasını eqoizmin təzahürü olaraq qəbul edən yeniyetmə, öz növbəsində, valideynləri ilə münasibətlərdə özünü eqoist olmağa haqq qazandırır. Valideynlərin boşanması kimi hadisədən hər yaşda olan bir uşağın təsirlənməyəcəyini təsəvvür etmək mümkün deyil. Yeniyetmə xarici simptomlar, görünən təsirlər və davranış dəyişiklikləri göstərməsə belə, bu, onun təsirlənmədiyi anlamına gəlmir. Bəzən yeniyetmə, boşanmağa reaksiya göstərməməsi səbəbindən, ayrılmanın ona mənfi təsir etməyəcəyi ilə bağlı valideyn gözləntilərini qarşılayır.

Yeniyetməyə valideynlərin boşanmasında günahkar olmadığını, ər-arvad münasibətlərinə son qoyan valideynlərin onun üçün həmişə ata və ana olaraq qalacaqlarını izah etmək vacibdir. Yeniyetmə hər zaman hər iki valideynin köməyinə, dəstəyinə və sevgisinə arxalana bilər. Natamam ailələrin problemləri ilə məşğul olan bütün tədqiqatçılar, belə ailənin uşağının ən böyük probleminin, bir yerdə olmayan ata ilə ana arasında ortaq əlaqələr haqqında vahid fikir olmamasıdır. Bir valideynli ailələrdə böyüyən qızlar, həm də oğlanlarda əks cinsdən olan insanlar haqqında təhrif olunmuş mənfi ideallar yaranır. Tam ailədə böyüyən uşağın gözləri qarşısında həmişə ata-ana münasibətlərinin nümunəsi vardır ki, bu da onlarda ailə modeli haqqında dolğun təsəvvür etməyə imkan verir. Növbəti vacib problem, ayrılıq yaşayan valideynlərin bir-birlərinə mənfi münasibətləri ilə yeniyetmədə sədaqət qarşıdurmasının yaranmasına təsir göstərə bilmələridir. Yeniyetməni həm ananın, həm də atanın sevdiyini xatırlatmaq vacibdir. Burada, qeyd etmək lazımdır ki, valideynlərindən birinin olmaması yeniyetməyə travmatik təsir göstərir. Yeniyetmənin isə atasının və ya anasının kim olduğunu bilməsi vacibdir. Həm ata, həm də ana obrazı qismən kompensasiya edilə bilər.

Əksər hallarda, atanın olmadığı ailələrdə cinsiyyət kimliyi

ilə bağlı problemlər oğlanlarda daha çox yaranır. Ümumiyyətlə, natamam ailədə böyüyən hər iki cinsin uşaqları, tam ailələrdən olan həmyaşıdlarına nisbətən daha çox cinsiyyət kimliyində problemlər özünü biruzə verir. Bu da tərbiyədə ata və ya ana mövqeyinin olmaması ilə əlaqədardır. Tək ananın böyütdüyü oğlanlarda ya "qadınlıq" xarakter xüsusiyyətlərinin inkişafını, ya da əksinə "kompensasiya edici kişiliyi" müşahidə etmək olar. İkinci hal, asılı xarakterlə şişirdilmiş "kişi" davranışının birləşməsi ilə xarakterizə olunur. Atalarını itirən qızlar kişilərlə ünsiyyətdə qeyri-müəyyənlik nümayiş etdirirlər, "qadın davranışları" modelləri formalaşdırmamışlar. Eyni zamanda, ər olmadığı təqdirdə, ana istəmədən ailə başçısı rolunu oğluna yükləyə bilər və bununla da, yeniyetməni övladlıq mövqeyindən məhrum edə bilər. Etiraf etmək lazımdır ki, valideynlərin ailə münasibətləri olmadığı tam ailələr belə rol qarışıqlığından sığortalanmamışdır. Ailədə atanın olmaması fərqli cinsdən olan yeniyetmələr tərəfindən eyni dərəcədə yaşanmır. Tək valideynli ailələrdən olan oğlanlar ailədə tənhalıq hissləri keçirirlər. Onların emosional vəziyyəti qızlara nisbətən daha çox depressiyaya meyilli olur. Bu, oğlanların olduqca çətin emosional təcrid vəziyyətində olması ilə əlaqədardır, anaları ilə əlaqələri qızlara nisbətən daha az yaxındır. Beləliklə, tək ana ilə yaşayan oğlanların emosional narahatlığından danışa bilərik. Qızlar anaları ilə daha çox əlaqəlidirlər və o, onlara daha əhəmiyyətli və yaxın insandır. Ancaq yenə də, yeniyetmənin emosional özünüdərk etməsi onun yaşından və atasının(anasının) onun tərbiyəsində nə dərəcədə iştirak etməsindən asılı olacaqdır [2, s.82-88].

Beləliklə, natamam ailədə tərbiyənin özünəməxsus xüsusiyyətləri var və tam ailədəki həyatdan fərqlənir. Boşanma bütün ailə üzvlərinə mənfi təsir göstərir. Natamam ailənin problemlərinin əksəriyyəti yeniyetmədə cinsiyyət imicinə uyğun fikirlərin formalaşması ilə əlaqəli olduğuna görə ailə tərbiyəsinin bu aspektini daha ətraflı nəzərdən keçirmək vacibdir.

**Ədəbiyyat**

1. Джаманбалаева Ш.Е. Социальные трансформации в обществе и проблемы функционирования семьи как социального института //Вестник КазНУ сер. психологии и социологии, 2002, №1, стр.32-36.
2. Калина О.Г. Психологические последствия недостаточной представленности эмоционально позитив-ной мужской функции в семье и в образовательном пространстве, // Психологическая наука и образование, 2008, №4, стр.82-88.

# ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN PSİXOLOJİ MAHİYYƏTİ

***İsgəndərova Qumral İltifat qızı***
*BDU-nun II kurs magistrantı*
*qumral.isgenderova@gmail.com*

Mənlik şüurunun strukturunda üç komponenti xüsusilə fərqləndirmək lazımdır. Bunlardan biri də özünüqiymətlən-dirmədir. Özünüqiymətləndirmə dedikdə insanın özünün özü haqqındakı təsəvvürlərinin adekvat surətdə qiymətləndirilməsi başa düşülür. Özünüqiymətləndirmə termini iki sözdən - özünü və qiymətləndirmə sözlərindən əmələ gəlmişdir. Onun psixoloji mənası aydındır: söhbət insanın özünə verdiyi qiymətdən, özünün mən obrazını qiymətləndirməsindən gedir [2, səh. 63].

Özünüqiymətləndirmə şəxsiyyətin özünü, öz imkanlarını, keyfiyyətlərini, qabiliyyətlərini, özünün başqa adamlarla münasibətlər sistemindəki yerini qiymətləndirməsindən ibarət-dir. İnsanın özü haqqındakı təsəvvürlərinin formalaşması bilavasitə özünüqiymətləndirmə ilə bağlıdır. Belə bir sual ortaya çıxır. İnsan özü özündə hansı cəhətləri qiymətləndirir? Onun üçün bir insan kimi mühüm olan hər şeyi: özünün qabiliyyətlərini, mənəvi keyfiyyətlərini, əməllərini, öz imkanlarını və perspektivlərini, özünün qarşılıqlı münasibətlərini, qrup və kollektivdə,

başqa adamlar içərisində tutduğu yeri və s. qiymətləndirir.

Özünüqiymətləndirmə dinamik bir proses kimi, yəni inkişaf edən, dəyişilən, təşəkkül tapan, yeni keyfiyyətlər kəsb edən psixoloji fenomen kimi nəzərdən keçirilməlidir. Özünüqiy-mətləndirmənin təşəkkülü sayəsində şəxsiyyətin özünə, öz mənəvi-əxlaqi keyfiyyətlərinə münasibətinin dəyişməsi, özünütəhlil və özünüqiymətləndirmə əsasında özünütəkmilləş-dirmə, özünütərbiyə cəhdinin güclənməsi qeyd edilir. İnsanın özünüqiymətləndirmə ehtiyacı onun təbiətinə xasdır. Ancaq o bu ehtiyacı nə ilə qarşılayacağı və ya özünüqiymətləndirmənin ölçülməsi standartının nə olduğu məlumatı ilə doğulmur. O, bunu kəşf etməlidir [ 7, pp.110]. Bununla yanaşı qeyd edə bilərik ki, müəyyən həyati situasiyalarda, xüsusilə də ailədə və kollektivdə insan öz üzərinə müəyyən bir məsuliyyət götürüb mühüm bir addım atdıqda, konflikt şəraiti baş verdikdə və s.-də özünüqiymətləndirmə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, özünüqiymətləndirmə insanın özünüdərketməsi ilə sıx bağlıdır. Bu baxımdan insanın mənlik şüurunun formalaşmasında özünüqiymətləndirmə xüsusi yer tutur [4, səh 187].

Özünüqiymətləndirmənin bir-birilə əlaqəli iki tərəfi qeyd olunur. O, özündə şəxsi effektivlik və şəxsi dəyər duyğusunu ehtiva edir. Bu, özünə inamın və özünə hörmətin birləşdirilmiş cəmidir. İnsanın yaşaya biləcəyinə və yaşamağa layiq olduğuna inamdır [6]. Özünüqiymətləndirmə zamanı adətən qiymətin əxlaqi, estetik, intellektual, emosional və s. növlərindən istifadə olunur. Qeyd edə bilərik ki, onlar içərisində emosional qiymətlər əsas yer tutur. Özünüqiymətləndirmədə emosional çalar üstünlük təşkil edir. Əxlaqi qiymət də, intellektual qiymət də özünüqiymətləndirmə səviyyəsində emosional çalar kəsb edir. Özünüqiymətləndirmə, hər şeydən əvvəl, özünüsevmə, özünəhörmət, öz ləyaqətini saxlamaq və s. kimi hisslərlə çulğaşır, yəni emosional qiymətlərə əsaslanır.

Özünüqiymətləndirmə şəxsiyyətin mərkəzi əsasını, yəni nüvəsini təşkil edir. O, əhəmiyyətli dərəcədə şəxsiyyətin sosial

adaptasiyasını müəyyən edir, onun davranışının və fəaliyyətinin nizamlayıcısı kimi çıxış edir. Özünüqiymətləndirmə prosesinin özü fəaliyyət prosesində və şəxsiyyətlərarası münasibətlərdə baş verir. Cəmiyyət də müəyyən dərəcədə şəxsiyyətin özünüqiymətləndirməsinə təsir edir [5, səh.153].

Özünüqiymətləndirmədən danışarkən aşağıdakı cəhətləri xüsusilə nəzərə almaq lazımdır:

1) özünüqiymətləndirmə prosesində "real mən" obrazı ilə "ideal mən" obrazının müqayisə edilməsi mühüm rol oynayır. Onların bir-birinə uyğun gəlməsi psixi sağlamlığın mühüm şərtidir.

2) biz hər hansı bir adamın özünü necə qiymətləndirdiyini aydınlaşdırmaq üçün onun özünü hansı etalonla tutuşdurduğunu, özünüə hansı etalona əsasən qiymət verdiyini bilməliyik. Bu yolla biz həm də onun "ideal mən"inin məzmununu təhlil etmək imkanı əldə edirik.

3) insanın özünəməxsus qiymətlər sistemi vardır. Bir tərəfdən, insan özü-özünü qiymətləndirir, digər tərəfdən, onun davranış və rəftarı mənsub olduğu qrup tərəfindən qiymətləndirilir.

Özünüqiymətləndirmənin böyük əhəmiyyəti vardır. O, insanın davranışının tənzim olunmasında mühüm rol oynayır. İnsanın başqa adamlarla münasibətləri, onun öz uğurlarına və uğursuzluqlarına münasibəti, ayrı-ayrı həyati situasiyalarda davranış və rəftarı özünüqiymətləndirmədən asılıdır. Başqa sözlə, özünüqiymətləndirmə insan fəaliyyətinin səmərəliliyinə və onun bir şəxsiyyət kimi inkişafına mühüm təsir göstərir [1, səh 230].

Şəxsiyyətin özünüqiymətləndirməsinə diqqəti cəlb etmək indiki dövrdə xüsusi məna daşıyır. Bu, yalnız müəyyən yaşa çatmış adamların özünütəkmilləşdirmək, özünü tərbiyə etmək zərurətilə deyil, həm də yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsi işinin təşkilinə verilən yeni tələblərlə əlaqədardır.

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, "ÇİNAR-ÇAP", 2009, 620 s.

2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı, “QAPP-POLİQRAF”, 2003, 356 s.
3. Bayramov Ə.S., Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı, 1981, 190 s.
4.Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya, Bakı, Nurlan Nəşriyyatı 2007, 509 s.
5. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası, Bakı, “Elm”, 2013, 297 s.
6. For a partial anticipation of this concept of self-esteem, see Ayn Rand, Atlas Shrugged (New York: Random House, 1957), pp. 1018, 1056-1057
7. Nathaniel Branden, The psychology of self-esteem, 2001, San Francisco: Jossey-Bass

# ШКОЛЬНАЯ ДЕЗАДАПТАЦИЯ ДЕТЕЙ МЛАДШЕГО ШКОЛЬНОГО ВОЗРАСТА

***Джабраилова Раксана***
*Магистрант 2-курса БГУ*
*raksana96.21.10@gmail.com*

Начальная школа является новой средой для детей младшего школьного возраста, которая имеет свои определенные правила, обязанности и условия. Среда и правила образовательного учреждения являются для ребенка незнакомыми, что может занять определенное время для приспособления ребенка к ним. Процесс адаптации детей младшего школьного возраста к школьному учреждению и к его особенностям может пройти без затруднений и завершится успехом, но некоторые детей могут испытывать проблемы в данном процессе. В педагогической сфере нарушение процесса адаптации детей к новой среде, особенно к школьной деятельности, называется термином «школьная дезадаптация».

Термин «школьная дезадаптация» используется в

психопедагогической науке для выражения затруднений в приспособлении детей к школьному режиму и обучению детей различного возрастного периода [1]. Начало обучения в школе вносит в деятельность ребенка некоторые изменения, которые сопровождаются стрессом, гневом, напряжением и т.д [1]. Данный спектр эмоций может иметь временный характер, что не создает угрозу для успешной адаптации младшего школьника, но встречаются случаи, когда указанные эмоции имеют постоянный характер, что формирует условие для нарушения и затруднения адаптационного процесса. Стоит отметить, что в определённых источниках школьную дезадаптацию также объясняют, как процесс, в котором наблюдаются затруднения в школьной деятельности, а именно проблемы в обучении, трудности во взаимоотношениях со сверстниками и взрослыми [1].

Необходимо отметить, что существуют определенные симптомы, которые указывают на нарушение адаптационного процесса у ребенка младшего возраста. Изучая работы исследователей по данной проблематике, можно сделать вывод, что к этим симптомам относятся [2]:

- Частая демонстрация гнева по отношению к окружающим людям;
- Гиперактивность ребенка в течение всего урока;
- Частое погружение ребенка в свои воображения;
- Чувство неполноценности;
- Постоянное присутствие страхов таких, как «страх класса», страх перед учителем, страх оценивания и т.д;
- Отсутствие концентрированности на своей деятельности, а также уверенности в своих силах;
- Конфликтные взаимоотношения с участниками педагогического процесса.

Вышеуказанные симптомы помогают школьному психологу и педагогу точно диагностировать у детей

младшего школьного возраста нарушение адаптационного процесса.

Следует отметить, что также существуют причины, факторы, способствующие формированию у детей этого нарушения. Факторы, влияющие на появления дезадаптации можно классифицировать на [3], [4]:

- Внутренние факторы: низкий уровень интеллектуальных способностей, отсутствие мотивации, нарушение эмоциональной стабильности, отсутствие уверенности в своих способностях, кризис 7 лет;
- Внешние факторы: негативные отношения между педагогом и учеником, неправильно выбранная форма и метод обучения педагога, негативные отношения между родителями и ребенком, неправильный стиль воспитания в семье, отсутствие у ученика опыта в построении социальных отношений.

Итак, школьная дезадаптация — это нарушение адаптационного процесса детей к школьному режиму, которое может наблюдаться у многих детей. Данная проблематика связана с эмоциональным, интеллектуальным состоянием ребенка, а также с его взаимоотношением с участниками педагогического процесса и семьей. Необходимо отметить симптомы и факторы дезадаптации, которые играют немаловажную роль в диагностике и определении источника упомянутого нарушения у детей младшего школьного возраста. Школьный психолог при реализации коррекционной работы с ребенком, у которого наблюдается затруднение в адаптации, должен учитывать каждый факт его формирования, так как именно таким образом можно подобрать правильный путь работы с ребенком.

**Литература**

1. Артеменко О. Н., Макадей Л.И., Малашихина И.А.,

Суханова Н. А., «Школьная дезадаптация у детей и подростков»., // Международный журнал прикладных и фундаментальных исследований., Ставропольский государственный университет., Ставрополь, Россия., 2010., №6., С 36-37

2. Бадьина Н. П., «Профилактика и преодоление школьной дезадаптации первоклассников» (Методические рекомендации для учителей начальных классов) / Государственное образовательное учреждение дополнительного профессионального образования «Институт повышения квалификации и переподготовки работников образования Курганской области»., Курган, 2009., С 59

3. Бурменская Г.В. и др. Возрастно-психологическое консультирование: Проблемы психического развития детей. – М.: МГУ, 1990. – С 134

4. Cîrceie Emiliaa., «Students' School Adjustment / Maladjustment Through Preparatory Class»., Conference: ERD 2016 - Education, Reflection, Development, Fourth Edition

## ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏ SƏVİYYƏLƏRİ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Nağıyeva Lalə İlqar qızı***
*BDU-nun II kurs magistrantı*
*lalenagiyeva163@gmail.com*

Psixologiyada özünü qiymətləndirmə termini bir insanın özünü, nöqsanlarını, imkanlarını, keyfiyyətlərini və digər insanlar arasındakı yerini qiymətləndirməsini ifadə etmək üçün istifadə olunur.

Özünü qiymətləndirmə anlayışı vacibdir. Özünü qiymətləndirmə, qərar vermə prosesinə, münasibətlərə, emosional sağlamlığa və ümumi rifaha təsir göstərir. Həm də motivasiyaya təsir edir, çünki sağlam və müsbət baxışı olan insanlar potensiallarını başa düşürlər və özlərini yeni hədəflərə qarşı həvəsləndirə bilərlər.

Özünü qiymətləndirmə uşaqlıqda ən aşağı səviyyədə olmağa meyillidir və yeniyetməlik və yetkinlik dövründə artır və nəti-

cədə kifayət qədər sabit və davamlı bir səviyyəyə çatır. Bu, zaman keçdikcə şəxsiyyət xüsusiyyətlərinin inkişaf edib sabitlənməsi ilə bağlıdır.

Özünü qiymətləndirmənin real həyat nəticələrinə təsirinin olub-olmaması ilə bağlı bir çox araşdırmalar aparılmışdır. Araşdırmalar özünü qiymətləndirmənin bir çox proseslərlə məsələn, motivasiya, sosial münasibətlər, uğur qazanmaq və s. kimi proseslərlə əlaqəli olduğunu göstərir, lakin birbaşa onlara təsir etdiyini sübut etmir. Mövcud tədqiqatlar, özünü qiymətləndirmənin əhəmiyyətli həyat nəticələrinə vacib dərəcədə müsbət təsir göstərə biləcəyini bildirir. Bundan əlavə, tədqiqatlar özünü qiymətləndirmə və vəzifə davamlılığı arasında səbəbli bir əlaqə olduğunu göstərir. Məsələn, Şrauger və Sorman, mürəkkəb vəzifələrin yerinə yetirilməsi üçün adekvat özünü qiymətləndirmənin vacib olduğunu müdafiə edirdi.

Özünü qiymətləndirmə yalnız müsbət xüsusiyyətlərlə (yəni yüksək özünü qiymətləndirmənin parlaq tərəfi) deyil, həm də mənfi xüsusiyyətlərlə (yəni yüksək özünü qiymətləndirmənin qaranlıq tərəfi ilə) əlaqələndirilə bilər. Baumeister qeyd edirdi ki, yüksək özünü qiymətləndirməsi olan şəxslərdə, bu şəxsiyyətlərarası münasibətlər zamanı təcavüzkarlıq xüsusiyyətlərinə və şiddətə səbəb ola bilər. Çünki həddindən artıq yüksək özünü qiymətləndirməsi olan insanlar ego təhdidlərinə daha çox meyillidirlər və buna görə də, öz fikirlərini şübhə altına alan insanları dəyərsizləşdirmək üçün daha güclü motivasiyaya malikdirlər. Ümumiyyətlə, mövcud tədqiqatlar yüksək özünü qiymətləndirmənin fərdin rifahı və uğuru üçün müsbət nəticələr verə biləcəyini və aşağı özünü qiymətləndirmənin isə mənfi nəticələr üçün risk faktoru ola biləcəyini irəli sürür.

Özünü qiymətləndirmə 3 səviyyədə təyin olunur: Aşağı özünü qiymətləndirmə, yüksək-şişirdilmiş özünü qiymətlən-dirmə və normal (adekvat) səviyyədə özünü qiymətləndirmə. Özünü qiymətləndirməsi aşağı olan insanlar qabiliyyətlərindən daha az əmin olurlar və qərar vermə proseslərində özlərindən şübhələnə bilərlər. Məqsədlərinə çata biləcəklərinə inanmırlar və buna gö-

rə də yeni şeyləri sınamağa cəhd etmirlər. Özünü qiymətləndirməsi aşağı olan insanlar, münasibətlərdə və ehtiyaclarını ifadə etməkdə çətinlik çəkə bilərlər. Həm də özlərinə güvən səviyyəsi aşağı ola bilər.

Aşağı özünü qiymətləndirmə müxtəlif yollarla özünü göstərə bilər.

Ehtiyaclarını ifadə etməkdə çətinlik çəkə bilər.

Zəif tərəflərinə diqqət edə bilər.

Tez-tez qorxu, özünə şübhə və narahatlıq hiss edə bilər.

Uğursuzluq qorxusu ola bilər.

Müsbət rəyi qəbul etməkdə çətinlik çəkə bilər.

Xeyr deməkdə və sərhədləri təyin etməkdə çətinlik çəkə bilər.

Başqalarının ehtiyaclarını öz ehtiyaclarınızdan üstün tuta bilər.

Məqsədə çatmaq və sağlam əlaqələr qurmaqda çətinlik çəkə bilər.

Özünü qiymətləndirmənin aşağı olması, narahatlıq və depresif pozğunluqlar da daxil olmaqla müxtəlif psixi sağlamlıq pozğunluqlarına səbəb ola bilər.

Yüksək (şişirdilmiş) özünü qiymətləndirmə: Həddindən artıq yüksək özünü qiymətləndirməsi olan insanlar bacarıqlarını yüksək qiymətləndirə bilər və özlərinə inamlarını dəstəkləyəcək qabiliyyətləri olmasa belə uğur qazanmaq üçün yüksək motivasiya hiss edə bilərlər. Sosial münasibətlərdə problemlər yaşaya bilər və özlərini mükəmməl olaraq gördükləri üçün bu onlarda özlərini inkişaf etdirmələrinə mane ola bilər.

Həddindən artıq yüksək özünü qiymətləndirən insanlar:

Daima mükəmməl olmağa çalışar

Həmişə haqlı olmağa diqqət yetirə bilər

Uğursuz olmayacaqlarına inanarlar

Başqalarından daha bacarıqlı və ya daha yaxşı olduğuna inana bilərlər

Bacarıq və qabiliyyətlərini şişirdilmiş şəkildə qiymətləndirə bilər

Özünü qiymətləndirmə çox yüksək olduqda, münasibət problemləri, sosial vəziyyətlərdə çətinlik və tənqidi qəbul edə

bilməməsi ilə nəticələnə bilər.

Normal - adekvat özünü qiymətləndirməsi olan insanlar, məqsədlərinə çatmaq üçün özlərini həvəsləndirə bilirlər, çünki bilik, bacarıq və qabiliyyətlərini doğru şəkildə qiymətləndirə bilirlər. Əlavə olaraq, adekvat özünü qiymətləndirməyə malik olduqda, münasibətlərdə uyğun sərhədlər qoya və başqaları ilə sağlam əlaqələr qura bilirlər.

Normal özünü qiymətləndirmənin olub olmadığını söyləmək üçün bir neçə sadə yol var. Sağlam özünü qiymətləndirməsi olanlarda bu xüsusiyyətlər qeyd olunur:

Hər kəslə bərabər olduğuna (nə onlardan daha yaxşı, nə də daha pis olduğuna) inanır

Ehtiyaclarını rahat şəkildə ifadə edə bilirlər

Həyata müsbət baxışları olur

İstədiyi zaman yox deyə bilir

Güclü və zəif tərəflərini görür və qəbul edir

Özünü qiymətləndirməyə təsir edə biləcək bir çox amil var. Bunlara- yaş, əlillik, genetika, xəstəlik, fiziki qabiliyyətlər, sosial-iqtisadi vəziyyət və s. aiddir.

İrqçilik və ayrıseçkiliyin də özünü qiymətləndirməyə mənfi təsir göstərdiyi bir çox tədqiqatlarla sübut edilmişdir. Əlavə olaraq, insanın şəxsiyyətini formalaşdırmağa kömək edən genetik faktorlar rol oynaya bilər, lakin həyat təcrübələrinin ən vacib faktor olduğu düşünülür.

Ümumiyyətlə, ümumi özünü qiymətləndirmənin əsasını təcrübələr təşkil edir. Ailəsindən və dostlarından davamlı olaraq həddindən artıq tənqidi münasibət görən və ya mənfi qiymətləndirmə alan insanlarda, aşağı özünü qiymətləndirmə olma ehtimalı yüksəkdir.

## Ədəbiyyat

1. Julia Friederike Sowislo and Ulrich Orth. Does Low Self-Esteem Predict Depression and Anxiety? A Meta-Analysis of Longitudinal Studies. University of Basel, January 2013 səh 213-232

2. Ulrich Orth and Richard W. Robins. Understanding the Link

Between Low Self-Esteem and Depression. 2013 səh 455-460
3. https://www.verywellmind.com/what-is-self-esteem-2795868

# YENİYETMƏLƏRDƏ YAŞLILIQ HİSSİNİN FORMALAŞMASI

***Ələkbərzadə Pərvin Əbülfərz qızı***
*BDU-nun II kurs maqistrantı*
*pervin19971997@bk.ru*

Yeniyetməlik dövrü insan həyatının ziddiyyətli bir dövrüdür. Artıq yeniyetməlik dövründə həyati məqsədimizin və mövqeyimizin əsası qoyulur. Yeniyetmələrdə böyüklük hissi sürətlə inkişaf edir. Bu gün özünü böyük kimi aparan yeniyetmə sabah ərköyün uşaq kimi davranır.Böyüklük hissi özünə münasibətdə,özündən yaşca böyüklərə,həmyaşıdlarına göstərdiyi münasibətdə özünü büruzə verir. Yaşlılıq hissində baş verən ziddiyyətin əsas səbəbini K.Levin yeniyetmələrin və böyüklərin müxtəlif qruplara məxsus olmasında görürdü. E.Eriksona görə isə yeniyetməlik yaşında identiklik inkişaf edir.Onlar böyüklərin dünyasına keçməyə çalışır. Yeniyetmələrin istəkləri,əhval-ruhiyyəsi tez-tez dəyişdiyinə görə böyüklər onlara uşaq kimi baxır. Yeniyetmələrdə sosial qərarsızlıq meydana çıxır. Bu da böyümə dövrünün uzanmasına gətirib çıxarır.

Yaşlılıq hissinin yaranmasında uşağın iştirak etdiyi müxtəlif yaşlı uşaqlardan  ibarət qeyri-formal qrupun da müəyyən rolu vardır. Bu qruplarda münasibətlərin və məşğələlərin həyata keçirilməsində yaşlı uşaqlar aparıcı qüvvəyə malik olurlar. Yeniyetmələr yaş məsələsinə çox həssas yanaşırlar,hətta özlərindən bir yaş böyük olan uşaqların düşüncələri onlar üçün çox böyük əhəmiyyət kəsb edir. Yeniyetmə özündən böyüklərlə bir qrupda olduqda, müxtəlif işləri icra etdikdə,söhbət etdikdə, ələlxüsus yaşlılar onlarla hesablaşdıqda bu,onları xeyli yaşlılaşdırır. Yaşlılaşma həm obyektiv,həm də subyektiv planda həyata keçir. Yaşlıların uşağa özləri kimi münasibət bəsləməsi yeniyetmələri həvəsləndirir. Onlar çalışırlarki yaşlıların səviyyəsinə yüksəlsinlər və heç bir sahədə onlardan geri qalmasınlar.

Yeniyetmə yaşlı insanın müxtəlif qadağalardan, məhrumiyyətlərdən azad olan bir varlıq hesab edir. Yeniyetmə çalışırkı,ona da belə münasibət bəslənsin. O, gözləyir ki,yaşlılar onu başa düşəcək,ona qarşı əvvəlki münasibət formasını dəyişəcək, ona etimad göstərəcək,şəxsi ləyaqət hissinə çox böyük həssaslıqla yanaşacaqlar. Yeniyetməlik dövründə yaşlılıq hissinin meydana gəlməsi uşaqların özünü qiymətləndirməsinə əsaslı təsir göstərir. İndi yeniyetmə əvvəlki kimi öz həyatına passiv münasibət bəsləmir.

Yeniyetmələrdə özünə,öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq oyanır. Bu cür özünəyönəlmiş maraqların təsiri altında yeniyetmələrdə özünüqiymətləndirmə tələbatı, özünü, öz imkan və bacarıqlarını başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Çox vaxt ilk dövrlər yeniyetmənin özünüqiymətləndirməsi onun malik olduğu imkanlarına, kollektivdəki mövqeyinə uyğun gəlməsə də bunun sayəsində o, bir növ öz "mən"ini kəşf edir. Bu isə uşağın sonrakı həyat və fəaliyyəti üçün zəruri əhəmiyyətə malikdir. Təcrübə göstərir ki, mənlik şüurunun formalaşmağa başlaması yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinə, cisim və hadisələrə münasibətinə, yaşlılarla, yoldaşları, şagird kollektivi üzvləri ilə qarşılıqlı münasibətlərinə əsaslı təsir göstərir.

Yaşlılaşmanın inkişafı və istiqamətləri haqqında: Yaşlılaşmanın inkişafı yeniyetmənin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Yeniyetmələrdə yaşlılığın inkişafı müxtəlif cür baş verə bilər. Yeniyetmələrin çoxunun yaşlılığa meyilli olmasının səbəbi özünə və başqalarına yaşlı kimi görünmək istəyindən irəli gəlir. Yeniyetmə belə düşünür ki, o, görünüşcə yaşlılara oxşasa, müəyyən hüquqlara, üstünlüklərə yiyələnəcəkdir.

Yeniyetməyə görə  kişi və qadının xarici əlamətlərini mənimsəmək, yaşlıların aləminə daxil olmaq, insanlara öz yaşlılığını göstərmək, təqdir olunmaq deməkdir. Məsələn: papiros çəkən yeniyetmə oğlan düşünür ki, o, özünün və ətrafdakıların nəzərində guya artıq böyük kişidir, yaxud kosmetikadan istifa-

də edən qız özünü daha böyük qadınlar kimi aparmağa meylləNir.Bu yaş dövründə uşaqlar çox vaxt tutduqları planı həyata keçirməkdə çətinlik çəkirlər; bu isə onlarda özünəinam hissinin itirilməsinə səbəb olur. Yaşlılar uşaqları daim həvəsləndirməli öz gücünə inam hissi yaratmalıdırlar. Valideyn və müəllimlər çalışmalıdırlar ki, yeniyetmə oğlanlarda əsl insani keyfiyyətlər yaransın.

Yaşlılaşmanın baş verməsi bir çox şərtlərdən asılı olduğundan və müxtəlif vaxtlarda həyata keçirildiyindən o, eyni yaşlı yeniyetmələrdə həmişə eyni anda baş vermir. Onların bəziləri tez, digərləri yavaş-yavaş, başqaları bir neçə istiqamətdə, bəziləri isə birtərəfli yaşlılaşmağa başlayır. Odur ki, müasir məktəblilərin həyatında əsasən iki anı fərqləndirirlər.

1. Yaşlılaşmanın inkişafını ləngidən amillər: buraya uşağın dərsdən başqa heç bir işlə məşğul olmaması, valideynlərin hər bir sahədə uşağa himayədarlıq göstərməsi, onu məişət əməyindən, müəyyən qayğılardan uzaqlaşdırmaları aid edilir.

2. Yaşlılaşdırma məqamları: buraya isə müxtəlif məzmunlu zəngin informasiya axını, valideynlərdən çoxunun müəyyən işlərdə çalışması nəticəsində uşaqlarda yaranan müstəqillik hissi, yoldaşları ilə ünsiyyətin intensiv inkişafı, fiziki inkişafın və cinsi yetişkənliyin akselerasiyası daxildir. Bütün bu göstərilənlər uşağın həyatı və tərbiyəsinin xüsusiyyəti ilə birləşərək yaşlılaşmanın müxtəlif sürət və istiqamətdə inkişafını şərtləndirir.

**ƏDƏBİYYAT**

1. Vəliyev.M.V., Mustafayev.A.M. Uşaq və yaş psixologiyası. ADPU-nun nəşri,Bakı 2016

2. Pr.dr.Adnan kulaksızoğlu. Ergenlik psikolojisi.

3.Ə.S.Bayramov Ə.Ə.Əlizadə. Sosial psixologiya..Bakı 2003

# РОЛЬ ЭМОЦИОНАЛЬНОЙ ЗРЕЛОСТИ РОДИТЕЛЕЙ В ПРОЦЕССЕ РАЗВИТИЯ АУТИЧНЫХ ДЕТЕЙ

***Рагимова Алия Джаваншир кызы***
*Магистр II- го курса БГУ*
*aliyarahimova96@gmail.com*

Благодаря усилиям научного сообщества, разработаны лекарства от всякого рода болезни- таблетки для зависимых, антидепрессанты для тех, кто в депресси, и т.д. Но до недавнего времени научному сообществу нечего было предложить в области понимания эмоциональной жизни. Ребенок аутист испытывает, переживает вдвойне трудности в построении эмоционального контакта. Поэтому родителям предстоит изучить проблему ребенка и найти правильный подход в общении [4].

Каждый возрастной этап ребенка аутиста индивидуален и требует особый подход. Например, эмоциональное общение со взрослыми в период младенчества (до 1 года), является ведущей деятельностью. Механизм имитации эмоционального состояния другого человека развит слабо; эмоционально реагируют на физическое воздействие (поглаживание, щекотание), а не на появление человеческого лица, свойственно запаздывание эмоционального реагирования. Эмоционально зрелые родители оказывают Устойчивое позитивное эмоциональное общение. Чувствительность к потребностям ребенка и их удовлетворение. Сопровождение действий (переодевание, купание, массаж и пр.) улыбкой, доброжелательным взглядом, ласковыми словами, пением. Любовь, отзывчивость, эмоциональная доступность. Если родитель эмоционально незрелый, то характер общение состоит из Эмоционального отчуждения, холодности, депрессивного состояния,

эмоциональной неуравновешенности. В результате эмоциональной незрелости родителя ребенок склонный к замкнутости уходит в свой мир [1].

Следующий не менее важный период - раннее детство (1-3 года). В этом возрасте ребенок аутист производит впечатление эмоционального благополучия, до 3 лет остается эмоционально пассивным, механизм подражания не развит или слабо развит; к концу 3 года жизни отмечаются недостаточная эмоциональная лабильность или явно выраженная ригидность, ярко проявляется негативизм. Если родитель эмоционально зрелый, то проявляет чувство интереса к ребенку и восхищение им, оказывает Игровое взаимодействие, Доброжелательное отношение, чуткость, отзывчивость, выстраивание доверительных отношений; эмоциональное речевое сопровождение игр и т.п. Эмоционально незрелый родитель же Зациклен на собственных переживаниях. ищет виноватого. Не принимает болезнь ребенка. Общение ограничивается лишь удовлетворением физиологических нужд ребенка [1]. Общее состояние родителя: тревожность, раздражительность, связанная с дополнительными заботами о больном ребенке, тягостное переживание чувства вины и стыда. Вследствие отношение такого родителя к ребенку: игнорирование, эмоциональная холодность, отчужденность.

Следующий период дошкольное детство (3-6 лет). Ведущей деятельностью этого периода является игра. Данный возраст детей аутистов характеризуется эмоциональной пресыщаемостью, негативизмом, склонностью к эйфории с монотонным двигательным возбуждением, дурашливостью. Особенности общего эмоционального облика в этом возрасте: отрешенность, тревожность, напряженность, обеспокоенность, индифферентность. Ярко выражены: самоизоляция, чрезмерная консервативность общения и поведения,

конфликтность, страхи, агрессия и самоагрессия. Эмоционально зрелый родитель, учитывая характерную черту ребенка проявляет следующий характер взаимодействия: доброжелательное отношение, принятие, терпимость к особенностям развития ребенка. А так же проявляет особый подход при Эмоциональном взаимодействии, обучении, общении, воспитании. Родитель предоставляет в доступной для ребенка информации и совместное обсуждение причин различных эмоциональных состояний окру-жающих людей и литературных героев. Необходимо стимулирование к подражанию эмоциональных состояний окружающих. Эмоционально незрелый родитель проявляет эмоциональное отчуждение, эмоциональное отвержение, гнев, апатию, разочарование, связанное с неоправданными надеждами. Непонимание эмоций, чувств, желаний ребенка и связанные с этим трудности удовлетворения его потребностей, что приводит к еще боль-шему взаимному раздражению, отчуждению и, даже агрессии. Изоляция или ограничение активности ребенка, общения с окружающими людьми и сверстниками в силу страха перед возникновением непредвиденной ситуации и неспособностью повлиять на нее.

Эмоциональная зрелость родителей состоит в создании максимально благоприятных условий, способствующих преодолению трудностей общения у ребенка с аутизмом. Уровень эмоциональной зрелости родителей будет влиять на дальнейшую динамику развития аутизации, которая может протекать в двух направлениях. При одном из них аутичные черты личности закрепляются и создают глубоко аутичную структуру личности. При другом варианте динамики аутичные черты, элементы обнаруживают тенденцию к частичному сглаживанию, и со временем наблюдается постепенная выработка адекватных поведенческих стереотипов у ребенка в различных

бытовых и учебных ситуациях [2]. Фиксация внимания родителей на проблеме эффективного взаимодействия, воспитания, развития и социализации аутичного ребенка более свойственна эмоционально зрелым личностям, которые способны вовремя реагировать на уход ребенка из внешнего мира во внутренний мир и обеспечивать внешнюю безопасность, стабильность путем привычной и находящей положительный отклик у ребенка совместной деятельности для пробуждения интереса у ребенка к реальному миру [3].

**Литература**


1. Никольская О.С., Баенская Е.Р., Либлинг М.М. Аутичный ребенок, 2015.
2. Тхостов А.Ш., Колымба И.Г. Феноменология эмоциональных явлений, 1999.
3. Морозова С.С., Алявина Е.А., Морозова Т.И. Аутизм: практические рекомендации для родителей. 2002.
4. Герхардт С. Как любовь формирует мозг ребенка, 2012.


# YENİYETMƏ-VALİDEYN MÜNASİBƏTLƏRİNƏ YAŞ BÖHRANININ TƏSİRİ


***Həbilova Xatimət Qurban qızı***
*BDU-nun II kurs magistrantı*
*xati199800@gmail.com*


Yeniyetməlik dövrü 10(11) yaşdan başlayır və 14(15) yaşa qədər - orta məktəbin beşinci-səkkizinci sinif şagirdlərini əhatə edir. 11-13 yaşlıları adətən kiçik yeniyetmə, 13-15 yaşlıları isə böyük yeniyetmə adlandırırlar. Lakin yeniyetməlik dövrünün başlanmasına və qurtarmasına dəqiq sərhəd qoymaq olmaz.

Yeniyetməlik dövrünü bir çox müəlliflər “keçid dövrü” (uşaqlıqdan gəncliyə), “çətin dövr” (müəllim və valideynlər üçün), “dönüş dövrü”, hətta “böhran dövrü” belə adlandırırlar.

Bu vaxt istər fiziki, istərsə də psixi inkişaf həm surətlə, həm də bütün sahələrdə həyata keçirilməyə başlayır. Əgər dördüncü sinif şagirdi ilə səkkizinci sinif şagirdini müqayisə etsək, görərik ki, bu qısa müddət ərzində uşaq fiziki, əqli, əxlaqi və ictimai-sosial baxımdan nə qədər böyümüş olur.

Bu dövr özünün praktik əhəmiyyəti, pedaqoji çətinlikləri və uşaq şəxsiyyətinin dinamikasında baş verən psixoloji xüsusiyyətləri ilə diqqəti cəlb edir.

Yeniyetməlik dövrünün əsas xüsusiyyətləri eqonun qabarması, heç kəsi qəbul etməmə, özünü hamıdan ağıllı hesab etməkdir. Valideyn üçün də əsas problem məhz övladının aqressiv davranışlarıdır. Valideyn dünənə qədər uşaq saydığı bugünkü yeniyetmə ilə ünsiyyət qura bilməmək, idarə edə bilməməkdə çətinlik çəkir. Halbuki, 2-3 il öncə öz arzu və istəklərini asanlıqla həyata keçirə bilirdi. Bu zaman valideyn və övlad arasında mübahisələr yaranır. Valideyn-övlad münasibətləri müşkülə çevrilir.

Valideynlə yeniyetmə arasında ən kəskin konfliktlər daha çox erkən yeniyetməlik dövrünə təsadüf edir. Çünki valideyn övladının böyüməsindən xəbərsiz olur. Valideyn hər zamankı tələbkarlıqla övladına yanaşır, amma əvəzində etiraz görür, çaşqınlığa düşür və nə edəcəyini bilmir. Bu vəziyyətdə o, aqressiv davranış nümayiş etdirmək əvəzinə övladının böyüdüyünü qəbul eləsə, vəziyyət onun üçün daha asan olar.

Yeniyetmələr tənqidə qarşı çox dözümsüz olurlar. Valideyn isə tənqidin yararlı, faydalı olduğunu düşünür.

Xüsusən qız uşaqları bu dövrün böhranını daha kəskin keçirir. Oğlan uşaqları isə ailəsindən qoparaq kənar qruplara meyl göstərir ki, bu da onun neqativ vərdişlərə yiyələnməsi ilə nəticələnir.

Valideyn-övlad arasında anlaşılmazlıqlar əvvəlki dövrlərdə də olub, amma o dövrlərdə həyat tərzi bir qədər qapalı olduğundan, bu qədər müzakirə mövzusuna çevrilmirdi.

Bir çox ailələrdə valideynlər övlada qarşı şiddət və zorakılıq tətbiq edir. Belə ailələrdə uşaqda mənəvi psixoloji problemlərin

yaranma riski daha böyük olur. Bəzi ailələrdə uşaqları ana və ya ata ilə qorxudurlar. Bu da "yeniyetmə faciəsi" ilə nəticələnir. Çünki belə ailələrdə uşaqda ana-ata sevgisini qorxu əvəz edir. Valideyn övladına sevgi, güvən, inam vermirsə, övlad tədricən ailədən və evdən uzaqlaşır.

Mütəxəssislər hesab edir ki, övladı ilə münasibətlərinin yaxşı olmasını arzulayan valideynlər arada olan hörməti, güvəni qorumaq üçün övladını heç bir zaman tənqid etməməlidir. Valideyn övladının dostu olmalıdır. Onun maraqları ilə yaxından tanış olmağa, sirlərini, düşüncələrini bölüşməyə çalışmalıdır. Valideyn öz problemlərini övladına anlatmağa başlasa, uşaq ondan çəkinməz və öz sirrini bölüşər.

Yeniyetməlik dövrünün təlatümlü keçməsi eyni zamanda bir çox psixi xəstəliklər üçün də zəmin hazırlamaqdadır. Davranışların gözlənilməz istiqamətdə dəyişməsi, aqressivliyin həddən artıq artması, dərs müvəffəqiyyətinin çox düşməsi, zərərli vərdişlərə meyilliyin yaranması müşahidə edilirsə artıq valideynlər daha diqqətli olmalı və yeniyetməyə həssaslıqla yanaşaraq problemin həllinə köklənməlidirlər. Bu dəyişikliklərin erkən vaxtda hiss edilməsi, anlayışla öhtəsindən gəlinməsi üçün yeniyətmə ilə birgə çıxış yolunun tapılması bir çox halda müsbət nəticəyə gətirib çıxarmışdır.

**Ədəbiyyat**

1. M.Vəliyev, A.Mustafayev -"İnkişaf və yaş psixologiyası" səh.156
2. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə -"Psixologiya"
3. Mehmet Murat Döğüşgen-"Nerede hata yaptık? Çocuk ve ergen sorunları"

## ERKƏN GƏNCLƏRDƏ ÖZÜNÜDƏRKETMƏNİN TƏSNİFATI

***Rüstəmzadə Rüstəm Firdovsi***
*BDU-nun II kurs magistrantı*

İnsanın bir şəxsiyyət kimi formalaşmasında, cəmiyyətdə öz yerini tapmasında onda mənlik şüurunun inkişafı xüsusi rol oynayır. Bəs "mənlik şüuru" nədir? "Mənlik şüuru" dedikdə insanın özünün tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti nəzərdə tutulur. Məlum olduğu kimi, insan sosial məfhumdur və daima cəmiyyətlə qarşılıqlı əlaqə və ünsiyyət prossesindədir. Insan bu prosses zamanı özünü ətraf mühitdən ayırır, özünü fiziki və psixi cəhətdən dərk etməyə başlayır. Bu da o deməkdir ki, insan öz "mən"ini başa düşür, anlayır. Mənlik şüurunun formalaşması insana özü haqqında təsəvvürlərini, özünün zahiri görkəmini, əqli, mənəvi, iradi keyfiyyətlərini qiymətləndirmək imkanı verir. Bu baxımdan mənlik şüuru insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesindən ibarətdir.

Mənlik şüurunun dərk olunması üçün fərd öz "mən"ini kəşf etməlidir və bu kəşf də uzunmüddətli inkişaf prossesinin nəticəsidir. Tərəddüd etmədən deyə bilərik ki, insanın öz "mən"ini dərk etmə prossesinin əsası hələ körpə yaşlarından qoyulur. Bu istiqamətdə, birinci növbədə körpə uşaqların özünü güzgüdə tanıması məsələsinə xüsusi diqqət yetirə bilərik. Eksperimentlər nəticəsində məlum olmuşdur ki, uşaqlar özlərini güzgüdə ilk dəfə olaraq, 18 aylıq olarkən tanıyırlar. İdrak prosessləri inkişaf etdikcə onların özləri haqqında təsəvvürü də genişlənir, öz "mən"ini tanıma prossesi daha da dərinləşir. Məsələn, uşaq yeriməyə başladıqda, baxçaya gedəndə, məktəbə gedəndə özünü daha dərindən, yaxından tanımağa başlayır ki, bu da onların özləri haqqında təsəvvürü genişləndirir.

İlk gənclik dövrü, insanlarda məktəb vaxtı hesab olunur ki,bu dövrdə onlar artıq səlahiyyətlərinin, imkanlarının genişləndiyini dərk edir. Bu da onlarda böyüklük hissinin artmasına səbəb olur. Bu dövrdə artıq onlar özlərini dərk etməyə, daha yaxından tanımağa başlayırlar. Onlar öz şəxsiyyətlərini, kim olduqlarını bu dövrdə aydınlaşdırırlar. Özləri haqqında düşün-

cələri, təsəvvürləri, arzu və istəkləri köklü şəkildə dəyişir. Şəxsiyyət kimi formalaşmağa başlayırlar. Erkən gənclik dövründə gənclər artıq xarici görkəmlərinə daha həssas şəkildə yanaşmağa başlayırlar. Kiçik bir qüsur onlar üçün əsaslı şəkildə narahatçılığa səbəb olur. Böyük məktəblilərdə özünü psixoloji cəhətdən dəyərləndirmək, özünü qiymətləndirmək, öz tipini təhlil etmək xüsusiyyəti formalaşır ki, bu da onlarda mənlik şüurunun formalaşması  anlamına gəlir.

Böyük məktəblilərdə öz hissləri və fikirləri üzərində düşüncələr, özünüdərketmə tələbatı güclüdür. “Mən kiməm”?, “Nəyə qabiləm”?, “Həyatın mənası nədir”? kimi suallar onları düşündürür. Bu yaşda əxlaqi məsələlərə də maraq güclənir. Sözü üzə demək, prinsipiallıq, düzlük - gənclər üçün xarakterikdir.

Onlar adamlarda düzlüyü, təvazökarlığı, əməksevərliyi, sadəlik və xeyirxahlığı daha yüksək qiymətləndirirlər. Tənqid, özünütənqid gənclər üçün xarakterikdir. Onlar diskussiya, həqiqət axtarışına daha çox meyl göstərirlər.Erkən gənclik yaşında təlimə maraq artır.

Erkən gənclik dövründə öz “mən”ini dərk etmənin formalaşması bir neçə istiqamətdə cərəyan edir.

Əvvəla erkən gənclik dövründə gənclər öz hislərini və emosiyalarını ətrafda baş verən hadisələrin nəticəsi kimi yox, öz davranışlarının , öz “mən”nin vəziyyəti kimi dərk edirlər. Belə olduqda bəzən onlarda təklik hissi yaranır, özlərini böyük bir cəmiyyətdə tək, tənha hiss edirlər yaxud başqalarına bənzəməmək hissi baş verir.

Tədricən, zaman keçdikcə artıq onlar öz arzu və istəklərini həyata keçirir, həyatda öz istiqamətlərini, ideallarını müəyyənləşdirir, həyata keçirə bilmədikləri arzuları üçün yeni planlar hazırlayır yaxud arzularının istiqamətini dəyişirlər. Onların hazırladıqları bu planlar onların həyatdakı yönünü, istiqamətini, mənəvi simalarını, həyat tərzlərini, peşə və həyatda yerlərini, iddia səviyyələrini müəyyənləşdirir.

Bu dövrdə onlar “real mən”i tam dərk edir. Özünün xarici görkəmi, bədəninin xüsusiyyətləri, özünün əxlaqi və iradi key-

fiyyətlərini, cəlbediciliyini dərk edir, anlayır. Lakin bu dərketmə bəzən ziddiyyətli ola bilir. Çünki gəncin xəyalında formalaşdırdığı "ideal mən"i ilə özünün olduğu "real mən"i arasında ziddiyyətlər yaranır və "sosial mən" bunu pərdələyə bilmir.

Bütün bunlar gənclik təfəkkürünün müstəqil və tənqidi fəaliyyətini inkişaf etdirir. Gənclər həyat hadisələri ilə rastlaşdıqca, gözlənilməz hadisələri dərk etməyə çalışdıqca ümümləşdirmələr aparır, nəticələr çıxarmağa can atırlar. Belə ümümləşdirmələr bəzən reallığa uyğun olmur, səthi xarakter daşıyır. Bu kimi hallarda müəllimlər və valideynlər gənclərə həyatın bütün çalarlarını başa salmalı, onları mühitə, həyat tərzinə uyğunlaşdırmalı, onların insan və onun həyatda mövqeyi haqqındakı fikirlərini dəqiqləşdirməlidirlər. Yetkin dövründə şəxsiyyətin fərdi xüsusiyyətləri yüksək inkişaf səviyyəsinə çatır.

### Ədəbiyyat


1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, "Psixologiya", Ali məktəblər üçün dərslik, Bakı-2002.
2. Həmzəyev M.Ə. "Yaş və pedaqoji psixologiyanın əsasları". Bakı: Adiloğlu, 2003.
3. Qədirov.Ə.Ə. "Yaş psixologiyası". Bakı: Maarif, 2002.
4. Vəliyev.M. , Mustafayev.A. "İnkişaf və yaş psixologiyası" , Bakı-2016


## BLOQLARIN BƏZİ FUNKSİYALARININ PSİXOLOJİ TƏZAHÜR FORMALARI


***Qəribova Leyla Elxan qızı***
*BDU-nun II kurs magistrantı*
*qariblila@gmail.com*


Hal-hazırda, bloq platforması müasir insanın özünü reallaşdırması üçün populyar və fəal inkişaf edən platformadır. İnformasiya texnologiyaları əsrimiz fərdin daxili potensialına: intellektə, yaradıcılığa, özünü həyata keçirmək, özünü tam şəkildə

nümayiş etdirmək istəyinə və qabiliyyətinə artan tələblər qoyur. Virtual gündəliklərin məhdudiyyətsiz imkanları var: qeydlərin açıqlığı və əlçatanlığı, hər kəsə eyni zamanda yazıçı, şərhçi və oxucu olmaq şansı verir, bloqların və forumların insanları bir araya gətirmək vasitəsi kimi çıxış etmə qabiliyyəti, bütövlük qazanma qabiliyyəti, bütün bunlar fərdin potensialının açılmasına kömək edir [1, s.39].

Bloqlar bir çox funksiyanı yerinə yetirir. Ən vaciblərindən biri ünsiyyətdir. İstifadəçilər maraqlandıqları insanlarla ünsiyyət qurmaq xatirinə gündəlik saxlayır və ya oxuyurlar. Buna görə də "bloger-oxucu" və "bloger-yazıçı"nı ayırd edə bilərik. Yazılı yazı, çoxlarının eşidəcəyi şəkildə bir şey söyləmək üçün fürsətdir. Hər kəs qeydini özünə uyğun vaxtda oxuya bilər və ya heç oxumayaraq, onun üçün maraqlı olmadığını qərara alır. İkinci funksiya - özünü təqdim etmə - birbaşa özünü ifadə etmə ilə əlaqədardır, çünki müəllifin şəxsiyyəti haqqında məlumat daşıyan müəllifin əsərlərini (nəsr, şeir, fotoşəkillər, rəsmlər) dərc etmək və müzakirə etmək üçün hazırlanmış bloqlar sinfi var. Bloqlar, həm də əylənmək funksiyasını yerinə yetirir, boş vaxt oxumaq üçün tükənməz mənbəyi təmsil edir: xəbərlər, icmalardakı maraqlar, ünsiyyət və s. Sosial əlaqələri toplamaq və qorumaq funksiyası, real həyatda insanlar arasında kəsilmiş ünsiyyəti saxlamağa və dostlarınızı daha yaxından tanımağa imkan verir. Bununla yanaşı, bloqlar xatirələr funksiyasını da yerinə yetirir - gələcəkdə faydalı ola biləcək qeydlər üçün yerlər, həyatınızdakı bəzi hadisələrin təfərrüatlarını unutmamağın yollarından biridir. Beləliklə, müəlliflər özləri ilə gecikmiş ünsiyyət kimi bir şey yaradırlar, fikirlərini çap şəklində verirlər [3, s.134].

Platformasının virtuallığı sayəsində bloq iştirakçılara müəllifin çox vaxt istədiyi başqa imic yaratmaq, bu da özünü inkişaf etdirmə və ya əks etdirmə funksiyasına imkan verir. Bəzi blogerlər qeyd edirlər ki, gündəliyin açıqlığı onları saxlamağa davam etməyə məcbur edir, eyni zamanda düşüncələrini daha savadlı qurmağı öyrənməyə məcbur edir, yaşadıqları hadisələri daha yaxşı anlamağa kömək edir. Bloqun köməyi ilə "duyğula-

rınızı ata", "ağrılı ifadə edə", "əsəbləri sakitləşdirə" bilərsiniz - ənənəvi gündəliyin psixoterapevtik funksiyası yeni forma və yeni imkanlar əldə etdi [6, s.169]. Bundan əlavə, bloqların köməyi ilə insanların bazar, təşkilat, məhsullar haqqında söylədiklərini izləyə, başqalarının bloqlarına şərh yazaraq müzakirədə birbaşa iştirak edə bilərsiniz. Bu, mal və xidmətləri tanıtmaq funksiyasıdır. Oxşar "bazar" mövzularında yazan blogerlərlə əməkdaşlıq edə bilərsiniz və nəhayət, öz bloqunuz vasitəsilə müzakirəyə birbaşa təsir edə bilərsiniz [1, s.192].

İnsan fəaliyyətinin mərkəzi "mənlik" üçün ideal İnternet platformasına çevrildi: özünü yaratmaq, özünü ifadə etmək, özünü təqdim etmək. Virtual komponent gündəlik həyat tərzinə daxil edilir, gündəlik saxlamaq getdikcə daha da asanlaşır: qeydlər əlverişli vaxtda və dünyanın hər yerindən edilir [4, s.125]. Yuxarıda göstərilənlərə görə gündəliyin dəyərləri və məqsədləri istər-istəməz fərdin özünü dərk etməsinə və özünü təqdim etməsinə doğru dəyişir. Gündəlik bloqun funksiyaları aşağıdakılardır:

1) ünsiyyətcil;
2) özünü təqdim etmək;
3) əyləncə;
4) sosial şəbəkələrin toplanması və saxlanılması;
5) xatirələrin funksiyası;
6) özünü inkişaf etdirmə və ya əks etdirmə;
7) psixoterapevtik;
8) mal və xidmətlərin təşviqi [2, s.57].

Qeyd edə bilərik ki, özünü əks etdirmə, özünü tanıma və özünüdərk vasitələri müəllifin hər kəs üçün əlçatan və eyni zamanda xüsusi olaraq heç kimə ünvanlanmayan mühüm hadisələri haqqında hesabata çevrilmişdir. İstifadəçi aktivliyi bloq vasitəsilə yaradıcı inkişafın inkişafına da təsir edir. İnsan özünü fəal şəkildə "tanıtdırır" və bəzən hətta bloq vasitəsi ilə tətbiq edirsə, bu digər insanlarda xoşagəlməz təəssürat yaradır. Bu artıq özünü dərk etmək deyil, diqqətsizlik problemidir. Öz fərdiliyinin formalaşması, özünü heyranlıq yolu ilə insanların izdihamından ayrılmağı və başqalarından özünə qarşı eyni münasi-

bəti gözləməyi nəzərdə tutmur, əksinə hərəkətlərin edilməsi - sözlərinin görünən, maddi sübutudur [5, s.1107].

Beləliklə, bloq insanın özünü dərk etməsi üçün platformadır. Özünü ifadə etmək bloqçuluğa yönəlməyin əsas səbəblərindən biridir. İnsanlar diqqəti cəlb edir, obrazlar yaradır, "qəliblənir", özlərini axtarırlar. Fərdiliyinin fərqində olmaq, özlərini tövsiyə etmək, həmfikir insanlar tapmaq istəyirlər. İstifadəçilərin özlərinə olan marağı qorumaqdan məmnun olduqları müddətcə bloqlar populyarlığını artırmağa davam edəcəkdir.

**Ədəbiyyat**


1. Волохонский В.Л. Психологические механизмы и основания классификации блогов // Личность и межличностное общение в сети *Internet*: сборник научно-исследовательских работ. 2014. 336 с.
2. Летягин Л.Н. Личный дневник: самосознание жанра // Изв. Рос. гос. пед. ун-та им. А.И. Герцена, 2008. № 10 (56): Общ. и гуманит. науки. С. 56-67.
3. Charikova T.V. Diary-blog: from reflection to self-presentation. Herald of Omsk University, 2018, vol. 23, no. 2, pp.132-135.
4. Eitling B., Faris R., et al. Public Discourse in the Russian Blogosphere: Mapping RuNet Politics and Mobilization. // Berkman Center Research Publication. The Berkman Center for Internet & Society at Harvard University, 2010. 300 p.
5. Gunter B., Campbell V., Touri M. Blogs, news and credibility // Aslib Proceedings. 2009. № 61 (2). P. 1100-1108.
6. Wall M. Blogs of war: Weblogs as news // Journalism. 2005. №6. P.153-172.


# ERKƏN GƏNCLƏRDƏ PEŞƏSEÇİMİNƏ TƏSİR EDƏN AMİLLƏR


***Cəfər-zadə Mirxalid Alçın oğlu***
*BDU-nun II kurs magistrantı*
*cafar-zada.mirxalid.alcin@bsu.edu.az*

Peşəseçmə problemi həm təhsil, həm də bütünlükdə cəmiyyətin aktual problemlərindən biridir. Müasir sosial-iqtisadi və sosiomədəni şəraitin yaratdığı cəmiyyətdə gənclərin peşəseçmə problemi fərdi deyil, kütləvi məsələ kimi nəzərdən keçirilməlidir. Kütləvi peşəseçmənin mənbələri bu və digər ölkə və ya ərazidə əmək bölgüsünün inkişafı və dərinləşməsi ilə əlaqədardır [3, s.72].

Müasir dövrümüzdə də bu məsələ bir sıra səbəblərə görə öz aktuallığı saxlamaqdadır. Belə ki, bir tərəfdən, ali və orta ixtisas təhsil müəssisələrindən məzun olmuş, öz ixtisasına görə işləyənlərin sayı azlıq təşkil edir. Diplom aldıqdan sonra bir çox gənclərin qarşısında "hansı işdə işləyim?" sualı dayanır. Ali təhsil alan gənclərin əksəriyyəti üçün universitetdəki təhsil peşəyə yiyələnmək üçün deyil, diplom almaq üçün bir vasitəyə çevrilir. Bu da öyrənmə səviyyəsinin aşağı düşməsinə, verilən bilikləri qəbul etməməklə nəticələnir. Buna səbəb kimi bu biliklərin sonrakı həyatda lazım olmayacağı əsas gətirilir. Nəticədə biz yaxşı hazırlaşdırılmamış, bir çox hallarda isə öz ixtisası ilə işləməyən bir mütəxəssislərlə qarşılaşırıq.

Təhsil alanlar, onların ixtisası haqqında, gələcəkdəki işi haqqında təkcə nəzəri deyil, eyni zamanda praktik tərəfdən tam məlumatlanmalı, əyanı olaraq tanış olmalıdırlar. Belə ki, öyrənməyə motivasiya edilməmiş tələbəyə, hansı müasir texnologiya və metodikanı istifadə etməkdən asılı olmayaraq, nəyisə öyrətmək çətin olacaqdır [3, s. 74].

Digər tərəfdən,obyektiv səbəblərdən insan müasir cəmiyyətdə yaranmış bazar iqtisadiyyəti və yüksək hərəkətlilik şəraitində işini və peşəsini dəyişməyə hazır olmalıdır. Belə vəziyyətdə o elə bir baza ixtisas biliklərinə yiyələnməlidir ki, istənilən anda bu bilikləri başqa bir işdə istifadə etməyi və ya genişləndirməyi bacarmalıdır. Müasir yüksəktexnoloji istehsalat mütəxəssisin professional fəaliyyətini özündə ehtiva edir. Artıq "professionalizm" terminin yerinə daha çox "savadlılıq" və "kompetemtlik" terminləri işlənilir.

Peşəseçməyə hazırlıq böyük məktəb yaşlarında formalaşma-

ğa başlayır. Məhz erkən gənclik (böyük məktəb yaşı) peşəseçmə "yaşı" kimi qiymətləndirilir.

Müasir elmdə peşəseçməyə müxtəlif yanaşmalar mövcuddur. S.N.Çistyakova peşəseçməni ixtisas seçməyə hazırlıq kimi nəzərdən keçirir və onu şəxsiyyətin əhəmiyyətli peşəkar keyfiyyətlərinin (seçilmiş peşəyə müsbət münasibət, lazimi bilik, bacarıq, vərdişlərin olması) davamlı bütöv sistemi kimi müəyyən edir. M.V.Retivin işlərində peşəseçmə şəxsiyyətin inteqrativ xüsusiyyəti kimi baxılır. Bu xüsusiyyət peşəkar arzu və istiqamətlərin formalaşması və həyata keçirilməsinin mənəvi, psixofizioloji və praktik hazırlığın olmasında özünü göstərən, peşəkar seçimin strateqiyalarının dərk olunmasını və müstəqil şəkildə baş verməsini şərtləndirir. N.S.Pryajnikov iddia edir ki, peşəseçmənin mahiyyəti seçilmiş və ya artıq həyata keçirilən peşənin əhəmiyyətinin müstəqil və dərk olunmuş şəkildə tapılmasındadır [2, s. 300]. V.A.Polyakovanın fikrincə, peşəseçimi özündə karyera seçimi, şəxsi imkanların tətbiqi və özünü inkişaf sferasını birləşdirir. Peşəseçmə həmçinin, şəxsiyyətin sosiomədəni və peşəkar-istehsalat şəraitinə praktik, fəaliyyətiv münasibətinin formalaşmasını şərtləndirir.

Peşəseşmə üçün özündə şəxsiyyətin struktur elementlərini ehtiva edən şəxsi şərtlər mövcuddur. Peşəseçmənin belə vacib şərtlərini 2 əsas qrupda birləşdirmək olar:

1. Peşəseçmə probleminin uğurlu həllinə imkan verən, lakin bu prosesdə birbaşa iştirak etməyən şəxsiyyət xüsusiyyətləri (xarakterin iradi keyfiyyətləri, əməksevərlik, əmək və həyat təcrübəsinin olması, insanın ümumi yetkinliyi);
2. Peşəseçmə prosesinin dinamikliyini müəyyən edən şəxsiyyət yönümünün müxtəlif komponentləri (peşəseçməyə olan tələbat, təhsil və peşəkar maraqlara və meyllər, ustanovkalar, dəyərlər və ideallar, həyati dəyərlər haqqında təsəvvürlər) [1, s. 50].

İnkişaf edən insan üçün böyük məktəb yaşında peşəseçmə nisbətən müsbət emosional rənglənmiş və realistik xarakter da-

şıyır. O, ən azından, peşəkar olma yolunda gələcəkdəki addımlarını fikirləşir: peşəkar təhsil formasının, təhsil müəssisəsinin seçilməsi.

Şagirdlərin peşəseçməsi ilə məşğul olan müəllim üçün, işin nəticəsi isə inkişaf edən insanın seçimin dərk olunması və ona hazır olması vəziyyətidir. Bu seçim dərk olunmuş və ümumbəşəri dəyərlər və sosial normalar daxilində olmalıdır.

Məktəb və müəllimlər şagirdlərin peşəseçimində böyük rol oynasalar da, bunlar şagirdlərin peşəseşməsinə təsir edən sosial strukturlar içərisində tək deyillər. Sosial struktur, informasiya mənbələri, ayrı-ayrı şəxslər və ya qruplar gənclərin peşəseçiminə bu və ya digər dərəcədə təsir edirlər: ailə, dostlar, səhiyyə orqanları, kütləvi informasiya vasitələri, ədəbiyyat və incəsənət əsərləri, elmi, elmimetodik müəssisələr, cəmiyyəti idarə edən orqanlar və s. Bu məsələdə hər bir təsir vasitəsinin imkanlarını, məhdudiyyətlərini və faktiki funksiyalarını nəzərə almaq lazımdır [2, s. 296].

E.A.Klimov öz işlərində peşəseçimi vəziyyətində 8 tərəfi ayırmışdır:

1. Ailənin böyük üzvlərinin pozisiyası. Adətən valideynlər seçimdə uşaqlara sərbəstlik verirlər, lakin bununla belə onlardan müstəqillik, məsuliyyətlilik, təşəbbüskarlıq tələb edirlər. bəzən isə valideynlər uşağın seçimi ilə razılaşmır, ona öz planlarını bir daha gözdən keçirməyi və başqa seçim etməyi təklif edirlər. bu zaman onlar uşağın hələ kiçik olmasını əsas gətirirlər. Düzgün peşəseçiminə valideynlərin uşaqlar üzərində qurduqları ustanovkalar mane ola bilər. Valideynlər çalışırlar ki, onların edə bilmədiklərini uşaqları kompensasiya etsin. Tədqiqatlar göstərir ki, bir çox hallarda uşaqlar valideynlərin onlara bu işdə yardımçı olacağını fikirləşərək onlarla razılaşırlar. Lakin bu zaman onlar gələcəkdə bu peşədə çalışacaqlarını unudurlar.

2. Yoldaşların, yaşıdların pozisiyası. Böyük məktəblilərin dostluq münasibətləri möhkəm olur və bu onların peşəseçiminə

təsir edir. Məhz mikroqrupun pozisiyası peşəseçimində həll edici ola bilər.

3. Müəllimlərin, pedaqoqların, sinif rəhbərlərinin pozisiyası. Hər bir müəllim şagirdləri təlim prosesində müşahidə edərək, bir növ "insanın xarici göstəricilərindən kənara çıxaraq şagirdlərin maraq, meyd, xarakter, qabiliyyət, hazırlıqlarından" çıxış edərək onlar haqqında diaqnozlar qoyurlar.

4. Şəxsi profesional planlar. Insanın davranışında və həyatında gələcək və keçmiş haqqında təsəvvürlər xüsusi rol oynayır. Profesional plan və ya obraz, fikrən təsəvvür etmək, onun xüsusiyyətləri insanın ağıl, xarakter və təcrübəsindən asılı olur. O özündə əsas məqsədi və gələcəkdəki məqsədləri, onlara çatma yolu və vasitələri birləşdirir. Lakin planlar məzmununa görə bir-birindən fərqlənir və onların necə olması insandan asılı olur.

5. Qabiliyyətlər. yuxarı siniflərdə oxuyanların qabiliyyətləri, istedadlarını təkcə təhsildə deyil, həm də cəmiyyət əhəmiyyətli aktivliyində nəzərə almaq lazımdı. Belə ki, məhz qabiliyyətlər özündə peşəkar uyğunluğu ehtiva edir.

6. Cəmiyyət tərəfindən qəbul olunma səviyyəsi. Təhsil alanın qəbul olunmasının reallığı – peşəkar hazırlığın birinci addımıdır.

7. Məlumatlılıq – vacib, təhrif olunmamış informasiya – peşəseçiminin əsas amillərindəndir.

8. Fəaliyyətdə yaranan və formalaşan meyllər [1, s. 73].

**Ədəbiyyat**

1. Кормакова В.Н. Профессионально-личностное самоопределение старшеклассников: содержание, технология, управление: учеб. пособие. – Белгород: ИПК НИУ, 2011. – С. 85.

2. Профориентация: учеб. пособие для студ. высш. учеб. заведений / Е.Ю. Пряжникова, Н.С. Пряжников. – 2-е изд. – М.: Издательский центр «Академия», 2006. – 496 с.

3. Чистов Р.С. Профессиональное самоопределение как

стимул и механизм становления человека/ Е.В. Соколова, Т.В. Луговская // Гуманитарные, социально-экономические и общественные науки. – 2015. – № 11-1. – С. 72-74

# ZORAKILIĞA MƏRUZ QALMIŞ QADINLARIN SOSİAL PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Dadaşova Surahı Adil qızı***
*BDU-nun II kurs magistrantı*
*ssurahidadashovaaa@mail.ru*

Müasir dövrümüzdə günün ən aktual problemlərindən biri məhz zorakılığ və onunla bağlı özünü göstərən sosial psixoloji problemlərdir. Zorakılıq insanların bir şəxsiyyət kimi formalaşmasında sanki bir sədd çəkir. Onu psixi və fiziki əzablara düçar edir. Nəticədə insan özünü sosial mühitdə tapa bilmir. Zorakılıqla bağlı ədəbiyyatlarda çoxlu sayda statistik sübutlar vardır ki, onların məğzi zorakılığa məruz qalmış qadınların eyni bir irqə,yaşa,sosial-iqtisadi qrupa aid olmadığından ibarət deyildir. Onlar ayrı-ayrı qruplara məxsus olur və onları yalnız zorakılığa məruz qalmaları birləşdirir. Zorakılığa məruz qalmış qadınların şəxsiyyətinin psixoloji analizi zamanı onu nəzərə almaq lazımdır ki, şəxsiyyətə qarşı törədimiş zorakılıqların 80%-i o şəxslər tərəfindən törədilir ki, onlar zərərçəkmişlə qohum, intim və digər yaxın münasibət-lərlə bağlı olmuş olsun. Bu cinayətlər həmin münasibətlərin yaratdığı konfiliktlərin sonuncu mərhələsi nəticəsində baş verir.

Qadınlara qarşı zorakılığın məişət zorakılığı (psixoloji, fiziki və cinsi zorakılıq), təqib, cinsi zorakılıq (zorlama da daxil olmaqla), məcburi nikah, qadın cinsiyyət orqanlarında zədələyici əməliyyat aparılması, məcburi sterilizasiya, məcburi abort və seksual qısnama kimi formalarının mövcud olması barədə məlumatlandırma işi üçün tədbirlər görülməlidir. Qadınlara qarşı zorakılığın qadınlarla kişilər arasında tarixən qeyribərabər səlahiyyət bölgüsünün təzahürü olduğunu və bunun kişilərin qadınlar üzərində üstünlüyü və kişilər tərəfindən qadınlara qarşı ayrı-seçkilik, qadınların tam şəkildə tərəqqisinin qarşısını alması ilə nəticələndiyini qəbul edilir.

2 Qadınlara qarşı zorakılığın struktur xüsusiyyətinin gender əsaslı zorakılıq olduğunu və qadınlara qarşı zorakılığın kişilərə

nisbətdə ikinci dərəcəli mövqedə qalmasının ən mühüm sosial mexanizmlərindən biridir. Qadınların və qızların, onların insan hüquqlarının ciddi pozuntusu sayılan və qadın və kişi bərabərliyinə nail olmaq yolunda böyük maneə olan məişət zorakılığı, cinsi qısnama, zorlama, məcburi nikah, namus-qeyrət naminə törədilən cinayətləri və qadın sünnəti kimi ciddi zorakılıq formalarına tez-tez məruz qaldıqlarını çox təəssüf hissi ilə görə bilirik. Silahlı münaqişələr zamanı insan hüquqlarının davamlı olaraq pozulduğunu və bundan mülki əhalinin, xüsusilə də geniş yayılmış və ya sistematik zorlamaya və cinsi zorakılığa məruz qalan qadınların zərər çəkdiyini və həm münaqişələr zamanı, həm də onlardan sonra gender zəminli zorakılığın artması halları da baş verir. Qadınların və qızların kişilərlə müqayisədə daha çox gender zəminli zorakılıq riskinə məruz qaldıqları aşkardır. Qadınlara qarşı zorakılıqdan və məişət zorakılığının azaldılması üçün bir sıra məslələri nəzərə almaq lazımdır. Onları aşağıdakı kimi sistemləşdirmək olar.

-Zorakılığa məruz qalan qadınlar başqaları ilə ünsiyyət qurarkən adətən göz kontaktı qurmağa çəkinirlər.

- Qeyri-iradi olaraq zorakılığa məruz qalan insanların qoruyucu jestləri var, həmsöhbətin səsinin yüksəlməsi və ya gözlənilməz jesti zamanı əllərini qaldırılıb üzlərini örtürlər.

-Emosional reaksiyalara nəzarət zəifləyir, kiçik səbəblərə görə göz yaşı tökürlər.

-Özlərini zəif, itaətkar bir varlıq kimi qiymətləndirir, kifayət qədər ağıllı və güclü hesab olmadıqlarının düşünürlər.

-Başqalarının xoşuna gəlmək üçün şəxsi inanclarına uyğun gəlməyən şeyləri etməyə hazırdırlar.

- Özlərinin həyat yoldaşlarında asılı hesab edirlər. Nə maddi, nə mənəvi, nə də psixoloji cəhətdən ərsiz yaşamaq iqtidarında deyillər.

- İnkişaf etməmiş fərdi keyfiyyətlərə malik olurlar. Özlərinin şəxsiyyətini, istəklərini, maraqlarını, dünyagörüşünü qoruya bilməyirlər.

- Ənənəvi tərbiyəyə malik olurlar. Qadınlıq, zəriflik, dözüm-

lülük, fədakarlığa hazır, ərinə və uşaqlarına sadiqlik kimi stereotiplər həyatlarının əsas şüarlarıdır.

Ona görə də zorakılığa məruz qalmış qadınların psixofi-zioloji xüsusiyyətlərinin öyrənilməsi (iradəsi, əsəb prosesləri-nin çevikliyi, əsəb fəaliyyətinin tipi, temperament tipi) zərərçəkmiş qadının zorakılıq zaman necə hərəkət etmə-sini, bütövlükdə hadisənin düzgün portretini yaratmaq imkanı-nı müəyyən etməyə kömək edir. Əgər zorakı yad bir insan olarsa, o zaman qurban əksər hallarda baş verənlərin səbəbini xarici aləmdə görür (qaranlığın düşməsi, yollarda insanların olmaması və s.). Əgər günahkar – tanış adamdırsa, o zaman insan səbəbi daxilində axtarır (xarakter və s.). Tanışı tərəfindən zorakılığa məruz qalan qurbanın stress reaksiyası daha az olur, lakin uzun sürür.

**Ədəbiyyat**


1. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012, 656 s
2. Калинина С.Б. Психологические особенности женщин-жертв домашнего насилия.Пермь.-2010.N19. 364с.
3. https://rm.coe.int/ic-explanatory-ic-aze-web/16808e9a39
4. https://www.euneighbours.eu/sites/default/files/publications/2021-07/Brochure%20on%20Article%2013%20of%20the%20Istanbul%20Convention%2060d0587432.pdf


## ANDROLOJİ PROBLEMLƏRİN ÜMÜMİ SƏCİYYƏSİ


***Əliyev İlkin Namid oğlu***
*BDU- nun Psixologiya kafedrasının doktorantı*
*psixoloq.aliyev94@mail.ru*


Hər zaman aktual problem olan və aktuallığı hər an daha da artan problemlərdən biri kişi cinsi problemləri və ya digər adı ilə androloji problemlərdir. Son illərdə androloji xəstəliklər daha sürətlə yayılır. Bunun səbəbləri isə olduqca müxtəlifdir. Burada ət-

raf mühütin çirklənməsi, zərərli vərdişlər, düzgün olmayan qidalanma, gündəlik stress səviyyəsinin artması, cinsi infeksial və digər faktorlar xüsusi rol oynayır. Statistikaya əsasən cütlüklərdə rast gəlinən sonsuzluq hallarının 50% kişilərlə əlaqədardır. Bəs kişilərdə rast gəlinən andronoloji problemlər hansılardır? Müasir dövrdə rast gəlinən əsas androloji problemlər aşağıdakılardır.

- Androgen defisiti - kişi orqanında testesteronun (kişi cinsi hormonun) çatışmazlığı ilə xarakterizə olunur. Androgen defisiti müxtəlif yaş dövrlərində özünəməxsus formada təzahür edir. Yeniyetməlik dövründə ikincili cinsi əlamətlərin inkişafının ləngiməsi və ya tamamilə olmaması şəklində, yetkininlik dövründə isə cinsi həvəsin və ereksiyanın azalması və süd vəzilərinin böyüməsi şəklində təzahür edir.
- Azoospermiya – toxum mayesinin tərkibində spermatozoidlərin olmamasıdır. Azoospermiyanın bir neçə varıantı ayırd edilir. Kişilərdə sonsuzluğa səbəb olan amillərin 10-20%-i azoospermiyaya aiddir. Bu həmçinin kişi reproduktiv sağlamlığının pozulmasını əks etdirir.
- Balanopostit – kişi cinsiyyət üzvünün başcığını zədələyən iltihab karakterli xəstəlikdir. Digər androloji problemlərə nisbətən daha az rast gəlinir və daha çox sünnət olunmamış kişilərdə görülür.
- İmpotensiya – cinsi zəiflik, cinsi aktın yerinə yetirilə bilməməsi ilə xarakterizə olunur. Impotensiya əksər hallarda digər əsaas xəstəliklərin əlaməti kimi meydana çıxır və onların sağalması ilə aradan qalxır. Ereksiyanın pozulması depresiya, ailədaxili münasibətlərin pozulmasına səbəb ola bilər.
- Peyroni xəstəliyi – penisin qalınıaşması və fibroz toxumaların inkişafı nəticəsində yaranan cinsiyyət üzvünün əyilməsidir. Peyroni xəstəliyi zamanı ereksiya ağrılı prosese çevrilir, bu hal 40-60 yaşlı kişilərdə digər yaş qruplarına nəzərən daha çox rast gəlinir.
- Prostatit – prostat vəzin iltihabi xəstəliyidir. Bu zaman tez-tez sidiyə getmə, sidikdə qan və irin qarışıqların olması, sidiyin ləngiməsi, penis, xayalıq və bəzən düz bağırsaqda ağrılar şəklin-

də, həmçinin seksual pozğunluqlar şəklində təzahür edə bilir.

- Varikosel – toxum ciyəsi venalarının carikoz genişlənməsi olub, xayadan qan axının pozulması ilə müşahidə olunur. Varikoselin əsas əalmətləri xayalıqda diskimfirt, ağırlıq hissi, dartıcı ağrılar və venaların gözlə görülən geniçlənmələri aiddir.
- Vezukulit – toxum qovuqcuqlarının iltihabı prosesidir. Xəstəlik kəskin və xroniki olmaqla yanaşı birtərəfli və ikitərəfli olur. əsasən 80-85% hallarda ikitərəfli vezukilitə rast gəlinir.
- Xayaların anomaliyaları – toxumluqların miqdarı, lokalizasiyası və quruluşunun öpozulması ilə müşaiyət olunan cinsiyyət sisteminin inkişaf qüsürudur.
- Xayaların hipoplaziyası – androgen çatıçmazlıqlara səbəb olan bir və ya hər iki xayanan inkişafdan qalmasıdır. Bu zaman xayaların ölçülərinin kiçilməsi, kiçik ölçülü penis, libidonun azalması və impotensiya müşahidə olunur.

Androloji problemi olan insanlarda fizioloji tərəflə yanaşı psixoloji aspektlərdə mühüm rol oynayır. Androloji probeli olan insanların yalnız 10%-i həkimlərə müraciət edir. Insanların həkimə müraciət etməmə səbəbləti isə müxtəlif olur. Burada sosial psixoloji amillər özünəməxsus rol oynayır. İnsanlar əsasən cəmiyyətin qınaq obyektinə çevrilməkdən qorxur, bəziləri bu xastəlik hallarını yaşadığı üçün utanc hissi keçirir, bəzən agır dərəcəli depressiyaya səbəb olur. Bu problemlərin aradan qaldırılmasında ən əsas rolu cəmiyyətdə düzgün maarifləndirilmə işinin aparılması, hər kəsin bu xəstəliklər haqqında müəyyən biliklərə sahib olması və onların müalicə oluna bilirliyinin aşılanmasıdır.

**Ədəbiyyat**


1. R.Aşçı, S. Çayan, F.Erdemir, İ.Orhan "Erkek üreme sistemi hastalıkları ve tedavisi" İstanbul 1992, 920s
2. Türkiye sağlık bakanlığı "Cinsel yaşam ve sorunları" 2006, 70s.
3. https://med-portal.az/
4. https://www.cetad.org.tr/

# MODANIN İNKİŞAF MƏRHƏLƏLƏRİNİN TƏHLİLİNƏ DAİR

***İbrahimova Diyanə Rəşid qızı***
*Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi*
*diyane_huseynova@mail.ru*

Moda – "modus" latın sözündən götürülmüş – ölçü, hədd, tərz, qayda, təlimat mənasını verir. Birmənalı şəkildə anlaşılmayan moda anlayışı kiminsə üçün sadəcə maraq olduğu halda digərləri üçün zərurətdir. Kimlər üçün bu sadəcə işdir, bəziləri üçünsə bunun heç bir önəmi olmayan fenomendir.

Moda-həyatın və ya mədəniyyətin müəyyən sahəsində qəbul olunmuş tərzin müvəqqəti hakimiyyəti deməkdir. Moda terminindən XVII əsrdə istifadə edilməyə başlanmışdır. Geniş kütlələri öz ardı ilə apara bilən güclü qüvvə olan moda Bernard Şounun deyimi ilə desək " moda idarə edən bir epidemiyadır" [1, s.29].

Moda yarandığı gündən bugünə qədər insanları heyrətləndirməyə davam edir. Moda dedikdə insanla geyim arasındakı qarşılıqlı münasibət başa düşülür. Moda daima yenilənir və dəyişir. Bəşəriyyətin ilkin dövrlərində ibtidai insanlar heyvan dərilərindən hazırladıqları paltarları geyinirdilər. Bu gün biz, onlara şərti olaraq geyim deyə bilirik. Dərilərin dəyərləri müxtəlif idi, onların əldə olunması da riskli iş idi. Biz deyə bilmərik canavar və ya bəbir dərisi qədim insanlar üçün dəb hesab olunurdu. İnsanların başqa geyimləri olmadığı üçün, onlar məhz bu geyimlərdən istifadə edirdilər. Bu dövrdə geyim həm də müxtəlif təbiət hadisələrindən qorunmaq üçün də istifadə edilirdi. Heç bir estetik məna daşımırdı. Bununda, dəb anlayışı ilə heç bir əlaqəsi yoxdur.

Zaman keçdikcə müxtəlif xalqlar (romalılar, skiflər, monqollar, çinlilər, yunanlılar, hindlilər) özlərinə məxsus geyim formalarını yaratmışdılar. İlkin moda anlayışı da belə meydana gəlir. Zamanla bu geyimlər dəyişir, tədricən təkmilləşirdi. Öl-

kələrdə gedən inkişaf, milli mədəni dəyişikliklər geyimlərdə də öz izlərini buraxırdı. Amma bütün bunlarda modanın əsası hesab edilən fərqli əlamətlər yox idi [2, s.54].

Moda dövrü xarakter daşıyır. Modanın mərhələlərində onun yaranması, kütlə tərəfindən qəbul olunması, sonradan yayılması və sonlanması müşahidə olunur. Bütün bu mərhələlərin hər birinin özünəməxsus qanunauyğunluqları var. Modanın dövrləşməsinin ilkin mərhələsi yeni nəyinsə təklif olunması ilə başlayır ki, bu da sonralar dəbli obyekt olaraq, insanlar arasında məşhurluq qazana bilər. Yeni obyekti təklif edən şəxs modanın yaradıcı, müəllifi hesab edilir. Bir qayda olaraq bu insan yaradıcı qabiliyyətli, kütlənin maraqlarını nəzərə alaraq yeni nəyisə yaratmağa qabil şəxsdir. Modanın müəllifi yazıcı, rəssam, geyim üzrə dizayner, alimlər, mühəndislər ola bilər.

Moda yaranması proses kimi bir neçə mərhələdən ibarətdir (yəni hər hansı bir məhsulun yaranma mərhələləri).

I mərhələ - modanın yaradılması. Bu mərhələ özü bir neçə prosesdən ibarətdir: Yeni model eskiz və rəsmlərin çəkilməsi. Bu funksiyanı modelyer - dizaynerlər həyata keçirirlər; Modellərin materiallaşdırılması proses. Bu proses, həm fərdi, həm də xüsusi təşkilatlar vasitəsi ilə həyata keçirilə bilər.

II mərhələ - moda obyektlərinin (modellərin) yayımlanması. Bu proses moda modellərinin geniş alıcı kütləsinə çatdırılmasına imkan yaradır.

III mərhələ - moda obyektlərinin istehlakı. Bu mərhələdə alınan moda obyekti şəxsi tələbatın ödənilməsinə və nümayiş üçün istifadə edilir.

Hər üç mərhələ bir-biri ilə əlaqəlidir. Geyim istehsalı ilə məşğul olan sahələr təbii olaraq, onları moda obyektinə çevirməyə cəhd göstərərək, kütləvi satış bazarını təşkil edərək, daha böyük mənfəət əldə etmək istəyirlər. Lakin qeyd etmək lazımdır ki, yalnız moda obyektinə çevrilmiş məhsullar istehsalçı üçün dəyər kəsb edir. Ona görə də moda obyektlərinin istehsalı və istehlakı kifayət qədər mürəkkəb proses hesab edilir[3, s.145].

Moda insanları eyniyyətdən azad edir. Öz geyim tərzləri ilə seçilmək istəyən insanlar modanı daima izləyirlər. Çünki insanlar daima yaxşı geyinmək, gözəl görünmək istəyirlər.

**Ədəbiyyat**


1. N. R. Yunusov, Müasir modanın inkişaf tendensiyaları, Bakı: 2006
2. T.İbrahimov. Müasir moda sənəti. Bakı: 2007, 110s.
3. Балдано И.Ц. Мода XX века: энциклопедия. М: «олма-пресс», 2002.

# PEDAQOGİKA BÖLMƏSİ

***Bölmə rəhbəri - dos. Nəzakət İmamverdiyeva***

## MÜƏLLİM HAZIRLAYAN ALİ MƏKTƏBLƏRDƏ TƏHSİLİN MƏZMUNUNUN DÜNYA TƏHSİL SİSTEMİNƏ İNTEQRASİYASI

***Qasımova Aynur Yasin qızı***
*Bakı Slavyan Universitetinin doktorantı*
*aynurmehdiyeva84@gmail.com*

Təhsil cəmiyyətin inkişafında ən mühüm amillərdən biri hesab olunur. Cəmiyyətin səviyyəsinin ölçülməsi məhz təhsillə bağlıdır. Təhsilin məqsədi şəxsiyyətin hərtərəfli formalaşması və onun müvafiq bacarıqlara yiyələnməsini təmin etməkdir. Əlbətdə ki hər bir müasir, müstəqil dövlətin ən ümdə vəzifələrindən biri öz təhsil sisteminin yaradılmasına nail olmaq, dünya təhsil sistemінə inteqrasiyasını təmin etməkdən ibarətdir. Təhsilimizin inkişaf etdirilməsi bir sıra islahatların keçirilməsinə, onun tərəqqisinə zəmin yaratmaqdadır. Təhsilin inkişafı ona yaradıcı münasibətdən asılıdır. Təhsilin məqsədi və məzmunu cəmiyyətin inkişafının onun dunya təhsil sisteminə inteqrasiyasının, qloballaşmasının, diferensiallaşma-sının əsasında dayanmalıdır. Təhsilin məzmununun formalaş-masını şərtləndirən sistemlər içərisində qəbul olunmuş məqsədlər, sosial tələbatlar, sosial və elmi nailiyyətlər, şəxsi tələbatlar, pedaqoji imkanlar və s. seçilir. Sosial və şəxsi tələbatlar sistemi məqsədlər sistemi ilə qırılmaz surətdə bağlıdır. Təhsil yeni məktəb quruculuğunun indiki mərhələsin-də demokratik dövlətin yaradılmasının, onun mədəni və mənəvi intibahının, bazar münasibətlərinin təşəkkülünün, elm və texnikanın inkişafının əsasında durmalıdır.

Ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldilməsi tətbiq olunan təlim texnologiyalarının, kadr hazırlığının yeni mexanizm-

lərinə keçirilməsini təmin etməkdən asılıdır. Təhsili cəmiyyətin digər sahələrindən ayırmaq düzgün deyil. Hər bir sahə öz peşəkarlığı ilə seçilməlidir. Savadlı kadrların yetişdirilməsinin əsası ali məktəbdə qoyulur. Ali məktəbə hərtərəfli inkişaf etdirilmiş kadrların gəlməsi savadlı, qabiliyyətli gənclərin yetişdirilməsi deməkdir. Ali məktəblərin üzərinə düşən bu mühüm vəzifə savadlı cəmiyyətin bünovrəsini qoymuş olur. Belə ki, təhsil milli məqsədlər, mənafelər əsasında qurulur. Bunu da əlbətdə ki yalnız həqiqi ziyalılar inkişaf etdirə bilər (4).

Cəmiyyətdə gedən sürətli sosial-iqtisadi dəyişikliklər gələcək nəslin təlim və tərbiyəsinin yeni parametrlərini irəli sürür. Xüsusilə ali təhsil müəsisələrində təlimin keyfiyyətinin yüksəldilməsi, tədrisin ənənəvi metodlarının radikal şəkildə yenidən qurulmasını tələb edir. Dünya iqtisadiyyatında gedən dəyişikliklər, güclü rəqabət ali təhsil müsisələrində təhsilin keyfiyyəti problemini ön plana çəkir. Dövlət və cəmiyyət üşün təhsil milli prioritetə çevrilməkdədir. Bu da müvafiq qanunvericilik aktlarında, siyasi qərarlarda, təhsil sisteminin sosial-iqtisadi dəstəyində, müəllimlərin statusunun yüksəldilməsində öz əksini tapır.

Təhsilin inkişafında onun bu gün dünya standartlarına cavab verməsində əvəzsiz xidməti olmuş ulu öndər Heydər Əliyevin fəaliyyəti danılmazdır. Onun uzaqgörən siyasaəti təhsil sahəsində də öz sözünü söyləmişdir. Bu uğurlu siyasəti ulu öndərin davamçısı İlham Əliyev uğurla davam etdirmişdir. Son 10 ildə qəbul edilmiş qərarlar, təhsil islahatları, çoxsaylı nəaliyyətlər təhsilə öz töhvəsini vermiş oldu. Azərbaycan qloballaşan dünya təhsil sisteminə inteqrasiaya mərhələsinə qədəm qoyudu. Bu mərhələlərdən ən mühümü ali məktəblərdə təhsilin yeni sistemə, boloniya sisteminə qoşulması idi. Belə ki, 2001-ci ildə Azərbaycanın Avropa şurasına üzv seçilməsi təhsilimizin Avropa təhsil sisteminə inteqasiyanın əsasını qoymuş oldu. Nəhayət ki, 2005-ci ildə rəsmi sənədin imzalanması ilə Azərbaycan boloniya sisteminə qoşulmuş oldu. Sənəddə ikipilləli təhsil sisteminə kecid, təhsilin keyfiyyətinin yüksəldilməsi, diplomları-

mızın Avropa ölkələrində tanınması, kredit sisteminin tətbiqi və digər müddəalar öz əksini tapmışdır.

Ümumiyyətlə bu sistemə keçid ümumdünya təhsil sisteminə qovuşmaq deməkdir. Azərbaycanada aparılan təhsil islahatları boloniya sisteminə üstünlük verdi. Bu sistemin əsas şərtlərindən biri təhsilin keyfiyyətinin yüksək səviyyəyə qaldırılması idi. Boloniya sistemi üzrə auditoriyaya girən müəllim daha məlumatlı olmalı, innovasiya texnologiyaların-dakı faktlara, biliklərə yiyələnməlidir. Təhsil prosesində keyfiyyətin yüksək səviyyəyə qalxması savadlı kadralara olan ehtiyyacı vacib faktora çevirir.

Müasir dövrdə ali pedaqoji təhsilin qarşısında duran əsas məsələlərdən biri müxtəlif vəziyyətlərdə işləyə bilən, yeni təlim və tərbiyə metodlarını məharətlə tətbiq etməyi bacaran, geniş və hərtərəfli dünyagörüşünə malik olan müəllim kardrlarının hazırlanmasıdır. Bütün sahələr üzrə, sosial-iqtisadi, ictimai-mədəni sferalarda kadr hazırlayan müəllim cəmiyyətin ən ziyalı təbəqəsini təşkil edir. Ən böyük iş əllbətdə ki ali təhsil müəssisələrinin üzərinə düşür. Savadlı müəllim kadrlarının hazırlanması üçün ali məktəb dərslikləri, proqramları, tədris materialları, müəllimin özünün pedaqoji qabiliyyəti birbaşa təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir (1).

Müəllim təlim prosesinin, çoxsaylı tədris situasiyalarının yaradıcısı və müəllifidir. Ali təhsil müəsisələrinə qəbul olan bakalavrların yüksək səviyyədə peşə keyfiyyətlərinə yiyələnməsi gələcək nəslin intellekt və qabiliyyətini müəyyən edir. Göründüyü kimi zəncirvari şəkildə bir- birini izləyən bu struktur bizim cəmiyyətin ziyalı təbəqəsinin təşkilinə xidmət edir. Auditoriyada təlimin təşkili müəllimin pedaqoji qabiliyyətindən, bilik və bacarığınından, səriştəliliyindən, dünyagörüşündən, pedaqoji işə marağında, tələbələrə qayğısından çox asılıdır. Təlimdə keyfiyyətin artması üçün təkcə müəllimin nəzəri bilikləri kifayət etmir o, daima öz üzərində işləməli yeni metodların tətbiqi, fəal təlim metodları və interaktivliyi təmin edərək tələbə auditoriyasının diqqətini cəlb etməyi bacarmalıdır. Konfrans və

treininqlərdə iştirak etməli işlənmiş fəal təcrübəni tətbiq etməyi bacarmalıdır. Pedaqoji peşə sahibi dərsin qarşısında duran təhsilləndirici, inkişafetdirici, tərbiyələndirici vəzifələrin həyata keçməsinə nail olmalı, tədris edəcəyi fənnin proqramını, onun məqsəd və vəzifələrini ayadınlaşdırmalıdır.

Ali məktəb müəllimlərinin məqsədəuyğun fəaliyyət sahələrindən biri də pedaqoji texnologiyaların işlənməsidir. Pedaqoji texnologiya dedikdə qoyulmuş məqsədlərə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatalar komplekti başa düşülür. Pedaqoji texnologiya aşağıdakı mərhələlərdən ibarətdir:

- konkret tədris planı və proqramlara uyğun olaraq təhsilin məzmununun müəyyənləşdirilməsi;
- müəllimin fənnin tədrisi prosesində reallaşdıracağı başlıca məqsədlərin müəyyənləşdirilməsi;
- birneçə məqsədin həllinə yönəlmiş texnologiyanın seçilməsi;
- konkret təlim texnologialarının hazırlanması;

Ali tədris müəssisəsində təlim texnologiyalarının məzmunu deyilərkən, tələbələrə təqdim edilən və onlarda təlim və peşə ilə bağlı bacarıq və vərdişlərinin formalaşmasını təmin edən təlim informasiyasının məzmunu və strukturu, məsələ və çalışmalar kompleksi başa düşülür (2). Fəal və problemli təlim texnologiyalarının tətbiqi peşəkar kadrların hazırlığı və tələbələrin fəal idarak qabiliyyətinin formalaşmasına imkan yaradır. Müəllim peşə-pedaqoji bacarıqları sayəsində öz peşə funksiyalarını gənc nəslə verir, tələbələrdə zəruri sosial və şəxsiyyət keyfiyyətlərini inkişaf etdirir, onları həyata, pedaqoji fəaliyyət hazırlayır.

**Ədəbiyyat**

1. Alışov M.Ə. Təhsil və cəmiyyət: Təhsil islahatlarının dinamikası. “Adiloğlu” Bakı-2020 , 222 s

2. Rüstəmov F.A., Quliyeva K.R. Avropada ali təhsilin inkişaf meyilləri: Boloniya prosesinəqədərki mərhələləri. “ Azərbayacan

müəllimi” qəz., Bakı,2007, 27 iyul, 3 avqust, 31 avqust
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu Bakı: Hüquq ədəbiyyatı, 2009, 108 s.
4. İnkişaf proqramlarına əsaslanan təhsil strategiyası, “Xalq” qəz., Bakı 2007, 5 iyul.

## AUTİZMLİ UŞAQLARIN TƏLİMİNDƏ İSTİFADƏ EDİLƏN METODLAR

***Hüseynova Nigar Çingiz qızı***
*BDU-nun 2-ci kurs magistrantı*
*nigar_huseynova_2020@mail.ru*

Autizm üç yaşından öncə fərqinə varılan, ömür boyu davam edən sosial-emosional sferada, nitqdə və davranışda özünü biruzə verən mental problemdir. Erkən müdaxilə bu problemin həllində mühüm rol oynayıt. İntensiv təlimin və dərman preparatlarının qəbulu ilə mümkün qədər stabilləşdirilməsi mümkün olan autizm, getdikce artmaqdadır. Səbəbləri arasında genetik pozğunluq, ətraf aləmin təsiri, hamiləlik zamanı yaranış poblemlərin olması ehtimalı göstərilməs də, dəqiq faktlar hələ ki, elm tərəfindən təstiqlənməyib. Artıq 68 uşaqdan biri autizmli doğulmaqdadır. Gender fərqinə baxsaq görərik ki, oğlan uşaqlarının autizmli doğulması ehtimalı qız uşaqlarına nisbətdə 4 dəfə çoxdur. Sindrom çox zaman epilepsiya, mədə bağırsaq sistemi pozğunluğu, yuxu pozğunluğu kimi yan xəstəliklərlə müşahidə olunur.

Autizmli uşaqların valideynlərinin böyük qismi uşaqdakı qeyri-adi davranışların 18-24 aylıqında fərqinə varır. Belə ki,

Uşağın heç mırıldanmaması, əl işarələrinin yoxluğu, göz təması qurmaması, işarə olunan yerə, əşyaya baxmaması, adına reaksiya verməməsi,səbəbsiz aglamalar, işiğa və səsə həddindən artıq reaksiya vermək və ya verməmək, qucaqlaşmaqdan qaçmaq, təkrari hərəkət edən obyektlərə yüksək maraq və s . kimi halların olması şikayətləri uşağın sağlamlığındakı naqisliyə işarə edir. Dəqiq diaqnozun qoyulması üçün valideynlərlə söhbətə

əsaslanan ADİ-R və uşağı izləməyə əsaslana CARS testlərindən istifadə olunur. Diaqnoz qoyulduğu andan etibarən təlimə cəlb olunmaq uşağın gələcək həyatına böyük təsir göstərir.Kiçik yaşından başlayan təlim- sindromun uşağın həyat keyfiyyətinin endirməsinə təsirinin maksimum əngəllənməsi deməkdir. Davamlı ve doğru aparılan təlimlər uşağın sosiallaşmasına, emosial hal və davranışlarının normallaşmasını təmin edir. Bu xüsusda, autizmlu uşaqlarla aparılan bir neçə təlim formasına nəzər yetirək.

- **Ayrı-ayrı sınaqlar**- Bu üsul Lovaas yöntəmi olaraq da bilinir və ard-arda uşağa bir çox bacarıqların öyrədilməsini nəzərdə tutur. Belə ki, uşaq ona təqdim edilən ipucları vasitəsilə verilmiş suala cavab tapmağa yönləndirilir və düzgün əməl etdikcə mükafatlandırılır. Yalnışa yol verdikdə korrektə edilir. İpucular uşağın mənimsəmə dönəmi ilə əlaqəli olaraq getdikcə aradan qaldırılır və sonda, öyrədilmiş bacarığın daimi qazanılmış olması ilə nəticələnir. Bu yöntəm autizmli uşaqlar üçün həyati önəm daşıyan təqlid etmə, dil bacarıqları, hədəfləyir. müqayisə etmə, sinifləndirmə kimi bacarıqların qazanılmasını Nəticə etibarilə, uğurlu üsul hesab olunur.
- Erkən intensiv davranış təlimi -Lovaasın rəhbərliyi ilə 40 il öncədən Kaliforniya Universitetində başladılan, həftədə 20-40 saat davam edən ayrı-ayrı sınaqlar texnikası və digər texniklardan istifadə edilərək birəbir müəllimlə baş tutan təlimdir. Tək aparılan təlim getdikcə qrup şəklində də aparıla bilər. Araşdırmalar bu təlimlərdə iştirak edən uşaqların çoxunda böyük irəliləmələr olduğunu sübut etmişdir.
- Fəaliyyət cədvəli – Uşağa öyrədiləcək bacarıq hissələrə bölünür, vizual cizgilər vasitəsilə tapşırıqlar verilir. Məsələn, hər növbəti tapşırıq bir şəkildə göstərilir, növbəti etapa keçmək üçün dəftər vərəqlənməlidir. Belə vəziyyətdə müəllim uşağa kömək üçün əlindən tutaraq dəftəri vərəqləməyə kömək edir. Fəaliyyət cədvəli uşağın əsasən özünə qulluq bacarıqlarının aşılanması üçün uyğunlaşdırılmış olur. Bu üsulun autizmli uşaqlar üzərində təsiri güclüdür.

- **Sitat istifadəsi təlimi** - bu təlim autizmli uşaqların söhbətə başlama, müəyyən sözü yerinə uyğun olaraq işlətməsi və qarşılıqlı ünsiyyətə girmək bacarığının inkişafı üçün həyata keçirilir. Məsələn  bir insan digəri ilə sağollaşanma zamanı "görüşərik" deyir. Bu ifadənin doğru zamanda deyilməsini öyrətmək üçün bir neçə dəfə belə situasiya yaradılır. Lakin təəssüf ki, bu üsulun uğurla nəticələnmə göstəriciləri yüksək deyil.
- **Video ilə model olma -** Bu üsul zamanı uşaq video vasitəsilə ona öyrədilməli olan həkərətləri görür, misalçün videodaki bir insan hansı əşya ilə nə edirsə uşaq da eyni şeyi etməlidir. Videodakı bütün obyeklər uşağın önündə olur və o uşaq onları təkrarlamağa çalışır. Bu çox müvəffəqiyyətli bir təlim növüdür. Artıq məlumdur ki, autizmli uşaqlar komputer və texnika ilə öyrənməyə meyillilik daha çoxdur. Onlar bu zaman verilən tapşırıqları daha diqqətlə həll edirlər, fikirlərini videoya fokuslayaraq daha məhsuldar olurlar.
- **Fürsət təlimi**- Bu təlim uşağın digər insanlarla ünsiyyətə girməsini məcbur etməyə, onu danışmağa sövq etməyə, fikrini izah etməyə yönəldilmişdir. Məsələn, uşağın çox sevdiyi oyuncaq onun gözünün gördüyü lakin əlinin çatmadığı yerə qoyulur. Uşaq həmin oyuncağı əldə etmək üçün, böyüklərlə ünsiyyətə girməyə, istəyini ifadə etməyə başlayır. Özəlliklə kiçik yaşlı uşaqlarda müvəffəqiyyət faizi yüksək olan bir təlimdir.
- **Yaşıd vasitəsilə təlim**- a) Yaşıd "model"; b) yaşıd "müəllim" rolunda çıxış edən autizmli uşağın həmyaşıdı birinci modeldə nəyisə etmək üçün ona örnək, nümunə olur. İkinci modeldə isə bu bacarığı ona öyrətməyə çalışır. Bu üsul, dil,  ünsiyyət və akademik bacarıqların inkişafında çox önəmli təlim hesab olunur. Nəzərə alsaq ki, model bacı, qardaş, yaxın qohumlar da ola bilər, bu təlim daimi xarakter daşıyıb daha əlçatandır.
- TEACCH (Treatment and Education ofAutistic and Related Communication Handicapped) Eric Schopler tərəfindən ABŞ-da hazırlanmış bu təlim autizmli uşağın ətrafa uyğunlaşması əvəzinə çevrənin ona uyğunlaşmasını məqsəd qoyur. Onlar

üçüb fiziki şərait yaradılır, özlərinə aid bir künc təmin edilir ki, burada plan əsasında tapşırıqları yerinə yetirsinlər. Təlimdə məqsəd autizmli uşaqların digər insanlardan asılılığını azaltmaq və müstəqilliyə alışdırmaqdır. Lakin uğurlu nəticələri çox olmayan bir üsuldur.

- PECS (Picture Exchange Communication System) Amerikan psixoloq Andy Bondy ve danışma terapisti Lori Frost tərəfindən inkişaf etdirilmiş olan bir alternativ ünsiyyət sistemidir. PECS'de uşağa, istediği bir şeyi ya da fəaliyyəti əldə etmek üçün, o əşyanın ya da fəaliyyətin rəsmini qarşısındakına vermesi öyrədilir. PECS danışa bilməyən her autizmli uşağa öyrədilə bilər.

Təbii ki, qeyd olunanlar təlimlərin sadəcə bir qismidir. Autizmli uşaqlarının sayının surətlə artması ilə əlaqədar olaraq texnologiya vasitəsi müxtəlif təlimlər-oyunlar, videoroliklər və hətta, robotlar yaranmaqdadır. Süni intellekt vasitəsilə robotlar (Robot Noa, Robot Kapsar, Robot Probo) heyvanları, insanları təqlid edir, eyni zamanda sual-cavab formasında ünsiyyətə girdiklərinə görə getdikce bu ünsiyyət normal insanlarla münasibətinə də yansıyır. Autizmli övladı olan bütün ailələr yararlana bilsin deyə, məşhur proqram istehsalçıları pulsuz şəkildə belə tətbiqləri internet mağazalara yerləşdirirlər. Autizm çox zaman alan, daima üzərində çalışmağı tələb edən bir problem olduğundan geniş kütlələr üçün əlçatan təlim proqramlarının olması maddi və mənəvi baxımdan ailələr üçün böyük rahatlıq gətirəcəkdir. Belə uşaqları itirməmək, cəmiyyətə qazandırmaq üçün təlim yeganə çıxış yoludur.

## Ədəbiyyat

1. Otizm Spektrum Bozukluğu olan bireyler ve teknoloji destekli öğretim. Doç. Dr. Özge Eliçin 2017
2. McClannahan, LE. ve Krantz, P.J. (2010). Otizmli çocukların eğitiminde etkinlik çizelgelerinin kullanımı. İstanbul: Sistem Yayıncılık. NAC (2009). National Standards Report. ABD: NAC.

3. NAC (2009). National Standards Report. ABD: NAC. Peters-Scheffer, N. ve diğ. (20u). A meta-analytic study on the effectiveness of comprehensive ABA-based early intervention programs for children with ASD. Research in ASD, 5, 60-69
4. Otizmin erken tanısı ve önemi 2004 Dr. Şahin Bodur, Dr. Şebnem Soysal
5. https://www.tohumotizm.org.tr/otizm/otizm-spektrum-bozuklugu/

## AZƏRBAYCAN ƏDƏBİ – PEDAQOJİ FİKRİNDƏ QADINA MÜNASİBƏT PROBLEMİ

***Rəşidli Aygül Əfət qızı***
*BDU-nun II kurs magistrantı*
*rashidliaygul@gmail.com*

XX əsrin əvvəllərində Azərbaycan ziyalı təbəqəsində qadına münasibət ilk növbədə onun təhsili, maarifləndirilməsi, dünyagörüşünün inkişaf etdirilməsi, tərəqqisi ilə bağlı olmuşdur. Bu dövrdə Azərbaycanda qadınların təhsilə cəlb olunması Rusiya və Avropa ölkələrinə nisbətən çox çətin idi. Çünki bu dövrdə qadın təhsili ilk növbədə qadın azadlığı problemi ilə sıx bağlı idi. Demək olar ki, bütün Şərq qadınlarında olduğu kimi Azərbaycan qadınlarının təhsil məsələləri maarifpərvər ziyalıları, ədib və şairləri düşündürürdü. Ona görə ki, bu dövrdə qadınlar ictimai həyatdan təcrid edilmişdir. Onların işləri yalnız ev işləri görməkdən ibarət idi. Qadınların belə vəziyyəti onların əl-qolunu bağlamış, zehinlərini kütləşdirmiş və əqli inkişafdan geri qalmışdılar. Digər tərəfdən müsəlman məişətində qanun halına keçən bir sıra dini-fanatizm adət və ənənələr qadınları kölə halına salmış, qadına məxsus hüquqlardan məhrum etmişdir. Bu dövrdə Azərbaycanın yüksək ziyalı təbəqəsi, yazıçı və şairləri, ədib və pedaqoqları da yetişdi. Bir çoxları Avropada, Rusiyada təhsil alıb Vətənə qayıtmışdılar. Avropa mühitini yaxşı taniyan Mirzə Kazımbəy qadına münasibət haqqında be-

lə deyirdi: “Qərb öz siyasəti ilə heç zaman Asiyada maarifi dirçəldə bilməz. Ölkəni yenidən quranlar onun öz içindən yetişməlidir”.

Həmin dövrdə ölkəni yenidən quran ziyalılar sırasında Mirzə Şəfi Vazeh, Mirzə Kazımbəy, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi daxil olmaqla, Mirzə Fətəli Axundovun adını xüsusi vurğulamaq gərəkdir. Belə ki, Azərbaycanda maarifçiliyin və demokratik ictimai fikrin formalaşmasında onun böyük xidmətləri olmuşdur. Mirzə Fətəlinin istər fəlsəfi əsərlərində, istərsə də bədii əsərlərində qadınların durumuna, onların həyat tərzinə geniş yer verilmişdir. Onun əsərlərində Azərbaycan qadınının yüksək düşüncə tərzi, dünyagörüşü ətraflı təsvir olunurdu. Cəlil Məmmədquluzadənin sözləri ilə desək, “Mirzə Fətəli Şərq qadınını səhnəyə çıxarıb, orada danışdırıb, güldürüb, ağladıb və orada birinci dəfə kişilər içində izharı-vücud etmişidr”.

Mirzə Fətəli Axundov bədii əsərlərində qadının cəmiyyətdə yeri və rolu məsələsinə dəfələrlə toxunur, ictimai həyatın bütün sahələrində qadınlara kişilərlə bərabər hüquq verilməsi fikrini qətiyyətlə müdafiə edirdi. Əsərlərinin təhlilindən göründüyü kimi, o, qadın azadlığını bütün cəmiyyətdə azadlığın təbii ölçüsü saymışıdr. Ədib yazırdı: “Şəriətin nə haqqı var ki, qadın tayfasını hicab ayəsi vasitəsilə daim həbsə atıb ömrü boyunca bədbəxt etsin və yaşamaq nemətindən onları məhrum etsin”.

Beləliklə, M.F.Axundov yaşadığı dövrdə savadsız mollaların şəriət qaydalarından öz mənafelərinə uyğyn istifadə edib qızları və qadınları cəhalətə məhkum etmələrini tənqid edirdi. O, əsərlərində Azərbaycan qadınının hüquqsuzluğunu təsvir edərək, bu hüquqsuzluqdan onların başına gətirilən amansız bəlaları ifşa edirdi.

Mirzə Fətəli yazırdı ki, qadın tayfası azadlıq qaydalarında, “cəmi hüquqi bəşəriyyətdə” kişi tayfası ilə bərabər tutulmalıdır: “Yevropa filosofları qadınları bütün insanlıq və azadlıq hüquqlarında kişilərlə şərik sayırdılar. Hətta bu gün o qitənin bəzi

dövlətlərində qadınları məmləkəti idarə işlərinə daxil ediblər”.

Cəlil Məmmədquluzadə bu barədə belə yazırdı: “Mirzə Fətəlinin komediyalarının qadın tipləri əsrin məişətindən götürülmüş fotoqraf şəkilləri kimidir. Əsərlərində təsvir edilən qadınlar məişətin qadın sifətlərinin bir canlı nümunəsidir. Orada qadınlar bir duru aynada görsənən kimi görsənirlər. Onun üçün orada biz müxtəlif tiplərə, müxtəlif sifətlərə rast gəlirik. Bu surətdə ki, bu əsərlər məişətin aynasıdır.

Mirzə Fətəli Axundovun “Hekayəti- Xırs Quldurbasan”, “Sərgüzəşti -Vəziri- Xani -Lənkəran” və digər bədii əsərlərində qadın hüquqlarının qorunması, qadın azadlığı, qadın təhsili məsələləri birinci dərəcəli problem kimi qarşıya qoyulmuşdur.

Maarifpərvər yazıçı M.F. Axundoov “Hekayəti-Xırs-Quldurbasan” pyesində Pərzadın dili ilə qadın hüquqsuzluğunu göstərərək, onların ixtiyarının ya ata və ya əminin əlində olduğunu yazırdi: “Ata və ya əmi qızları yalnız öz mənafelərinin xeyrinə kimlərəsə ərə verir, qızlar isə sakitliklə buna tabe olurdular”. Yazıçı eyni zamanda çoxarvadlılığı da pisləyirdi. Dramaturq “Sərgüzəşti-Vəziri-Xani-Lənkəran” əsərində qadın personajlarının dili ilə çoxarvadlıllığın nə kimi faciələrə gətirib çıxardığını göstərmişdir. Qadının cəmiyyətdə oynadığı rola böyük önəm verən müəllif öz müşahidələri əsasında qadınların kişilərdən daha iradəli, mənən güclü olduqlarını vurğulayırdı. Müəllif cəmiyyətdə baş verən bütün bəlaların kökünü kişi ilə qadın arasında bərabər hüquqların olmamasında, qadın hüquqsuzluğunda görürdü.

Doğrudan da, həmin dövrdə kişilər qadınlara yuxarıdan aşağı baxır, qadınları avam hesab edir və onlara elə gəlirdi ki, qadın yalnız uşaq böyütmək, yemək bişirmək, qab-qacaq, paltar yumaq üçün lazımdır.

Böyük dramaturq, yazıçı Cəlil Məmmədquluzadə əsərlərində dövrünün ictimai mühitini tənqid edir, insanların əksəriyyətinin cəhalət, avamlıq içində olduğunu qeyd edir və xüsusilə qadınların hüququsuzluğundan, təhsilsizliyindən narahatlığını

bildirir. Bu düşüncələr onun “Ölülər”, “Anamın kitabı” əsərlərində və bir çox hekayələrində öz əksini tapmışdır. Böyük mütəfəkkir Cəlil Məmmədquluzadə Naxçıvanda qadınların ağır və dözülməz həyat tərzlərini görür, onların ictimai həyatdan və təhsildən kənar qalmaları onu daim düşündürürdü. C. Məmmədquluzadə 1893-cü ilə Nehrəm kəndində müəllim işləyərkən çox çətinliklə də olsa 8 nəfər qız uşağını təhsilə cəlb edə bilmiş onlar üçün sinif açmışdır. O, qadınların savadsızlığını “Molla Nəsrəddin” jurnalında daha açıq və aydın şəkildə ifadə etmişdir. “Molla Nəsrəddin” jurnalı Azərbaycanlı qızların ölkədən kənarda açılan məktəblərində təhsil almalarını hər zaman təbliğ etmişdir. Bu baxımdan jurnalın 1909-cu il tarixli 28-ci sayında deyilir: “Biz müsəlmana fərzdir, nəinki, oğlan məktəbi, xeyir, bizlərə vacibdir qız məktəbi, çünki balalarımızın tərbiyəsi anaların əlindədir…

Hüseyn Cavid də yazdığı əsərlərində qadın təhsili məsələlərinə toxunmuşdu. O, qızlarımızın təhsil almasını dönə-dönə qeyd etmiş, oğlanlarla yanaşı qızların da məktəblərdə oxumalarının vacibliyini bildirmişdir. O, yazırdı: “Bir çox mübarək ağızlar, qadınların tərbiyə görür-görməz itaətsiz olacaqlarını söyləməkdən çəkinməyirlər, əcaba məktəb, təlim və tərbiyə insana itaətsizlikmi öyrədir?

Hüseyn Cavidin qadın təhsili ilə bağlı olan şeirlərinin içərisində “Qız məktəbində” şeiri diqqəti cəlb edir. Dahi mütəfəkkir bu şeirində Gülbaharın timsalında qadın təhsilinin ümumi səciyyəsini daha ətraflı işıqlandırmış və təhlil etmişdir.

Yuxarıda adlarını sadaladığımız bu mütəfəkkirlər qadın təhsili və azadlığı problemini dərindən bilən bir nəzəriyyəçi-pedaqoq kimi çıxış etmişlər. Onlar yaxşı başa düşürdülər ki, gələcək nəsillərin xoşbəxtliyi, ana və bacılarımızın təhsil dərəcəsindən asılıdır. Ona görə də onlar özlərinin insanpərvərlik borcu kimi qadınların maariflənməsi və mənəvi azadlığı uğrunda dönmədən və yorulmadan mübarizə aparmışlar.

**Ədəbiyyat**

1. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
2. Hüseyn Cavid. Əsərləri. Bakı. Azərbaycan Mədəniyyət Fondu, 2003.
3. Cəlil Məmmədquluzadə. Əsərləri. 4 clddə. Bakı, 2004.

## AİLƏDƏ VƏTƏNPƏRƏVRLİK TƏRBİYƏSİ

***Hacıyeva Pınar Famil qızı***
*BDU-nun II kurs magistrantı*
*haciyevapinar64@gmail.com*

Bu gün yetişən gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsi daha böyük aktuallıq və əhəmiyyət kəsb edir.

Möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin komandanlığı altında müzəffər ordumuz, böyük vətənpərvərlik və qəhrəmanlıq nümayiş etdirərək 44 gün ərzində böyük qələbə çaldı, qəsb edilmiş torpaqlarımız, işğal edilmiş ərazilərimiz düşmən tapdağından azad oldu və ədalət zəfər çaldı. Bu qələbə həmçinin gənclərimizin, əskərlərimizin ana və bacılarımızın, Azərbaycan ailəsinin qələbəsi idi.

Vətənpərvərlik tərbiyəsi ailədən başlayır. İlk növbədə ailə tərbiyəsindən qaynaqlanan yeniyetmə və gənclərimizin fiziki cəhətdən sağlam, əxlaqca saf, mənəviyyatca zəngin milli – mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyəsi, onların dövlətçilik məfkurəsi ətrafında sıx birləşməsi hər cür qələbənin təməli kimi dəyərləndirmək olar.

Ailə dövlətin təməli olduğu kimi, insanlığın, bəşəriyyətin də davamı üçün çox önəmli bir ünsür, hamının rahatlıqla sığınıb isindiyi bir ocaqdır. Ailə məsələsi bütün dövrlərdə insanları, dövlətləri düşündürən, onlar üçün hər şeydən zəruri olan bir məsələdir. Onun necə olması, hansı təməllər üzərində qurulması, inkişafı, övladların tərbiyəsi millətin və dövlətin gələcəyinin

əsas şərtlərindəndir. Möhkəm ailə, möhkəm cəmiyyət və möhkəm dövlət deməkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün həyatı və fəaliyyəti nəsillərə vətənpərvərlik nümunəsi olmaqla yanaşı, ideal ailə başçısı kimi göstərdiyi örnək də misilsizdir. Onun ailə dəyərlərinə verdiyi qiymət həmişə hörmətlə xatırlanır və xatırlanacaqdır. Cəmiyyəti yaşadan və onun varlığını sübut edən ailə meyarlarına ulu öndərin öz münasibəti, öz yanaşması olmuşdur. Heydər Əliyev həm də öz ailəsinə göstərdiyi qayğı və diqqətlə seçilmiş, milli-mənəvi dəyərlərimizin, vətənimizin qarantı kimi ailənin müqəddəsliyinə daim böyük önəm vermişdir. Ulu öndərimiz H.Ə.Əliyev ailə tərbiyəsi ilə əlaqədar deyirdi: *"Ailə tərbiyəsi öz xarakterinə görə nadir bir haldır. Bu tərbiyə ata-ananın övlada məhəbbəti və uşaqların da ata-anaya bu cür hissləri kimi bir mənəvi əsas üzərində qurulur...Əgər ailə aləminə əxlaqsızlıq mikrobu daxil olmuşsa, əgər uşaq ailə vəsaitlərinin əyri yollarla əldə edildiyini görürsə, onun qəlbində iki cür əxlaq yarana bilər".*

Ümummilli lider Heydər Əliyev Azərbaycan uşaqlarını ən əzizi, doğması hesab edərək deyirdi: *"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır ".*

Ümummilli lider Heydər Əliyevin ənənələrinə sadiq qalan, dahi şəxsiyyətin siyasi kursunu layiqincə həyata keçirən, ideyalarını yaşadan möhtərəm Prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondu, şəxsən fondun prezidenti Azərbaycanın birinci xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi, onların vətənpərvərlik ruhunda böyümələri üçün bütün imkanlardan istifadə edir və bu sahəni daim diqqət mərkəzində saxlayırlar.

Respublikamızın hazırkı inkişaf dövründə ölkə vətəndaşları-

nın, o cümlədən böyüməkdə olan nəsli milli vətənpərvərlik ruhunda tərbiyəsi əxlaqımızın tələblərini əsas götürməklə tərbiyə etmək müstəsna dərəcədə böyük əhəmiyyət daşıyır. Milli əxlaqımızın prinsiplərini elə təbliğ və tətbiq etməliyik ki, onlar hər bir şəxsin davranış və rəftarında, adətlərində, ailədə və cəmiyyətdə qarşılıqlı münasibətlərində, ünsiyyət tərzində möhkəm yer tutsun və vərdişə çevrilsin.

Uşağı qorumaq, tərbiyə etmək və ona əxlaqi dəyərləri qazandırmaq, vətənpərvərlik ruhunda tərbiyə etmək vəzifəsi ailənin üzərinə düşür. Bu baxımdan ailədə uşaqlara ardıcıl olaraq vətən haqqında, onun təbiəti, dağları, meşələri, gölləri, çayları, şəhərləri, kəndləri haqqında məlumat verilməlidir.

Uşaqlar yaşadıqları kəndin, rayonun şəhərin tarixini bılməli, tarixi abidələrini, tarixi yerlərini məkanlarını bilməlidir. Vətənin görkəmli şəxsiyyətlərini tanımalı, onların həyat və fəaliyyətini öyrənməlidir. Dahi rəhbərimiz Heydər Əliyevin həyat və fəaliyyəti yetişən gənc nəslimzi üçün vətənpərvərlik, mənəviyyat nümunəsi olamlıdır.

Ailədə uşaqlara vətənin dostlarını və düşmənlərini tanıtmalı, vətən müharibəsində, Qarabağ döyüşlərində düşmən üzərində qələbəmizdən söhbət açamlı, onlarda milli iftixar , qürur hissləri yaratmalı, bu tarixi qələbədə Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz İlham Əliyevin "Dəmir yumruq" əməliyyatından, qəhrəman əskərlərimzin şücaətindən, işğaldana azad olmuş tarpaqlarımız, şəhər və kəndlərimzi haqında ardıcıl söhbətlər apaılmalı, məlumatlar verilməldiir.

Ailədə aparılan belə işlər, söhbətlər uşaqlarda milli vətənpərvərlik tərbiyəsinin təməllərini qoymuş olar.

Ulu öndər Heydər Əliyev gənclərə daim sonsuz qayğı ilə yanaşmış, gənc nəslin milli-mənəvi ruhda, vətənpərvərlik ruhunda tərbiyəsinə böyük diqqət və həssaslıqla yanaşmışdır.

Dahi şəxsiyyət, Ulu öndər Heydər Əliyev 2 fevral 1996-cı il tarixində Gənclərin Birinci Ümumrespublika Forumunda nitqində demişdir:

"Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri milli-mənəvi tərbiyə məsələsidi. Mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Gənclərimiz bizim tariximizi, ədəbiyyatımızı yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" (1).

Göründüyü kimi vətənpərvərlik bilavasitə milli- mənəvi tərbiyə ilə sıx bağlı olub mənəviyyatın tərkib hissəsidir. Beləliklə ailədə milli vətənpərvərlik tərbiyəsi mənəvi tərbiyənin tərkib hissəsi kimi aşılanmalıdır.

## Ədəbiyyat

1. Heydər Əliyev. Gənclərin Birinci Ümumrespublika Forumunda nitq. 2 fevral, 1996 – cı il/ Xalq, 5 fevral, 1996 cı il.

2. Abbasova Q., Mahmudova R., Əlizadə H. Təhsilin sosial-pedaqoji məsələləri.Bakı: Turan evi, 2002, 202 s.

3. Camalov K.H. Valideyn-övlad münasibəti məsələləri Şərq mütəfəkkirlərinin gözü ilə. Bakı: "Elm və təhsil", 2010.

4. Əhmədov H.M. Uşaqların tərbiyəsində valideynlərin şəxsi nümunəsi. Bakı: 1962.

5. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası: müəllim üçün vəsait. Bakı: 1988, 192 s.

6. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məslələri. Bakı: Səda, 1998.

7. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1993, 232 s.

8. Hüseynzadə R.L. Ailə pedaqogikası. Dərslik. Bakı: ADPU, 2015, 340 s.

# TƏLİMDƏ YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Məmmədova Aysun Ramiz qızı***
*BDU-nun II kurs magistrantı*
*mammadovaysun@mail.ru*

Müasir dövrdə texnika, texnologiyalar əsrində hər gün artan məlumatlar, informasiyalar bolluğu zamanında və daim yeniləşən, artan biliklər dövründə təhsil müəssisələrində yeni pedaqoji texnologiyalardan istifadənin əhəmiyyəti daha böyük aktuallıq və əhəmiyyət kəsb edir. Dünyamızı bürüyən Covid-19 Pandemiyası insanları daha çox elmə, texnika və texnologiyalara cəlb etmiş, bütün sahələrdə oilduğu kimi təhsil sahəsində də yeni pedaqoji texnologiyalardan, müxtəlif kompüter texnikasından, proqramlardan, internet resurslarından yararlanaraq distant təsildən, onlayn dərslərdən geniş istifadə edilməyə başlandı. Müəllimlərimiz və təhsil alanlarımız qısa bir müddət ərzində kompüter texnika və texnologiyasına mükəmməl yiyəlnədilər, evdə qalsalar da təhsildən, təlimdən geri qalmadılar, fədakarcasına çalıaşraq öz yetişdirmələrini tələb olunan biliklərlə silahlandırdılar, onlarda təlimə motivasiya yaradaraq bilik, bacarıq və təcrübələrini yaydılar.

Bu gün aldığımız informasiyalar o qədər artmış çoxalmış ki, əldə edilən biliklər tam mənimsənilməmiş köhnəlir. Bunun çarəsi isə yenə də texnika və texnologiyadan səmərəli istifadə edərək yeni biliklərə sahib olmaqdır.

Müasir informasiya- kommunikasiya dövründə elmin müxtəlif sahələrində toplanmış bilik kütləsinin təlimin ənənəvi sxem və prinsiplərinə əsaslanaraq onları həm öyrənənə çatdırmaq, həm də mənimsətmək çox çətin və mürəkkəb işdir. Bu gün bilikləri əldə etmək üçün şagirdi yalnız müəllim və dərslik qane edə bilməz. Bu gün həmin mənbələr çoxsaylı texnoloji mənbələrlə - məlumat kitabları, elmi məqalələr, kompüter tex-

nikası, internet resursları və digər mənbələrlə zəngindir. Bu səbəbdən müasir təlimin başlıca vəzifələrindən biri öyrənməyi şagirdlərə öyrətməkdir, nəyi haradan əldə etməyi - yəni öyrənənləri bilikləri müstəqil əldə etməyə istiqmətləndirmək və bilik qazanmağa stimul yaratmaq, düşünmə bacarığını, təfəkkür və təxəyyülünü inkişaf etdirmək lazımdır. Yalnız təlim metodlarının keyfiyyətcə yeniləşdirilməsi, onların şəxsiyyətə, onun təlabatlarına, maraq və meylinə yönəldilməsi, onlarda təhsilə həvəs yaradılması, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi təhsilin keyfiyyətini yüksəldər və təlim prosesinə böyük səmərə və fayda verə bilər.

Bu gün həyatda, elm aləmində baş verən yenilikləri, dəyişiklikləri öyrənmək, qəbul etmək və onlardan səmərəli istifadə etmək üçün yeni texnologiyalardan istifadə etmə bacarığı, şəxsiyyətin çalışqanlıq keyfiyyəti, bilik qazanamağa həvəs və maraq mühüm rol oynayır. Bütün bunların yerinə yetirilməsində təbii ki, müəllimin öz yetirmələrinə düzgün yol göstərməsi, istiqamət verməsi, bilik qazanmağa stimul və təlim motivasiyası yaratması üçün yeni pedaqoji texnologiyalara mükəmməl yiyələnməsi əsas şərtdir.

Müasir pedaqoji texnologiyalar müəllimin daha çox fasilitator rolunda çıxış etməsini, yəni daha çox yol göstərən, istiqamət və məsləhətlər verən rolunda olmasını tələb edir. Müəllimin bu funksiyası ondan daha çox bilik, bacarıq, dünyagörüş və xüsusilə dərin pedaqoji, psixoloji biliklər, təşkilatçılıq, texnika və texnologiyalardan səmərəli istifadə etmək və şagirdlərdə stimul yaratamaq bacarıqlarını tələb edir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "*Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəldilməlidir. Müvafiq stimullaşdırıcı mexanizmlər və səmərəli monitorinq sistemi vasitəsilə müəllim fəaliyyətinin keyfiyyəti artırılmalıdır"*[1]

Göründüyü kimi təhsilin keyfiyyəti bir çox cəhətdən sti-

mullaşıdırmadan, motivasiyadan və yeni pedaqoji texnologiyalardan asılıdr. Keyfiyyətli məktəb və keyfiyyyətli təhsil ilk növbədə müəllimdən asılıdır. Çünki texnologiyaları tətbiq edən, onlardan səmərəli istifadə etmək bacarığı müəllimin öhdəsindədir.

Dünya təcrübəsindən məlum olduğu kimi XXI əsrdə həm cəmiyyətin, həm də onun hər bir üzvünün yaşaması və inkişafı üçün başlıca amil daim özünü inkişaf etdirən, təkmilləşdirən, yeni texnologiyalardan istifadə edən, çalışqan, yaradıcı şəxsiyyətdir. Ümumtəhsil məktəbində müasir təlim texnologiyalarından səmərəli istifadə etməklə pedaqoji proses yetişən gənc nəsildə aşağıdakı keyfiyyətləri formalşadırmalıdır.

- Təhsil alanlarda məntiqi və tənqidi təfəkkürü və düşüncə bacarığını inkişaf etdirmək;
- Ətraf aləm hadisələrinə, müxtəlif fəaliyyət növlərinə yaradıcı təfəkkür yönümündən yanaşmaq;
- Müstəqil qərarlar çıxarmaq, müstəqil fikir söyləmək, müstəqil fəaliyyət göstərmək bacarığını inkişaf etdirmək;
- Qazanılmış bilikləri müstəqil olaraq tətbiq edə bilmək bacarığı formalaşdırmaq;
-Təhsil alanları daha çox praktik fəaliyyətə, əməli işlərə istiqamətləndirmək;
- Təhsil alanları daim özünü inkişafa və özünü təkmilləşdirməyə, həyatda faəl mövqe tutmağa istiqamətləndirmək.

Bu istiqamətdə aparılan işlər şagirdlərdə elmə, biliyə həvəs, zehni fəaliyyətə stimul və motivasiya yaratmış olur ki, bu da təhsilin keyfiyyətinin yüksəldilməsinə əsaslı təsir göstərir.

Artıq müasir dünyamız texnika, yeni texnologiyalar dövrüdür. Hər şey elmin, texnologiyanın üzərində qurulur. Hər hansı bir fəaliyyət sahəsində uğurlu fəaliyyət üçün, müvəffəqiyyətlər qazanmaq üçün fəaliyyət sahəsinə, iş növünə uyğun yeni texnologiyalardan istifadə etmək həyati zərurətə çevrilmişdir. Əgər bir neçə il bundan əvvəl kompyüter çox qiymətli bir texnika kimi yalnız böyük elmi müəssiələrdə olurdusa bu gün

kompüter texnikası demək olar ki, hər kəsin evində bir informasiya mənbəyi, məlumatlanma, öyrənmə cihazı kimi istifadə edilməkdədəir. İndi nəinki evlərimizdə hətta, tələbələrin, məktəblilərin cib telefonlarında texnika və texnologiya bir məlumat, ünsiyyət, informasiya texnologiyasına çevrilmişdir.

Təbii ki, belə bir şəraitdə pedaqoji prosesdə də, elm, bilik tədrisi prosesində də yeni təlim texnologiyalardan istifadə etmək təlim və tərbiyə keyfiyyətinin yüksəldilməsində mühüm amilə çevrilir.

Ulu öndər Heydər Əliyev Azərbaycanın davamlı inkişafının yeganə yolunu məhz yüksək təhsildə, xalqın maariflənməsində görmüş, respublikada fundamental və humanitar elmlərin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir.

Ümummilli lider Heydər Əliyev elmin, təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşmış, xalqın intellektual səviyyəsinin yüksəlməsini vacib vəzifələrdən biri hesab etmiş və demişdir: *“Təhsil millətin gələcəyidir”* [2, s.134].

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il, 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbycan 2013- 2020 –gələcəyə baxış” inkişaf Konsepsiyası” Azərbaycan təhsilinin inkişafında mühüm dövlət sənədi hesab edilir. Bu sənəddə təhsilin inkişfında, təlim və tərbiyənin səviyyəsinin yüksəldilməsində yeni təlim texnologiyalarından, innovasiyalardan, distant təhsildən, xüsusilə informasiya kommynikasiya texnologiyalarından (İKT) geniş istifadə edilməsi tələb olunur. Bu səənəddə deyilir: “*Elektron təhsil texnologoyalarının tətbiqi təhsil müəssisələrində daha da genişləndiləcək, müəllim və şagirdlər üçün virtual öyrənmə mühiti formalşdırılacaqdır. Bu məqsədlə bütün fənlər üzrə elektron tədris və metodik resursların yaradılması davam etdiriləcək, elektron resursların etibarlı saxlanılması və onlara asan çıxışın təmin olunması üçün “bulud” texnologiyaları tətbiq olunacaqdır*” [3].

Göründyü kimi təlimdə yeni texnologiyaların tətbiqi imkan-

ları getdikcə daha da genişləndirlir və inkişaf etdirilir ki, bu da təhsilin keyfiyyətinin yüksəldilməsinin əsas şərti hesab edilir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” 24 oktyabr 2013-cü il tarixli ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı/Xalq, 25 oktyabr 2013-cü il.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədididr. Bakı, 2005.
3. “Azərbaycan 2020: gələcəyə baxiş” inkişaf konsepsiyasi (Azərbaycan respublikasi prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı)/ “Azərbaycan Müəllimi” qəz. 20 yanvar, 2013-cü il.


## YENİYETMƏLƏRIN ƏXLAQ TƏRBİYƏSINDƏ TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏ


***Uğurliyeva Aytac Vəfadar qızı***
*BDU-nun II kurs magistrantı*
*xlilzadaytac@gmail.com*


Texnologiya yunan sözü olub (yunanca techno – sənət, ustalıq, bacarıq, logos isə elm-nəzəriyyə mənalarını verir), istehsal prosesində hazır məhsul almaq üçün işlədilən xammal, material və yarımfabrikatların emalı, hazırlanması vasitələrin, müxtəlif metodlarının məcmusu başa düşülür.

Tərifdən göründüyü kimi texnologiya ilk əvvəllər sənayedə, təsərrüfat işləirində istifadə edilmişdir. Amma, dövrün zamanın tələbi ilə XX əsrin 60-cı illərindən başlayaraq texnologiya, təhsil sitemınə daxil oldu, təhsilin keyfiyyətinin yüksəldilməsində, təlimin səmərəsinin artırılmasında pedaqoji texnologiyalardan geniş istifadə edilməyə başlandı. Bu proses əvvəlcə Amerikada, sonra Avropa məktəblərində, sonra, Rusiya və Azərbaycanda təhsil islahatlarının keçirilməsi ilə bağlı oldu. Hazırda pedaqoji texnologiyalara insanşünaslıq texnologiyalarının bir növü

kimi baxılır. Pedaqoji texnologiyalar psixodidaktika, psixopedaqogika, sosial psixologiya, kibernetika, idarəetmə və menecment nəzəriyyələrinə əsaslanır. Pedaqoji texnologiya dedikdə yalnız texnikadan, texniki vasitələrdən istifadə etmək deyildir. Pedaqoji texnologiyalar yeni metod və metodikalar, sınanmış texniki vasitələr, müəllim və tərbiyəçilərin pedaqoji ustalığı, səriştəliliyi və peşəkarlığıdsır. Pedaqoji texnologiyalar zaman keçdikcə təkmilləşmiş, əldə edilmiş təcrübə ilə öz coğrafiyasını daha da genişləndirmiş, və təhsilin idarə edilməsində, sinifdənxaric işlərin təşkilində, məktəbdənkənar tədbirlərdə və həmçinin tərbiytə işlərinin təşkilində geniş istifadə edilməyə başlanmışdır. Beləliklə, pedaqoji elmində texnologiyaların aşağıdakı şəkildə təsnifatı meydana çıxmışdır ki, bu təsnifatda tərbiyə texnologiyaları öz mükəmməl yerini tutmuşdur:

1. Təlim texnologiyaları.
2. Tərbiyə texnologiyaları.
3. Təhsili idarəetmə texnologiyaları.
4.Sinifdənxaric işlərin təşkili texnologiyaları.
5. Məktəbdənkənar tədbirlərin texnologiyaları.

Tərbiyə texnologiyaları dedikdə, müəllim və tərbiyəçilərin, valideynlərin pedaqoji vəzifələri həll etməyə yönəldilmiş ardıcıl, qarşılıqlı əlaqəli fəaliyyəti başa düşülür. Başqa sözlə desək, pedaqoji texnologiya öncədən planlaşdırılmış pedaqoji prosesi plana uyğun, sistemli və ardıcıl olaraq praktikada həyata keçirməkdir. Ümumtəhsil məktəbində tərbiyə texnologiyaları müəllimlə şagird arasında qarşılıqlı fəaliyyəti nəzərdə tutur. Bu fəaliyyət fərdiləşdirmə və diferensiallaşdırma prinsiplərini, insani və texniki imkanları, dioloji ünsiyyəti nəzərə almaqla, optimal şəkildə həyata keçirir.

Tətbiq olunan texnologiyalar Dövlət Təhsil Standartlarına uyğun olmalı və müəllimn yaradıcı fəaliyyəti ilə həyata keçirilməlidir. Bu prosesdə müəllimin səriştəliliyi və peşəkarlığı xüsusi əhəmiyyıt kəsb edir. Pedaqoji ustalıq pedaqoji texnologiyaya yiyələnməyin yüksək səviyyəsidir. Pedaqoqlar arasında

belə bir fikir möhkəmlənmişdir: pedaqoji ustalıq sırf fərdidir, ona görə onu əldən-ələ vermək olmaz. Texnologiya ilə ustalığın qarşılıqlı əlaqəsi açıq-aydın göstərir ki, eyni bir texnologiya müxtəlif müəllimlər tərəfindən həyata keçirilə bilər.

Tərbiyə texnologiyalarının nəticələri tərbiyə olunanların əməli işində, praktik fəaliyətində özünü göstərir. Bu gün təhsilin qarşısında duran əsas məqsəd hərtərəfli inkişaf etmiş ahəngdar şəxsiyyət yetişdirməkdir ki, tərbiyə texnologiyaları ilk növbədə bu istiqamətə yönəlməlidir. Şəxsiyyətin formalaşdırılması ailədən başlayır, məktəbəqədər təhsil müəssisələrində davam etdirilir, məktəb illərində və sonrakı təhsil illərində və ömür boyu tərbiyə prosesi fasiləsiz olaraq davam edir.

Pedaqoji prosesdə tərbiyə texnologiyaları – nəzərdə tutulmuş tərbiyəvi məqsədin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir. Eyni zamanda, tərbiyə texnologiyaları təlim-tərbiyə prosesinin paradiqmalarını müəyyənləşdirən elə alqoritmlər sistemidir ki, onun tətbiqi kamil insan yetişdirməyə, hərtərəfli inkişaf etmiş şəxsiyyətin yetişdirilməsinə xidmət edir.

Şagirdlərdə əxlaqi şüurun formalaşdırılmasında tərbiyə texnologiyalarının tətbiqində müəllimin fəaliyyətini aşağıdakı funksional komponentlərə ayırmaq olar:

1) Qnostik (idraki) komponent
2) Layihələşdirici komponent
3) Konstruktiv komponent
4) Təşkilatçılıq komponenti
5) Kommunikativ (ünsiyyət) komponent

Beləliklə, müəllimin tərbiyə texnologiyalarını aşağıdakı əməliyyatlar təşkil edir:

I. Tərbiyənin məzmunu ilə əlaqədər məlumatları toplamaq üçün əməliyyatlar

II. Tərbiyənin məqsədlərini, forma vasitələrini layihələşdirmək üçün əməliyyatlar

III. Tərbiyə prosesini təşkil etmək üçün əməliyyatlar.

IV. Şagirdləri praktik fəaliyyətə cəlb etmək üçün əməliyyatlar.

Pedaqoji prosesdə tərbiyə texnologiyasının tətbiqində şagirdlərdə əxlaqi şüurun formalaşdırılması yalnız müəllimi deyil, həm də şagirdləri nəzərə almaqla yaradılmalıdır. Pedaqoji prosesdə əxlaqi şüurun formalaşdırılması işinin həyata keçirilməsi zamanı tətbiq edilən texnologiyanın ardıcılığıını ağıdakı kimi təsəvvür etmək olar: 1) Şagirdlərdə əxlaqi şüurun formalaşdırılması üzrə aparılan tərbiyəvi söhbət və digər iş formalarının təşkili texnologiyası; 2) şagirdlərdə əxlaqi şüur və əxlaqi davranış fəaliyyətinin və digər inkişafetdirici fəaliyyət növləri ilə əlaqələndirilməsi texnologiyası; 3) şagirdlərin tərbiyəvi fəaliyyətinin, əxlaqi şüüur və davranışının stimullaşdırılması texnologiyası; 4) şagirdlərdə əxlaqi şüurun formalaşdırılması üzrə pedaqoji prosesin gedişinin tənzimlənməsi texnologiyası; 5) şagirdlərdə əxlaqi şüur və davranışın formalaşdırılmasında pedaqoji prosesə nəzarətin həyata keçirilməsi texnologiyası.

Bunu da qeyd edək ki, pedaqoji prosesdə istifadə edilən texnologiyalar kompleks şəkildə həyata keçirilməlidir. Yəni təlim üçün nəzərdə tutulmuş texnologiya həm də tərbiyəvi vəzifələrin həyata keçirilməsinə xidmət etməlidir.Yaxud idarəetmədə istifadə edilən texnologiyalar həm də təlim və tərbiyə vəzifələrinin həll edilməsinə xidmət etməlidir.

## Ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı/"Xalq" qəzeti, 25 oktyabr 2013-cü il.

2. "Azərbaycan 2020: gələcəyə baxiş" inkişaf konsepsiyasi (Azərbaycan respublikasi prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı) /Azərbaycan Müəllimi" qəz. 20 yanvar, 2013-cü il.

3. Abbasov Ə.M. Quliyeva K.M. İnnovativ pedaqoj texnologiyalar. //Kurikulum,cild 11, №4, 2018, s.5-11

4. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: Psixope-

daqogikaya giriş. Bakı: Nasir, 2008, 276 s.
5. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: BDU, 1993, 241 s.
6. İlyasov M.İ. Pedaqoji texnologiyalar: ənənə və müasirlik// Pedaqoji Universiter Xəbərləri, №2. 2005
7. İsmayılov İ.N "Ümumtəhsil məktəblərində yeni informasiya texnologiyalarından istifadənin bəzi nəzəri problemləri//Azərbaycan məktəbi, Bakı,2007, №6
8. Mehrabov A., Abbasov Ə. və b. Pedaqoji texnologiyalar. Bakı: Mütərəcim, 2006. 342 s.
9. Mehrabov A.O. və b. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2009, 342 s.
10. Qasımova L.N., Mirzəyeva Ş İ. Azərbaycan təhsilində kurikulum konsepsiyası. (Dərs vəsaiti). Bakı: Elm və təhssil, 2016, 228 s.
11. İbrahimov F., Hüseynzadə R. Pedaqogika.2 cilddə. I cild. Bakı, Mütərcim, 2012, 548 səh.
12. Veysova Z.A. Fəal-interaktiv təlim: müəllimlər üçün vəsait. Birləşmiş Millətlər Təşkilatının Uşaq fondu (UNİCEF) Azərbaycan nümayəndəliyi. 2007, s. 152

# FİLOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri - dos.Azər Mustafayev***

## MÜASİR AZƏRBAYCAN DİLİNİN ONOMASTİK SİSTEMİNDƏ HİDRONİMLƏRİN YERİ

***İmanquliyeva Mehri Tofiq qızı***
*Xarici Dillər Universitetinin dissertantı*
*mimanquliyeva@mail.ru*

Bütün toponimlər etnik mədəniyyətinin ayrılmaz bir hissəsidir, hidronimlər (qədim yunanca ὕδωρ — su) də toponimlər içərisində, onomastik sistemdə xüsusi yerə malikdir. Hər hansı bir sivilizasiyanın inkişafının ilkin mərhələsində hidronimlər mühüm rol oynadığından, müəyyən bir xalqın taleyini, dilini, tarixini, sivilizasiyanın formalaşması və inkişafının öyrənilməsində hidronimik məlumatların əhəmiyyəti olduqca böyükdür. "Su obyektləri- çaylar, göllər, arxlar, dənizlər də tarixən türk xalqlarının mədəni və təsərrüfat həyatında önəmli və həlledici rola malik olmuşdur. Bu obyektləri linqvistik baxımdan onomastika, onun qolu olan hidronomika elmi öyrənir" [1, s. 108].

Digər toponimlərdən fərqli olaraq hidronimlər zaman ərzində daha sabit mövqeyə malikdirlər, bu baxımdan da hidronimlər həm tarix üçün, həm də etnogenetik tədqiqatlar üçün inkaredilməz dəyərə malikdirlər. "Onomastikada hidronimlər iki variantda tədqiq edilir. Birinci, toponimlərin bir növü kimi, ikinci ayrıca onomastik vahid kimi. Yer adlarından seçilərək su obyektlərinin adlarını bildirdiyinə görə və həm də bu kimi xüsusi sözlərin toponimlərdən fərqli, özünəməxsus fonetik, leksik, semantik və qrammatik xüsusiyyətləri olduğu üçün ayrıca onomastik vahid kimi öyrənilməsi daha məqsədəuyğundur" [2, s. 259].

Cəmiyyətin inkişafının ilkin mərhələsində su obyektlərinin irəli sürülməsinin əsası, bir qayda olaraq, hidro-obyektin öz xü-

susiyyətlərini, bölgənin fiziki və coğrafi reallıqlarını birbaşa əks etdirən adlardan ibarət idi. Azərbaycan hidronimləri içərisində Xəzər, Kür, Araz və s. su obyektləri xüsusi mövqeyə malikdir. Bəzi mənbələrə görə tarixən Xəzər dənizinin 100-ə qədər adı olmuşdur. Qədim dövrlərdə Hirkan dənizi, Kaspi dənizi, Xvalın dənizi, Göy dəniz, Ağ dəniz, Kiçik dəniz, Si hay (Qərb dənizi), Abeskun dənizi, Mazandaran dənizi, Kimmerik dənizi, Lənkəran dənizi, Gürgan dənizi, Pontik dənizi, Sarmat dənizi, Xorasan dənizi, Tabasaran dənizi, Bakı dənizi, Rus dənizi, Dərbənd dənizi, Bab əl-Əvbab, Qunduz dənizi, Quzğun dənizi, Saray dənizi, Əkfudə dənizi, Quz dənizi və s. kimi müxtəlif adlarla anılan Xəzər dənizi haqqında ilk məlumatlara Assuriya mənbələrində rast gəlmək mümkündür. Tarixən müxtəlif adlarla anılan Xəzər dənizinin bu adları unudulmuş, yalnız Xəzər və Kaspi adları müasir dövrə qədər gəlib çıxmışdır. Xəzər adının mənşəyi türk etnosu olan xəzərlərlə bağlıdır. Şimali Qafqazın yerli xalqlarından biri olan xəzərlər qədim və zəngin tarixə malikdirlər. Belə ki, xəzər tayfları 650-1048-ci illər arasında xaqanlıq kimi mövcud olmuş, tarixdə iz buraxmışdır. “Dəniz öz adını erkən orta əsrlərdən Şimali Qafqaz şərqində və Volqa çayının aşağı axarında yaşamış və Xəzər xaqanlığını yaratmış türkdilli xəzər tayfasının adından almışdır. Xəzərlər başqa tükdilli tayfalarla (suvar, bulqar hun və b.) birlikdə Azərbaycan xalqının etnogenzisində mühüm rol oynamışdır” [3, s. 244].

Kür çayı təkcə ölkəmizin deyil, hətta Cənubi Qafqazın ən bol sulu və ən uzun çayıdır. Çayın adı Azərbaycan mənbələrində Kür, gürcü mənbələrində Mt'k'vari, fars mənbələrində Korr və ya Kuruş, antik yunan və antik Roma mənbələrində isə Kirus adı ilə qeyd olunmuşdur. Xüsusilə də yunan tarixçisi və coğrafiyaçısı Strabonun və Roma alimi Plinin qeydlərində çayın adı Kirus yazılmışıdır [4]. Sovet və Rusiya coğrafiyaşünası, toponimiya və kartoqrafiya üzrə mütəxəssis, professor Yevqeniy Mixayloviç Pospelov Kür hidroniminin gürcü dilindəki qarşığı barədə yazırdı: “Kür çayının gürcü dilindəki adı olan

Mt'k'vari (qədim gürcü dilində Mt'k'uari) sözü gürcü dilindəki "yaxşı su" yaxud meqrel dilinin gürcüləşmiş variantı tkvar-ua, yəni "dağları yarıb keçən çay" mənasını verir" [5, səh.231].

Bəzi tədqiqatçılar bu çayın adını Əhəməni imperatoru II Kirin adı ilə bağlamağa çalışsalar da bu bu fakt bir qədər mübahisəlidir. Çünki udi, qrız və buduq dillərində Kür sözünün mənası elə "quyu", "su", "çay" mənalarını kəsb edir. Bununla yanaşı qədim türk dillərində Kür ifadəsi "qüvvətli", "bol (sulu)", "sürətli", "məğrur", "sarsılmaz" kimi anlamda istifadə olunurdu. Mühüm bir faktı da qeyd etmək yerinə düşərdi ki, tarixən Mozdokda, Kubanda, və Maykopda Kür adı çay adı kimi işlədilmişdir. Bu fakt bir daha on təsdiq edir ki, bu hidronim təkcə udi, qrız və buduq dilləri ilə bağlı deyildir. Türkiyənin Şərqi Anadolu bölgəsində yerləşən Allahuəkbər dağlarından öz mənbəyini götürən Kür çayı 1515 km məsafə qət etdikdən sonra Xəzər dənizinə tökülür. Bəzi coğrafi mənbələrdə Avropa və Asiyanın sərhədi kimi göstərilən Kür çayı qərb mənbələrində "Kura" adı altında qeyd olunur.

Hələ eramızdan əvvəl VI əsrdəki mənbələrdə adı çəkilən Araz çayı Azərbaycan xalqının taleyində ağrılı-acılı bir iz buraxmışdır. Araz hidronimi haqqında ilk dəfə qədim yunan tarixçisi və coğrafiyaşünası, Herodotun sələfi Miletli Hekatey (e.ə. 550-490) məlumat vermişdir. Bir sıra qədim və mötəbər mənbələrdə adı çəkilən Araz çayı Kürün ən böyük sağ qoludur. Ərəb xilafəti dövründə Araz çayı ərəb dilinə mütabiq olaraq "əl-Rass" (müasir dövrdə Səudiyyə Ərəbistanında yerləşən "ər-Rass" toponimi ilə qarışdırılmama-lıdır) kimi tanınmağa başladı. Müasir dövrdə Araz çayı dövlət sərhədi kimi mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, qədim mənbələrdə Araz çayının adı Aras, Ar-Ras, Araks, Ər-ras, Ərəş, Rude, Araks, Uraz, Rass, Rakşi, Oraz, Eraks, Arras, Araks, Aros, Araz və s. kimi qeyd olunmuşdur. "Araz hidroniminin tərkibinkdəki "az" komponenti Azərbaycan ölkə adındakı "az" tayfa adı ilə eynilik təşkil edir. Azərbaycanda etnonimlə ifadə olunmuş çay adlarına aşağıdakı

hidronimləri misal göstərmək olar: Qarqarçay, Tərtər çay, Bayandurçay, Zəngiçay və s. Araz çayı da "az" tayfasının adını əks etdiran hidronimlərdən biridir" [6, s.184]. Bəzi tədqiqatçılara görə "aks, oks" ifadələri qədim dövrdə türkdilli etnosların toponimiyasında "aksu, oksu" ifadəsi ilə birgə işlədilirdi, ümumiyyətlə bu ifadələr "axan su, çay" anlamını kəsb edir.

Azərbaycan limnonimləri, yəni göl adları içərisində Sarısı, Göygöl, Maralgöl, Ağgöl, Qaragöl və s. adlarını qeyd etmək olar. Sarısu gölü ərazi baxımından Xəzər dənizindən sonra ölkəmizdə yerləşən ən böyük göldür. Kür-Araz ovalığında yerləşən Sarısu gölü İmişli, Saatlı və Sabirabad rayonlarını əhatə edir. Ölkəmizdə Sarısu toponimi təkcə bu gölü adı ilə Azərbaycanın Beyləqan rayonunda Sarısu adlı qəsəbə, Göygöl rayonunda isə Sarısu adlı kənd, Kürəkçayın sağ qolu olan Sarısu çayı, eyni zamanda Gədəbəy və Oğuz rayonlarında da Sarısu adlı çay vardır. Bununla yanaşı İranın Qərbi Azərbaycan ostanının Puldəşt şəhristanında da Sarısu adlı kənd mövcuddur. "Hidronim sarı (rəng) və su komponentlərindən düzəlib, "sarı rəngi olan göl mənasındadır" [7, səh.178].

25 sentyabr 1139-cu ildə təbii fəlakət nəticəsində meydana gələn Göygöl Kiçik Qafqaz dağ silsiləsi ilə əhatə olunmuş dağ gölüdür. Müvafiq tarixdə baş verən zəlzələ səbəbindən Kəpəz dağının bir hissəsi uçaraq Ağsu çayının yolunu bağlaması nəticəsində dağ çayı ilə qidalanan göl meydana gəlmişdir. "Ətrafdakı nadir və zərgin bitki örtüyünün, heyvanat aləminin və quşların qorunması, həmçinin göllərin büllur suyunun təmiz saxlanılması məqsədilə 1965-ci ildə Göygöl Dövlət Qoruğu təşkil edilmişdir. Suyu şəffaf və göy rəngə çaldığına görə göl belə adlandırılmışdır" [3, s.209]. Ümumiyyətlə, ölkəmizdə Göygöl adlı hidronimlər çoxluq təşkil edir. Göygöl rayonu ilə yanaşı Culfa, Daşkəsən, Gədəbəy, Ordubad rayonlarda da Göygöl hidronimlərinə rast gəlmək mümküdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci ildə imzaladığı sərəncama əsasən, Göygöl Dövlət

Təbiət Qoruğunun və Azərbaycanın Göygöl, Daşkəsən və Goranboy rayonlarının ərazilərində Göygöl Milli Parkı yaradıldı. Göygöl Milli Parkı ərazisində yerləşən göllər içərisində Maralgöl də özünəməxsus gözəlliyi ilə seçilir. "Göygöl Milli Parkının ərazisində ümumilikdə 13 göl var ki, onlardan 7-si böyük göllər sırasına daxildir. Gözəlliyi ilə göz oxşayan Maral göl parkın ərazisində yerləşir. Bu göl füsunkar gözəlliyi, xüsusilə də suyunun şəffaflığı ilə insanları heyran edir. Göygölə gedən hər bir kəs mütləq Maralgölü də seyr etməyə çalışır" [8]. Azərbaycanın dağ göllərindən biri olan Maralgöl də, Göygöl kimi zəlzələ nəticəsində qayaların dağılmasından sonra meydana gəlmişdir. Bəzi tədqiatçılar müvafiq limnonimi gölün ətrafında maralların yaşaması ilə əlaqələndirsələr də, bəziləri isə bunu gölün gözəllikdə marala bənzəməsi ilə bağlayırlar. "Hidronim Maral (zoonim) və göl coğrafi terminlərindən ibarətdir... Gölün adı burada vaxtilə çoxlu maral yaşaması ilə əlaqədar meydan gəlmişdir. Xalq etimologiyasına əsasən, göl maral kimi füsunkar gözəlliyə malik olduğuna görə belə adlandırılmışdır" [7, səh.94].

Ümumiyyətlə, bu təbii fəlakət nəticəsində meydana gələn göllər içərisində Göygöl Azərbaycan hidronimləri içərisində bulaq adlarının da xüsusi yeri vardır. Azərbaycan bulaqları içərisində Ağbatxayır, Badamlı, Bayram bulağı, Damcılı bulağı, Dərəlik bulağı, Dərəşam mineral bulağı, Xoca Mərcanlı bulağı, İsa bulağı, İstisu (Xaltan), Karvansara bulağı, Mamayı bulağı, Nohur bulağı və s. bulaq adlarını qeyd etmək olar. Sevindirici və qürurverici haldır ki, tarixən saf bulaqları ilə məşhur olan Qarabağımız düşmən işğalından azad edildi.

Xatırladaq ki, müasir dövrdə ölkəmizə qarşı separatçı iddalar irəli sürən mənfur qonşularımız olan ermənilər bu iddialarının əsassız olduğuna ən güclü dəlil bu ərazidəki toponimlərin, o cümlədən də hidronimlərin türk mənşəli olmasıdır. Şübhəsiz ki, bu inkaredilməz bir faktdır. Biz məhz bu faktorları dəyərləndirərək separatçı qüvvələrin iddialarına qarşı əsaslı dəlil kimi istifadə edə bilərik.

**Ədəbiyyat**

1. Kazimov Cahid. Mahmud Kaşğarlının lüğətində hidronimlər. AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər 1, Bakı, 2007, səh.: 108-113.

2. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. Bakı, 1985.

3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki clddə. I cild. Bakı, "Şərq-Qərb" 2007, səh.304

4. Wordsworth, Paul (1996–2021). "KURA RIVER". In Yarshater, Ehsan (ed.). Encyclopædia Iranica, Online Edition. New York: Encyclopædia Iranica Foundation.

5. Поспелов Е. М. Географические названия мира: Топонимический словарь: Ок. 5000 единиц / отв. ред. Р. А. Агеева. – 2-е изд. – М.: Русские словари; Астрель; АСТ, 2002. – 512 с.

6. Məmmədov N. G. "Araz" hidroniminin mənşəyinə dair. Bakı Universitetinin Xəbərləri. Təbiət elmləri seriyası. № 2, Bakı, 2008.

7. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb" 2007, səh.304

8. Qarayeva S. Azərbaycan təbiətinin mirvarisi - Göygöl Milli Parkı. 525-ci qəzet.- 2020.- 5 sentyabr.- S.21.

## ЗАНЯТОСТЬ ЖЕНЩИНЫ В ИСЛАМСКОЙ ЭКОНОМИКЕ

***Мехтиева Сабина Искендер***
*БГУ, факультет востоковедения, сотрудник*
*Научно-исследовательского*
*центра исламских исследований*
*sabina.1980@inbox.ru*

Женщина в Исламе поставлена на очень высокую ступень, её статус непоколебим. Наряду с хрупкостью, женщина обладает всеми возможностями для реализации заложенного в ней творческого, экономического,

социального потенциала. Важно помнить, что женщина, сохраняя свой нежный образ «хранительницы домашнего очага», оставляя за собой статус оберегаемой личности, соблюдая все нормы и правила поведения с точки зрения норм исламского права, может и должна реализовать себя на пользу своей семье и обществу. В условиях развёрнутого макета эмансипированной женщины вопрос, а должна ли женщина учиться, работать – стал звучать чаще.

Безусловно, заложенные природой в женщине качества и предназначение – это мать, сестра, жена, бабушка, хранительница домашнего очага, ось вращения семьи, центр уюта, покоя и тепла. Но в современном мире роль женщины в жизни семьи и общества становится все более многогранной. Женщине нужно получить образование, чтобы была возможность устроиться на работу, которая позволит ей обеспечить себя и детей в случае неблагополучного исхода её семейной жизни, что вполне возможно. Для многих термин «мусульманская бизнес-леди» покажется странным. Во многих случаях возникает диссоциация, когда трудно представить женщину-мусульманку, покрытую с головы до ног, с утра до вечера занятую хозяйством, многочисленным потомством и выполнением указаний мужа, занимающуюся определенным бизнесом или работой в офисе. Сюда часто примешиваются стереотипы, о существующих религиозных табу. Но история ислама свидетельствует об обратном, что находит подтверждение в современном мире.

Еще до того, как Пророку Мухаммеду (мир ему и благословение) была вверена пророческая миссия, он был нанят на службу состоятельной и уважаемой женщиной из рода курайшитов Хадиджей бин Хувайлид. Он водил торговые караваны из Хиджаза в Аш-Шам и управлял

торговыми сделками, принося прибыль. Увидев коммерческий успех своего управляющего, предпринимательница Хадиджа была поражена его честностью, порядочностью и верностью – качествами, которых так не хватает людям, занимающимся подобного рода делами. После того, как Пророку (мир ему и благословение) были ниспосланы божественные откровения, Хадиджа, ставшая его супругой, распорядилась своим имуществом во благо призыва к Исламу, который проводил её муж.

Это стало возможным потому, что Ислам провозгласил полную финансовую самостоятельность женщины и наделил её неотъемлемым правом самой распоряжаться своим имуществом, иметь свой личный бизнес и подписывать необходимые для этого финансовые документы. Во времена Пророка (мир ему и благословение) многие женщины занимались, если сказать современным языком, малым бизнесом: кто-то шил одежду, кто-то выделывал кожу, а кто-то вел торговлю. Все чаще мы становимся свидетелями многочисленных фактов тому, что роль женщины мусульманки обширна и не ограничивается только её домом, семьей и домашним хозяйством. При желании женщина, с согласия мужа или родственника, который несёт ответственность за сохранность её чести и морали, может заниматься собственным бизнесом или участвовать в общественной жизни общества, работать во благо социума в приемлемых для неё сферах, таких, как медицина, образование, моделирование и пошив одежды, кулинария и т.д.

Женщины в исламском мире осваивают новые компьютерные технологии, занимаются политической, преподавательской, журналистской деятельностью. Без дальнейшего перечисления ясно, что учеба и работа, вопреки бытующему мнению, для мусульманок доступны

и разрешены. Другое дело, что эти вопросы решаются индивидуально, в каждой конкретной семье. Ведь, в конечном итоге, чем бы ни занималась женщина вне дома, ей не под силу (в отличие от мужчин) «с головой уйти» в работу, до конца отвлечься от мыслей о семье и своих близких. Дом, с которым её связывают наиболее крепкие узы, объективно продолжает оставаться «на ней». Для того, чтобы женщина могла более равномерно распределять свое время между работой и семьёй, некоторые специалисты предлагают «материнский» путь профессионального роста и продвижения по службе, к примеру, организацию надомного труда, что распространяется сегодня в серьёзных масштабах.

*Заключение.* Существенной подвижкой в реализации трудового потенциала мусульманки, может стать, так называемый надомный труд, или дистанционная занятость. В эпоху процветания информационных технологий и развития механизмов правового регулирования трудовой деятельности, возникает огромное количество разновидностей найма работников. Это и есть сочетание гибкого графика работы, и неполной рабочей недели, и возможности уделять больше времени семье.

## Литература


1. Ахмедова Э.С. Исламская экономика в свете общественно-экономических формаций. Экономика. 2013.
2. Ахмедова Э.С. Исламская экономика в свете общественно-экономических формаций. 2014.
3. Ахмедова Э.С. Некоторые организационно- правовые аспекты исламской экономической модели. 2013.
4. Гадиуллина Г. Мир мусульманской женщины, 2001 г.
5. Ибрахим Разалия. Ислам и бизнес. Казань: Издательство ОАО ПИК «Идел-Пресс», 2006.
6. Сабирова Г.А. «О статусе женщины в Исламе». ЦСО ИС РАН, 2000г.

7. Хусейн Юсуф. «Идеалы семьи в Исламе и противоположные ему тенденции», 1999г.

# ONLAYN MEDİADA JURNALİST ETİKASI VƏ ONA QOYULAN TƏLƏBLƏR

***Hüseynova Esmira Kərəm qızı***
*BDU-nun dissertantı*
*aliyevaes@yandex.com*

Cəmiyyətlərdə hüquqi dəyərlərə və mexanizmlərə söykənən etimadlı, şəffaf münasibətlərin təmin olunmasına maneə yaradan süni əngəllərin yer alması etik normaların pozulmasına yol açan amillərin meydana gəlməsi təbii qəbul olunmalıdır. Jurnalist etikası isə müxbuirin öz fəaliyyəti ərzində həmin aşınmalardan özünü qorumasına əsas istiqamət verir.

Kütləvi informasiya vasitələrində etik prinsiplərin pozulması bu gün təkcə Azərbaycan üçün deyil, demək olar ki, dünyanın bütün media qurumları üçün problem olaraq qalmaqdadır. Yaranan hər bir yeni situasiya mətbuatda etik prinsiplərin pozulması ilə bağlı özünün yeni şərtlərini diqtə etməklə mövcud özünütənzimləmə və inzibati tənzimləmə mexanizmlərinin çevikliyini, işləkliyini şübhə altına alır.

Azərbaycanda jurnalist etikası probleminə diqqət 2000-ci ildən aktuallaşmağa, ictimai müzakirə predmetinə çevrilməyə başlayıb. Peşə davranış şərtlərinin önəmi, mediaya inam dərəcəsinə jurnalist etikasının təsiri məhz həmin dövrdən diqqət mərkəzində saxlanır (və ya buna cəhd edilir). Əslinə qalsa, inkişaf etmiş Qərb ölkələrində də peşə etikasının incəlikləri bütövlükdə MassMedianın bəlli inkişaf dönəmindən sonra ayrıca araşdırılıb (4., səh. 27).

Bəs jurnalistikamızda etik prinsiplərin pozulmasını şərtləndirən amillər nədən ibarətdir və onlar necə meydana gəlir? Şübhəsiz ki, bu suala cavab tapmaq üçün etik prinsiplərin pozulmasına zəmin yaradan halları ayrı-ayrılıqda dəyərləndirmək lazımdır.

Medianın təbiəti cəmiyyətin inkişaf tempinə uyğun olaraq

durmadan dəyişir. Beynalxalq ictimai rəydə medianı artıq dördüncü hakimiyyət yox, hakimiyyətlərin, güclərin mediası adlandıranlar da tapılır. Çünki, media sahibləri mediadan kənar sektorlara sərmayə qoymaqla, siyasi və iqtisadi sahələrə maraq göstərməklə başında durduqları media quruluşlarının həmin sektorlara baxışına da təsir göstərə bilirlər. Belə durumlarda media etikası mövzusunun daha sıx gündəmə gətirilməsi zərurəti yaranır.

Jurnalistikada peşə etikasının tez-tez pozulması, qərəzli yazılar ucbatından məhkəmə çəkişmələrinin artması bir tərəfdən cəmiyyətdə siyasi və mənəvi-əxlaqi qütbləşmənin nəticəsidirsə, eyni zamanda jurnalistikanın bilik və peşə səviyyəsinin aşağı olması ilə bağlıdır. Çünki, əliqələmlilərin xeyli hissəsinin söz ehtiyatı, dilin imkanlarına bələdliyi, intellektual səviyyəsi çox aşağı olduğu üçün onlar öz qəzəb və kinlərini gizlədə, normal məntiqlə ifadə edə bilməyib tənqidlə təhqirin fərqini qarışıq salırlar (2., səh. 80).

Etik prinsiplərə sadiq medianı əldə etmək üçün jurnalistləri, media azadlığını qoruyan hüquqi və demokratik mühit şərtdir. Belə bir mühit isə həm inziabit, həm də mənəvi-əxlaqi vasitə və normalarla formalaşdırıla bilər.

Etik prinsiplərə sadiq media həm də qanunların medianın gözünü qorxudacaq təbiətə malik olmamasını tələb edir: qanunlar ictimai funksiya yerinə yetirən hakimə, polisə münasibətdə olduğu kimi jurnalistlərin də yanılma, səhvetmə haqqını tanımalıdır, difomasiya, böhtan, təhqirlə bağlı qanunvericiliyin islahatı davamlı şəkildə diqqət mərkəzində olmalıdır.

Ümumi media mühiti hər bir jurnalistə etik prinsiplərlə işləməyə imkan verməlidir. Çünki, mediada söz azadlığı etik prinsiplərə əməl olunmasının asas şərtlərindəndir. Geniş baxışda, dördüncü güc kimi qəbul edilən media, özündən öncəki güclərin təsiri altında olmamalıdır. Etik prinsipləri qulağına "sırğa edən" jurnalistin çalışdığı media qurumlarında söykənə biləcəyi dayaqları olmalı və o, daxili mühitdən dəstək almalıdır.

Çünki etik prinsiplərə sadiqlik yalnız jurnalistlərin məsuliyyəti demək deyil. Bu, bütünlüklə cəmiyyətin və media qurumlarının məsuliyyətidir.

Toplumun inamını qazanmaq üçün media quruluşu ilk addımda öz baxış və missiyasını aydın şəkildə duyurmalıdır. Qanunlar, təbii ki, hüquqi şəxsin üzərinə şəffaflıqla bağlı tələblər qoyur. Ancaq etik prinsiplərə söykənən media mühitində şəffaflığın belə indeksləşməsi yetərli deyil. Etik media mühiti həm də media üzərində sahiblik və media qurumlarının maliyyələşmə mənbələrinin toplum üçün tam şəffaflığının təmin olunmasını tələb edir. Bu, etik prinsiplərlə iş mühitinin əsas eleməntlərindən biridir. Çünki, media, yaxud jurnalist etikası mövzusu zaman-zaman qızğın müzakirələrin sevilən predmetlərindən biridir. Media dəyişikliklərə, yeniliklərə daha həssasdır, daim özünə yeni elementlər əlavə edir.

Yeni medianın yaranması dünya informasiya məkanında xeyli dərəcədə fərqli tendensiyanın əsasını qoydu. Həmçinin, ənənavi mediadan fərqIi olaraq, yeni medianın auditoriyası təkcə proses izləyicisi kimi qalmadı, bu auditoriya həm də medianın yaradıcısı, xəbərin yaranması və hazırlanması prosesinin birbaşa iştirakçısı oldu. Yeni medianın yaranışı ilə cəmiyyət xəbərin daha operativ alınması vərdişinə də yiyələndi.

Yeni medianın bu qədər sürətlə yayılmaq imkanı və ona peşakar nəzarətin demək olar ki, olmaması bu sahədə etik prinsiplərə əməl olunub-olunmaması ilə bağlı sualı ortaya çıxarır. Yeni media növü olan internet oyunlarından tutmuş sosial mediada əksini tapan şərhlərə, mübahisələrə, müzakirələrə, dioloqa va bütün bu sadalananların baş verdiyi zaman etik qaydaların pozulması hallarına necə nəzarət olunmalıdır? Ümumiyyətlə, belə bir ictimai və ya administrativ nəzarət mümkündürmü?

Əvvəla, məsələnin administrativ nəzarət forması tamamilə müzakirədən kənarda qalır. Çünki internet və mobil texnologiyalarla fəaliyyat göstərən mediaya belə nəzarət çox çətindir, bəzi hallarda isə mümkünsüzdür.

İkincisi, dəstəklənməli vasitə isə yeni media üzərində ictimai nəzarətin olmasıdır. Media özü ictimai nəzarəti həyata keçirən, bu fəaliyyətlə məşğul olan vasitə olmasına baxmayaraq, medianın üzərində də cəmiyyətin ictimai nəzarət funksiyası var. Demokratik cəmiyyətin digər institutları mediada baş vermiş etik prinsip pozuntularına, qeyri-peşakarlığa qarşı öz mövqelərini bildirir, pozuntuya yol vermiş media orqanını ictimai qınaq obyektinə çevirə bilir.

Hazırkı reallıqda xəbər, informasiya peşəkarların, yəni jurnalistlərin iştirakı olmadan belə yayıla bilir. Yeni medianın, xüsusilə informasiya və mobil texnologiyaları imkan verir ki, əslinda xəbər alıcısı olan şəxs gördüyü hadisəni sosial şəbəkələrdə, bloqunda, həvəskar saytında paylaşmaqla, həm də xəbər istehsalçısına çevrilə bilsin. Əlbəttə, peşakarlıq olmadığı üçün bu zaman xəbərin obyektivlik, tərəfsizlik va qərəzsizlik prizumpsiyası pozula bilir.

Elmi ədəbiyyatda oxuyuruq "Elektron mətbuatın inkişafı, ona oxucu marağının artması, bir çox hallarda materiallara çoxsaylı (səviyyəli və səviyyəsiz) şərhlər yazılması göz qabağındadır. İnanırıq ki, çap mətbuatımızın əvvəllərində gözə qabarıq çarpan çatışmazlıqlar kimi bunlar da aradan qalxacaq. Bir yerə təzə sel, su gələndə özü ilə əvvəlcə çör-çöp, daş-kəsək gətirsə də, get-gedə sular duruldüğu kimi cəmiyyətimizdə və mətbuatımızda getdikcə artan inkişaf tempi, demokratik dəyərlər də durulacaq, saflaşacaq" (2., səh. 86).

Etik normaların pozulması və bu pozuntuları ictimailəşdirən kütləvi informasiya vasitələri sadaladığımız ictimai-siyasi münasibətlər "zənciri"nin ən sonuncu halqalarındandır. Məhz bu səbəbdən də, etik prinsiplərin pozulması probleminin yalnız media müstəvisində həll edilməsi mümkün deyil. Media bu prosesdə sadəcə icraçıdır və diqtə olunan, sifariş edilən şərtlər çərçivəsində hərəkət etmək məcburiyyətindədir.

Ölkədə fəaliyyət göstərən çoxsaylı jurnalist təşkilatlarının, o cümlədən bütün nüfuzlu media qurumlarının birləşdiyi Matbu-

at Şurasının bu istiqamətdə atdığı addımlar aintensivləşməli, xüsusən də internet jurnalistikasında etik problemlərin pozulması ila bağlı məsələlər diqqət mərkəzində olmalıdır. Nəzəri baxımdan öncədən proqnozlaşdırılması mümkün olmayan yeni faktların meydana gəlməsi problemin daim diqqətdə saxlanılmasını zəruri edir. Vətəndaş cəmiyyətinin sütunlarını təşkil edən qeyri-hökumət təşkilatları sağlam va şəffaf ictimai mühitin formalaşmasında yaxından iştirak etməli, həyata keçirilən layihələrin ictimai münasibətlərin və milli dəyərlər, hüquqi prinsiplər müstəvisində qurulmasına zəmin yaradılmalıdır.

## ƏDƏBİYYAT


1. KİV haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2002.
2. Alxan Bayramoğlu. "Müasir jurnalistika: reallıqlar, problemlər, vəzifələr. Azərbaycan Jurnalistikası Qloballaşma dövründə: Qaynaqlar və perspektivə baxış. Respublika elmi – praktik konfransının materialları. Bakı, 21-22 dekabr, 2011. 69-88.
3. Cahangir Məmmədli. Jurnalistikanın müasir inkişaf meylləri.
4. Media Etikası. Bakı, 2008, 274 s.

# SOSİAL İŞ VƏ İQTİSADİYYAT BÖLMƏSİ

***Bölmə rəhbəri - dos. Rəna Məmmədova***

## UĞURSUZ AİLƏ PROBLEMLƏRİNİN HƏLLİNDƏ MƏKTƏBİN VƏ SOSİAL MÜHİTİN ROLU

***Əzizova Həmidə Müşfiq qızı***
*BDU-nun II kurs magistrantı*

Uşaqların sosiallaşmasında, onların cəmiyyəti dərk etmələrində ailənin rolu böyükdür. Ailə fərdlərin şəxsiyyətini formalaşdıran ilk sosial qurum və qrupdur. Ailələr, onların tipləri, ailədaxili münasibətlər fərqli olduğundan hər uşağın formalaşması özünəməxsusdur. Ailədaxili münasibətlər formalaşmada mühüm əhəmiyyət kəsb etdiyindən ailə üzvləri arasındakı mübahisələr şəxsiyyət inkişafı baxımından kritik bir dövrdə olan uşaqlara mənfi təsir göstərə bilər. Kiçik yaşlarından etibarən uşaqların ilkin olaraq təqlid yolu ilə bəzi davranışları öyrəndikləri bizə məlumdur. Valideynlərdə aqressiv davranışlar müşahidə edən uşaqlar öz davranışlarında bunu təkrarlaya bilərlər həmçinin bu hal depressiya və narahatlıq kimi emosional problemlər yarada bilər.

Uğursuz ailələrdə formalaşan uşaqlar bir sıra problemlərlə qarşılaşırlar. Bu problemlər hər yaş dövründə müxtəlif formalarda özünü göstərir. Körpələrdə yuxu pozğunluğu və əqli inkişaf pozğunluğu formasında, məktəblilərdə narahatlıq və davranış problemi formasında, yeniyetmələrdə depressiya, dərslərdə çətinlik və digər ciddi pozğunluqlar formasında biruzə verə bilər. Bundan başqa qeyd etmək lazımdır ki, boşanma hallarının müşahidə olunduğu ailələrdə erkən mərhələlərdə boşanmanın uşaqlara mənfi təsirləri daha böyükdür. Bu dövrdə yaşanan mənfi ekoloji təsirlər səbəbindən uşaqlarda valideynlərini itirmək hissi, tək qalmaq qorxusu bundan başqa boşanmada özlərini günahkar bil-

mə kimi hallar müşahidə edilə bilər. Ümumiyyətlə, boşanmış valideynlərin uşaqlarına vaxtında müvafiq dəstək verilmədikdə, qəzəb problemləri, depresiya, etibarsızlıq, narahatlıq, özünə inamsızlıq və gec ictimailəşmə kimi problemlər yaşayırlar (4).

Urie Bronfenbrennerin ekolojik sistemlər nəzəriyyəsinə əsasən insanın inkişafı bir-birinə bağlı olan bir sıra sistemlərin bir-biri ilə qarşılıqlı əlaqə nəticəsində yaratdığı strukturun təsiri ilə baş verir.Bu sistemlər ən yaxından ən uzağa düzülən beş təbəqədən ibarətdir: mikrosistem, mezosistem, ekosistem, makrosistem və xronosistem (1). Uşaqların şəxsiyyətinin formalaşmasında ətraf mühitin rolu böyükdür. Bir insanın inkişafı həmişə müəyyən bir mühitdə(indi sadaladığımız sistemlərin qarşılıqlı əlaqəsinin təsiri ilə) baş verir. Sosial mühit ünsiyyətliliyin, yəni sosial öyrənmə qabiliyyətinin inkişafına imkan verir. Əsas rolu oynayan mikro mühitdir (ailə, məktəblər, həmyaşıdlar, qruplar), çünki fərdə birbaşa və digər mühitlərə nisbətən daha intensiv təsir edir.

Cəmiyyətdən ayrı bir şəkildə yaşamağın mümkünsüzlüyü obyektiv bir faktdır. Uşaqların mikro mühiti dedikdə ailədən sonra ilkin olaraq məktəb nəzərdə tutulur ki, bu sosial institut uşaqlara təsir edən ən əhəmiyyətli faktorlardan biridir. Erkən yaşlardan etibarən uşaq yeriməyi, danışmağı öyrənsə də, müxtəlif məlumat və vərdişlərə yiyələnsə də,məktəb təlimi alması uşağın həyatında tamamilə yeni bir mərhələ təşkil edir. Məktəblər, uşaqların, ailələrin, pedaqoqların qarşılıqlı əlaqə qurmaq, fikir mübadiləsi aparmaq, öyrənmək, öyrətmək və inkişaf etmək imkanlarına malik olduğu əhəmiyyətli sosial akademik kontekstlərdir.

Məktəbəqədər dövr, kiçik uşaqların həm inkişaf çətinliklərinin öhdəsindən gəlməli olduqları, həm də ətraf mühitlə uyğun davranmağa çalışdıqları ən kritik dövrlərdən biri olsa da, məktəb, uşağın mürəkkəb sosial qarşılıqlı əlaqələrini yaşadığı və emosional, idrak və davranış prosesləri inkişaf etdirdiyi bir sosial mühitdir. Buna görə də, məktəblər müsbət əlaqəli nümunələrin inkişafında və möhkəmlənməsində ailəni tamamlayır və eləcə bəzi ailə problemləri ilə bağlı uşaqlarda yaranmış mənfi xüsu-

siyyətlərin korreksiyasında mühüm rol oynayır.

Risk altında olan və ya sosial və emosional problemi olan uşaqların daxili məhdudiyyətləri və xarici maneələri aşmaq üçün məktəbin böyük faydası vardır. Dəstəkləyici təhsil mühiti davranış problemlərinin həllində, emosional problemlərin aradan qaldırılmasında və akademik qazanc əldə edilməsində nəticə göstərir. Dəstəkləyici təhsil mühiti dedikdə, məktəbin sosial davranışların tənzimləndiyi bir qurum olması nəzərdə tutulur. Davranış tənzimlənməsi yalnız problem davranışlarını dəyişdirməklə əlaqəli deyil, bura uyğun davranışların davamlılığını təmin edən və problemli davranışların meydana gəlməsinə imkan verməyən mühitlərin hazırlanması da daxildir.

Uşaqlar həmyaşıdları ilə oynamaq, dost qazanmaq, qrup halında çalışmaq kimi fəaliyyətlərdə sosial bacarıqları ilə dostları tərəfindən qəbul edilir və bu əlaqəni qorumağa çalışırlar. Dəyərli və etibarlı hiss etdikləri bir mühitdə ixtisaslı müəllimlər tərəfindən dəstəkləndikdə, yeniyetməlik dövründə daha az sosial problemlər ilə qarşılaşırlar. E.Fromun yazdığına görə: "Həyata inamın itməsi, nifrətə səbəb olur. İnsan sübut etməyə çalışır ki, həyat amansızdır bütün insanlar qəddardırlar və sən özün qəddar olmalısan" (3). Bu sözlərə əsaslanıb belə bir fikir irəli sürə bilərik ki, ailələrində daimi mübahisələr olan,uğursuz ailələrdə böyüyən uşaqların həyata qarşı olan inamlarının itməsi onların aqressiv davranışlarının, sosiallaşmamasının,digərləri ilə münasibətdə yaşadıqları problemlərin əsas səbəbidir. Uşaqların Məktəblərin yaratdığı kollektivdə təhsil alma mühiti, qrup halında çalışmaq, yaşıdlarla əlaqələrin genişlənməsi kimi faktorlar uğursuz ailə problemlərinin həllində böyük rol oynayır.

**Ədəbiyyat**

1. Bronfenbrenner, U., & Morris, P. A. The bioecological model of human development. Handbook of child psychology
2. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. – Maarif, Bakı: 1989
3. E. Fromm "İnsan destruktivliyinin anatomiyası"

4. Families: Influences in Children's Development and Behaviour, From Parents and Teachers' Point of View. (Psychology Research December 2012, Vol. 2, No. 12, 693-705)

## YAŞLI İNSANLARIN GƏNC NƏSLİN TƏRBİYƏSİNDƏ ROLU

***f.ü.f.d. Əliyev Rəcəbəli,***
*BDU-nun Sosioloji tədqiqatlar laboratoriyası,*
*baş elmi işçi*

Statistikaya görə, yaş və sağlamlıq vəziyyəti yaşlı insanları tənhalıq qədər ağırlaşdırmır [2]. Usaq şəxsiyyətinin formalaşmasında yaşlı nəslin böyük rolu var. Gənc nəslin tərbiyəsi ailənin əsas vəzifələrindən biridir [1]. Biz söz də deyirik "pis" və ya "yaxşı uşaq", amma pis uşaq olmur, onu düşgün tərbiyə etməkdən asılıdır. Ailə münasibətləri hər şeydən əvvəl uşaqların emosiya və ya hisslərinə təsir göstərir. Uşaqlar yaşı artdıqca ailədaxili münasibətləri daha yaxşı anlayırlar. Böyük uşaqların yanında birinin kiminsə mübahisə etməklə onların tərbiyəsinə, psixologiyasına çox pis təsir edir. Əgər digər insanların öz tərbiyələri ilə əlaqədar xarakterli tədbirlər həyata keçirilsə, onda onlar tərbiyə verməkdə, çəkilməkdə və ya düzgün davranışda özünü idarə edə bilməzlər. Böyüklər öz davranışlarına, danışığına fikir verməlidirlər. Olur ki uşağa sözlə deyirsən, yəni "boyuyə söz dönməyəcəkdir", amma özünün uşaqları böyüklərə söz qaytarırlar. Uşaqlar eşitdiklərindən daha çox gördüklərinə inanirlar.

Valideynlər uşaqların imkan və qabiliyyətlərinin vaxtında üzə çıxarılmasından da əziyyət çəkirlər. Onlar ya tələsir, ya da ki gecikdirirlər. Olur ki uşağın marağı başqa sahəyədir, başqa yerdə tam başqa sahəyə yönəldir. Bu da uğursuz bir gələcəyə yönəldib çıxarılır. Bir oğlan uşağı ele kiçik yaşlarında orta məktəb dərslərini yaxşı oxuyurdu, anası onu fortepianonaya qoyur. Uşağın buna həvəsi yox idi. 5-ci sinifdə məktəbi atır.

Artıq o orta məktəb dərslərində də çox zəifləmişdi, çatdıra bilmirdi. Çox aşağı qiymətlərlə bitirdi. O həyatda heç nəyə sahib ola bilmədi. Bu da yaşlı nəslin öz uşağına qarşı böyük səhv idi.

Başqa bir misal da gətirmək olar. Atası cərrah olan bir həkimin qızı cərrah olmaq istədi. Atası buna imkan vermədi. O dedi ki, "bu çox ağır sənətdir, mən istəmirəm ki, sən mən çəkən əziyyəti çəkəsən". 9-cu sinifdən çıxartdı qızını, Sumqayıtda olan musiqi məktəbinə qoydu. Qız bitirdi musiqi məktəbi, ailə qurdu, amma işləmədi.

Daha bir misal. Ülviyyə adlı qız usagında elə lap kiçik yaşlarından tikiş tikmək böyük həvəsi vardı. Məktəbə getdi, amma oxumağa heç həvəsi yox idi. Ana müəllim yanına belə qoydu, xeyri olmadı. İndi 7-də oxuyur. Ana parça tikələri, rəngli lentlər verir, o da gəlinciklər üçün çox gözəl geyimlər tikir.

Nəsillərarası ailə münasibətlərinin bir növ, təmas forması, qarşılıqlı yardım və yardım ölçüsü olaraq xüsusi bir vahid forması yoxdur [3]. Bununla birlikdə qarşılıqlı nəsillərarası həmrəyliyin normativ prinsipləri mövcuddur. Buna görə valideynlər və uşaqlar bir-birlərinə qayğı göstərməlidirlər. Müasir ailələrdə uşaqlarda düzgün olmayan tərbiyə edilir. Uşağı əmək qayğılarından azad olunur, adi bir işi uşağın əvəzinə ana edir. Belə olanda onlar hətta böyüyəndə ailə qayğılarından da uzaq olurlar. Bir fizika müəlliməsinin 3 oğlu olmuşdur. O, ikinci oğlunu çox ərköyün böyüdüb. Böyük oğula nə alırdısa iki ədəd alınmalı idi. Üçüncü oğul dünyaya gələndə oturub ağladı ki, biz qız istəyirdik. Ele körpəlikdən bu uşağa çox soyuq yanaşdı. Ortancıl oğlu digərlərindən çox seçildi. Əsgərlik zamanı çatanda ortancıl oğlunu Rusiyaya qaçırdı. 16 yaşı tamam olmamış oğlu onun əsgərliyinə aparmağa təklif etdilər və atası buna razı oldu. Balaca oğul dərslərində yaxşı oxuyurdu. Amma ona imkan yaratmadılar. Rusiyada olan ortancıl oğul qoşulur narkomanlara, iynə vurur, pis yollara düşür. Rusiyada uzun müddət həbsxanada yatır. Balaca oğul əsgərlikdən qayıdıb onun-bunun qapısında fəhləlik edir. Ortancıl oğlu həbsxanadan çıxan kimi

Azərbaycana gətirirlər. Amma burada dinc durmur, atasını məcbur edir ki, təqaüd kartını qoysun və qoyub bankdan faizə pul alır və yenə də yoxa çıxır. Təzədən qaçıb gedir Rusiyaya. Ata da mədəsində xərçəng, qalır bu fəhlə övladının öhdəsində. Keçən ilin noyabrından oğuldan xəbər yoxdur. Sonradan məlum olub ki, çox pis vəziyyətdə küçədə səfil həyatı yaşayir. Sirroz, hepapit xəstəliyi tutub, elə ağır vəziyyətdə yasayır.

Uşaqların və yeniyetmələrin inkişafı və sosiallaşma prosesləri müxtəlif kontekstlərdə və situasiyalarda baş verir. Ailə, uşaq bağçası və məktəb, asudə vaxt fəaliyyətləri və media, uşaqlar və böyüklər arasında nəsillərarası münasibətlərin və qarşılıqlı əlaqələrin qurulduğu əhəmiyyətli sahələr və təşkilatlardır. Nəzəriyyə, uşaqların valideynlərlə əlaqələrinin insanların şəxsiyyətinin inkişafı üçün böyük əhəmiyyət kəsb etməsindən qaynaqlanır. Hər şeydən əvvəl, valideyn davranışının üç keyfiyyət xüsusiyyəti vacibdir: etibarlılıq, möhkəmlilik və qarşılıqlılıq (qarşılıqlı yaxın əlaqə və kömək mənasında).

4-cü sinfi bitirən bir şagird riyaziyyatdan hazırlanır. Uşağın anası, nənəsi muəllimədirlər. Bu uşağı ata elə korpəlikdən o qədər ərköyün böyüdüb ki, indi ibtidai sinfi bitirəndən öhdəsindən gəlmir. Ata işdən gələndə uşaq atanın boynunda otururdu, həmişə onu boynunda gəzdirirdi. Ele birinci sinifdən ona çoxlu pul verilirdi. Nə qədər istəsə elə o qədər də verirdilər ya ana, ya ata. Uşaq nə desə mümkün olur onu edirlər. Çox hiperaktiv uşaqdır. 2-ci sinifdə oxuyanda idarə yaxınlıgında olan bir usaq mağazasına girib oradan oyuncaq masinlar, pozanlar ogurlamisdi. Bunu da neçə gün sonra bildilər. Müəllimin hazırlıq dərslərinə gəldiyinə görə uşağa 3-5 m. verərək gətirirlər. Bu kiçik yaşında uşağa ən bahalı telefon, ən bahalı geyim alırlar. Hələ kimdəsə nə iş görəndə deyir ki, "sən necə anasan, onda olandan məndə yoxdur". Anasının əsəbləri pozulub, sonunu, ürəyini müalicə edir.

Qonşumun iki qız övladı var. Onlara elə balaca ikən anası onlara tez ərə getmək lazım oldugunu deyirdi: “Bizim nəsildə

gec ərə gedənə pis baxırlar". Ana özü qızına kim yaxın durur-dusa, onların görüşünü təşkil edirdi. 17 yaşında qız ərə getdi. Ardıcıl iki qızı oldu. Ailədə oğlan davası başladı. Yoxladıb bir oğlan uşağı dünyaya gətirdi. Amma çox keçmədi ki, yola getmədilər. Qızı döydü, qız da evdən qaçdı. Valideynlər boşandılar, arada uşaqlar da bədbəxt oldular.

Yaşlılar ailədə necə yer tuturlar? Burada nəzərə alınmalı məsələlər sırasında yaşlı valideynlər, nənə və babalar, yaşlı insanların cəmiyyətdəki vəziyyəti, nəsillər arasındakı qarşılıqlı əlaqənin məsafəsi və sıxlığı, bir -birlərinə olan ehtiyacları və ümumiyyətlə, insanların qocalığı necə təsəvvür etmələri qeyd etmək lazımdır [4]. Nənə ve babalar var ki, nəvəni çox ərköyün böyüdürlər. Nənə uşağı anasına qarşı öyrədir, özü yola getməyəndə anasından uşağa pis danışır. Ananın haqqı yoxdur ki, öz uşağına nə etməli desin, istədiyini yedirtsin, istədiyini geyindirin. Nənə, baba uşağa söz deməyə qoymur. Tutduğu xoşagəlməz əmələ görə heç bir yazıya almır. Onda onlarda belə fikir formalaşır ki, mənə söz deyən yoxdur, ona hər şey verilə bilər, xətrinə dəyən yoxdur, o nə istəsə edə bilər. Lap qanunu belə poza bilərəm. Nəvaziş və qayğının həddi gozlənməlidir. Uşağı tez-tez yersiz tərifləmək olmaz, onun pis işlərinə göz yummaq qəti olmaz. Şəxsiyyətin formalaşmasında yaşlı nəslin rolu böyükdür. Cevrəsi düzgün olmalıdır uşağın. Deyirlər, analar uşaqlara telefon verib onları pis günə qoyurlar. Hazırkı yasagimiz dövr kompüteri dövrü edir, bu da uşaqlara çox pis təsir edir. Ondan lazımlı-lazımsız istifadə edirik. İndiki uşaqların inanclı olması, gözləri və yaddaşları zəifdir.

Nənənin uzun illər sonra bir oğlan nəvəsi olur. Uşaq tək böyüyür, yəni 10 yaşına kimi evdə uşaq olmur. 10 yaşında bir bacı da dünyada gelir. O nənə bu oğlan nəvəni necə ərköyün boyudursə uşaq dərslərini belə oxumur. Nənə çox çalışır ki uşaq oxusun, amma o oxumur. Vaxtı ilə uşaq balaca olanda anaya imkan verməyib ki, ona düşgün tərbiyə versin. 6-çi sinif şagirdi olan oğlanın valideynləri elə bu uşaq körpə ikən boşanıblar.

Uşaq arasında qalıb, nənə və baba ilə birlikdə böyüyüb. Baba uşağı o qədər pis vərdiş edib ki, alıb telefon verib və gündəlik uşağa pul verir.

Deyir ki baba, " kişinin cibində pul olar". Tez-tez kontur da vurur. İndi o 7-də oxuyur, o dərsdə olanda normal dərs keçmək olmur. Yutuba videolar çəkir atır, dərslərini oxumur. Bir söz də deyəndə gedib babasını çağırır.

Bir ailədə qaynana, qaynata, gəlin, oğul, qız, yəni bibi və 4 uşaq var. Gəlin hansısa dağ kəndindəndir. Ancaq çöl işlərinin işi davam edir. 3 qız, bir oğlan uşağı var. Bibi, nənə bu uşaqları eyni gözəl tərbiyə etdi, böyük qız riyaziyyat-informatika fakültəsində oxuyur, ikinci qız bu il ailə qurdu, digərlərində orta məktəbdə oxuyur. Ana uşaqların heç nəyin maraqlanmır. Təhsili, tərbiyəni nənə və bibi verir. Uşaqlar da bibisini cox istəyirlər. Bütün problemlərini nənə və bibi idarə edir.

Gənc qızla oglan bir-birini sevirlər. Amma millət sohbətinə görə oğlanın anası qızı almır. Qoşulub oğlana qız qaçır. Kirədə qalırlar. Bunların biri qızı və bir oğlu olur. Oğlu anadangəlmə lal olur. Qaynana heç cürə bunları qəbul etmir. Soz- söhbətdən oğlanın əsəbləri pozulur, özünu asır. Qız xəstə uşağı verir qaynanasina, qıza isə öz anası baxır. Qız və anası muəllimədirlər. Qızı nənə o qədər gözəl böyüdür, tərbiyə verir, təhsilinə də fikir verir. Uşaq hələ orta məktəbdədir. Bütün fənlərdən əla qiymətlər alır.

İki gənc ailə qurur. Onların 2 qızı, 1 oğlu olur. Bunlar yola getmirlər. Oğlan vahabi olur. Yoldaşı da bir müddət bağlanır. Yenə də yola getmirlər. Gəlin uşaqları da alıb atasının evinə gedir. Gəlin ibtidai sinif müəllimısidir. Gəlinin atası, yəni uşaqların babası riyaziyyat müəllimidir. Qızına çox böyük dəstək olur. Uşaqları yaxşı hazırlayir. İki bacının bir yaş fərqləri olsa da onlar bir sinifdə oxuyublar. Hər ikisi ali məktəbə qəbul olurlar. Oğlu da keçən il litseyə qəbul olur. Nənə -baba nəvələrini çox gözəl böyüdürlər.

Bütövlükdə nəsillərarası əlaqələr problemi həmişə aktualdır.

Çünki heç kim həyatı nəsillər arasındakı əlaqədən kənarda görmür. Hər bir yaşda insanlar cəmiyyətə inteqrasiya etməlidirlər və hər bir cəmiyyət fərdin həyatının mövcudluğu üçün maddi və mədəni təminatlarla bağlı tələblərin toqquşması ilə müəyyən edilir. Eyni zamanda, hər bir insan, mənşəyindən və statusundan asılı olmayaraq, doğulduğu andan etibarən yaşlı nəsillərdən (valideynlərdən) asılıdır və etibarlı nəsillərarası münasibətlər təcrübəsinin olmaması şəxsiyyətin formalaşması və inkişafını təhdid edir.

**Ədəbiyyat**


1. Ağayev M.H. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. (Dərs vəsaiti). Bakı: 2011. - 178 s.
2. Семья придает уверенности и силы для жизни // https://ir-kobl.ru/sites/society/news/838555/?print=y
3. Прохорова М.В. Взаимодействие поколений в семье и обществе: резюме доклада о поколениях в Швейцарии // Вестник Новгородского Университета, серия: социальные науки, серия 2 (26), с.52-62
4. Вовк Е. Старики в семье: особенности межпоколенческого взаимодействия // "Отечественные записки" №3, 2005,
5. адрес: http://www.strana-oz.ru/?numid=24&article=1071


## ОРГАНИЗАЦИЯ СОЦИАЛЬНОЙ РАБОТЫ С ДЕЗАДАПТИРОВАННЫЫМИ ПОДРОСТКАМИ


***Абдинова Фидан Ильгар кызы***

*магистрант II курс БГУ*

*abdinova.fidan2@mail.ru*


Проблема воспитания подрастающего поколения во все времена было актуальным. Несоответствующее поведение в результате изменения жизненных ценностей, неблагополучные семейные отношения, а также попадание несовершеннолетнего в неблагоприятный круг общения

(скинхеды и т.д.): все это является признаками дезадаптацией у подростков [3, с. 3].

Если рассматривать данную проблематику со стороны родителей, что они могут быть «виновниками» отклоняющего поведения подростка, то нужно обратить внимание на работу с семьями с дезадаптацией. Семейная дезадаптация — это область нарушений, которые имеют тенденцию появиться под воздействием неблагоприятных обстоятельств. К примеру: напряженная семейная атмосфера, подавляющая личность ребенка [4, с. 11]. Для работы с семьями следует составить программу учитывая: отношения подростков и взрослых - понятие, характеристика, классические зарубежные подходы. Родительское отношение: приводит к становлению личности ребенка; имеет двойственный характер; содержит стиль воспитания [4, с. 15- 21].

Однако, если рассматривать проблему с дезадаптацией подростка через воздействие круга общения, то мы можем столкнуться с таким явлением как группировки (криминальное и т.д). Субкультура играет немаловажный фактор в жизни несовершеннолетнего, так как становление самосознания полностью зависит от общекультурной составляющей среды. С одной стороны, быть участником субкультурной группы приводит в норму потребности в коммуникации, содействует к раскрытию себя, и т.д. С иной стороны, сообщества с деструктивной тенденцией отрицательно воздействует на личность несовершеннолетнего. Нередко такого рода объединения формируют ценности и нормы, идущие вразрез с общепризнанной культурой. Таким образом, они утрачивают связь с социумом. Эта тенденция вызывает тягу к возвращению в свое сообщество или же в похожую группу (криминальное сообщество и т.д.) [2, с. 82].

Так же немаловажным фактором является то, что

подросток ощущает себя взрослым. Это чувство становится фундаментом понимания себя, также образа Я. На этой основе проявляется поведение. Оно содержит деструктивные и конструктивные стремления. В результате появления данного стремления обновляется картина мира несовершеннолетнего [1, с. 27].

Можно прийти к выводу, что у трудных детей- трудные семьи. Эффективная работа с семьей «трудного» подростка является залогом успеха деятельности социального работника в преодолении подростковых трудностей социализации.

Есть возможность отметить, что влияние картины мира на поведение подростка включает в себя рефлексивные, феноменологические, социальные, личностно-смысловые компоненты. Именно они определяют отклонения в поведении подростков.

В заключении можно отметить, что родительское отношение и круг общения воздействуют на адаптацию подростка. Не стоит пренебрегать тем или иным фактором. По наблюдениям, родители ставят начало: «как правильно воспринимать этот мир», а после ценности меняются в зависимости от круга общения. Было обозначено, что большинство несовершеннолетних недооценивали тот мир, который себе представляли.

**Литература**

1. Алехин, А.Н., Королева, Н.Н. Смысловые структуры образа мира как внутренние факторы саморазрушающего поведения современных подростков / А.Н. Алехин, Н.Н. Королева // Universum: Вестник Герценовского университета. - 2013. - № 4. - С.99.

2. Материалы международной научной конференции- «Психология субкультуры: феноменология и современные тенденции развития»// конференция проводится при поддержке

гранта РФФИ № 19-013-20140\19, Москва, 2019 г., с. 466.
3. Рыбакова Л.А. Бабынина Т.Ф.- «Дети группы риска: особенности развития, психолого- педагогические технологии работы с детьми группы риска», учеб. пособие; Изд. «Бриг», Казань, 2015 г., с. 200.
4. Шарапановская Е.В.- «Социально-психологическая дезадаптация детей и подростков. Диагностика и коррекция», библиотека практич. психолога; Изд. «Сфера», Москва, 2005 г., с. 160.

# AZƏRBAYCAN RESPUBLİKASINDA ÖLKƏ BAŞÇISININ QƏBUL ETDİYİ SOSİAL YÖNÜMLÜ QANUNLAR VƏ BU QANUNLARIN GÖSTƏRDİYİ QATQILAR

***Hacıyev Elxan Hacı oğlu***
*BDU-nun II kurs magistrantı*
*elxanhaciyev515@gmail.com*

Əhalinin yüksək rifahının təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi olan sosial siyasət mürəkkəb struktura malik olmaqla çoxcəhətli prosesdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərək bütövlükdə cəmiyyətin inkişafı barədə fikir yürütmək olar (2). Müasir dövrümüzdə cəmiyyətin qarşılaşdığı müxtəlif problemlər həmin cəmiyyətin ən kiçik nümayəndəsindən başlayaraq ən yaşlı fərdinə qədər öz mənfi təsirini göstərir. Son bir neçə ildə ölkəmiz də bu cür problemlərin fəsadları ilə qarşılaşmalı olub. Lakin dövlət prioritetlərinin əsası olan sosial siyasət və bu istiqamətdə atılan addımlar ölkəmizin yaranmış vəziyyətdən üzü ağ çıxmasına imkan yaradır.

Sosial siyasət-əhalinin ayrı-ayrı sosial qrupların hayat mənafeinin təmin olunmasına, sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş konkret tədbirlər sistemidir (4). Ölkə əhalisinin rifah halını yaxşılaşdırmaq sosial siyasətin ən başlıca hədəflərindən biridir. Sosial siyasətin qarşısına qoyulmuş məqsədlərə

nail olmaq üçün onun həyata keçirilməsi mexanizminin böyük əhəmiyyəti var.

Qədim dövlətçilik ənənələrimizin bərpasından sonra yaradılan struktur və qəbul olunan düzgün qərarlar lazımi iqtisadi sabitliyə gətirib çıxardı və 30 il ərzində Azərbaycan hər bir sahədə böyük addımlar atmağa laiq oldu. Ölkənin bu potensialını şərtləndirən əsas amil kimi isə dövlət başçısının qəbul etdiyi siyasi, iqtisadi, sosial yönümlü qərarları misal göstərmək olar. Məhz verilən düzgün qərarlar və qəbul olunan qanunlar sayəsində 30 il ərzində əhalinin sosial müdafiəsini və rifahını yaxşılaşdırmaq üçün lazımi infrastruktur, mailiyyə dəstəyi, ciddi inkişaf planı təmin olunur və yerinə yetirilir. Bu günki gündə ölkəmizdə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyi, onun tərkibində və ətrafında birləşən bir çox qurum məhz əhalinin müxtəlif təbəqələrindən olan fərdlərin problemlərini həll etmək üçün çalışır. Əhalinin sosial iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün daima dövlət büdcəsindən maliyə dəstəyi ayrılır. Pandemiya dövründə əhalinin sosial həssas təbəqəsinə müavinətlərin ödənilməsi, müharibə iştirakçılarına sosial, psixoloji, tibbi dəstək verilməsi, son illərdə işsizliyin sayının azalması, həyat səviyyəsinin yüksəlməsi, əmək pensiyalarının və müxtəlif cür müavinətlərin həcminin gözəçarpan dərəcədə artması isə görülən işlərin sadəcə bir qismidir.

Ulu öndər Heydər Əliyevin başladığı sosial islahatlar 2003-cü ildən sonra Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Proqramlarla idarə etmək metoduna üstünlük verən Prezident İlham Əliyevin fərmanları ilə “Regionların sosial iqtisadi inkişafı üzrə dövlət proqramları”, təhsil, səhiyyə, sosial müdafiə, demoqrafik inkişaf, məşgulluq, yoxsulluğun azaldılması, sosial evlər, məcburi köçkünlərin məskunlaşması və s. sahələrdə onlarca proqram qəbul edilib həyata keçirilməkdədir (6). 2019 cu ildə dövlət başçısı tərəfindən 1997- ci ilə qədər şəhid olmuş şəxslərin ailələrinə bir dəfəlik 11.000 azn həcmində müavinətlərin verilməsi haqqında sərəncam im-

zalanır və sərəncamın icrası üçün dövlət büdcəsindən 130 milyon manat vəsait ayrılır. Bunu da qeyd etmək lazımdır ki, ümumilikdə 2019 - cu il ərzində ölkəmizdə 30 a yaxın fərman və sərəncamlar imzalandı və qəbul olunmuş fərman və sərəncamlar ümumilikdə 4.200 min nəfərin həyat səviyyəsinin yüksəlməsinə təsir göstərdi. Həmçinin tədbiq edilmiş sosial siyasət strategiyasının sayəsində 2003 ildən bəri işsizliyin minimuma endirilməsi və əmək haqlarının bir-neçə dəfə qaldırılmasına nail olundu.

Ümumiyyətlə desək sosial sahədə qəbul olunan çoxsaylı qanunlar, verilən sərəncamlar dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Ölkə daxilində olan siyası birliyi və sabitliyi nəzərə aldıqda isə gələcəkdə bu sahədə olan uğurların daha da inkişaf edəcəyini proqnozlaşdırmaq olar

**Ədəbiyyat**


1. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi, Bakı, 2012
2. https://news.milli.az/economy/366308.html
3. http://www.e-qanun.az/framework/23195
4. https://www.sosial.gov.az/
5. http://www.e-qanun.az/framework/11566
6. https://xalqqazeti.com/mobile/az/news/31092


## İŞSİZLİYİN FƏSADLARI


***Kazımova Bənövşə Mübariz qızı***
*BDU-nun II kurs magistrantı*
*banovsha.17@gmail.com*


Müasir dövrümüzdə işsizlik qlobal problem olaraq qalmaqdadır. İlkin vəziyyət şəxsin işini itirilməsiylə meydana çıxır. Və ya şəxs uzun müddət ərzində iş tapa bilmir, müraciət

etdiyi yerlərdən cavab gəlmir. Beləliklə, işsizlik formalaşır. Bu, öz növbəsində insanlara müxtəlif cəhətdən təsir göstərə bilir. Buna görə də biz işsizlik problemini psixoloji, iqtisadi, sosial problem kimi də hesab edə bilərik. Işin itirilməsi ilk başda yalnız gəlirin itirilməsi kimi görünsə də, eyni zamanda güc itkisini (ailə və cəmiyyət içərisində) də ifadə etdiyindən insan və eyni zamanda cəmiyyət üçün bir sıra sosial və psixoloji problemlərə səbəb olmaqdadır [1].

Psixoloji cəhətdən yanaşsaq, onun yaratdığı müxtəlif fəsadları müşahidə edə bilərik. Məsələn, işsizlik insanda özünəinamı zəiflədir, neqativ düşüncələri artırır. Eyni zamanda onda psixoloji sarsıntılara da səbəb olur. Hətta ailədə münasibətlərin kəskinləşməsinə belə gətirib çıxara bilir. Ümumiyyətlə, işsizliyin insana verdiyi ən böyük fəsad psixoloji fəsaddır. Çünki insanda yaranan özünəinamsızlıq onu həyatdan, cəmiyyətdən və eləcə də cəmiyyət üçün çox yararlı ola biləcək bir çox sahələrdən uzaqlaşdırır. Bu insanda ağır depresiyaya, bir çox xəstəliklərin yaranmasına, hətta intihar hallarına belə gətirib çıxara bilər ki, bu da həm cəmiyyət, həm də dövlət üçün problemli bir haldır. İnsanın özünü bir şəxs və fərd kimi görməsi, həyata doğru düşüncə ilə baxması üçün özgüvən vacibdir və özgüvənə, inama təsir edən ən böyük amillərdən biri də insanın hansısa bir uğura imza atmış olmasıdır. Bu da yalnız iş fəaliyyəti ilə mümkündür. Fərd həyatda nəyəsə nail ola biləcəyini görməlidir, yalnız bu yolla onda öz gücünə inam yarana bilər [2].

Bir fərddə özünə inam olmasa bu bir çox böyük fəsadlara və sonda ölümə gətirib çıxara bilər. Qardaş Türkiyyədə edilən bir araşdırmaya görə, 1980-2014-ci illər arasında olan intiharların bir çoxunun başlıca səbəbi işsizlikdən yaranan ağır depresiya olmuşdur [3]. Bu səbəbdən əmək fəaliyyəti psixoloji durumla birbaşa əlaqəlidir. Eyni zamanda işsizlik bir çox ailə münasibətlərinin də dağılma səbəbidir. Ailə institutu istər dünyada, istərsə də Azərbaycanda çox önəm kəsb edir. Sağlam ailə

cəmiyyətdə sağlam yetişən vətəndaşlar deməkdir. Əgər bir ailədə sağlam bir təməl yoxdursa və ya hər hansı bir səbəbdən problemlər yaranırsa, bu, istər ailədə böyüyən körpələrə, istərsə də ailənin bütün fərdlərinə öz təsirini göstərir. İşsizlik ailə institutuna həm gəlir mənbəyinə dəyən ziyan, həm də ailə fərdlərinə dəyən psixoloji ziyan kimi təsir edir. Bir ailənin gəlir mənbəyi azalarsa və ya tamamilə kəsilərsə, o zaman ailə ehtiyacları ödəyə bilməz. Bu ehtiyaclar təhsil, sağlamlıq və ya qida sahəsinə aiddir. Bu da ailədə olan vəziyyəti dəyişir. Ehtiyacları ödənməyən bir ailə üçün yaşamaq çətinləşir və söz-söhbətlər başlayır ki, bu da ailənin dağılmasına gətirir. Belə vəziyyətdə ailə fərdləri də çox böyük zərbə alır. Bu psixoloji fəsadlar bəlkə də, illərlə sağalmayacaq travmalara gətirib çıxarır. Buna görə də hər ailənin fərd sayına, həmin fərdlərin tələbatlarını ödəyəcək məbləğ hesabına uyğun gəlir mənbəyi olmalıdır. Edilən bir araşdırmaya əsasən, 1970-2005 ci illər arasında baş verən boşanmaların başlıca səbəbi işsizlikdir [4].

Dövr getdikcə hər şey dəyişir və asanlaşır. İnsan əməyini artıq müxtəlif cihazlar, robotlar əvəz edir. Bu da insan əməyinə ehtiyacı azaldır və nəticədə də işsizlik sayı artır. İşsizlik sayının artması da iqtisadiyyata mənfi təsir edir. Burada qəribə bir tarazlıq var. Texnologiyanın inkişafı iqtisadiyyatı irəli aparır, ancaq eyni zamanda da insan əməyinə olan tələbatın azalması nəticəsində yaranan işsizlik isə eyni dərəcədə ziyan vurur. İşsizlik artdıqca əhalinin ehtiyacları ödənmir. Bu dövlətin əhaliyə etdiyi sosial yardım sayını artırır. Eyni zamanda gəliri az olan əhali artıq bir çox vasitələrdən istifadə etməməyə başlayır. Nəticədə istehsal olunan məhsulların alıcısı azalır. Bu, məhsulu satan mağazalara və hazırlayan fabrik, zavodlara mənfi təsir edir. Bütün bunlar birbaşa iqtisadiyyatla bağlı olduğu üçün iqtisadiyyatda geriləmə baş verir. Buna çarə yeni iş yerlərinin açılmasıdır. Lakin bu yol da ya məsələni tam həll etmir, ya da texnika ilə daha rahat və tez emal olunan bir çox məhsulların gec istehsalına gətirib çıxarır. İxtisaslı kadrlara hər bir

dövlət və özəl sektorda ehtiyac var, bu sözsüzdür. Lakin qeyri-ixtisaslı kadrlara ehtiyac azalır və bu səbəbdən ölkəmizdə və dünyada işsizlik baş verir. 2018-ci ildə edilən bir araşdırmaya görə, ölkəmizdə işsizlik sayı 5% dir. Bunu prezidentimiz İlham Əliyevdə Devasda etdiyi çıxışında qeyd edib. Lakin müstəqil ekspertlər bu rəqəmin 5.4% faiz olduğunu qeyd ediblər [5]. Bununla belə, vurğulamaq lazımdır ki, Azərbaycanda işsizlik və işsiz sayı digər dünya ölkələrinə nisbətən azdır. Bu bir tərəfdən ürəkaçan olsa da, bizi 5% olan əhali narahat edir və dövlətimiz bu sahədə də uğurlu addımlar atamağa davam edir. İşsizliyin azaldılması sahəsində planlı şəkildə işlər aparılır. 2020-ci ildən həyatımıza gələn Covid-19 virusu dünya iqtisadiyyatına mənfi təsirlərini göstərir, lakin getdikcə bu fəsadlara qarşı tədbirlər görmək dövlətlərin və iqtisadçıların əsas amalına çevrilmişdir.

İnsan bioloji varlıq olmaqla bərabər, eyni zamanda sosial da varlıqdır. İqtisadi, psixoloji hər hansı bir fəsad sosial rifahı dərindən sarsıdır. İşsizlik də həmçinin. Əgər bir fərd işsizdirsə, başda sadaladığımız bir çox psixoloji problemlərə sahib olur. Düzgün psixoloji vəziyyəti olmayan hər bir fərdin sosial varlıq kimi cəmiyyət həyatında iştirakı zəifləyir. Getdikcə cəmiyyətdən uzaqlaşır və cəmiyyət bir nümayəndəsini itirmiş olur. Bir əslində kiçik bir rəqəmdir. Lakin cəmiyyətdən uzaqlaşan və hətta gedən fərdin yaratdığı fəsadlar isə böyüdür. Bir fərdin geriləməsi ilə ona doğma olan bir çox fərdlərin sosial həyatda aktivliyi azalır. Sosial sistem o qədər mürəkkəbdir ki, onu bir "zəncirə" bənzətmək olar. Əgər zəncirin bir halqası olmasa və ya qırılsa, bu avtomatik olaraq ən birinci yaxın halqalara və getdikcə də uzaq halqalara ziyan verir. Nəticədə sosial sistem pozulur. Sosial sistemin pozulması dövlət üçün də problemlər yaradır.

İşsizlik artdıqca cəmiyyətin dövlətə olan inamı da azalır və nəticədə hesab olunmayacaq dərəcdə çox böyük problemlər yaranır. Cəmiyyətin hər bir fərdi dəyərli və ayrılmazdır. Birinin geriləməsi digərinin inkişafına mənfi təsir göstərir. İşsizliyin yaratdığı fəsadlar saymala bitməz. Çünki işsiz qalan bir fərddir,

şəxsiyyət və ən əsası, vətəndaşdır. Hansı ölkəyə mənsub olmağından asılı olmayaraq, əgər bir vətəndaş istədiyi həyat standartlarını öz ölkəsində yarada bilmirsə, onun ölkədən getməsi və başqa ölkədə immiqrasiya etməsi təbiidir. Bu çıxış yolu kimi görünə bilər, ancaq bir çox hallarda ölkələrini tərk edib gedən immiqrantları gözləyən tale çox acı sonla nəticələnə bilir. Belə hadisələrlə rastlaşan cəmiyyətin dövlətinə inamı, iqtisadiyyatı, xüsusilə də, düşüncəsi zədələnir. Bir cəmiyyəti ayaqda saxlayan onun sağlam düşüncəsidir. Dövlətə inamı olmayan cəmiyyət, özünəinamı olmayan insan kimi əvvəl depresiyaya düşür, sonra isə intihar edir. Biz işsizliyi inamsızlıq, dövləti özünəinam və cəmiyyəti insan kimi görsək, bu sistemi modelləşdirmiş olarıq ki, beləcə işsizliyin fəsadlarını açıq və acı bir şəkildə görmüş olarıq. Bu sahədə hər birimiz bir vətəndaş kimi hüquqlarımızı bilməli və əlimizdən gələni etməliyik.

**Ədəbiyyat**


1. https://banker.az/issizliyin-sosial-iqtisadi-və-psixolji-təsirləri/
2.Psixoloq Jalə Qarayevanın müsahibəsi
3.İşsizlik ve intihar ilişkisi:1980-2014
4.İşsizlik ve boşanma ilişkisi:1970-2005
5.Cəmilə Həsənova, İlkin Həsənov- 2018 24 oktyabr, BBS News Xəbər


## SOSİAL SİYASƏT SİSTEMİNİN TARİXİ İNKİŞAFI


***Məmmədli Elvin Xətai oğlu***
*BDU-nun II kurs magistrantı*
*lvn077@bk.ru*


Müasir bir dövlətin ən vacib funksiyalarından biri insanın fəaliyyəti üçün şəraitin yaradılmasına, onun intellektual və peşəkar potensialının reallaşmasına və inkişafına yönəlmiş sosial siyasətin hazırlanması və həyata keçirilməsidir. Sosial siyasət

problemləri sosial elmlərin müxtəlif sahələrinin mütəxəssisləri-nin - iqtisadçıların, sosioloqların, politoloqların diqqət mərkə-zindədir. Ölkəmizdə dövlətin və müəssisələrin sosial siyasəti ilə bağlı bir çox araşdırmalar var. Ancaq politologiya mövqelə-rindən yazılan əsərlər hələ də kifayət qədər aydın deyil. Bu, əsasən, sosial dövlətin və sosial siyasətin problemlərinin uzun müddət ölkəmizdə iqtisadi və inzibati olması ilə bağlıdır. Qərbi Avropa, ABŞ və Kanadada isə bu hər şeydən əvvəl siyasi və sosioloji elmlərin maraq mövzusudur. Sosial siyasətin işlənib hazırlanması və həyata keçirilməsi üzrə fəaliyyət yalnız o halda məhsuldar olacaq ki, bütün səviyyələr məqsəd və vasitələrin vəhdətində işləsin, hər səviyyə üçün səlahiyyət və vəzifələrin strukturlaşdırılması ardıcıl sistemin yaradılması ilə razılaşdırıl-sın və hər zaman sosial siyasətin mürəkkəbliyi nəzərə alınsın. Tarixi bir fenomen olaraq sosial siyasət çox əvvəllər mövcud olmayıb, iyirminci əsrin, hətta ikinci yarısında ortaya çıxdığına dair geniş yayılmış bir fikir mövcuddur. Tezis bu fenomenin inkişafının təkamülünə həsr olunmuşdur.

Açar sözlər: sosial siyasət, sosial siyasətin tarixi, sistem, təkmilləşdirmə, heyət, işçilər, sosial siyasətə yanaşmalar, sosial siyasətin formalaşdırılması.

Müasir cəmiyyətin əhəmiyyətli maraq dairəsi və müasir bir dövlətin ən önəmli fəaliyyətlərindən biri sosial siyasətdir. Sosi-al siyasət cəmiyyətin inkişaf səviyyəsiylə, mentalitetiylə, cə-miyyətin öz sosial inkişafında qarşına qoyduğu məqsəd və və-zifələrlə yaxından əlaqəlidir.

Bir çox elm adamları qədimdən bəri insan və cəmiyyət, və-təndaş və dövlət arasında olan münasibətlər haqqında araşdır-malar etmişlərdir. Sosial problemlər haqqında araşdırmalar edən ilk alimlər arasında Platon və Aristotel də yer alır. Platon "Dövlət" əsərində hər bir dövlətdə əmək bölgüsü zəruridir və hər kəs öz işi ilə məşğul olmalı, digərlərinin işinə qarışmamalı-dır kimi fikirlər bildirmişdir. Onun fikrincə dövlət də 3 zümrə-dən ibarət olmalıdır: müdrik hökmdarlar, cəsur sərkərdələr,

zəhmətkeş sənətkarkar və əkinçilər. Aristotel insanı "siyasi heyvan" adlandırırdı və onun sosial rolundan bəhs edirdi. Aristotel "Siyasət" əsərində cəmiyyət və dövlətlə bağlı fikirlərini geniş şəkildə ifadə etmişdir. O, Platonun ideal dövlət haqqında təlimini tənqid etmişdir. Onun fikrincə: "Dövlətin başlıca məqsədi xeyrin və ədalətin qurulmasıdır və orada olan hər şey bu məqsəd üçün mövcuddur". [2] Aristotel dövlət quruluşu kimi sosial məsələlərin həllini də cəmiyyətin o dövrdəki sosial quruluşunun mahiyyəti ilə əlaqələndirirdi.

İngilis sosioloqları N. Manninq və C.Şua sosial siyasətin formalaşmasının ilkin şərtlərini eramızın I minilliyinin ikinci yarısında Roma İmperiyası ilə əlaqələndirirlər. Roma imperiyasının süqutu ölkənin şərqdə bir çox şəhərdə yoxsulluğun ortaya çıxmasına gətirib çıxartdı. Yoxsulluğun səbəbləri indiki dövrdə mövcud olanlara bənzəyirdi - işsizlik, müxtəlif xəstəliklər, qıtlığa səbəb olan inflyasiya, ailələrdə dəstək olmaması. Hətta o zaman da kasıblara kömək edilirdi: monastırlar sosial yardım mərkəzlərinə çevrilmiş, xeyriyyə tədbirləri kilsədə baş tuturdu.

II minillik (X əsr) ərəfəsində Avropa ölkələrinin sosial inkişaf ideologiyası ictimai təşkilatın iki əsas növünün - kilsə və dövlətin təsiri altında formalaşmışdır. Tədricən kilsənin gücü və təsiri artdı. Təhsil və tərbiyə, yoxsulları sığınacaq və yeməklə təmin etmək funksiyaları monastır sisteminə həvalə edildi. Beləliklə, təhsil, səhiyyə, mənzil təminatı və sosial müdafiə bir yerdə cəmləndi [1].

Bundan başqa, N.Manninq və C.Şua qeyd edirlər ki, həmin dövrdə sosial siyasətin inkişafına nisbətən təsir edən sabit krallıqlar var idi və bu krallıqlar yoxsullara münasibətdə monastırlara oxşar funksiyaları yerinə yetirirdilər.

Kənd təsərrüfatının yüksəlişi ilə kasıbların vəziyyəti dəyişmədi, yaxşılaşmadı. Yalnız XVII əsrdə bəzi ölkələr iqtisadi inkişafa təkan verdilər. O dövrdə ən sürətlə inkişaf edən iqtisadiyyat İngiltərədə idi. Sənaye inqilabı əhalinin sahələrdən fabriklərə axışmasına gətirib çıxardı. Lakin inflyasiya səbəbindən

işçilərin əmək haqqları qiymətlərin qalxması ilə ayaqlaşa bilmirdi və bu, narazılıq və sosial gərginliyin artmasına səbəb oldu. İğtişaşların aradan qaldırılması məqsədilə dövlət əhalinin sosial problemlərinə diqqət yetirmiş, yoxsullara qayğı göstərmişdir və bu, tədricən dövlətin fəaliyyət sahəsinə çevrilmişdir.

XVIII əsrin sonunda milli dövlətlərin yaranması ilə xalqların təhsili yüksəlməyə başladı və bu da sosial siyasətin inkişafını təmin etdi.

XIX əsrin əvvəllərində sənaye cəmiyyətinin formalaşması ilə sosial problemlərin həllinə yönəlmiş sosial siyasətin formalaşması üçün uyğun şərait yaranmışdır. İngilis alimi S. Milerin "Sosial siyasətin inkişafı" əsərində söylədiyi fikirlərə görə, dövlət müasir sosial siyasətin və onun mərkəzlərinin inkişafında bacarıq və tələbkarlığa nail olmuşdur [1].

Urbanizasiyanın inkişafı ilə əlaqədar bir çox problemlər ortaya çıxdı ki, bu da təcili həll tələb edirdi. Lakin islahatçılar üçün bu çətin idi, çünki hakim yuxarı orqan gəlirin bir hissəsini bölüşmək və ehtiyacı olanlara cüzi də olsa, sosial dəstək üçün vergi şəklində ayırmaq istəmirdi.

İşçi hərəkatının təsiri altında bəzi Avropa dövlətləri işçilərin iş şəraiti və yaşayış şəraiti haqqında qanunlar qəbul etməklə sosial manevr siyasətinə keçməyə başladılar, beləliklə sosial qanunvericilik ortaya çıxdı. 1834-cü ildə Edvin Çadvikin (1800-1890) köməyi ilə yoxsullar haqqında qanun qəbul edildi. Bu qanun 1601-ci ildə qəbul olunmuş, lakin zaman keçdikcə öz aktuallığını itirmişdir. O illərdə "iş evləri"geniş yayılmışdır. Bir çox zərbələrdən və məhkəmə proseslərindən sonra, 1871-da İngilis parlamenti həmkarlar ittifaqlarının mövcudluğunu qanuni şəkildə tanımağa razılaşdı.

1890-cı ildə Berlində 14 fərqli ölkədən olan nümayəndələr bir çox ölkələrin milli əmək qanunvericiliyinə böyük təsir göstərən təkliflər hazırladılar. 1897-ci ildə Sürixdə keçirilən konqresdə 16 ölkənin nümayəndələri işçilərin müdafiəsinə yönəlmiş proqram qəbul etdilər. Paris konfransında isə Əməyin Mühafi-

zəsi üzrə Beynəlxalq Assosiasiya yaradılmışdır (1900).

1919-cu ildə məşğulluq, əməyin təşkili və ödənilməsi məsələlərini əhatə edən Beynəlxalq Əmək Təşkilatının yaradılması və eyni ildə Parisdə və Vaşinqtonda iki beynəlxalq konfransın keçirilməsi ilə əlaqədar olaraq sosial siyasət və sosial iş beynəlxalq xarakter aldı. Paris Sülh Konfransında Versal müqaviləsinə daxil olan bir sənəd və daha sonra isə BƏT konstitusiyası qəbul edildi. Vaşinqtonda keçirilən ilk Beynəlxalq Əmək Konfransında (1919) altı konvensiya qəbul edildi: bunlardan birincisi iş vaxtını gündə 8 saat və həftədə 48 saat ilə məhdudlaşdırılması idi. BƏT-in təsis edilməsi ilə eyni vaxtda sosial və qəyyumluq təşkilatları yaradılır. Məsələn Sosial Qayğı üzrə Beynəlxalq Konfrans, Sosial Xidmət Məktəbləri Beynəlxalq Komitəsi və Sosial İşçilərin Beynəlxalq Katibliyi [3].

Müasir sosial siyasətin əsasını təşkil edən əsas prinsiplər dünya birliyi tərəfindən tanınmış bir sıra sənədlərdə, o cümlədən BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948); Beynəlxalq əmək Təşkilatının konvensiyaları və tövsiyələri; 1995-ci ildə Kopenhagen Sosial Sammitində qəbul edilmiş bəyannamə və fəaliyyət proqramı ilə müəyyən edilir.

Beləliklə, XX əsrin ikinci yarısında Qərbi Avropa ölkələri müəyyən dərəcədə sosial dövlətin modelini həyata keçirə bildilər [4].

Hal -hazırda sosial siyasətin bir çox tərifi var. Onlardan bəzilərinə nəzər salaq:

✓ Sosial siyasət- dövlət idarəçiliyi orqanları və digər ictimai-siyasi qurumlar tərəfindən dövlətin sosial strategiyasının cəmiyyətin inkişaf mərhələsində formalaşdırıl-masına, cəmiyyətin imkanlarının və tələbatlarının reallaşması üçün sosial şərait yaradılmasına yönəlmiş qərarların məcmusudur [1].

✓ Sosial siyasət - sosial inkişaf və sosial təminat sahəsində siyasət; müəyyən sosial qrupların keyfiyyətinin və həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş dövlət tədbirləri sistemidir. Bundan başqa, sosial siyasət tarixi, iqtisadi, sosial, sosial-hüquqi və sosioloji Obyektlər də daxil olmaqla məsələlərin

öyrənilməsi sahəsini, həmçinin sosial məsələlər sahəsində səbəb-nəticə əlaqələrinin ekspertizasını əhatə edir [5].

✓ Sosial siyasət- sosial proqramlar və praktika vasitəsilə reallaşan və əhalinin əsas sosial qruplarının maraqları naminə cəmiyyətdə münasibətləri tənzimləyən dövlətin daxili siyasətinin tərkib hissəsidir [7].

Sosial siyasət geniş mənada cəmiyyət üzvlərinin həyatının bütün sahələrinə (mallarla, mənzillə və iş yerləri ilə təminat və s.) təsir edən qərarlar və tədbirləri əhatə edir.

XX əsrdə dünyada sosial siyasətin müxtəlif proqram və modelləri şəkildə formalaşmışdır. Onların arasında İsveç və Norveç, Almaniya və Fransa, İngiltərə və ABŞ, SSRİ və s. modelləri var. Onların praktiki həyata keçirilməsi siyasi sistemdən, iqtisadi inkişaf səviyyəsindən, tarixi və bir sıra digər amillərdən asılıdır. Lakin, dünyanın müxtəlif ölkələrində sosial siyasətdə fərqlərə baxmayaraq, iki əsas yanaşma mövcuddur [6]:

➢ Dövlət paternalizmi. Bu yanaşma aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

Dövlət vətəndaşların sosial təminatı səviyyəsinə və onların gəlir səviyyəsinə görə tam məsuliyyəti öz üzərinə götürür, sosial siyasətlə bağlı bütün xərclərin dövlət mənbələrindən maliyyələşdirir. Bu yanaşmanın üstünlüyü ondan ibarətdir ki, əhalinin böyük hissəsi üçün "gələcəyə inam" var, malların qiymətləri sabit, işsizlik istisnadır. Mənfi tərəfi isə mal və xidmətlərin çatışmazlığıdır. Bu yanaşmada dövlət özəl sektorun iqtisadi fəaliyyətinin əhəmiyyətli dərəcədə inkişafına imkan vermir.

➢ Sosial siyasətə liberal yanaşma.

Bu yanaşmanın əsas prinsipi cəmiyyət üzvlərinin iqtisadi cəhətdən güclü və iqtisadi cəhətdən zəif olanlara bölünməsidir. Cəmiyyətin vəzifəsi zəiflərə qayğı göstərmək və güclülərin iqtisadi potensialının inkişafı üçün şərait yaratmaqdır. Cəmiyyətin bütün üzvlərinin bacarıqlarını ortaya çıxarmaq bu yanaşmanın üstünlüyüdür. Mənfi tərəfi isə əhalinin müxtəlif qruplarına verilən sosial ödənişlərin fərqli olmasıdır.

Sosial siyasət, məzmununa, inkişaf və həyata keçirilmə for-

malarına və metodlarına olan tələblərin mahiyyətini ifadə edən prinsiplər sisteminə əsaslanır [8]:

– humanizm və sosial ədalət;

– ardıcıllıq və davamlılıq;

- aydınlıq;

- sosial siyasətin işlənib hazırlanması və həyata keçirilməsində demokratizim;

- sosial siyasətin həyata keçirilməsinə cəmiyyətin ciddi nəzarəti;

- əhalinin sosial müdafiəsi tədbirlərinin ünvanlı olması.

Dövlətin sosial siyasəti dövlət sosial təminat proqramları və sosial xidmət sistemləri vasitəsilə həyata keçirilir [9].

Sosial siyasət, insanların yalnız obyektiv hallar üzündən əldə edə bilmədikləri ehtiyaclarının ödənilməsini təmin edir. İnsanların təkbaşına təmin edə biləcəyi ehtiyaclara gəldikdə, sosial siyasətin rolu insanların problemlərini həll etmələrinə imkan verən əlverişli şərait yaratmaqdır. Sağlam və əmək qabiliyyətli insanlar əsas ehtiyaclarını ödəmək üçün məqbul bir yolla pul qazanmalı və bütün bunların cəmiyyət tərəfindən sosial siyasətlə veriləcəyinə inanmamalıdırlar [10].

Dövlətin sosial siyasətinin iqtisadi əsası dövlət büdcəsi vasitəsilə əhalinin fərdi gəlirlərinin yenidən bölüşdürülməsidir. Əhalinin gəlirinin vergilər şəklində geri çəkilən hissəsi dövlət tərəfindən müxtəlif sosial proqramlar çərçivəsində nağd ödənişlər şəklində qismən əhaliyə qaytarılır. Dövlətin sosial siyasəti nəticəsində, gəlir səviyyəsindəki fərqlər azalır, çünki şəxsi gəlirlərin əhalinin daha varlı təbəqələrindən daha az imkanlı əhaliyə (pensiyaçılar, xəstələr, əlillər) bölüşdürülməsi prosesi həyata keçirilir [11].

Beləliklə, yuxarıdakıları yekunlaşdıraraq qeyd etmək lazımdır ki, cəmiyyətdə sosial siyasətin mənası həm sosial qruplar arasında, həm də onların daxilində münasibətləri qoruyub saxlamaq, cəmiyyət üzvlərinin rifah halının, həyat səviyyəsinin yüksəldilməsi üçün şərait yaratmaq, sosial istehsalda iştirak üçün iqtisadi stimulların formalaşmasında sosial təminatların

yaradılmasıdır.

**Ədəbiyyat**

1. Smirnov S. N., Sidorina T. Yu. Sotsial'naya poli-tika: ucheb. posobiye. M.: Izdatel'skij dom GU VShE, 2004.
2. Aristotel'. Politika. Afinskaya politika. M: Mysl', 1997.
3. Moshnyaga V. P. Mezhdunarodnyj opyt sotsial'noj politiki i sotsial'noj raboty: kurs lektsij, M: Moskovskogo gumanitarnogo universiteta, 2006.
4. Ivanova Ye. Yu. Analiz opyta primeneniya sotsiologicheskogo obespecheniya deyatel'nosti admin-istratsii goroda Tambova v praktike upravleniya // Sotsi-al'no-ekonomicheskiye yavleniya i protsessy. Tambov, 2012. № 5-6. S. 54-59.
5. Vikipediya – svobodnaya entsiklopediya URL: http://ru.wikipedia.org
6. Sotsial'noye gosudarstvo. Kratkij slovar'-spravochnik, Moskva, 2002.
7. Kholostova Ye. I., Sorvina A. S. Sotsial'naya rab-ota: teoriya i praktika. M.: INFRA-M, 2004.
8. Sharonov A., Il'in I. Formirovaniye sistemy gosu-darstvennykh minimal'nykh sotsial'nykh standartov // Ekonomist. 1999. № 1.
9. Chepurin M. N., Kiseleva Ye. A. Kurs ekonomicheskoj teorii. Kirov: ASA, 1994.
10. Golubeva L. F. Sotsial'nyj menedzhment. Tambov: Izdatel'stvo Pershina R. V., 2008.
11. Peshekhonov Yu. V., Vodop'yanov S. V. Sov-remennye problemy finansirovaniya sotsial'noj sfery // Fi-nansy. 2001. № 3.

# AİLƏ İNSTİTUTUNDA Z NƏSLİNƏ MÜNASİBƏT

***Məmmədova Lamiyə***
*ADMİU-nun II kurs magistrantı*
*lamiya.mammadova.f@admiu.edu.az*

Müasir dövrümüzdə ailə ən çox dəyişən və formalaşan qurumlardan biridir. Ənənəvi cəmiyyət quruluşundan sənaye cəmiyyətinə keçidlə başlayan bu dəyişiklik prosesi ailənin əsrlər boyu üzərinə götürdüyü bir çox funksiyanı itirməsinə səbəb ol-

du. İlk baxışdan ailənin yükünü azaldacağı düşünülən bu vəziyyət onu böhranla üz-üzə qoymuşdur. Bu böhran zaman keçdikcə yaşanan sosial və iqtisadi dəyişikliklərlə birlikdə daha da dərinləşdi və nəsillər arasında münaqişələrin artmasına səbəb oldu.

Z nəsli üzərində aparılan tədqiqatlar zamanı iki önəmli nəticədən danışmaq mümkündür. Birincisi, ailə institutunun bütövlükdə ənənəvi kimliyini, sosial vərdişlərini bəsləyən quruluşunu qorumasının artıq mümkün olmadığını və ailəyə bu cür münasibət bəslənməsinin doğru yanaşma olmamasıdır. İkincisi isə ailə üzvləri arasında mövcud olan və tərbiyə nəticəsində yaranan fərqlilikləri ailə münasibətlərində münaqişə mövzusuna çevirməmək, xüsusən də valideynlərin uşaqlarını öz tərbiyə şərtlərinə görə mühakimə etməsinin doğru qəbul edilməməsidir.

Tədqiqatlar göstərir ki, Z nəsli ailədaxili münaqişələrdə valideynlərini günahlandırır və valideynlərinin onların şəxsi həyatlarına müdaxilə etmələrini sevmədiklərini bildirirlər. Gənclərə görə, valideynlər uşaqlarını özlərinə bənzəməyə, özləri kimi düşünməyə və davranmağa məcbur edirlər. Bu isə öz növbəsində ailə münaqişələrinin yaranmasına və Z nəslinin ailə bağlarının zədələnməsi ilə nəticələnir.

Z nəsli arasında ən çox yayılan şikayət valideynlərin şəxsi həyatlarında iştirak etmələri və nə etmələri barədə daim təlimat vermələridir. Bu cür münasibət və davranışlar qarşısında gənclərin ən çox dilə gətirdikləri ifadələr “darıxıram”, “nəfəs ala bilmirəm”, “bezirəm”, “stressə girirəm” tərzində olur. Bu ifadələr, eyni zamanda, Z nəslinin şəxsi azadlıqlarını nə qədər sevdiklərini, valideynləri belə olsa bu mövzularda onlara yönələn tənqidlərə nə qədər qapalı olduqlarını göstərir. Buna görə də, qarşımızda X nəslindən çox fərqli düşünən və davranan yeni bir nəslin olduğunu söyləmək mümkündür. Bu fərqləndirici məqamlamlardan biri də Z nəslinin gündəlik həyatın çətinliklərinə qarşı mübarizə aparmaması, problemlər qarşısında tez nəticə əldə etməyə çalışmaları, səbirsiz olmaları, valideynlərinin

dünyagörüşünü və həyat tərzlərini sevməmələridir. Z nəsli nəzəri cəhətdən idealist olsalar da, praktikada realist davranmırlar. Onlar başqalarının həyatlarına müdaxilə etməsini, tənqid və nəzarəti qəbul edə bilmirlər.

Bu nəsil başda qohumluq münasibətləri olmaqla ailə üzvləri ilə ünsiyyət yaratmaq, ailə dəyərlərinə fikir vermək və ailə böyüklərinə hörmət etmək kimi problemlərlə qarşılaşırlar. Onlar ailələri tərəfindən tez-tez tənqid edildiklərini, yaşadıqları təzyiqlərə görə valideynləri ilə mübahisə etməli olduqlarını və valideynlərinin ailə münasibətlərində empatiya qura bilmədiklərini ifadə edirlər. S. Gürbüzün 2015-ci ildə nəşr olunan "Nəsil fərqlilikləri: mif yoxsa gerçək?" adlı məqaləsində qeyd olunan statistika göstərir ki, Z nəslində hər 16 gəncdən 11-i ailələri ilə yaşadıqları problemlərin əsas səbəbini valideynlərinin ünsiyyətə qapalı olan, övladlarından daima itaət tələb edən və yenilikləri qəbul etməyən ənənəvi dünyagörüşünə sahib olduğunu vurğulayırlar (3, s.39-45).

Ailədaxili münasibətlərdə əsas münaqişə mövzularından biri "təhsil məsələləri"dir. Bu kimi problemlərin kökünə endiyimiz zaman görürük ki, valideynlər təhsili, xüsusilə də, ali təhsili qurtuluş, çıxış yolu olaraq qəbul edir. Ailələr çətinliklə oxutduqları övladlarına böyük gözləntilərlə yanaşır, universiteti yalnız təlim-təhsil yeri olaraq deyil, gələcək karyeraları üçün zəmin olaraq görürlər. Bu da öz növbəsində gənclərin daha çox gəlirli sahələrə yönəldilmələrinə gətirib çıxarır. Gənclər maraq dairələrinə uyğun peşəni deyil də, valideynlərinin onlar üçün seçdiklərə peşələrə yönəlməyə məcbur olurlar. Bu, rahatlığa, tez əldə etməyə meyilli olan Z nəsli ilə onların valideynləri arasında münaqişələrin yaranmasına səbəb olur.

Araşdırmalar zamanı məlum olur ki, gənclər ailələrinin təklif, tövsiyə və bələdçiliyinə məruz qalır və əvvəlki nəsillərlə müqayisədə azadlıq həvəskarı olan Z nəsli bununla ayaqlaşa bilmir. Z nəsli ailəni gizli bələdçi kimi görür və gələcək həyatlarında onların təkidlərindən xilas olmağa çalışır. Ailə münasi-

bətlərində valideynlərin avtoritar rolunu mənimsəməsi və buna qarşılıq olaraq gənclərin liberal çıxışları ziddiyyətləri daha da artırır. Tez-tez qarşılaşdığımız bu problemlərin əsas səbəbi valideynlərlə övladlar arasında ünsiyyətin olmamasıdır. Ünsiyyətin olmaması ailə üzvləri arasındakı münasibəti zədələyir və nəsil konfliktlərinin yaranmasına səbəb olur. Buna görə də valideynlər və gənclər empatiya qurmağı bacarmalı, bir-birini dinləməli və fikirlərinə hörmət edərək, vahid yol tapmalıdırlar.

## ƏDƏBİYYAT


1. Azərbaycanda ailə institutu: mövcud vəziyyət və çağırışlar mövzusunda tədqiqat, 2018, 41 s.
2. Gillies V. Family and Intimate Relationships: A Revies of the Sociological Research. London: South Bank University Press.
3. Gürbüz, S. (2015). Kuşak Farklılıkları: Mit mi, Gerçek mi? İş ve İnsan Dergisi, 2(1), 39-57.url: https://dergipark.org.tr/tr/download/article-file/359260
4. Hüseynzadə R, Allahverdiyeva L. Ailə pedaqogikası. Bakı, 2016, 333s.


# ÖVLADLIĞA VERİLMƏ MEXANİZMİ VƏ SOSİAL İŞÇİNİN BU PROSESDƏ ROLU


***Əsgərzadə Mədinə Ehtibar qızı***
*BDU-nun II kurs magistrantı*
*m.asgarzade@yandex.com*


Övladlığa götürmə bir institut kimi, gələcəyin təminatı olan uşaqların hüquq və mənafelərinin qorunması sahəsində çox mühim əhəmiyyət daşıyır. Övladlığa götürmə prosesi valideyn olma arzusunda olan şəxsin (şəxslərin) valideynləri olmayan və ya valideyn himayəsindən məhrum olan uşaqları dövlətin nəzarəti altında məhkəməyə ərizəylə müraciət etməsi nəticəsində həyata keçir. Övladlığa götürmə iki şəkildə olur:

1) Valideynləri və ya valideynlərindən biri olan uşağın övladlığa götürülməsi. Bu cür övladlığa götürmə əsasən tanışlıq qaydasında,yaxın və ya uzaq qohum, qonşu, iş yoldaşı və.s yolla tanıdığı şəxsə (şəxslərə) valideynin (hər ikisi sağ olduqda valideynlərin) öz razılıqları ilə uşağın övladlığa verilməsi

2) Valideynləri olmayan uşağın övladlığa götürülməsi. Bu halda namizəd valideynlər valideyn himayəsindən məhrum olan uşaqları övladlığa götürmək üçün müvafiq qurumlara üz tuturlar.

Namizəd valideynlərdən valideynləri olmayan və ya valideyn himayəsindən məhrum olan uşağı övladlığa götürmək üçün bir sıra sənədlər tələb olunur.Bəzi hallarda sənədlərin çoxluğu övladlığa uşaq götürmək arzusunda olan valideynləri narahat etsə də,əminliklə deyə bilərik ki, digər ölkələrlə müqayisədə bu sənədlərin sayı Azərbaycanda daha azdır. Bu sənədlərin hər biri uşağın mənafeyi və tamamlanacaq ailənin düzgün zəmində qurulması üçün düşünülmüş şəkildə tələb olunur. Çünki heç bir halda müəyyən xəstəliyi olan və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunan şəxslərin uşağın hərtərəfli inkişafına şərait yaratmasına əmin ola bilmərik.

Övladlığa uşaq götürmək istəyən vətəndaşlar uçota alınması üçün Rayon İcra Hakimiyyəti və ya Təhsil İdarəsində fəaliyyət göstərən Qəyyumluq və Himayəçilik komissiyasına yazdıqları notarial qaydada təsdiq edilmiş ərizə ilə müraciət edirlər, bu zaman şəxsiyyət vəsiqəsinin surətini, qısa tərcümeyi-halı, övladlığa götürməyə imkan verməyən xəstəliyinin olmaması barədə tibbi arayışı, ümumi səhhəti barədə tibbi arayışı, yaşayış sahəsi barədə məlumatı, ailə vəziyyəti barədə məlumatları, iş yeri, əmək haqqı və başqa gəlirləri haqqında məlumatları, övladlığa götürmək istədiyi uşağın xüsusi əlamətləri yerli icra hakimiyyəti orqanının müvafiq qurumuna təqdim etməlidirlər (2). Bu orqan ilkin qiymətləndirmə apardıqdan sonra sənədləri aidiyyatı müəssisələrə göndərir. Bütün bu yoxlamalardan sonra,övladlığa götürmə prosesinin hüquqi mərhələsi başlanır.

“Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanında övladlığa götürmə mexanizmi və bu prosesdə sosial işçinin rolu əks olunmuşdur. Sosial işçilər sözügedən prosesdə dövlətlə övladlığa götürmə arzusu olan ailələr arasında vasitəçilik edir.Belə ki, övladlığa götürmə prosesində uşağın hüquqlarına hörmət etməklə onların fiziki və psixi sağlamlığına,mənəvi inkişafına zərər vermədən həyatlarının davam etdirilməsində sosial işçinin rolu əvəzsizdir.Övladlığa götürmə prosesində sosial işçi namizəd ailəni və övladlığa götürülən uşağı,onların aralarındakı münasibəti, hər iki tərəfin psixoloji durumunu nəzarətdə saxlamaqla,bu işə geniş aspektdə və uzun bir perspektivdə yanaşır. Çünki, bu hər şeydən əvvəl, bir insanın gələcək taleyinin, bir şəxsin formalaşacağı mühitin müəyyən olunmasında sosial işçinin bilavasitə rol oynaması ilə əlaqədardır.

Qaydada valideyn-namizədlə müsahibə keçirilməsi,onun maddi-məişət şəraitinin müayinəsi,təlimlərə cəlb edilməsi kimi meyarlar da göstərilmişdir.Bu zaman valideynlərlə iş üzrə sosial işçi valideyn-namizədlə yaşayış yerində müsahibə keçirir. Sosial işçi müsahibədən əvvəl müxtəlif mənbələrdən və mütəxəssislərdən uşaq və ailə haqqında məlumat toplamaqla, onlar haqqında geniş təəssürata malik ola bilər. Müsahibədə sosial işçi valideyn-namizədin həyat şəraiti, maraqları, ailə tərkibi barədə məlumatları, habelə ailə üzvlərinin övladlığagötürməyə münasibətini öyrənir,maddi-məişət şəraiti nəzərdən keçirir və qiymətləndirmə aparır. O topladığı məlumatlar əsasında vəziyyəti analiz edərək qiymətləndirmə aparmalıdır. Bu zaman sosial işçi tərtib etdiyi rəyin və aktın obyektivliyinə və qərəzsizliyinə görə şəxsən məsuliyyət daşıyır. Namizəd valideynlərdən hər hansı birinin qohumu olan və ya qohumu olmuş, habelə bilavasitə və ya dolayı şəkildə uşağın müsahibə aparılan valideyn-namizəd

tərəfindən övladlığa götürülməsində marağı olan və ya obyektivliyinə və qərəzsizliyinə şübhə yaradan kifayət qədər əsas olan sosial işçinin övladlığagötürmə prosesində iştirakına yol verilmir.

Müsahibədən uğurla keçən valideyn-namizəd 10 iş günü müddətində nazirliyin təşkil etdiyi, müddəti 30 (otuz) gündən çox olmayan təlimlərə cəlb edilir. Təlimin nəticələri müsbət olduqda, valideyn-namizəd və valideyn himayəsindən məhrum olmuş uşağın istək və mənafeyi əsasında Ailə Məcəlləsinin 121.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, altsistem övladlığa götürülən uşağa uyğun valideyn və valideyn-namizədə uyğun uşaq seçir və Nazirlik 5 iş günü müddətində uşağın yerləşdiyi müəssisədə sosial işçinin iştirakı ilə onların görüşünü təşkil edir. Bu görüşə dair sosial işçinin hesabatı əsasında nazirlik uşağın valideyn-namizədin ailəsində 3 ay sınaq müddətində müvəqqəti yerləşdirilib-yerləşdirilməməsi barədə qərar qəbul edir. Əgər nəticə müsbət olarsa, nazirlik sınaq müddəti başa çatanda övladlığagötürmə ilə bağlı bütün mərhələlərin nəticəsinə uyğun olaraq övladlığagötürmənin əsaslandırılması və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında 7 iş günü müddətində rəy hazırlayır. Rəyin verilməsi zamanı övladlığagötürmə mərhələləri ilə bağlı sosial işçilərin hazırladıqları hesabatlar (rəylər), valideyn-namizədin təlim nəticələri, eləcə də övladlığa götürülən uşaqların maraq və mənafeləri nəzərə alınır. Həmin rəy övladlığagötürmə ilə bağlı məhkəməyə müraciət edən şəxsin ərizəsinə əlavə edilir.

Lakin sosial işçinin işi uşaq övladlığa verildikdən sonra da davam edir. Belə ki,övladlığa götürmə ilə bağlı məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra uşaq 18 yaşına çatanadək övladlığagötürmənin ilk ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə övladlığa götürülən uşağın ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji inkişaf səviyyəsinin öyrənilməsi məqsədilə Nazirlik monitorinqlər aparır (1).

Monitorinq zamanı ailənin yaşayış şəraiti, maddi vəziyyəti;

övladlığa götürülən uşağın və onu övladlığa götürmüş şəxsin (şəxslərin) sağlamlıq vəziyyəti; ailədə uşağa qulluq və qayğı vəziyyəti nəzərdən keçirilir. Sosial işçi monitorinqlə bağlı hazırladığı hesabatı altsistemə daxil edir. Övladlığagötürmədən sonra aparılan monitorinqlə bağlı altsistemdə – övladlığa götürülən uşaqların uçotu bölməsində aparılan monitorinqlərin nəticələri barədə qeydlər aparılır (1).

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə övladlığa verilməsi zamanı həmin şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşadıqları halda övladlığagötürmədən sonra aparılan monitorinqin nəticələrinə dair rüblük və illik hesabatlar Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyi, səfirlik olmadıqda isə "Ölkələrarası övladlığagötürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" 29 may 1993-cü il tarixli Haaqa Konvensiyasının 9-cu maddəsinin (a) bəndinə uyğun olaraq, həmin ölkənin müvafiq dövlət qurumu vasitəsilə Nazirliyə təqdim edilir (1).

Uşağı övladlığa götürdükdən sonra aparılan monitorinqin nəticəsi Ailə Məcəlləsinin 132-ci maddəsinə uyğun olaraq, övladlığagötürmənin ləğvinə əsas verərsə, sosial işçi dərhal bu barədə Nazirliyə məlumat verir və Nazirlik Ailə Məcəlləsinin 133-cü maddəsinə uyğun olaraq tədbirlər görür.

Məhkəmə övladlığagötürmənin ləğvi barədə qərar qəbul etdikdən sonra uşaq məhkəmənin qətnaməsi ilə valideynlərinə qaytarılır, valideyn himayəsindən məhrum olmuş uşaq isə Nazirlik tərəfindən dərhal müəssisəyə yerləşdirilir və uşaqla bağlı reabilitasiya tədbirləri aparılır.

Bütün bu prosedurlar və şərtlərdən yola çıxaraq deyə bilərik ki, övladlığa götürmə heç də sadə bir proses deyil. İlk olaraq,valideynlər arasında həyata keçən razılıqla və ya müvafiq müəssisələrin razılığı ilə uşağın övladlığa götürülməsi prosesinə başlanılır. Burada hədəflənən uşaq hüquqlarının həyata keçirilməsi, onların düzgün tərbiyə olunması, yüksək mənəviyyatlı,

hərtərəfli şəxsiyyət kimi formalaşmasına şərait yaradılması, uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunması, mütərəqqi tələblər əsasında təhsil alması, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsidir.

## Ədəbiyyat


1. "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
2. İnternet resursları (bsc.az)


# SOSIAL YARDIM ANLAYIŞI, FORMALAŞMASI VƏ ƏSAS XÜSUSIYYƏTLƏRI


***Quliyeva Əzizə Musa qızı***
*BDU-nun II kurs magistrantı*
*azizaguliyeva99@gmail.com*


Sosial yardım yoxsulluğun azaldılması və ən həssas təbəqədən olan insanların qabiliyyətlərinin artırılması, sosial inklüzivliyin və bərabər imkanların artırılması vasitəsi kimi qəbul edilməlidir.

Sosial yardım proqramları çox vaxt insanlara üzləşdikləri çətinliklərin və böhranların öhdəsindən gəlməyə kömək etmək üçün hazırlanmışdır. Sosial yardım həssas qrupların iqtisadi iştirakı ilə yoxsulluğun azaldılmasına və artımın yaradılmasına qoyulan sərmayə kimi düşünülməlidir. Sosial yardımı yalnız insan rifahının qalıq problemləri ilə deyil, bərabər imkanların təmin edilməsi vasitəsi kimi də görmək vacibdir. Proqramın müddəti və göstərilən dəstək növü hər bir həssas qrupun ehtiyaclarını əks etdirməlidir [1, səh 3].

Azərbaycanda sosial yardım sistemi daha çox aztəminatlı ailələrə yönəlsə də, bu yardım forması cəmiyyətimizdə ehtiyacı olan hər bir kəsi əhatə edir. Sosial yardım dedikdə sadəcə nağd və ya natural formada edilən yardım deyildir. Əhalinin sosial müdafiəsinin təmin olunması zamanı istər maddi, istərsə də digər formalardan (psixoloji, hüquqi, iqtisadi və s.) istifadə olunur.

Sosial yardımla bağlı qanunvericiliyin formalaşması "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli qanunu ilə bağlıdır. Qanun özündə ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan digər münasibətlərin tənzimlənməsini ehtiva edir [2]. 2006-cı ildən ünvanlı dövlət sosial yardımın tətbiq olunması ilə ölkədə uşaqlar üçün müavinət ləğv edildi. Uşaqlar üçün olan müavinətlərin ləğv edilməsi cəmiyyətimizdə birmənalı qarşılanmadı. Belə ki, uşaqlar üçün müavinət maddi vəziyyətindən asılı olmayaraq hər bir uşaq üçün təyin edilirdi. Bu da maddi vəziyyəti yaxşı olan ailələr ilə aztəminatlı ailələrin yaşayışında bərabərsizlik yaradırdı. Lakin, mənim fikrimcə bütün uşaqlar dövlət qarşısında bərabərdilər və dövlət maddi vəziyyətindən asılı olmayaraq, hər bir uşağa bərabər şəkildə yanaşmalıdır. Hal-hazırda isə aztəminatlı ailələr ünvanlı dövlət sosial yardım alarkən ailədə 1 yaşınadək uşaq varsa, həmin uşağa görə yardımdan əlavə müavinət təyin edilir.

Ümumiyyətlə dövlətin əsas vəzifəsi həssas təbəqələrin sosial müdafiəsini təmin etmək olsa da, bu istiqamətdə edilən yardımlar uzunmüddətli təsir vasitəsi deyil, müvəqqəti dəstəkdir. Yəni şəxsin və ya ailənin sosial yardım ilə təmin olunması onu müvəqqəti olaraq yoxsulluqdan azad edəcəkdir. Hal-hazırda dövlətin əsas həll etməli olduğu məsələ ifrat yoxsulluq içində yaşayan ailələrə müəyyən müddət ərzində edilən yardımlarla yanaşı, onların bu vəziyyətdən çıxarılma yollarının tapılmasıdır. Aztəminatlı ailələrin bu baxımdan məşğulluqla bağlı təlimlərə,

peşə təhsili almasına bu və ya digər sosial reabilitasiya proqramlarına cəlb olunması lazımdır [3, səh 304].

Müvafiq qurumlar əhalinin rifah səviyyəsinin artırılması məqsədilə bir sıra proqramlar hazırlayır və həyata keçirir. Bu proqram və layihələr daha çox əhalinin məşğulluq səviyyəsinin artırılmasına yönəlir. Buna misal olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə icra etdiyi "Gənclərin Dayanıqlı Məşğulluğu Proqramı"nı göstərə bilərik. Proqramın əsas məqsədi həssas qrupdan olan gənclərin sosial müdafiəsinin gücləndirilməsi, bilik və bacarıqlarının artırılması, ideyalarının reallaşdırılması, o cümlədən məşğulluqlarının təmin edilməsi, gənclərin əmək bazarında rəqabətə davamlılığının artırılması, mövcud potensiallarının reallaşdırılmasıdır. Digər bir nümunə isə "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və "Odlar Yurdu" Gənclər İctimai Birliyi tərəfindən birgə həyata keçirilir. Layihənin əsas məqsədi kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı, işsiz şəxslərin məşğulluğunun təmin edilməsidir [4].

Sosial müdafiə sistemində yaranan sui-istifadə hallarının qarşısının alınması məqsədilə 2018-ci ildə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) yaradılmışdır. DOST Agentliyinin və mərkəzlərinin yaranması ilə sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə bərabər formada yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin edən bir sistem formalaşdı. Nəticə olaraq ünvanlı yardımlardan və digər sosial xidmətlərdən sui-istifadə halları azaldıldı. Ümumiyyətlə, sosial müdafiə sisteminin təkmilləşdirilməsi və bu sahədə tam şəffaflığın yaradılması üçün bir sıra tədbirlər görmək lazımdır. Bu-

nunla bağlı olaraq maarifləndirici tədbirlər görülməli, kütləvi informasiya vasitələri ilə əhali məlumatlandırılmalıdır. Çünki dövlətin təklif etdiyi elə sosial xidmətlər var ki, vətəndaş onlardan məlumatlı olmur. Fikrimizcə bu sahədə qanunvericilikdə olan boşluqlar aradan qaldırılmalı, əvvəlki dövrdə yol verilən çatışmazlıqlar düzəldilməli və əhalinin sosial təminata əlçatanlığı maksimum şəkildə artırılmalıdır.

### Ədəbiyyat


1. Social Assistance – Theoretical Background, Fiona Howell 2001
2. Ünvanlı dövlət sosial yardım haqqında Azərbaycan Respublikasının Qanunu
3. Rəcəbli H. "Azərbaycan Respublikasının sosial müdafiə sistemi". Ali məktəblər üçün dərs vəsaiti. Bakı,"MBM", 2012.
4. https://dma.gov.az/layiheler/sosial-layiheler


## КАЧЕСТВО ЖИЗНИ НАСЕЛЕНИЯ КАК ИНДИКАТОР СОЦИАЛЬНОЙ ПОЛИТИКИ


***Дадашов Наги Джамаладдин оглы***
*магистр II курса БГУ*
*nagi-dadashov@mail.ru*


Качество жизни населения определяется множеством различных компонентов социальной жизни. А показатели, позволяющие измерить качество жизни, могут быть такими, которые наиболее полно отражают реальные условия жизни граждан, которые можно назвать интегральными показателями качества жизни. Для улучшения качества жизни населения, со стороны социальной политики.

Социальная политика предприятия включает в себя

программы и мероприятия, направленные на решение наиболее актуальных задач социального развития граждан, улучшение условий проживания, обеспечения социальной защиты населения. При разработке и реализации социальной политики возникает вопрос социальных приоритетов, то есть социальных задач, которые признаются обществом на данном этапе своего развития как наиболее актуальные, требующие приоритетного решения. Приоритетами социальной политики являются:

1. Здоровье: возможность здорового образа жизни на всех этапах жизненного цикла

2. Индивидуальное развитие через обучение, усвоение детьми базовых знаний и навыков, а также ценностей, необходимых для развития успешной деятельности как членов общества; возможность продолжения самообразования и умение использовать эти возможности; использование и развитие людьми своих знаний, навыков и мобильности, необходимых для реализации их экономического потенциала; удовлетворенность человека процессом своего развития через обучение; сохранение и развитие культурного наследия отдельным лицом в целях содействия благополучию членов различных социальных групп.

3. Занятость и качество трудовой жизни: наличие прибыльной работы для тех, кто стремится ее получить; характер работы; личное удовлетворение своей работой.

4. Времяпровождение и отдых, возможность выбрать себе времяпрепровождение.

5. Возможность покупать товары и пользоваться услугами: персональная возможность приобретать товары и пользоваться услугами; количество людей, испытывающих материальные лишения; степень справедливости в распределении товаров и услуг,

производимых в частном и государственном секторах; защита людей и их семей в случае экономических трудностей.

6. Физическая среда: условия проживания; ограничение воздействия на население вредных и неприятных загрязнений; пользу для общества от использования и управления экологической средой.

7. Личная безопасность и правоохранительные органы: насилие, домогательства и домогательства в отношении человека; справедливость и гуманность юридических лиц; степень доверия к законным властям.

8. Социальные возможности и социальная активность: степень социального неравенства; степень возможного участия в общественной жизни, в определенных государственных учреждениях, в процессе принятия решений.

Формирование социального государства возможно при условии выдвижения человека, его потребностей и интересов в центр социальной политики, что позволяет обеспечить высокое качество жизни граждан и последовательно реализовывать принцип социальной справедливости во все сферы общественных отношений. Направление и темпы дальнейших преобразований в стране и, в конечном итоге, политическая, а следовательно, и экономическая стабильность в обществе во многом зависят от решения проблем уровня и качества жизни.

## Литература

1.С.А., Маликов Н.С. Качество жизни населения: теория и практика:

2.Беляева Л.А. Уровень и качество жизни. Проблемы измерения и интерпретации

3.Биктимирова 3.3. Качество жизни: проблемы измерения и

оценки
4.Бобков В.К., Мстиславский П.Б. Качество жизни: сущность и показатели // Человек и труд. – 1996.
5.Гильманов А.З., Нагимова А.М. Качество жизни: реальность и ожидания

## SOSİAL İŞ SFERASINDA SOSİAL ƏDALƏTİN YERİ VƏ ROLU

***İsgəndərova Aysel İbrahim qızı,***
*BDU-nun Sosial iş kafedrasının müəllimi*
*ysl.isgenderli@gmail.com*

*"Ədalət güclü olanın tərəfindədir. Platon"*

Sosial ədalət, ədalətin bir növüdür. Sosial ədalət hər bir fərdin eyni haqlara, müdafiəyə, vəzifələrə və sosial imkanlara sahib olduğu ideal şətrləri ehtiva edir. Sosial ədalətə sosial siniflər arasındakı iqtisadi bərabərsizliyin aradan qaldırılması və iqtisadi olaraq zəif olan sinfin digər sosial siniflərə qarşı qorunması kimi də tərif verə bilərik. Sosial ədalətin aşağıdakı ünsürləri vardır: insan haqlarına hörmət, normal yaşayış standartları, insani yaşayış şərtləri, məskunlaşma imkanları, iqtisadi təminat.

Sosial ədalət sosial işin (NASW 1996) Etik Standartlarında etik prinsip kimi qeyd olunub və sosial ədalətin bərqarar olmasında sosial iş mütəxəssislərinin əsas vəzifələrindən biri kimi qeyd olunub. Bu prinsip qısa olaraq aşağıdakı formada ifadə olunmuşdur:

"Sosial iş mütəxəssisləri incidilən və təzyiq altında olan fərdlər və qruplarla birlikdə və onların adından ictimai dəyişikliyi həyata keçirməyə cəhd edirlər. Sosial iş mütəxəssislərinin ictimai dəyişiklik cəhdləri ilkin olaraq yoxsulluq, işsizlik, diskriminasiya və digər sosial ədalətsizlik ünsürlərinə doğru hədəflənmişdir. Burada isə əsas məqsəd insanlar arasında mədəni və etnik fərqliliyə dair məlumat və həssaslığın bərqərar edilməsidir. Sosial iş mütəxxisləri insanların ehtiyac duyduğu bilgi, xidmət və resursların əlçatan olmasında bərabərliyin təmin edil-

məsinə cəhd edirlər. Sosial iş mütəxxəsisləri istər lokal, istərsə də qlobal miqyasda toplumun rifahının və onların sosial mühitinin inkişaf etdirilməsində böyük rol oynayırlar. Və sosial ədalətin həyata keçirilməsi üçün sosial, iqtisadi, siyasi, mədəni dəyərləri inkişaf etdirərək insanların təməl ehtiyaclarının təmin edilməsində köməkçi, həyat şəraitlərinin yaxşılaşdırılmasında qoruyucu bir rol oynayırlar."

Sosial işin etik standartlarında sosial ədalət açıq şəkildə izah edilsə də sosial işçilər sosial ədalətə aşağıdakı kimi yanaşırlar: sosial ədalətin bərqərar edilməsi və müdafiəsi üçün sosial işin özü həm dövlətin içində həm də bəzi vaxtlarda onun qarşısında olmalıdır (Becker və MacPherson, Adams, Dominelli, Payne, Craig). Sosial iş mütəxəssisləri dövlətin içində professional bir qurum olaraq sosial rifahın təmin edilməsi üçün fəaliyyət göstərərkən, sosial ədalətin təmin edilməsinə ziyan verə biləcək sosial siyasətin hədəfələri qarşısında radikal, tənqidi bir mövqe tutmalıdırlar. Belə bir mövqe sosial iş nizamının dəyərləri içərisində yer alan demokratiyanın təbiətindən irəli gəlir.

Sosial iş mütəxxəsislərinin sosial ədalət haqqında fikirlərini əks etdirən müxtəlif tədqiqatlar mövcuddur. Bunlar arasında Weiss(2005) özünün beynəlxalq araşdırmasında 10 ölkədən 781 sosial işçi arasında sorğu aparmışdı. Araşdırma nəticəsində məlum olmuşdur ki, sorğuda iştirak edənlərin demək olar ki, hamısı sosial işin birinci hədəfi kimi sosial ədalətin təmin edilməli olduğunu düşünürlər. Bununla bərabər yoxsulluq kimi son dərəcə geniş yayılmış sosial problemin səbəbi kimi fərdi çatışmazlıqları deyil, fundamental və ictimai səbəblər ünvan göstərərək sosial ədalətin təmin olunmamasını qeyd etmişlər.

Ümumilikdə götürsək sosial iş mütəxəssisləri cəmiyyətdə sosial ədalətin bərqərar olmasında məsuliyyət daşıyırlar. Yəni:

1. Ayrı-seçkiliklə mübarizə − Sosial işçilər yaş, mədəniyyət, cins, cinsi seçim, mədəni vəziyyət, sosial-iqtisadi status, siyasi baxış, irq, dini inanc və başqa fiziki xüsusiyyətlərinə görə edilən ayrı-seçkiliyə qarşı mübarizə aparmaqda borcludurlar.

2. Müxtəlifliyin tanınması – Sosial işçilər fərd, ailə, qrup və

cəmiyyətlə bağlı fərqlilikləri nəzərə alaraq fəaliyyət göstərdikləri toplumdakı etnik və mədəni fərqlilikləri tanımalı və hörmət etməlidirlər.

3. Resursların bərabər paylanması – Sosial işçilər idarə etdikləri resursları ədalətli və ehtiyaclara mütənasib formada paylanmasına diqqət etməlidirlər.

4. Adil olamayan siyasət və qanunlarla mübarizə − Sosial işçilər resursların kifayət olmadığı və ya resusların paylanmasında siyasət və qanunların zərər verdiyi, ədalətsiz ya da təzyiqin olduğu vəziyyətdə mövzuya öz rəhbərlərinin, siyasətçilərin, cəmiyyətin diqqətini çəkməlidirlər.

5. Birlik və  həmrəylik zəminində fəaliyyət – Sosial işçilər sosial stiqmaya, damğalanmağa ya da tabeçiliyə gətirib çıxaran sosial şərtlərlə mübarizə aparmalı və hamını əhatə edən toplum üçün çalışmalıdırlar."

Sosial işin əsas məqsədi sosial ədaləti dəstəkləməkdir. Bu xüsusiyyətləri ilə də sosial iş bir insan haqları peşəsidir.

**Ədəbiyyat**


1. Adams Dominelli. Social Work: Themes, İsues and Critical Debates, Basingstoke, Macmillan: 2009, p.97
2. Clark J.W. Social Justice Beliefs, Practice Behaviors of Social Workers and The Social Work Mission, Walden University School of Health and Human Services: 2012, p.125
3. Code of Ethics. National Association of Social Workers, 2008.
4. Qəhrəmanov E.Ə., Əhmədov Y.P. Sosial işin əsasları. Azərbaycan Universiteti. Bakı, 2014, səh.277


## ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA ÜNSİYYƏT AMİLİ


***Əhmədova Aynurə***

*Bakı Slavyan Universitetinin müəllimi*

Müasir cəmiyyətdə insanlar arasındakı ünsiyyətin təbiətinə bir sıra mühüm amillər təsir göstərir. Onlar sırasında sosial ədalətsizlik, ikiüzlülük, korrupsiya, fəsadlarından əhalinin böyük hissəsi əziyyət çəkdiyi hərbi münaqişələrdən ibarət olan müasir dünya düzümü göstərilməlidir. Sosial-mədəni dialoqun səmərəliliyi, əhalinin müxtəlif qrupları arasında, hökumətlə əhalinin əsas hissəsi arasında ideoloji, psixoloji və mənəvi-mədəni qarşıdurmanın aradan qaldırılması mərhələ-mərhələ həyata keçirilməlidir. Müxtəlif sosial qruplar arasında səmərəli mədəni dialoq aparmaq, gənclərin təhsil səviyyəsini yüksəltmək, onları yaradıcı proseslərə yönəltmək, kommunikasiya sahəsini genişləndirmək, hamı üçün ortaq bir amalın, işin həyata keçirilməsi üçün yaradıcı proseslərə də daxil etmək lazımdır.

Müasir modernləşmə və cəmiyyətdə müvafiq dəyişikliklər şəraitində Azərbaycan xalqının etnik mədəniyyəti həm Qərbdə, həm də dünyanın qalan hissəsində baş verən müxtəlif yeniliklərdən təsirlənir. Bildiyimiz kimi, hər bir xalqın mənəvi mədəniyyəti müxtəlif universal və etnik, mənəvi və dünyəvi komponentlər də daxil olmaqla sistemli xarakter daşıyır. Bütövlükdə bu proseslər fərdin sosiallaşmasına, müvafiq dəyərlərin, ideoloji istiqamətlənmələrin formalaşmasına gətirib çıxarır və bütün bunlar sözün geniş mənasında kommunikasiya prosesində öz əksini tapır.

Müxtəlif dəyərlərə, həyat tərzinə yönəlmiş insanın sosiallaşma prosesi həm də dünyada və regionda baş verən sosial-iqtisadi, mədəni, mənəvi dəyişikliklər və islahatlarla bağlıdır. Azərbaycanın yerləşdiyi regiondakı problemlər özünəməxsus xarakter daşıyır, onlar dünyada ümumi, qlobal dəyişikliklərlə əlaqəli olaraq təzahür edir. Ümumbəşəri və etno-mədəni dəyərləri də əhatə edən insanların mənəvi mədəniyyətinin formalaşması onları bu dəyişən reallığa uyğunlaşdırır, aktiv fəaliyyətə təkan verir və s.

İnsanların dəyişikliklərə uyğunlaşması və uğurlu sosiallaşması üçün vacib şərtlər hər bir insanın mənəvi mədəniyyətində

insani və etno-mədəni komponentlərin birləşməsidir. Aydındır ki, müasir dünyada baş verən dəyişikliklər yalnız gündəlik həyatda olan iqtisadi, siyasi formalara deyil, eyni zamanda mənəvi mədəniyyətə də aiddir. Məlumdur ki, burada yaranan ziddiyyətlər kəskin münaqişələrə səbəb olan mədəniyyətlərin, dinlərin toqquşmasına gətirib çıxarır. Bu hadisələr hər bir insanın mənəvi durumunda, həyat tərzində əks olunur.

Şəxsiyyətin mənəvi mədəniyyəti müxtəlif ümumbəşəri və etnik, mənəvi və dünyəvi komponentlər də daxil olmaqla sistemli xarakter daşıyır. Bütövlükdə onlar fərdi, şəxsiyyətin sosiallaşmasına kömək edir, müvafiq dəyərləri, ideoloji oriyentasiyaları formalaşdırır. Müxtəlif dəyərlərə, həyat tərzinə yönəlmiş gənclərin sosiallaşma prosesi əsaslı şəkildə dünyada, regionda baş verən sosial-iqtisadi, mədəni dəyişikliklər, islahatlarla əlaqələndirilir. Hər bir bölgənin qlobal dəyişikliklərlə əlaqəli öz xüsusiyyətləri var. Həm universal, həm də etno-mədəni dəyərləri əhatə edən şəxsiyyətin mənəvi mədəniyyətinin formalaşması onu dəyişməkdə olan reallığa uyğunlaşdırır, həm də konstruktiv, eyni zamanda dağıdıcı olan aktiv fəaliyyətə təkan verir.

Şəxsiyyətin mənəvi mədəniyyətində universal və etno-mədəni komponentlərin uğurlu birləşməsi onların dəyişikliklərə uyğunlaşması və uğurlu sosiallaşması üçün ən vacib şərtdir. Müasir dünyada baş verən dəyişikliklər insanların, xüsusilə gənclərin mövcudluğunun iqtisadi, siyasi formaları ilə yanaşı həm də mənəvi mədəniyyətə toxunur. Bu dəyişikliklər kəskin münaqişələrə səbəb olan mədəniyyətlərin, dinlərin toqquşması ilə bitir. Bu hadisələr Azərbaycan gənclərinin mənəvi durumuna, həyat tərzinə və dünyagörüşünə təsir göstərir. Həmin hadisələr Azərbaycan gəncləri arasında xüsusi ifadələrə, spesifikliyə malikdir.

Gənclər arasında yüksək ünsiyyət mədəniyyətinin formalaşmasında sosial şəbəkələr böyük rol oynayır. Hal-hazırda uşaq və gənclərin sosial şəbəkələrdə baş verən mənfi proseslərin tə-

sirinə düşmək riskini azaltmaq üçün müəyyən qaydalar var. Əsas təhlükə dini ekstremizm və terrorizmdir. Gənclərin sosial şəbəkələrdə iştirakını normallaşdırmaq üçün, bu ünsiyyətin təbiətini doğru istiqamətə yönəltmək üçün valideynlər müxtəlif mövzularda uşaqla tez-tez söhbətlər aparmalı, uşaqların kimlərlə ünsiyyət etdiyini, buna vaxtlarını necə sərf etdiyini və hansı problemlər və mövzularla maraqlandıqlarını bilməlidirlər. Dünyadakı vəziyyəti, millətlərarası münasibətləri müzakirə etmək üçün həm siyasi, həm sosial, həm iqtisadi mövzularda valideynlər və müəllimlər uşaqlarla, gənclərlə ünsiyyət qurmalıdırlar. Hər bir gənc, müasir dünya proseslərinin öz bölgəsi, ölkəsi səviyyəsində xüsusiyyətlərini başa düşməli və öyrənməlidir.

Hər bir yeniyetmə, gəncin öz asudə vaxtını doldura biləcəyi maraqlı bir məşğuliyyət tapması vacibdir. Uşaqların maraq üzrə dərnəklərdə, ictimai təşkilatlarda, hərbi-vətənpərvərlik klublarında, idman klublarında iştirakı təmin edilməlidir. Bütün bunların əsasında fərdi özünüifadəetməni və özünüreallaşdırmanı həyata keçirmək mümkündür. Hər bir uşaq və ya gəncin aldığı məlumatlara diqqət yetirilməlidir. Baxdığı televiziya proqramları, oxuduğu kitablar, məşğul olduğu saytlar diqqətə alınmalıdır. Azərbaycan vətəndaşlarının informasiya sahəsində psixoloji və mənəvi təhlükəsizliyini təmin etmək üçün səmərəli işi kompleks şəklində aparmaq lazımdır.

## MÜNDƏRİCAT

## POLİTOLOGİYA VƏ SOSİOLOGİYA BÖLMƏSİ

***Abdullayeva Fatimə.*** Enerji amili Azərbaycan diplomatiyasının informasiya siyasətində ........................................ 3

***İsgəndərov Yadigar.*** Azərbaycan sosial dövlət modelinin səciyyəvi cəhətləri ............................................................ 9

***Qasımova Könül.*** Müasir beynəlxalq iqtisadi münasibətlərin inkişaf xüsusiyyətləri ............................................ 13

***Ömərzadə Nəzrin.*** Dünyanın sosial-siyasi proseslərində gənclərin iştirakçılığı və onun əhəmiyyəti .......................... 18

***Muradlı Əfsanə.*** Konformist davranışın mahiyyəti ........... 21

***Cəlilova Könül.*** Azərbaycan multikuralizmi yeni dövrdə ... 25

***Əzizov Bəşir.*** Beynəlxalq problem olaraq kibercinayət ...... 28

***Musayeva Pəri.*** Azərbaycan mədəni siyasəti XXI əsrdə..... 31

***Qunizadə Zabirə.*** Dini ekstremizm təhlükəsi ..................... 35

***Bayramova Nurşən.*** Azərbaycanda demoqrafik proseslərin əhali və dövlət orqanlari tərəfindən qiymətləndirilməsi. 38

***Nəbili Muxtar.*** Mənzil probleminin həlli yaradıcı cəmiyyətin əsas inkişaf istiqaməti kimi ....................................... 40

***Rza Xaqan.*** II Qarabağ müharibəsinin işıqlandırılmasında Azərbaycan mediasının rolu ............................................... 43

## FƏLSƏFƏ VƏ TARİX BÖLMƏSİ

***Nəzərov Rövşən.*** Dini ibadətlərdə mifoloji elementlər və inanclar ................................................................................ 48

***Əliyev Rəvan.*** Fəlsəfədə insan və təbiət münasibətlərinin müasir səviyyəsi ................................................................. 53

***Qayıbxanova Zəminə.*** İKT və tarixi faktların tədqiqi və tətbiqi ........ 56

***Bayramov Rafət.*** Psixoanaliz konsepsiyasının yaranması .. 62

***İbrahimova Fidan.*** Özgələşmə probleminə dair tarixi-fəlsəfi baxışlar və ənənələr ........ 65

***Qasımova Lamiyə.*** Aristotelin mənəvi-əxlaqi görüşləri və Nikomax etikası ........ 69

***Manafova Zeynəb.*** Millətçilik ideoloji fenomen kimi ....... 73

***Yusifzadə Zöhrə.*** Azərbaycanda varisliyin qorunması fəlsəfəsi ........ 76

***Mikayılova Səbinə.*** Neo-Freydizm anlayışı, mənşəyi və inkişaf tarixi ........ 78

***Ağayeva Arzu.*** Rene Dekart fəlsəfəsində substansiya problemi: *Res Cogitans* və *Res Extensa*........ 81

***Микаилова Нармина.*** К вопросу о социальной сущности современной культуры ........ 84

***Həsənzadə Gülay.*** Demoqrafik yaşlanma problemi ........... 91

***Hüseynli Yetər.*** İnformasiya cəmiyyətinin təkamül mərhələləri ........ 97

***İsazadə Leyla.*** Freyd və Psixoanalizin əsas fikirləri ........... 99

***Quliyeva Simarə.*** Mənəvi özgələşmənin sosial-fəlsəfi mahiyyəti ........ 101

***Абасова Умида.*** Мир Низами в музыке ........ 104

***Абдуллаева Ройя.*** Вопросы гуманизма и формирования личности в истории западной философии ........ 106

***Məmmədova Məlahət.*** Humanizimin tarixi mənalandırılması ........ 112

***Cabarov Rəşad.*** Rusların və almanların Cənubi Qafqaza köçürülməsi ........ 114

## PSİXOLOGİYA BÖLMƏSİ


***Kərimli Nəzrin.*** Təlimdən geri qalmada ailənin rolu .......... 119

***Ələkbərli Ayişə.*** Sənət seçimi və həyata keçirilməsinin sosial-psixoloji amilləri .......... 122

***Əhmədova Aişə*** İnternet asılılığının yeniyetmənin şəxsiyyətinin inkişafına təsiri .......... 125

***Şahinzadə Günel.*** Ailə, sosial münasibətlər və icma əsaslı yanaşmanın uşaqların rifahında təsiri .......... 129

***Nuriyyeva Məlahət.*** İlkin uşaq autizmində psixoloji işin təşkili .......... 132

***Əliyeva Vüsalə.*** Azərbaycanda autizm problemi .......... 136

***Əlizadə Günəş.*** Gender stereotiplərinin formalaşmasına ailənin təsiri .......... 139

***Əsədbəyli Nigar.*** Tam və natamam ailədə yeniyetmələrin tərbiyəsinin xüsusiyyətləri .......... 143

***İsgəndərova Qumral.*** Özünüqiymətləndirmənin psixoloji mahiyyəti .......... 147

***Джабраилова Раксана.*** Школьная дезадаптация детей младшего школьного возраста .......... 150

***Nağıyeva Lalə.*** Özünü qiymətləndirmə səviyyələri və psixoloji xüsusiyyətləri .......... 153

***Ələkbərzadə Pərvin.*** Yeniyetmələrdə yaşlılıq hissinin formalaşması .......... 157

***Рагимова Алия.*** Роль эмоциональной зрелости родителей в процессе развития аутичных детей .......... 160

***Həbilova Xatimət.*** Yeniyetmə-valideyn münasibətlərinə yaş böhraninin təsiri .......... 163

***Rüstəmzadə Rüstəm.*** Erkən gənclərdə özünüdərketmənin təsnifatı .......... 165

***Qəribova Leyla.*** Bloqların bəzi funksiyalarının psixoloji təzahür formaları ........ 168
***Cəfər-zadə Mirxalid.*** Erkən gənclərdə peşəseçiminə təsir edən amillər ........ 171
***Dadaşova Surahı.*** Zorakılığa məruz qalmış qadınların sosial psixoloji xüsusiyyətləri ........ 176
***Əliyev İlkin.*** Androloji problemlərin ümümi səciyyəsi ........ 178
***İbrahimova Diyanə.*** Modanın inkişaf mərhələlərinin təhlilinə dair ........ 181

## PEDAQOGİKA BÖLMƏSİ

***Qasımova Aynur.*** Müəllim hazırlayan ali məktəblərdə təhsilin məzmununun dünya təhsil sisteminə inteqrasiyası . 184
***Hüseynova Nigar.*** Autizmli uşaqların təlimində istifadə edilən metodlar ........ 188
***Rəşidli Aygül.*** Azərbaycan ədəbi – pedaqoji fikrində qadına münasibət problemi ........ 192
***Hacıyeva Pınar.*** Ailədə vətənpərəvrlik tərbiyəsi ........ 196
***Məmmədova Aysun.*** Təlimdə yeni texnologiyalardan istifadənin əhəmiyyəti ........ 200
***Uğurliyeva Aytac.*** Yeniyetmələrin əxlaq tərbiyəsində tərbiyə texnologiyalarından istifadə ........ 204

## FİLOLOGİYA BÖLMƏSİ

***İmanquliyeva Mehri.*** Müasir Azərbaycan dilinin onomastik sistemində hidronimlərin yeri........ 209
***Мехтиева Сабина.*** Занятость женщины в исламской экономике ........ 214
***Hüseynova Esmira.*** Onlayn mediada jurnalist etikası və ona qoyulan tələblər ........ 218

## SOSİAL İŞ VƏ İQTİSADİYYAT BÖLMƏSİ

***Əzizova Həmidə.*** Uğursuz ailə problemlərinin həllində məktəbin və sosial mühitin rolu ........................................ 223
***Əliyev Rəcəbəli.*** Yaşlı insanların gənc nəslin tərbiyəsində rolu ........................................ 226
***Абдинова Фидан.*** Организация социальной работы с дезадаптированныыми подростками ........................................ 231
***Hacıyev Elxan.*** Azərbaycan Respublikasında ölkə başçısının qəbul etdiyi sosial yönümlü qanunlar va bu qanunların göstərdiyi qatqılar ........................................ 234
***Kazımova Bənövşə.*** İşsizliyin fəsadları ........................................ 236
***Məmmədli Elvin.*** Sosial siyasət sisteminin tarixi inkişafı... 240
***Məmmədova Lamiyə.*** Ailə institutunda Z nəslinə münasibət ........................................ 247
***Əsgərzadə Mədinə.*** Övladlığa verilmə mexanizmi və sosial işçinin bu prosesdə rolu ........................................ 250
***Quliyeva Əzizə.*** Sosial yardım anlayışı, formalaşması və əsas xüsusiyyətləri ........................................ 255
***Дадашов Наги.*** Качество жизни населения как индикатор социальной политики ........................................ 258
***İsgəndərova Aysel.*** Sosial iş sferasında sosial ədalətin yeri və rolu ........................................ 261
***Əhmədova Aynurə.*** Şəxsiyyətin sosiallaşmasında ünsiyyət amili ........................................ 263

Texniki redaktor: **V.K.MUSAYEVA**

Gənc tədqiqatçıların Respublika
elmi-praktik konfransının materialları
(20 oktyabr 2021-ci il)

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov

Çapa imzalanmışdır:
Kağız formatı: 60x84 1/16 Həcmi: 17 ç.v.
Sayı: 100

"Füyuzat: nəşriyyatının mətbəəsində çap olunmuşdur